# Pola Hokins-
# QATARDAKI QIZ

Pola Hokins

# QATARDAKI QIZ

KitUPchi

Telegram@KitUPchi

# THE GİRL ON THE TRAİN

Pola Hokinsin “Qatarda qız” kitabı sirlərlə dolu bir detektivdir, lakin bununla belə, onu psixoloji triller də adlandırmaq olar. Burada personajlar çoxdur və hər birinin də öz sirləri və günahları var.

Əsərin baş qəhrəmanı Reyçelin xeyli ağır bir taleyi var. Onun həyatında hər şey uçuruma yuvarlanmış kimidir. O ərindən ayrılmış, işini itirmiş və içkiyə aludə olmuşdur. Hər gün səhərlər özünü içkiylə ovundurur. Onun bir əyləncəsi var – qatarla Londona gedib, orada, sadəcə, veyillənmək. Qonşuları isə düşünür ki, onun işləri qaydasındadır və o hər gün işə gedir.

Qatarla gedərkən o, yeni evliliklə xoşbəxt olan keçmiş ərinin evini müşahidə edir. Amma qonşu ev də onun diqqətini çəkir, Reyçel hesab edir ki, orada ideal bir ailə yaşayır. O, hətta öz qəhrəmanlarına adlar da uydurub – Ceyson və Cess. Onların həyatı bizim baş qəhrəmanın istədiyi bir arzu, xəyaldır.

Lakin günlərin birində hər şey dəyişildi. Reyçel qatardan gördü ki, Cess tanış olmayan bir kişi ilə evin bağçasında öpüşür və ertəsi gün qız yoxa çıxır, bu barədə bütün qəzetlər yazırlar. Reyçel də həmin ərazidə baş vermiş bir hadisənin şahid olur.

# Keytə ithaf olunur

O, gümüşü qayın ağacının kölgəsində, köhnə dəmiryol xəttinin yanında dəfn edilib. Qəbrə, sadəcə, daşlardan ibarət kiçik bir piramida ilə nişan qoyulub. Onun son mənzilinin diqqət çəkməsini istəmirdim, lakin onu tamamən nişanəsiz də qoya bilməzdim. O, indi burada sakitlikdə yatır, quşların cəh-cəhindən, qatarların taqqıltısından başqa onun rahatlığını pozan yoxdur.

Uşaqların say oyununda olduğu kimi: birinci – qəmgin, ikinci – gülməli, üçüncü – qız səsi... Üçüncü – qız səsi... Sonrasını saya bilmirəm. Başım uğuldayır, ağzım qanla dolub. Sağsağanların istehzalı və xırıltılı qışqırıqlarını eşidirəm. Sanki mənə gülürlər və bədbəxtlikdən xəbər vermək üçün dəstə ilə uçub gəliblər. İşığı qara ləkə kimi örtdüklərini görürəm. Yox, bu, sağsağanlar deyil, adamdır. O, yaxına gəlib mənə deyir:

– Görürsən, neylədin? Sən özün mənə seçim imkanı qoymadın!

# Reyçel

## CÜMƏ, 5 İYUL, 2013-CÜ İL

### Səhər

Dəmir yolunun yanına bir dəst köhnə cır-cındır tullanıb. Kirli ağ əsgilərin arasında açıq-mavi ləkə gözə dəyir – yəqin köynəkdir. Görünür, bu zir-zibil çay kənarında tədricən yığılıb. Bəlkə də bunları yolun bu hissəsinə qulluq edən və bu ərazidə tez-tez görünən dəmiryolçular buraya atıblar. Bəlkə də başqası atıb. Anam həmişə deyərdi ki, mənim xəyal dünyam çox zəngindir. Tom da bu fikirdəydi. Yerdə kiminsə cındırını – çirkli idman köynəyi, ya da ayaqqabı tayı – gördükdə özümü saxlaya bilmirəm: nə zamansa bu ayaqqabını və ya idman köynəyini geymiş adamı təsəvvürümdə canlandırmağa çalışıram.

Qatar cırıldayaraq dartınıb yerindən tərpənir, cır-cındır yığını geridə qalır və biz cəld yeriyən idmançıdan azca sürətlə Londona tərəf irəliləməyə başlayırıq. Arxada kimsə qəmgin-qəmgin köks ötürür: Eşberidən Yustona 8.04-də yola düşən sürətsiz qatar ən dözümlü sərnişini belə hövsələdən çıxara bilər. Əslində bu yol əlli dörd dəqiqə sürməlidir, amma çox nadir hallarda belə olur: bu sahədə yollar lap köhnədir, semaforlar daim sıradan çıxır və fasiləsiz təmir işləri gedir.

Qatar, köhnə anbar və su qüllələrinin, körpü və daxmaların yanından, arxası yola tərəf cərgə ilə düzülmüş mütəvazi viktoriya üslubundakı evlərin yanından sürünərək keçir.

Başımı vaqonun pəncərəsinə söykəyərək qatarın yanından ötüb keçən evlərə baxıram, sanki hərəkət edən operator arabasından çəkilmiş kinokadrlar görünüb yox olur. Mən bu evləri başqaları kimi görmürəm; hətta onların sahibləri belə, yəqin ki, evlərinin buradan necə göründüyünü bilmirlər. Gündə iki dəfə, bir anlığa da olsa, başqalarının həyatına gözucu baxmaq imkanım olur. Öz evlərində arxayın yaşayan bu yad adamların görkəmi mənə sakitləşdirici təsir göstərir.

Kiminsə telefonu çalır – sahibi zəng üçün mənə yersiz görünən şən və hərəkətli bir melodiya seçib. Zəngə gec cavab verirlər və telefonun yüksək səslə cırıldayan melodiyası bütün vaqona yayılır. Sərnişinlərin necə yerlərini

rahatladıqlarını, qəzetlərini xışıldatdıqlarını, noutbukların düymələrini tıqqıldatdıqlarını eşidirəm. Döngədə qatar yana əyilir və yırğalanaraq semaforun qırmızı işığında sürətini azaldır. Mən ora baxmamağa çalışıram və stansiyada pulsuz verilən qəzeti oxumaq istəsəm də, sətirlər gözümün önündən süzülüb qaçır, qəzetdə özüm üçün maraqlı bir şey tapmıram. Yol kənarına atılmış paltar yığını hələ də gözlərimin qarşısındadır.

Axşam

Cin-tonik bankasını bir udum almaq üçün dodaqlarıma yaxınlaşdırdıqda içkinin fışıltısını eşidirəm. Kəskin və soyuq dad 2005-ci ildə Tomla birlikdə bask sahillərində bir balıqçı kəndində keçirdiyimiz ilk məzuniyyətimizə dair xatirələri canlandırır. Səhərlər biz buxtada, sahildən yarım mil aralıda yerləşən kiçik adacığa yollanar və gözdən iraq çimərliklərdə sevişərdik, nahardan sonra isə barda oturub sərt və acı cin-tonik içər, dalğaların çəkilməsi ilə açığa çıxan qumluqda çimərlik futbolçularının mənasız yerə top qovmalarına tamaşa edərdik.

Bir udum da içirəm, sonra daha bir udum da, banka yəqin yarıya qədər boşalıb, amma qoy olsun, polietilen torbada daha üç banka varımdır. Bu gün cümədir, qatarda içdiyimə görə özümü günahkar saymamalıyam. Şükür ki, bu gün cümədir. Elə indidən şənlənmək olar.

Bizə əla bir həftə sonu vəd edirlər. Bol günəş və buludsuz səma. Əvvəlki vaxtlar olsaydı, yəqin ki, Korli-Vuda yola düşərdik, özümüzlə də piknik üçün lazım olan hər şeyi və qəzetləri götürər, bütün günümüzü adyal üstündə uzanaraq və şərab sümürərək keçirərdik.

Ya da arxa həyətdə dostlarımızla manqalda ət qızardar, yaxud "Royz" pabına[1] yollanıb onun bağçasında açıq havada pivə içərdik. Orada keçirdiyimiz gün ərzində günəş və alkoholdan üzümüz qızarar və biri-birimizə sarılaraq evə qayıdardıq, sonra da elə divandaca yuxuya gedərdik.

Bol günəş, buludsuz səma, amma nə oynamağa bir kimsə, nə də görməyə bir iş var. Mənim həyatım, yəni indi yaşadığım həyat yayda xüsusilə ağırdır, çünki günlər uzun, xilasedici gecə örtüyü isə çox qısadır; ətrafda hamı təmiz havaya çıxmağa çalışır və paxıllıq doğuracaq qədər xoşbəxtdirlər. Bu çox yorucudur və əgər sən bu xoşbəxtlərin sırasına daxil deyilsənsə, əsəblərə pis

təsir göstərir.

Qarşıda həftəsonu – nə iləsə doldurulmalı olan boş qırx səkkiz saat. Bankanı yenə dodaqlarıma yaxınlaşdırıram, amma onun içində bir damcı da qalmayıb.

Bazar ertəsİ, 8 İyul, 2013-cü İl

Səhər

Saat 8.04-də yola düşən qatarda yenidən özümü görmək çox xoşdur. Məsələ onda deyil ki, mən yeni həftənin başlamasını səbirsizliklə gözləyirəm – əslinə qalsa, Londonda olmağı o qədər də sevmirəm. Sadəcə, mən bu yumşaq velür kresloya söykənmək, pəncərədən düşən günəş şüalarının istisini, vaqonun müntəzəm yırğalanmasını və təkərlərin sakitləşdirici tıqqıltısını hiss etmək istəyirəm. Burada olmağı və gözümün önündən axıb gedən evlərə baxmağı hər hansı başqa işdən daha çox xoşlayıram.

Bu yolun təxminən ortasında nasaz bir semafor var. Mənə elə gəlir ki, o xarabdır, axı onda demək olar ki, həmişə qırmızı işıq yanır və biz orada bir neçə saniyə, bəzən də bir neçə dəqiqə dayanırıq. Oturacaqlı "ekonom-klass" vaqon – mən həmişə bu vaqonda gedirəm – semaforda elə bir yerdə dayanır ki, oradan mənim sevimli evimə – 15 nömrəli evə əla bir mənzərə açılır.

On beş nömrəli ev, dəmir yolu boyunca düzülmüş digər evlərdən əslində heç nə ilə fərqlənmir: viktorian üslubunda ikimərtəbəli tikililər və onlara bitişik iyirmi fut uzunluğunda baxımlı bağçalar. Dəmir yolu ilə hasarlı bağça arasında bir neçə metr enində heç kəsə mənsub olmayan torpaq zolağı var. Bu evi mən beş barmağım kimi tanıyıram. Onun hər bir kərpicini, yuxarıdakı yataq otağının pərdələrinin rəngini (onlar tünd göy naxışlı və bej rəngindədir) bilirəm; bilirəm ki, vanna otağında pəncərə çərçivəsinin boyası qopmuşdur və damda sağ tərəfdən dörd kirəmit çatışmır.

Bilirəm ki, bəzən isti yay axşamlarında, bu evin sakinləri, Ceyson və Cess mətbəx tikilisinin damında sonradan açılmış eyvanda otururlar; buraya siyirtmə pəncərədən çıxmaq olur. Onlar – ideal, nümunəvi cütlükdürlər. Ceyson qara saçlı, boy-buxunlu, güclü, mehriban və qayğıkeş biridir. Onun sirayətedici gülüşü var. Cess – ağ dərili, qısa kəsilmiş sarışın saçlı miniatür bir gözəldir. Üz cizgiləri onun ümumi cazibəsini daha da artırır: bir neçə

çilləri olan dik almacıqları, çənəsinin incə oval forması.

Semaforun qırmızı işığının dəyişməsini gözlədiyimiz zaman baxışlarımla onları axtarıram. Səhərlər, xüsusilə də yay mövsümündə, Cess çox vaxt açıq eyvanda çay içir. Bəzən onu orada görəndə, elə bilirəm, o da məni görür, sanki düz mənə doğru baxır və mənim ürəyimdən ona əl yelləmək keçir. Lakin mən bunu etmək üçün çox utancağam. Ceysonu isə nadir hallarda görürəm – o çox vaxt işdə olur. Lakin onları görmədikdə belə, indi nə ilə məşğul olduqlarını düşünməyə başlayıram. Bəlkə hər ikisinin indi istirahət günüdür və Ceyson səhər yeməyi hazırladığı zaman Cess yataqda nazlanır, bəlkə də birlikdə səhər qaçışına çıxıblar, çünki bu onlar üçün adi bir şeydir. (Biz də Tomla bazar günləri birlikdə qaçardıq: mən öz adi tempimdən bir az sürətlə, o isə – iki dəfə daha yavaş, yanaşı qaça bilməyimiz üçün). Bəlkə də Cess yuxarıda, qonaq otağında rəsm çəkməklə məşğuldur, ya da hər ikisi duş qəbul edir: Cess əllərini divara söykəyib, Ceyson isə onun budlarından yapışıb.

Axşam

Arxam yol yoldalarıma tərəf olsun deyə bir az pəncərəyə sarı dönürəm və vağzalda mağazadan aldığım kəmşirin ağ şərabla dolu kiçik “Şenen blan” şüşələrindən birini açıram. Şərab soyuq deyil, amma eybi yox, şərabdan bir az plastik stəkana süzürəm, şüşənin qapağını bərkidir və şərabı çantamda gizlədirəm. Bazar ertəsi günü qatarda içmək o qədər də yaxşı deyil, həm də təkbaşına, mənə yoldaşlıq edəcək biri isə yanımda yox.

Qatarda tanış insanlar az deyil – hər həftə bu adamların Londona gedib-qayıtdıqlarını görürəm. Onları tanıyıram, yəqin, onlar da məni tanıyırlar. Bilmirəm, onlar məni həqiqətdə olduğum kimi görürlər, ya yox.

Axşam doğrudan da gözəl idi – isti, amma bürkülü deyildi, günəş tənbəl-tənbəl enməyə başlamışdı, kölgələr uzanır və işıq tədricən ağacları qızılı rəngə boyayırdı. Qatar gurultu ilə irəli şığıyır və biz sürətlə axşam günəşinin xəfif dumanında Cess və Ceysonun evinin yanından ötüb keçirik. Əgər qarşıdan gələn qatar olmasa və biz çox sürətlə keçməsək, bəzən onları terrasda görə bilirəm. Onları görməsəm belə – bu gün olduğu kimi – təsəvvür edə bilirəm. Cess əlində şərab piyaləsi terrasda oturmuş və ayaqlarını stolun üstünə uzatmış, Ceyson isə arxada dayanaraq əllərini onun çiyninə

qoymuşdur. Çiyində kişi əllərinin ağırlığını duymağın necə olduğunu, adamı necə sakitləşdirdiyini və müdafiə hissi doğurduğunu təsəvvür edə bilirəm. Bəzən xatırlamağa çalışıram ki, son dəfə nə vaxt məni səmimiyyətlə qucaqlayıblar, ya da dərdimə şərik olaraq əlimi sıxıblar; və qəlbimi kədər bürüyür.

Çərşənbə axşamı, 9 İyul 2013-cü İl

Səhər

Ötən həftə gördüyüm cındır topası elə həmin yerdə idi, ancaq daha da çirklənmişdi. Haradasa oxumuşdum ki, qatar altında qalan adamın əynindəki paltar da cırılıb çıxa bilər. Qatar altına düşüb həlak olan insanlar isə az deyil. Deyirlər ki, belə ölümlərin sayı ildə iki-üç yüzdən çox olur, yəni hər iki gündən bir kimsə qatarın altında qalır. Belə ölümlərin neçəsinin təsadüfi olduğunu bilmirəm. Qatar yavaş-yavaş sürünərkən mən diqqətlə o əskilərin üzərində qan izləri axtarıram, amma belə bir şey görmürəm.

Qatar adəti üzrə semaforun qarşısında dayanır. Cessi görürəm – onun əynində açıq rəngli sətin paltar var; həyətdə, evə açılan şüşə qapının önündə ayaqyalın dayanıb. Başını çevirib çiyni üzərindən arxaya baxır: yəqin, səhər yeməyi hazırlamaq istəyən Ceysonla danışır. Qatar yavaş-yavaş tərpəndikdə mən Cessə və onun evinə baxmağa davam edirəm. Başqa evləri görmək istəmirəm və xüsusilə də buradan üç ev o tərəfdə olanı – bir zamanlar o ev mənim idi.

Mən Blenhaym-roud 23 saylı evdə son dərəcə xoşbəxt və son dərəcə dəhşətli beş il yaşamışam. İndi onu görə bilmirəm. Bu mənim ilk evim idi. Valideynlərimin evi deyildi, başqa tələbə qızlarla şərikli kirayələdiyimiz mənzildə otaq da deyildi, bu mənim ilk evim idi. Amma indi onu görməyə gözüm yoxdur. Əslində görə bilərəm, baxıram da, baxmaq da istəyirəm, amma eyni zamanda istəmirəm və bunu etməməyə çalışıram. Hər gün öz-özümə deyirəm ki, baxmayacağam, amma hər gün baxıram. Özümlə bacarmıram, hərçənd orada heç bir şey görmək istəmirəm, nəsə görsəm belə, bu yalnız ağrı doğuracaq. Bir dəfə yataq otağındakı krem rəngli kətan pərdələrin yoxa çıxdığını və onların yerində çəhrayı rəngli uşaq pərdələrinin asıldığını gördükdə nələr hiss etdiyimi yaxşı xatırlayıram; məhəccərin yanında qızılgül kollarını sulayan Annanı gördükdə hiss etdiyim ağrılar

indiyə qədər xatirimdədir. Onun uzun köynəyi şişmiş qarnına yapışmışdı, mənsə dodaqlarımı qanayana qədər gəmirmişdim.

Gözlərimi yumuram və ona, on beşə, iyrimiyə qədər sayıram. Bax belə, biz artıq ötüb keçdik, ev isə daha görünmür. Uitni stansiyasında dayanırıq, sonra yolumuza davam edirik və get-gedə sürətini artıran qatardan şəhərətrafı ərazilərin tədricən Londonun şimalındakı çirkli və ucqar məhəllələrlə əvəz olunmasına, eyvanlı evlərin öz yerini dəmir körpülərə və qırıq pəncərəli atılmış binalara buraxmasına tamaşa edirəm. Biz Yustona yaxınlaşdıqca qəlbimdə həyəcan və qorxu artır: bu gün necə olacaq? Vağzala beş yüz metr qalmış, yolun sağ tərəfində alçaq, çirkli bir beton tikili var, onun divarında kimsə stansiyaya doğru yönəlmiş bir ox şəkli çəkib və bu sözləri yazıb: “HƏYAT PARAQRAF DEYİL”. Dəmir yolunun yanındakı cındır topası haqqında düşünürəm və boğazımın necə quruduğunu hiss edirəm. Həyat paraqraf, ölüm də mötərizə deyil.

Axşam

Axşam saat 17:56 qatarı ilə gedirəm. Bu, səhər qatarına görə bir az yavaş hərəkət edir, bir saat bir dəqiqəyə, yəni səhər qatarına nisbətən düz yeddi dəqiqə gec çatır, baxmayaraq ki, heç bir əlavə stansiyada dayanmır. Bundan qətiyyən narahat olmuram, çünki səhərlər Londona çatmaq üçün tələsmədiyim kimi, axşamlar da Eşberiyə tələsmirəm. Təkcə ona görə yox ki, bura Eşberidir, hərçənd çox da cəlbedici yer deyil – 1960-cı illərdə salınmış və Bekingemşirin lap ürəyində bir qara yara kimi böyüməyə başlamış yeni, tipik bir qəsəbədir. Buna bənzər onlarla digər qəsəbədən nə pis, nə də yaxşıdır. Mərkəzdə çox sayda kafe, mobil telefon salonları, “JD Sports” – son dəb idman geyimləri mağazalar şəbəkəsi var. Onu çoxsalonlu kinoteatr və “Tesko” hipermarketi yerləşən ətraf məhəllələr əhatə edir. Mən şəhərin ticarət mərkəzindən yaşayış sahələrinə gedən arteriya üzərində yerləşmiş (ən) münasib, (ən) yeni məhəllədə yaşayıram, lakin bu mənim evim deyil. Evim dəmiryol relslərinin yanında viktorian üslubundakı tikilidə yerləşir və mən onun iki sahibindən biriyəm. Eşberidə ev sahibi deyiləm, heç icarədar da deyiləm: Ketinin mənzilində, onun mərhəməti və mehribanlığı sayəsində, iki kiçik yataq otağından birini tutan sakinəm.

Biz Keti ilə universitetdə dostlaşmışıq. Əslində heç dostluq da etmirdik,

sadəcə, ünsiyyət saxlayırdıq, çünki heç zaman elə də yaxın olmamışıq. Birinci kursda o üzbəüz otaqda yaşayırdı, eyni dərsləri öyrənirdik, bu da bizi çaşqınlıq içində keçən ilk bir neçə həftədə yaxınlaşdırdı, sonra isə daha çox ümumi cəhətlərimiz olan insanlarla rastlaşdıq. Birinci kursdan sonra nadir hallarda görüşürdük, sonra isə yalnız ümumi tanışların toylarında görüşərdük. Amma köməyə ehtiyacım olduqda öyrəndim ki, onun boş otağı var. Buna görə də onun birlikdə yaşamaq təklifi lap yerinə düşdü. Onunla yalnız bir-iki ay, ən uzağı yarım il birlikdə qalacağıma şübhə etmirdim, üstəlik başqa çıxış yolum da yox idi. Mən heç zaman tək yaşamamışam – valideynlərimdən sonra başqa qızlarla mənzil kirayələdik, daha sonra Tomun yanına köçdüm. Mən Ketinin təklifini dərhal qəbul etdim. Bu iki il bundan qabaq olmuşdu.

Ümumiyyətlə, hər şey o qədər də dəhşətli deyil. Keti – çox yaxşı insandır və bu o saat görünür. O bunu nəinki gizlətmir, hətta görməyə məcbur edir. Ketinin yaxşı insan olması dərhal gözə çarpır, bu onun əsas xüsusiyyətidir. Amma istəyir ki, bunu ona etiraf etsinlər, həm də bu etiraf mütəmadi, demək olar ki, hər gün olsun. Bu isə xeyli yorucu ola bilər. Lakin bu o qədər də qorxunc deyil, mənzil qonşusunun daha ciddi nöqsanları ola bilər. Yox, bu yeni vəziyyətimdə (üstündən iki il keçməsinə baxmayaraq, hələ də buna yeni vəziyyət deyirəm) məni hər şeydən çox narahat edən nə Ketidir, nə də Eşberi. Məni ən çox məyus edən çaşqınlığımdır. Ketinin mənzilində həmişə özümü qonaqpərvərlikdən sui-istifadə edən bir qonaq kimi hiss edirəm. Bunu, hər kəs özünə axşam yeməyi hazırlayarkən zorla sığışdığımız darısqal mətbəxdə də hiss edirəm. Onunla yanaşı divanda oturarkən də hiss edirəm, televizorun pultu da həmişə onun əlində olur. Özümü rahat hiss etdiyim yeganə yer – kiçicik yataq otağımdır, oraya güc-bəla ilə ikiadamlıq yataq və yazı masası yerləşib, keçməyə demək olar ki, boş yer qalmayıb. Otaqda hər şey kifayət qədər rahatdır, amma bura bütün zamanını keçirmək istəyəcəyin yer deyil, ona görə də mən vaxtımın çoxunu qonaq otağında ya da mətbəxdə keçirirəm, orada da özümü gücsüz və narahat hiss edirəm. Mən hər şey üzərində, hətta beynimdə baş verənlər üzərində belə, nəzarəti itirmişəm.

Çərşənbə, 10 İyul 2013-cü İl

Səhər

Havanın istiliyi daha da şiddətlənir. Hələ saat doqquzun yarısıdır, gün

yenicə başlamış olsa da, hava ağır və rütubətlidir. Şimşək çaxsaydı, yaxşı olardı, amma açıq mavi səmada bir dənə də bulud yoxdur. Üst dodağımdakı təri silirəm. Təəssüf ki, bir şüşə su almağı unutmuşam.

Bu səhər Ceyson və Cessi görmürəm, bu səbəbdən həqiqətən əhvalım pozulur. Axmaqlıqdır, əlbəttə. Evi diqqətlə gözdən keçirirəm, lakin kimsə gözə dəymir. Aşağıda pərdələr aralıdır, lakin şüşə qapılar qapalıdır, buna görə də şüşələr günəş işığını əks etdirir. Yuxarıdakı pəncərənin tayları da qapalıdır. Ola bilər, Ceyson yuxarıdadır və işləyir. Məncə, o həkimdir; yəqin beynəlxalq təşkilatlardan birinin əməkdaşıdır. O hər zaman bir telefon zəngi ilə yola düşməyə hazırdır – qarderobda yol çantası daim hazır vəziyyətdə gözləyir. İranda zəlzələ və ya Asiyada sunami olsa, o hər şeyi atıb çantasını qapar və bir neçə saatdan sonra həyatları qurtarmaq üçün uçmağa hazır vəziyyətdə Xitrouda olar.

Cess öz görkəmli paltarları və krosovkaları ilə, öz gözəlliyi və maneraları ilə, moda sahəsində işləyir. Ya da musiqi biznesində, bəlkə də reklam sahəsində. O, stilist və ya fotoqraf da ola bilər. Həm də yaxşı rəssamdır, onda bədii təxəyyül yaxşı inkişaf etmişdir. Mən indi onu yuxarıdakı boş otaqda görürəm, musiqi çox yüksəkdən səslənir, pəncərə açıqdır, əlində fırça, divar yanında böyük yağlı boya rəsmi. Orada gecə yarısına qədər işləyəcək – Ceyson bilir ki, işləyərkən onu narahat etmək lazım deyil.

Əlbəttə, həqiqətdə mən onu görmürəm. Bilmirəm, o rəssamlıqla məşğul olur, ya yox. Ceysonun gülüşünün sirayətedici, Cessinin almacıqlarının gözəl olub-olmadığını da bilmirəm. Buradan Cessinin üz cizgilərini seçə bilmərəm və heç zaman Ceysonun səsini eşitməmişəm. Onları heç vaxt yaxından görməmişəm – mən qonşuluqda yaşayarkən onlar bu evdə yox idilər. Buraya iki il bundan əvvəl, mən artıq köçdükdən sonra gəliblər – nə zaman olduğunu dəqiq deyə bilmərəm. Mənə elə gəlir ki, onlar diqqətimi bir il bundan əvvəl cəlb ediblər və ötən aylar ərzində mənim həyatımda tədricən önəmli yer tutublar.

Heç onların adlarını da bilmirəm, buna görə də onlara özüm ad uydurmalı oldum. Ceyson – çünki o britaniya kinoulduzları stilində yaraşıqlıdır, Conni Depp və ya Bred Pitt kimi deyil; məsələn, Kolin Fert və ya Ceyson Ayzeks kimi. Cess isə Ceyson adı ilə yaxşı səslənir və həm də ona

yaraşır. Ona məxsus gözəlliyi və qayğısızlığı əks etdirir. Onlar əla cütdürlər və bir-biri üçün yaranıblar. Xoşbəxt olduqları görünür. Tomla mən beş il bundan əvvəl necə idiksə, onlar da elədirlər. Onlar – itirdiyim, olmaq istədiyim hər şeydir.

Axşam

Köynəyim o qədər dardır ki, güclə düymələnir – bütünlüklə tər ləkələri ilə örtülüb, xüsusilə qoltuq altında daha iri ləkə var. Gözlərim acışır, boğazım quruyub. Bu axşam səyahəti uzatmaq istəmirəm. Tezliklə evə çatmaq, soyunub duş qəbul etmək və məni kimsənin görməyəcəyi yerdə olmaq istəyirəm.

Qarşıda oturan kişiyə baxıram. O, təxminən mən yaşda – otuzdan azca çox, qara saçlı, gicgahları ağarmış, üzü torpaq rəngli biridir. Kostyumda idi, amma onu çıxarıb yanında oturacağın arxasına asdı. Qarşısında çox incə bir noutbuk açılıb. Yavaş-yavaş çap edir. Sağ biləyində iri sferblatlı gümüş saatı var – bahalı görünür, bəlkə də İsveçrə firması “Braytlinq” malıdır. Ovurdlarını çeynəyir. Yəqin əsəbiləşir. Ya da, sadəcə, dərindən düşüncəyə dalmışdır. Nyu-Yorkdakı həmkarına elektron məktub yazır, ya da rəfiqəsinə ayrılıq xəbərini vermək üçün diqqətlə ifadələr seçir. Gözlənilmədən gözlərini qaldırır və baxışları mənimlə toqquşur, sonra bu baxışlar üzərimdə gəzərək, qarşımdakı masanın üstündə olan açıq kiçik şərab şüşəsində dayanır. Başını çevirir. Dodaqlarının əyilməsindən hiss olunur ki, məni qətiyyən bəyənməyib. Yəqin, çirkin olduğumu düşünür.

İndi əvvəllər olduğum kimi deyiləm. Artıq cəlbedici deyiləm və müəyyən mənada, hətta ətrafdakıları hürküdürəm. Məsələ onda deyil ki, indi bir az kökəlmişəm, ya da sifətim içkidən və yuxusuzluqdan bir qədər şişkin görünür. Yəqin, içimdə hər şeyin yanıb-solduğunu kənardan hiss etmək mümkündür. Bu mənim üzümdən, özümü necə saxlamağımdan və necə hərəkət etməyimdən də görünür.

Ötən həftə bir dəfə axşam vaxtı bir stəkan su götürmək üçün otağımdan çıxarkən, Ketinin öz boyfrendi Demienlə qonaq otağında söhbətini eşitdim. Onları dinləmək üçün dəhlizdə dayandım.

– O tənhadır, – Keti deyirdi, – mən də onun halına acıyıram. Hər zaman

tənha olmaq olmaz. – Sonra soruşdu: Bəlkə sənin işdə, ya da reqbi klubunda bir tanışın var?

– Reyçel üçünmü? – Demien soruşdu. – Bağışla, Ket, amma ciddi desəm, tanışlarımın arasında bu cür yanıq biri dəqiq yoxdur.

Cümə axşamı, 11 İyul 2013-cü İl

Səhər

Şəhadət barmağımdakı plastırı qurdalayıram. O nəmdir, səhər qəhvə fincanını yaxalayarkən islatmışam. İndi o yapışqan və çirklidir, amma səhər təmiz idi. Plastırı qoparmaq istəmirəm, çünki kəsik dərindir. Mən evə qayıdanda Keti yox idi; mağazaya yollanıb iki şüşə şərab aldım. Onlardan birini içdikdən sonra, Ketinin evdə olmamasından istifadə edərək özümə soğanlı bifşteks qızardıb yaşıl salatla yemək istədim. Yaxşı və sağlam bir qida. Soğanı doğrayarkən barmağımın ucunu kəsdim. Yəqin yaranı yumaq üçün vanna otağına getmişəm, sonra uzanmışam və mətbəxi tamam unutmuşam, çünki saat ona yaxın yuxudan ayılanda eşitdim ki, Keti Demienlə danışır. Demiensə belə dedi: – mətbəxi bu vəziyyətdə qoymaq çox ayıb işdir. Keti yuxarıya, mənim otağıma qalxdı, sakitcə qapını döyüb azca araladı. Qapının arasından baxıb soruşdu ki, yaxşıyammı, hər şey qaydasındadırmı? Mən üzr istədim, hərçənd nə üçün üzr istədiyimi anlamırdım. O dedi ki, dəhşətli bir şey olmayıb, amma özünə yemək hazırladıqdan sonra mətbəxi təmizləyə bilməzdinmi? Doğrama taxtası qana bulaşmışdı, otaq çiy ət qoxuyurdu, masa üzərində qalmış bifşteks isə artıq boz rəng almışdı. Demien hətta salam da vermədi, məni görərək başını buladı və yuxarıya, Ketinin yataq otağına qalxdı.

Onlar yatmağa uzandıqda, mən ikinci şərab şüşəsini xatırladım və onu açdım. Divanda oturub televizora baxırdım, onun səsini minimuma qədər azaltmışdım ki, onlar eşitməsin. Nəyə baxdığımı xatırlamıram, amma hansısa bir anda, yəqin, özümü dəhşətli dərəcədə tənha ya da əksinə, xoşbəxt hiss etmişdim, ya da başqa bir səbəb vardı, çünki qəflətən kiminləsə danışmaq istədim. Görünür, ünsiyyət ehtiyacı o qədər güclü idi ki, onu, sadəcə, təmin edə bilməmişdim, həm də Tomdan başqa zəng edə biləcəyim biri yox idi.

Tomdan başqa kimsə ilə danışmaq istəmirəm. Əgər çağırış jurnalına

inansaq, mən dörd dəfə zəng etmişəm: saat 11.02-də, 11.12-də, 11.54 və 12.09-da. Zənglərin davamlılığına görə, iki mesaj buraxmışam. İstisna deyil ki, o hətta cavab da verib, lakin mən onunla danışdığımı xatırlamıram. Mənə elə gəlir ki, birinci mesajda ondan zəng etməsini xahiş etmişəm. İkincidə də ola bilsin ki, elə eyni şeyi istəmişəm, odur ki, qorxulu bir şey yoxdur.

Qatar dartınaraq qırmızı işıqda dayandı və mən pəncərəyə baxdım. Cess həyətdə oturub qəhvə içirdi. O ayağını masanın üstünə qoymuşdu və başını geri ataraq günəşlənirdi. Onun arxasında kölgə göründü, kimsə hərəkət edirdi: yəqin Ceyson idi. Ötəri də olsa, onun yaraşıqlı üzünü görmək istədim. İstəyirəm ki, o çıxsın, adəti üzrə Cessin arxasında dayansın və onun başından öpsün.

O çıxmır. Cess başını irəli əyir. Bu gün Cess nə isə başqa cür hərəkət edir, elə bil hansısa ağırlıq onu əzir. Mən fikrimdə Ceysondan onun qarşısına çıxmasını xahiş edirəm, lakin qatar dartınaraq hərəkətə başlayır, o isə yenə də çıxmır, Cess təkcə oturub. Birdən bilaixtiyar öz evimə baxmağa başlayıram və gözlərimi çəkə bilmirəm. Şüşə qapılar taybatay açıqdır, mətbəx işığa qərq olub. Mən deyə bilmərəm, doğrudan da deyə bilmərəm, bütün bunları həqiqətən görürəm, yoxsa mənə elə gəlir: əlüzyuyanın önündə dayanıb qabları yuyan odur? Mətbəx masasının üstündəki uşaq kreslosunda əyləşən onların kiçik qızıdırmı?

Gözlərimi yumuram, qaranlıq çökməyə başlayır və getdikcə artaraq qəmginlik hissindən daha pis bir şeyə keçir. Xatırladım! Ondan, sadəcə, mənə zəng etməsini xahiş etməmişdim. İndi xatırlayıram ki, ağlayırdım. Ona dedim ki, hələ də onu sevirəm və həmişə də sevəcəyəm. Lütfən, Tom, lütfən, mən səninlə danışmalıyam! Sənsiz özümü pis hiss edirəm! Yox, yox, yox, yox, yox, yox, yox!

Mən bunu qəbul etməliyəm. Özümü heç bir şey olmamış kimi aparmağımın, axı, nə mənası var? Bütün günü özümü çox pis hiss edəcəyəm. Bu, dalğalar kimi üzərimə gələcək – gah güclü, gah zəif, gah yenidən güclü: qarnımda sancı, utanc hissi, üzümü bürüyən qızartı. Göz qapaqlarımı sıxıram, sanki bütün bunları yox olmağa məcbur edə bilərəm. Bütün günü özümü inandırmağa çalışacağam ki, dəhşətli heç nə baş verməyib. Bu mənim həyatda elədiyim ən pis hərəkət deyil. Bunu küçədə yıxılmağımla və ya

qışqıraraq tanış olmayan kişinin üstünə hücum etməyimlə müqayisə etmək olmaz. Bunu yayda barbekü zamanı ərimin dostlarından birinin arvadını təhqir etdiyim zaman ərimin alçalması ilə müqayisə etmək olmaz. Ya da bir axşam ərimlə qovğa edib onu qolf ağacı ilə vurmağa çalışaraq yataq otağının suvağını tökməyimlə heç müqayisə etmək olmaz. Ya da üç saatlıq nahar fasiləsindən sonra işə qayıdarkən, bütün işçilərin gözü önündə səndələyərək keçdikdə, Martin Maylzın məni kənara çəkərək: Reyçel, düşünürəm ki, siz indi yəqin evinizə gedəcəksiniz – deməsi ilə müqayisədə heç nədir. Mən əvvəllər içki düşkünü olmuş bir qadının kitabını oxumuşdum; o öz kitabında restoranda təsadüfən tanış olduğu bir kişi ilə hay-küylü London küçəsində minetlə məşğul olduğunu təsvir edir. Onda bunu oxuyarkən düşündüm ki, hələ o qədər də pis deyiləm. Hər şey icazə verilənin səviyyəsini hansı yüksəklikdə qoymaqdan asılıdır.

Axşam

Bütün günü Cess haqqında düşündüm, səhər gördüyüm mənzərədən başqa heç bir şeyə fikrimi çevirmək iqtidarında deyildim. Onlarda nəyinsə yolunda olmadığını düşünməyə məni nə vadar etmişdi? Belə məsafədən onun üzünün ifadəsini ayırd edə bilməzdim, lakin görünüşündən hiss olunurdu ki, o təkdir. Sadəcə, tək deyil – tənhadır. Bəlkə də elə məhz bu cür idi; ola bilər, o yenə həyat qurtarmağa getdiyi o qızmar ölkələrdən birinə yollanıb. Qadın da onsuz darıxır, narahat olur, baxmayaraq ki, onun başqa cür edə bilməyəcəyini də anlayır.

Əlbəttə, qadın onun üçün darıxır, necə ki, mən darıxıram. O mehriban və güclüdür, əsl kişi belə də olmalıdır. Onların birliyi də həqiqidir. Mən bunu görürəm və onların necə yaşadığını bilirəm. Ərinin güc və qayğı şüalandırması onun zəif olması demək deyil. Arvadın gücü başqa şeydədir: onun intellekti o dərəcədə yüksəkdir ki, ərini daima heyrətə salır və heyran qoyur. Hər hansı problemi analiz etmək, onun məğzinə varmaq, hər şeyi öz yerinə qoymaq onun üçün digər insanların, sadəcə, salamlaşması qədər qısa zaman alır. Artıq uzun illərdir birlikdə olmalarına baxmayaraq, axşam yığıncaqlarında kişi çox vaxt onun əlindən tutur. Onlar bir-birinə hörmət edir və bir-birini heç vaxt alçaltmırlar.

Bu axşam özümü son dərəcə əzgin hiss edirəm. Bir damcı da spirtli içki

içməmişəm. Elə gün olur, özümü elə pis hiss edirəm ki, mütləq içməyim lazımdır; elə gün olur, özümü o qədər pis hiss edirəm ki, içə bilmirəm. Bu gün alkohol haqqında düşünəndə belə ürəyim bulanır. Amma axşam qatarında içməmək, ayıq olmaq, həm də belə istidə – asan məsələ deyil. Dərimin hər düyümü tər qatı ilə örtülüb, boğazım quruyub, gözlərim kirpik tuşunun təsirindən qaşınır.

Çantamın içərisində telefon zəng çaldıqda, bilaixtiyar diksindim. Qarşıda oturmuş iki qız mənə tərəf baxdı, sonra da bir-birinə baxıb bic-bic gülümsədilər. Bilmirəm onlar mənim haqqımda nə fikirləşdilər, lakin əminəm ki, yaxşı bir şey düşünmədilər. Telefonu çantamdan çıxarana qədər ürəyim az qala yerindən qopacaqdı. Anlayıram ki, bu zəngdən heç bir yaxşı şey gözləmək olmaz. Ya Keti öz rahib səsiylə bu gün spirtli içkiyə ara verməyin faydası ilə maraqlanacaq, ya da anam xəbər verəcək ki, gələn həftə Londona gəlir və birlikdə nahar etmək üçün məni ofisin yanında gözləyəcək. Telefonun ekranına baxıram. Bu Tomdur. Bir saniyə düşünüb sonra cavab verirəm.

– Reyçel?

Tanışlığımızın ilk beş ilində o heç vaxt məni Reyçel deyə çağırmazdı, yalnız Reyç. Bəzən Şelli deyə, çünki bilirdi ki, mənim bundan zəhləm gedir. Əvvəlcə dilxor olmağımı, sonra onun sirayətedici gülüşünün təsirindən qıqqıldamağa başlamağımı müşahidə etmək onu əyləndirirdi.

– Reyçel, bu mənəm. – Onun səsi boğuq çıxır və hiss olunur ki, o özü həyəcanlıdır. – Eşidirsən, sən buna son qoymalısan.

Susuram. Qatar sürətini azaldır, biz demək olar ki, evin qarşısındayıq, mənim köhnə evimin. Ona demək istəyirəm: Həyətə çıx, çəməndə dur. Səni görmək istəyirəm.

– Lütfən, Reyçel, sən beləcə daim mənə zəng edə bilməzsən! Sən özünü ələ almalısan.

Boğazımda daş kimi bərk bir tıxac əmələ gəlir, udquna bilmirəm. Danışa bilmirəm.

– Reyçel? Məni eşidirsən? Mən bilirəm ki, sənin problemin var, buna

görə də sənə yazığım gəlir, həqiqətən yazığım gəlir, amma... Mən sənə heç cür kömək edə bilmərəm, bu aramsız zənglər isə Annanı rəncidə edir. Başa düşürsən? Mən sənə daha kömək edə bilmərəm. Anonim içki düşkünlərinin toplantısına get, ya da buna oxşar başqa bir tədbirə. Lütfən, Reyçel. Elə bu gün işdən sonra oraya get.

Mən barmağımdan çirkli steril plastırı dartıb qoparıram, dırnağımın ucundakı qanı qurumuş və büzüşmüş barmaq ətinə baxıram. Sağ əlimin baş barmağını yaraya basıram və yaranın yenidən açıldığını hiss edirəm. Yaradan qan axmağa başlayır. Qarşıda oturan qızlar mənə dəhşət dolu gözlərlə baxırlar, rəngləri ağarır.

1 Pab – İngiltərədə pivəxana

1 Pab – İngiltərədə pivəxana

# Meqan

---

Bundan bir il əvvəl

Çərşənbə, 16 may 2012-cİ İl

Səhər

Qatarın necə yaxınlaşdığını eşidirəm, onun hərəkət ritmini əzbər bilirəm. Qatar Nortkout stansiyasından sonra sürətini artırır, sonra döngədə şaqqıldayıb sürətini azaldır, gurultu şıqqıltıya çevrilir, hərdən evdən bir-iki yüz metr aralıda semaforda dayandıqda əyləclərin qıcırtısı eşidilir. Masanın üstündə soyumuş qəhvə var, lakin o qədər rahat və tənbələm ki, qalxıb yenisini hazırlamıram.

Bəzən qatarı baxışlarımla da yola salmıram, sadəcə, qulaq asıram. Səhər burada gözüyumulu oturub günəşin göz qapaqlarımı necə isitdiyini hiss edərək özümü istənilən yerdə təsəvvür edə bilərəm. İspaniyanın cənubunda çimərlikdə, İtaliyada, gözəl və rəngarəng evləri, turist qatarları ilə Çinke-Terredə. Ya da xəyalıma gətirə bilərəm ki, yenə hər zaman küçələrində qağayıların çığırtısı eşidilən, dildə duz dadı hiss olunan, yarım mil aralıda isə

paslı relslərlə görünməyən qatar keçən Holkhemdəyəm.

Bu gün qatar dayanmır, yavaş-yavaş ötüb yan keçir. Mən təkərlərin taqqıltısını eşidirəm və demək olar ki, vaqonların necə yırğalandığını hiss edirəm. Sərnişinlərin üzlərini görə bilmərəm və bilirəm ki, onlar, sadəcə, Yustona gedən adi sərnişinlərdir və orada, ofislərində öz yerlərini tutmağa gedirlər, lakin xəyala dalaraq, sonu və bundan sonrası sərgüzəştlərlə dolu olan ekzotik bir səyahət təsəvvür edirəm. Xəyalən geriyə – Holkhemə səyahət edirəm; qəribədir, hələ də indiyə qədər onu belə bir sevgi ilə xatırlayıram, amma nə etmək olar. Otlarda xışıldayan külək, qumsal təpələr üzərində nəhəng səma, siçanlarla, toz və musiqi ilə dolu köhnə ev. Mənim üçün bütün bunlar indi bir yuxu kimidir.

Ürəyimin necə şiddətlə döyündüyünü hiss edirəm.

Pilləkənlərdə onun addımlarını eşidirəm, məni adımla çağırır.

– Yenə qəhvə istəyirsənmi, Meqan?

Sehr dağılır – xəyaldan ayılıram.

Axşam

Əsən sahil küləyindən üşüdüm, martini ilə araq isə mənə istilik gətirdi. Terrasda oturub Skottun nə zaman evə dönəcəyini gözləyirəm. Kinqli-rouddakı italyan restoranında məni şam yeməyinə qonaq etməyə razı salmağı düşünürəm. Allah bilir, nə vaxtdan bəri biz heç yerə çıxmamışıq.

Bu gün az iş gördüm. Sent-Martinsdəki incəsənət və dizayn Kollecində parçalar üzrə kurs üçün sifariş verməyə hazırlaşırdım, hətta bu işə başlamışdım. Aşağıda mətbəxdə idim, birdən qulaqbatırıcı bir qadın səsi eşitdim – elə bil kimisə öldürürdülər. Özümü bağçaya atdım, amma heç nə görmədim.

O qışqırtı indiyə qədər qulaqlarımda səslənir: elə dəhşətli, ümidsizliklə dolu fəryad idi ki, adamın qanı damarlarında donurdu.

– Sən nə edirsən? Sən onunla nə edirsən? Onu ver! Dərhal ver!

Elə bil bunun sonu olmayacaqdı, amma əslində bütün bunlar bir neçə

saniyədən çox sürmədi.

Evə cumdum, sürətlə ikinci mərtəbəyə qalxıb terrasa çıxdım. Buradan baxdıqda, bizim evdən bir neçə ev aralıda çəpərin yanında dayanmış iki qadın gördüm. Onlardan biri ağlayırdı, bəlkə də hər ikisi – bir də orada bir körpə bərkdən çığırırdı.

Polisə zəng etmək istdim, lakin tezliklə hər şey sakitləşdi. Qışqıran qadın uşağı bağrına basaraq evə qaçdı. İkinci qadın yerində qaldı, sonra o da qaçdı, amma ayağı ilişərək yıxıldı, sonra qalxıb bağ ətrafında dövrə vurmağa başladı. Qəribə mənzərə idi. Allah bilir, orada nə olmuşdu. Lakin uzun həftələr ərzində həyatımda bundan həyəcanlı heç nə baş verməmişdi.

Günlərim bikarçılıq içində keçir, indi mənim qalereyam yoxdur, əvvəllər vaxtımın çoxunu orada keçirərdim. İndi ona ehtiyacım var. Rəssamlarla ünsiyyətə çox ehtiyacım var. Mən başıboş gənc analar üçün darıxıram, onlar tez-tez qalereyaya gəlib əllərində qəhvə şəkillərə baxırdılar ki, sonra dostlarına, guya kiçik qızları Cessinin bağçada bunlardan daha yaxşı şəkil çəkdiyini danışsınlar.

Hərdən mən öz əvvəlki həyatımdan kimisə axtarıb tapmaq istəyirəm, lakin onlarla danışmağa mövzu olmayacağını düşünüb bundan çəkinirəm. İndi xoşbəxt bir ailə qurub yaxşı bir rayonda yaşayan mənim həmin Meqan olduğumu heç kim tanımaz. İstənilən halda, mən keçmişə baxaraq risk edə bilmərəm, bundan yaxşı bir şey çıxmayacaq. Yayın sonunu gözləyəcəyəm, sonra iş axtarmaqla məşğul olacağam. Mütləq bir şey tapacağam – burada ya da başqa bir yerdə, lakin mütləq tapacağam.

Çərşənbə axşamı, 14 avqust 2012-cİ İl

Səhər

Qarderobumun önündə dayanıb yüzüncü dəfə oradan asılmış, kiçik, lakin müasir bədii qalereya menecerinə kifayət qədər yaraşan qəşəng paltarı gözdən keçirirəm. Heç bir paltar “dayə” sözü ilə uzlaşmır. İlahi, bu söz özü adamı ağzına tıxac soxmağa sövq edir. Mən cinsi və köynəyi geyinib saçlarımı arxaya darayıram. Hətta heç makiyaj da etmirəm. Bütün gününü uşaqla keçirəcəksənsə, özünə sığal verməyin nə mənası var?

Pilləkənlərlə acıqlı halda enirəm, hiss edirəm ki, əsəblərim son dərəcə gərilib. Skott mətbəxdə qəhvə hazırlayır. O, gülümsəyərək üzünü mənə çevirir və əhvalım həmin dəqiqə yaxşılaşır. Üzümün narazı görkəmi təbəssümlə əvəzlənir. O, qəhvəni mənə uzadır və məni öpür.

Əgər bu mənim ideyam idisə, bəs onun günahı nədir? Mən özüm evimizdən bir neçə mənzil aralıda yaşayan ailənin uşağına baxmağa razılıq vermişdim. Onda düşünürdüm ki, bu məni əyləndirər. Tam cəfəngiyyat, görünür, sadəcə, özümdə deyilmişəm. Hər şey məni qıcıqlandırırdı, darıxırdım, buna görə də fikrimi dağıtmaq istədim. Yoxlamağı qərara aldım. Bu, deyəsən, bağda qışqırıq eşitdiyim zaman ağlıma gəldi və orada nə baş verdiyini bilmək istədim. Əlbəttə, onları sorğu-suala tutmaq fikrində deyildim, həm də bunu necə edərdim?

Skott məni dəstəklədi – mən bunu təklif edərkən Skott sevincindən göyün yeddinci qatında idi. Ümid edirdi ki, uşaqla məşğul olmaq məndə analıq instinktini oyadar. Həqiqətdə isə hər şey tamamilə əksinə oldu: onlardan çıxıb var gücümlə evə qaçdım, özümü duşun altına atıb uşağın qoxusunu üzərimdən yumağa çalışdım.

Qalereyadakı işim üçün çox darıxıram, onda özümə bəzək-düzək verir, saçlarımı darayır və ağıllı adamlarla incəsənət ya da filmlər haqqında söhbət edirdim. Ya da, sadəcə, boş şeylər haqqında çərənləyirdim. “Boş şeylər” Anna ilə söhbətlə müqayisədə böyük irəliləyiş sayıla bilərdi. İlahi, o necə zəhlətökən biridir! Elə təsəvvür yaranır ki, o, nə vaxtsa başqa bir şey haqqında danışa bilirmiş, lakin indi – yalnız uşaq haqqında danışa bilir. Uşağa istidirmi? Çox isti deyil ki? Nə qədər süd içib? Üstəlik daim yanımda olur, buna görə də özümü bir növ ehtiyat hissə kimi hiss edirəm. Anna istirahət edərkən mən uşağa baxmalıydım, ona nəfəsini dərməyə imkan vermək üçün. Məhz nədən nəfəsini dərəcəkdi? O özü dəhşətli dərəcədə əsəbidir. Bir saniyə belə bir yerdə oturmur, hey ora-bura vurnuxur. Hər dəfə qatar keçərkən əsəbiləşir, telefon zəngləri isə onu diksinməyə məcbur edir.

– Onlar çox zəif və köməksizdirlər, deyilmi? – deyə soruşur, bununla razılaşmaya bilmərəm.

Evdən çıxıram, ayaqlarımı zorla sürüyərək Blenhaym-roudla öz iş yerimə yollanıram. Sanki sürgünə gedirəm. Bu gün qapını o deyil, onun əri

Tom açır: o, artıq kostyumdadır, ayaqqabılarını geyinib – işə yollanır. Bu paltarda onun əzəmətli görkəmi var, amma Skotta çatmaz. Tom onun qədər iri deyil, dərisi də daha açıq rənglidir, gözləri isə, əgər diqqətlə baxsan, biri birinə yaxındır, lakin belə baxanda o da yaxşıdır. Tom Kruz kimi geniş gülümsəyərək məni salamlayır, arvadı və uşağı ilə qoyaraq gedir.

Cümə axşamı, 16 avqust 2012-cİ İl

Gündüz

Yetər!

Özümü xeyli yaxşı hiss edirəm, sanki indi hər şey mümkündür. Mən azadam!

Terrasda oturub yağışın başlamasını gözləyirəm. Başımın üzərində səma qapqaradır, qaranquşlar zaman-zaman şığıyaraq dairələr cızırlar, hava nəmlə doludur. Skott bir saatdan sonra evə dönəcək, mən ona hər şeyi söyləyəcəyəm. Bu, əlbəttə, onun xoşuna gəlməyəcək, lakin çalışacağam elə edim ki, bir-iki dəqiqədən sonra onun bu narazılığından əsər-əlamət qalmasın. Həm də mən bütün günü evdə boş oturmaq niyyətində deyiləm: artıq hər şeyi düşünmüşəm. Mən fotoqrafiya kursuna gedə bilər, ya da ticarət yerlərinin tərtibatı ilə, yaxud bəzək əşyalarının satışı ilə məşğul ola bilərəm. Yemək bişirməyi də öyrənə bilərəm.

Məktəbdə bir müəlim mənə demişdi ki, məndə özünü yenidən dəyərləndirmək qabiliyyəti var. Bilmirəm, o zaman o ağlında nəyi tutmuşdu, bəlkə, sadəcə, qarmaq atırdı, lakin zaman keçdikcə bu fikir mənə daha çox xoş gəlməyə başladı. Qaçqın, məşuqə, ev xanımı, ofisiant, qalereya meneceri, dayə və daha bir neçə aralıq obrazlar. Yaxşı, bəs mən sabah nə olmaq istəyirəm?

Əslində getməyə hazırlaşmırdım, amma sözlər öz-özünə dodaqlarımdan qopdu. Biz mətbəx masası arxasında oturmuşduq: Anna dizi üstündə uşağı tutur, nəsə götürüb-qayıtmaq üçün evə gəlmiş Tom isə indi qəhvə içir. Birdən bütün bunların tamamilə mənasız olduğunu hiss etdim: mənim burada olmağıma heç bir zərurət yox idi. Özümü hətta gərəksiz hiss etdim, sanki başqasının həyatına soxulmuşdum.

– Mən başqa iş tapmışam, – hətta özüm üçün də gözlənilməz olaraq dedim. – Odur ki, daha sizə kömək edə bilməyəcəyəm.

Anna mənə baxdı – düşünmürəm ki, mənə inandı – və dedi:

– Neynək, çox təəssüf.

Əslində qətiyyən təəssüf etmədiyi aydın idi. Əksinə, bu yenilik onu sevindirdi. Tapdığım işin nə olduğunu heç soruşmadı da. Bu mənə də sərf edirdi, çünki əvvəlcədən heç bir inandırıcı yalan uydurmağa macalım olmamışdı.

Tom bir az təəccüblənmiş görünürdü.

– Sənin yerin görünəcək, – yalnız bunu dedi, lakin bu da yalan idi.

Təkcə Skott həqiqətən məyus olacaqdı, odur ki, bu xəbəri ona nə şəkildə deyəcəyimi düşünməliyəm. Bəlkə Tomun mənimlə maraqlanmağa başladığını söyləyim? Onda bu, bütün sualları ortadan qaldırar.

Cümə axşamı, 20 sentyabr 2012-cİ İl

Səhər

İndi saat səkkizə işləyir, buna görə də hava soyumağa başlayıb, amma bura elə gözəldir ki: bağların yaşıl zolaqları onların arasındakı keçidlərdən günəş işığının onlara düşərək həyat verməsini gözləyir. Mən çox pis yatıram, gecələr gözümə yuxu getmir və bu lənətə gəlmiş yuxusuzluq mənə əziyyət verir. Buna dünyada hər şeydən çox nifrət edirəm. Uzanıram, beynim isə daim işləyir – tık, tık, tık. Hər yerim qaşınır. Hətta saçlarımı dibindən kəsdirmək istəyirəm.

Ürəyimdən çıxıb getmək keçir. Üstü açıq kabrioletdə yola düşmək. Bir dəniz sahilinə qədər getmək, hansı dəniz olması mühüm deyil. Çimərliyə getmək könlümdən keçir. Böyük qardaşımla səyahətçi olmağı və yollara düşməyi planlaşdırırdıq. Benlə biz belə planlar cızırdıq. Ümumiyyətlə, planları əsasən Ben qururdu – o çox xəyalpərəst idi. Biz motosikllə Parijdən Lacivərd sahilə qədər, ya da ABŞ-ın Sakit okean sahillərilə – Sietldən Los-Ancelesə qədər getməyi düşünürdük; Çe-Qevaranın Buenos-Ayresdən Karakasa qədər marşrutunu təkrar etmək istəyirdik. Bəlkə bütün bunlar baş

versəydi, bundan sonra nə edəcəyimi bilmədən burada olmazdım. Bəlkə də son nəticədə elə indi olduğum yerdə olardım və bundan tamamən məmnun qalardım. Lakin əlbəttə, bunların heç biri olmadı, çünki Ben nəinki Parisə, heç Kembricə qədər də getmədi. O, avtotras A10-da avtoqatarın təkərləri altında qalaraq öldü.

Mən onun üçün hər gün darıxıram. Yəqin hər kəsdən çox onun üçün darıxıram. O mənim həyatımda, mənim qəlbimdə çox böyük bir boşluqdur. Bəlkə də onun ölümü mənim həyatımı tədricən boşluqla dolduran bir prosesin başlanğıcını qoyub. Bilmirəm. Hətta bilmirəm, bu Benlə əlaqədardır, yoxsa onun ölümündən sonra baş verənlərləmi. Ancaq bir şeyi bilirəm: bir anda mənə elə gəlir ki, məndə hər şey əladır, həyat gözəldir və mən hər şeydən məmnunam. Lakin bir sonrakı anda qaçmaq – haraya olması önəmli deyil – istəyirəm, özümə yer tapa bilmirəm, müvazinətimi saxlamaq üçün söykənəcək bir şey tapmıram.

Psixoterapevtə müraciət edəcəyəm. Əlbəttə, bu bir qədər qeyri-adidir, lakin əyləndirici ola bilər, maraqlıdır. Həmişə hesab edirdim ki, katolik olmaq çox əlverişlidir – tövbə edərkən ürəyini boşalda bilərsən, həm də sənin bütün günahlarını bağışlayarlar ki, sən yenidən təmiz bir səhifə aça biləsən.

Aydındır ki, psixoterapevt belə deyil. Mən bir az əsəbiləşirəm, lakin son zamanlar tamam yata bilmirdim. Üstəlik Skott da məni dəstəklədi. Ona dedim ki, belə şeylər barədə tanış adama danışmaq mənim üçün çətindir, hətta ona da. O cavab verdi ki, elə işin məğzi də məhz bundadır, çünki tanımadığın adama səni narahat edən hər şey barədə danışmaq daha asandır. Lakin bu tam da belə deyil. Hər şeyi danışmaq olmaz. Yazıq Skott! Mənim qəlbimdə baş verənlər barədə anlayışı belə yoxdur. O məni elə çox sevir ki, hətta bundan əzab çəkirəm. Mən bilmirəm, bu onda necə alınır. Özüm özümü dəli edirəm.

Amma nəsə etməliyəm, ən azından əlimi-qolumu bağlayıb sakit oturmamalıyam. Özüm üçün cızdığım bu planlar – fotoqrafiya kursları, kulinariya dərsləri – əslində tamam mənasız məşğuliyyətlər imiş, sanki real həyatda yaşamaq əvəzinə onun rolunu oynayıram. Mən etməli olduğum şeyi mütləq tapmalıyam, nə isə mühüm bir şey. Sadəcə, arvad olmaq mənə görə deyil. Bilmirəm, başqaları bunu necə edir – heç bir şeylə məşğul olmamaq, yalnız oturub gözləmək. Gözləmək ki, nə zaman ərin evə dönüb səni sevəcək.

Ya bu, ya da sənin həyatına məna qazandıracaq bir şeyin axtarışı.

Axşam

Mən hələ də qəbul ediləcəyimi gözləyirəm. Mənə təyin olunan vaxtdan artıq yarım saat keçib, amma hələ də qəbul otağında oturub "Voq" jurnalını vərəqləyirəm və düşünürəm ki, artıq qalxıb getmək vaxtıdır. Başa düşürəm, adi həkimlərin xəstə qəbulu bir az uzana bilər. Lakin psixoterapevtdə? Əgər filmlərə görə mühakimə yürütsək, orada pasientə ayrılan əlli dəqiqə bitdikdə onu çəkinmədən kabinetdən çıxarırlar. Yəqin Hollivud Böyük Britaniyanın Milli Səhiyyə Xidmətinin göndərdiyi mütəxəssisləri göstərmir.

Mən katibəyə kifayət qədər çox gözlədiyimi deyib getmək istəyirdim ki, həkimin kabinetinin qapısı açıldı, oradan iri, arıq bir kişi üzr istəyərcəsinə əlini mənə uzatdı.

– Missis Hipvell, sizi gözlətdiyim üçün lütfən məni bağışlayın, – o dedi.

Ona cavab olaraq gülümsəyirəm və hər şeyin yolunda olduğunu deyirəm, həmin anda həqiqətən hiss edirəm ki, hər şey qaydasındadır. Doğrudan da onunla bir dəqiqəlik ünsiyyət artıq mənə müsbət təsir göstərir.

Düşünürəm ki, məsələ onun səsindədir. Asta və həlim bir səsi vardı. Xəfif ləhcə ilə danışırdı; lakin bu məni təəccübləndirmir, çünki onun adı doktor Kamal Abdikdir. Onun haradasa otuz beş yaşı olar, amma daha gənc görünür, tünd bal rəngində qəribə dərisi var. Yaraşıqlı əlləri var, bu əlləri öz üzərimdə təsəvvür edirəm. Sanki hiss edirəm ki, onun incə və uzun barmaqları bədənimi necə oxşayır.

Biz elə də vacib şeylərdən danışmırıq, bu, sadəcə, ilk tanışlıqdır: məni nə narahat etdiyini soruşur; vahiməyə düşməyimdən və yuxusuzluqdan şikayətlənirəm, qorxu hissi keçirdiyim üçün gecələr yuxuya gedə bilməməyimdən şikayətlənirəm. O istəyir ki, bu barədə bir qədər ətraflı danışım, lakin mən buna hələ hazır deyiləm. Məndən narkotiklər qəbul edib-etmədiyimi, spirtli içkilər içib-içmədiyimi soruşur. Cavab verirəm ki, bu saat mən başqa qüsurlardan əziyyət çəkirəm. Onun baxışlarını tuturam və mənə elə gəlir ki, o mənim nəyi nəzərdə tutduğumu başa düşür. Onda mən öz-özümə deyirəm ki, daha ciddi olmalıyam və ona qalereyanın bağlanmasından və özümə daim yer tapa bilməməyimdən, daxili rahatlığımı itirdiyimdən, öz

fikirlərimdə çox eşələnməyimdən söz edirəm. O az danışandır, yalnız hərdən dəqiqləşdirici suallar verir, lakin mən onun səsini eşitmək istəyirəm və getməzdən əvvəl onun haradan gəldiyini soruşuram.

– Meydstoundan, – deyə cavab verir, – bu Kentdədir. Lakin Korliyə mən bir neçə il bundan öncə köçmüşəm.

O bilir ki, mən bunu öyrənmək istəmirdim və bic-bic gülümsünür.

Evdə Skott mənim qayıtmağımı gözləyir, o saat mənə içəcək verir və həkimlə söhbətin necə keçdiyini soruşur. Hər şeyin yaxşı olduğunu deyirəm. Skott həkim haqqında soruşur: mənim xoşuma gəldimi, özünü necə aparırdı? Yenə də cavab verirəm ki, normal, çünki çox heyranlıq göstərə bilməzdim. Ben barədə söhbət edib-etməməyimizlə maraqlanır. Skott düşünür ki, məsələ Bendədir. Bəlkə də o haqlıdır. Bəlkə də o məni düşündüyümdən daha yaxşı tanıyır.

Çərşənbə axşamı, 25 sentyabr 2012-cİ İl

Səhər

Bu səhər yuxudan tez durmuşam, amma yenə də bir neçə saat yatmışam, bu da ötən həftə ilə müqayisədə əsl irəliləyişdir. Yataqdan qalxarkən özümü dincəlmiş hiss etdim, ona görə də terrasda oturmaq əvəzinə, gəzmək qərarına gəldim.

Özüm də hiss etmədən ünsiyyətdən qaçıram. Son zamanlar getdiyim yerlər mağazalarla, Pilates2 studiyası və psixoterapevtin kabineti ilə məhdudlaşır. Hərdən də Taraya baş çəkirəm. Bütün qalan zamanı evdə keçirirəm. Təəccüblü deyil ki, çox vaxt özümdə olmuram.

Evdən çıxıram, əvvəlcə sağa dönür, sonra sola Kinqli-rouda yönəlirəm. ”Rouz” pivəxanasının yanından keçirəm. Əvvəllər biz həmişə ora baş çəkərdik, oraya getməyə nə səbəbdən ara verdiyimizi xatırlaya bilmirəm. Ora heç vaxt xoşuma gəlməmişdi: həddindən çox cütlər, qırxdan çox, həm də həddən çox içirlər və bir şey baş verib-verməyəcəyini gözləyirlər. Bəlkə də mənim xoşuma gəlmədiyi üçün oraya getməyi kəsdik. Pivəxananın, mağazaların yanından ötürəm. Uzağa getmək istəmirəm, sadəcə, ayaqlarımı açmaq üçün kiçik bir dairə cızacam.

Belə erkən saatda hələ məktəbə tələsən uşaqların, London qatarına tələsən yaşlıların olmadığı küçədə yerimək xoşdur; küçələr boş və təmizdir, yeni gün isə çox imkanlar vəd edir. Mən yenə də sola dönüb kiçik uşaq meydançasına – çox gözəl olmasa da, şəhərin yeganə yaşıllıq guşəsinə gedirəm. İndi orada kimsə yoxdur, lakin bir neçə saatdan sonra bura uşaqlı analar və qulluqçularla dolu olacaq. Pilateslə məşğul olan və əla idman paltarları geymiş qızların da yarısı buraya toplaşacaq, əllərində qəhvə stəkanları ilə effektli şəkildə gərnəşəcəklər.

Parkın yanından keçərək aşağı, Rouzberri-avenüyə yönəlirəm. Əgər sağa dönsəm öz qalereyamın yanında olacağam – daha doğrusu, əvvəllər qalereya olan yerdə, indi isə, sadəcə, boş vitrin qalıb – lakin mən onu görmək istəmirəm, çünki indiyə qədər də ona heyifsilənirəm. Qalereyamın populyar olmasına o qədər çalışmışdım ki! Lakin o nə lazım olan vaxtda, nə də lazım olan yerdə oldu – şəhər ətrafında incəsənətə meyil yoxdur, özü də iqtisadi vəziyyət belə olduqda. Ona görə də "Tesko" supermarketinin yanından sağa dönür, əsasən yerli fermerlərin getdiyi başqa bir pivəxananın yaxınlığından keçib evə tərəf istiqamət götürürəm. Narahat olduğumu və əsəbiləşməyə başladığımı hiss edirəm. Uotsonlarla rastlaşmaqdan qorxuram, onlarla üz-üzə gəldikdə özümü itirirəm: aydındır ki, heç bir təzə işə düzəlməmişəm, sadəcə, onlarda işləmək istəmirəm.

Daha doğrusu, Anna ilə qarşılaşdıqda pis oluram. Tom məni, sadəcə, görməzliyə vurur. Lakin Anna, görünür, bundan təsirlənir. Yəqin düşünür ki, onlarda qısa dayəlik karyeram ona, ya da uşağına görə bitdi. Əslində isə məsələ onun uşağında deyildi, hərçənd daim hıqqıldadığına görə onu sevmək zor idi. Hər şey daha mürəkkəbdir və bütün bunları mən Annaya, əlbəttə, izah edə bilmərəm. İstənilən halda, Uotsonları görmək istəməmək mənim evə qapanmağımın əsas səbəbidir. İntuitiv olaraq ümid edirəm ki, onlar buradan daşınacaqlar. Buranı xoşlamadığını bilirəm: o bu evdən, ərinin keçmiş arvadının əşyaları arasında yaşamaqdan, qatarlardan nifrət edir.

Döngədə dayanır və yeraltı keçidə nəzər salıram. Orada hökm sürən qoxudan, soyuqdan və nəmişlikdən həmişə ətim ürpəşir, sanki bir daşı çevirirsən, onun altında mamır, qurdlar və torpaq görürsən. Bu mənə uşaqlıqda Benlə gölməçədə qurbağa axtardığımızı xatırlatdı. İrəli gedirəm. Küçə kimsəsizdir – Tom və ya Anna görünmür – və mənim dramsız yaşaya

bilməyən hissəm özünü aldadılmış sanır.

Axşam

Elə indicə Skott zəng etdi və işdə ləngiyəcəyini xəbər verdi, amma mən tamam başqa şey eşitmək istəyirdim. Bütün günü tikan üstündəyəm, bir yerdə qərar tuta bilmirəm. Ümid edirdim ki, o evə gələcək və məni sakitləşdirəcək. O isə hələ bir neçə saatdan sonra qayıdacaq, buna görə də başımda fikirlər hey dolaşacaq, dolaşacaq, dolaşacaq və bilirəm ki, məni yuxusuz bir gecə gözləyir.

Mən mənasız yerə qatarları müşahidə edərək otura bilmirəm, çox əsəbiləşirəm və ürəyim qəfəsdən azadlığa çıxmaq istəyən quş kimi çırpınır. Ayaqlarımı şap-şapa soxub aşağı enir, ön qapıdan Blenheym-rouda çıxıram. İndi saat səkkizin yarısıdır – küçədə işdən gec çıxdığı üçün evə tələsən bir neçə adam var. Başqa kimsə yoxdur, yalnız yay günəşi tam batana kimi və valideynləri şam yeməyinə səsləyənə qədər arxa həyətdə oynayan uşaqların hay-küyü eşidilir.

Yolla stansiyaya gedirəm. İyrimi üç nömrəli evin yanında dayanıram və qapının zəngini basmağa dəyərmi, deyə düşünürəm. Nə deyəcəm? Qəndimiz qurtarıb? Yaxud sadəcə, laqqırtı vurmağa gəlmişəm? Jalüzlər yarıya qədər açıqdır, amma içəridə kimsə görünmür.

İrəli gedir, tinə çatıram və nədənsə, yeraltı keçidə enirəm. Təxminən ortaya çatanda, yuxarıdan qatar keçir, fövqəladə bir şey! Zəlzələ kimidir: onun qanı sürətləndirən vibrasiyası bütün bədəndə hiss olunur. Aşağı baxıram və döşəmədə nəsə görürəm: bənövşəyi, dartılmış və sürtülmüş bir saç qurşağı. Yəqin qaçarkən düşürüblər, lakin nədənsə tüklərim biz-biz olur və tez buradan çıxıb yuxarıya, günəş işığına çıxmaq istəyirəm.

Geri qayıdarkən o maşınla yanımdan keçir, baxışlarımız bir anlığa toqquşur və o mənə baxıb gülümsəyir.

2 Pilates – Jozef Pilates tərəfindən hazırlanmış fiziki məşq sistemidir, tərəfdarları onu bədənə hərəkətlilik və əsnəklik verən ən uyğun sistem hesab edirlər.

2 Pilates – Jozef Pilates tərəfindən hazırlanmış fiziki məşq sistemidir,

tərəfdarları onu bədənə hərəkətlilik və əsnəklik verən ən uyğun sistem hesab edirlər.

# Reyçel

---

CümƏ, 12 iyul 2013-cü il

Səhər

Özümü tamam əzgin hiss edirəm, yuxudan sonra başım ağırlaşıb, sanki içinə qurğuşun töküblər. İçdikdə demək olar ki, yatmıram. Bir və ya iki saatlığa özümü unuduram, özümə gəldikdə isə qorxudan və öz-özümdən ürəyim bulanır. İçmədiyim günlərdə axşam dərin huşsuzluğa düşürəm, səhər isə tam ayıla bilmirəm, yuxululuqdan xilas ola bilmirəm, bir neçə saat, hətta bütün gün mənə əziyyət verir.

Bu gün vaqonda sərnişinlər azdır və mənimlə yanaşı kimsə oturmur. Kimsə mənə baxmır, başımı pəncərəyə əyib gözlərimi yumuram.

Qatarın əyləclərinin ciyiltisi məni yuxudan oyadır. Semaforun qarşısındayıq. İlin bu vaxtında səhərlər günəş şüaları ayırma zolağının yanındakı evlərin arxa hissəsinə düşərək onları şüalara qərq edir. Mən səhər yeməyi zamanı masanın arxasında oturarkən səhər günəşinin istisini üzümdə və əlimdə hiss edirəm, Tom isə qarşımda oturur. Ayaqyalınam, ayaqlarımı onun ayaqlarının üstünə qoyuram – çünki onun ayağı həmişə isti olur – və qəzet oxuyuram. Hiss edirəm ki, o mənə baxır və gülümsəyir, mən qızarıram, qızartı döşümdən boynuma doğru qalxır, Tom mənə bəlli bir şəkildə baxanda bu həmişə başıma gəlir.

Güclə gözlərimi qıyıram və Tom yox olur. Biz hələ də semaforda dayanmışıq. Bağda Cessi, onun arxasında evdən çıxan kişini görürəm. O, əlində nəsə aparır – bəlkə də qəhvə fincanlarıdır. Ona baxır və anlayıram ki, bu Ceyson deyil. Bu adam daha ucaboy, daha arıq və daha əsmərdir. O – ailənin dostu, Cessin qardaşı ya da Ceysonun qardaşıdır. O əyilir, fincanları həyətdəki metal masanın üzərinə qoyur. Bu Ceysonun Avstraliyadan gəlib, iki həftəliyə onlarda qalan əmisi oğludur; ya da Ceysonun toyda sağdışı

olmuş dostudur. Cess ona yaxınlaşır, belindən qucaqlayır, uzun və ehtiraslı bir öpüşlə onu öpür. Qatar tərpənir.

Mən gözlərimə inanmıram. Dərindən nəfəs alaraq hiss edirəm ki, heyrətdən hətta nəfəs almağı unutmuşam. Cess niyə belə hərəkət edir? Ceyson onu sevir, bu aşkardır, onlar xoşbəxtdirlər. Cessin belə bir iş tutduğuna inana bilmirəm, Ceyson bu cür rəftara layiq deyil. Dərin bir inciklik hiss edirəm, sanki məni rəhmsizcə aldadıblar. Məlum ağrı qəlbimi bürüyür. Artıq bu mənim başıma gəlmişdi. Əlbəttə, onda ağrı daha kəskin idi, lakin onun xarakterini xatırlayıram. Belə şey unudulmur.

Mən bu barədə dövrümüzdə hər şeyi bildikləri bir üsulla xəbər tutdum – elektronika vasitəsilə ünsiyyət zamanı üzə çıxan saymamazlıq sayəsində. Bəzən bu sms, ya da səsli mesaj olur; məndə bu elektron poçt idi – boyunda dodaq boyasının müasir izi. Əslində bu təsadüfən oldu. Tomun kompüterinə toxunmamalı idim, çünki o qorxurdu ki, mən səhvən hansısa vacib faylı silə bilərəm, yaxud yanlış düyməyə basaram, ya da virus bulaşdıraram.

– Texnika açıq-aşkar sənin biləcəyin iş deyil, doğrudurmu, Reyç? – Mən təsadüfən onun əlaqə ünvanlarının siyahısını sildikdə, o dedi. Odur ki, mən onun kompüterinə toxunmamalıydım. Amma bunu yaxşı niyyətlə etmişdim. – Son zamanlar yaratdığım problemlərə görə günahlarımı yumaq istəyirdim. Toyumuzun dördüncü ili münasibətilə bir gəzinti təşkil etmək istəyirdim ki, bir vaxtlar hər şeyin necə yaxşı olduğunu xatırlayaq. Bu sürpriz olmalı idi və buna görə mən onun iş qrafikini bilməliydim. Məhz bu səbəbdən onun kompüterinin arxasına keçmişdim.

Onu izləmirdim, onu nədəsə yaxalamaq fikrim yox idi. Allah eləməsin! Mən ərinin ciblərini eşələyən qısqanc arvadlardan deyiləm. Bir dəfə Tom vanna otağında olarkən onun telefon zənginə cavab verdim, bu onu dəhşətli dərəcədə özündən çıxardı. Onda məni inamsızlıqda günahlandırdı. Özümü çox pis hiss etdim, çünki o, həqiqətən incimişdi.

Mən, sadəcə, onun iş qrafikini öyrənmək istəyirdim, o isə görüşə tələsdiyindən noutbukunu söndürməyi unutmuşdu. Bu çox yerinə düşdü: mən qrafikdən lazımi qeydləri etdim. Brouzerin təqvimli pəncərəsini bağlayarkən ekranda elektron poçtunun səhifəsi göründü. Orada aboyd@cinnamon.com. adresindən gəlmiş bir yeni məktub vardı və mən məktubun üzərinə basdım.

XXXXX. Sadəcə, X-lardan ibarət sətir. Əvvəlcə düşündüm ki, bu spamdır, sonra anladım ki, bu öpücüklərdir.

Bu onun saat yeddidən az sonra, yəni bir neçə saat bundan əvvəl, mən hələ öz yatağımızda yatdığım zaman göndərdiyi məktuba cavab idi.

Mən dünən axşam səni düşünərək yuxuya getdim və yuxuda gördüm ki, sənin dodaqlarını, döşünü, budlarını öpürəm. Səhər yuxudan ayıldım və mənim bütün fikirlərim səni sığallamaq və oxşamaq istəyim haqqında idi.

Əgər düşünürsənsə ki, mən ağlımı itirməyəcəyəm, böyük səhv edirsən. Səninlə bu mümkün deyil.

Onun məktublarını oxudum: onların sayı onlarla idi və “Kökləmə” qovluğunda saxlanmışdı. Aydınlaşdırdım ki, onun adı Anna Boyddur və ərim ona vurulmuşdur. O daim bu barədə yazır. Yazır ki, heç zaman belə bir hiss keçirməyib və onların birlikdə olacaqları vaxtı səbirsizliklə gözləyir, bu mütləq baş verəcək.

O gün nə hiss etdiyimi təsvir etməyə söz tapmıram, lakin indi qatarda məni qəzəb boğur. Dırnaqlarım ovcuma batır, gözlərim yaşdan qıcıqlanır. Quduza dönmüşəm. Məndən sanki nəyisə zorla alıblar. O qadın bunu necə edə bilər? Cess necə bu hərəkəti edə bilər? Ona nə olub? Məgər onların həyatı çox gözəl deyildimi? Mən heç zaman anlamadım ki, insanlar öz ürəklərinin istəyinə görə başqalarına necə bu cür laqeydliklə acı verə bilirlər. Kim dedi ki, öz ürəyinin səsini dinləmək yaxşıdır? Bu sırf eqoizmdir, hər şeyi öz ehtiraslarına tabe etmək cəhdidir. Məni nifrət bürüyür. Əgər o qadını bu saat görsəydim, Cessi görsəydim, onun üzünə tüpürərdim. Onun gözlərini cırmaqlayardım.

Axşam

Dəmir yolunda nəsə problem var. Stouka gedən 17:56 qatarını ləğv etdilər və onun sərnişinləri indi mənim qatarımda gedirlər, odur ki, vaqonda bütün oturacaqlar tutulmuşdur. Xoşbəxtlikdən mənə yer tapıldı, düzdür, pəncərə önündə deyil, keçidin yanında; buna görə də vaqona dolan adamlar mənim şəxsi sahəmə daxil olur və elə hey mənim gah çiynimə, gah da dizimə toxunurlar. Ayağa qalxıb onların hamısını geri itələmək istəyilə mübarizə aparıram. Bütün gün davam edən istilər məni cana gətirib, mənə elə gəlir ki,

maskadan nəfəs alıram. Bütün pəncərələr açıqdır, lakin qatar hərəkət etdikdə belə, elə hiss yaranır ki, biz nəm və metal kameranın içinə salınmışıq. Ciyərlərimə oksigen çatışmır. Ürəyim bulanır.

Bu səhər qəhvəxanada baş verənlər gözlərimin qarşısında daim kinolenti kimi fırlanır. Mənə elə gəlir ki, hələ də oradayam və hamı mənə baxır.

Bu işdə Cessi günahlandırıram. Mən Cessin davranışını və Ceysonun buna reaksiyasını, – o biləndə ki, yaşadığı dünya yıxılıb, necə ki, bir vaxtlar mənim də dünyam belə yıxılmışdı, – mütləq baş verəcək olan qalmaqalı ağlımdan ata bilmədim. Ətrafımda heç bir şeyin fərqinə varmadan, öz düşüncələrimə dalaraq gedirdim və qarşıma çıxan qəhvəxananın qapısını qeyri-iradi itələdim, əvvəllər işlədiyim "Hantiqton Uaytli"nin əməkdaşlarının məhz buraya gəldiklərini unutmuşdum. Onları çox gec gördüm və küçəyə geri qayıda bilmədim – mənə baxırdılar və bir anlığa onların gözləri böyüdü. Lakin tez özlərinə gəldilər, gülümsəyərək əl edib salam verdilər və oturmağa dəvət etdilər. Martin Maylz, Saşa və Harriet – bacarıqsızlıq triumviratı.

– Reyçel! – Martin məni qucaqlamaq üçün əllərini uzadaraq dedi.

Bunu gözləmirdim. Məni qucaqlayarkən əllərim eləcə yanımda qaldı. Saşa və Harriet uzaqdan havanı öpərək gülümsündülər.

– Sən burada nə edirsən?

Döşəməyə baxaraq xeyli susdum və qızarmağa başladığımı hiss etdim. Vəziyyəti daha da mürəkkəbləşdirdiyimi anlayaraq, gərgin halda gülüb cavab verdim:

– Müsahibə. Mən buraya müsahibəyə gəlmişəm.

– Doğrudan?

Martin təəccübünü gizlədə bilmədi, Saşa və Harriet isə başlarını yellədilər və gülümsədilər.

– Bəs nə firmasıdır?

İctimaiyyətlə əlaqələr üzrə firmalardan heç birinin adını xatırlaya bilmədim. Biri də yadıma düşmədi. Heç daşınmaz əmlak aqentliyinin də;

həqiqətən əməkdaşa ehtiyacı olanlar hələ bir yana qalsın. Şəhadət barmağımla dodağımı sürtərək və başımı bulayaraq dayanıb qalmışdım. Nəhayət, Martin özü sükutu pozdu:

– Tam məxfilik, doğrumu? Bəli, belə firmalar var, onlar rəsmi müqavilə bağlanana qədər məxfiliyi saxlamaqda israrlıdırlar.

Bu tam cəfəngiyyat idi və o bunu bilirdi, sadəcə, mənə yardım üçün bunu söylədi. Hamı da bunu başa düşürdü, lakin özlərini elə göstərdilər ki, guya bu həqiqətən belədir. Harriet və Saşa məndən arxa tərəfdəki qapıya baxır və nə edəcəklərini bilmirdilər.

– Gedim özümə qəhvə sifariş edim, – dedim. – Gecikmək istəmirəm.

Martin mənim qoluma girib dedi:

– Səni görməyimə çox şadam, Reyçel.

Mənə yazığı gəldiyi açıq-aşkar görünürdü. Həyatımın bu son iki ilində mərhəmət oyatmağın necə alçaldıcı olduğunu anladım. Əvvəllər bunu dərk etmirdim.

Teobalds-roudda “Holborn” kitabxanasına baş çəkmək niyyətindəydim, lakin fikrimi dəyişdim və Ridjents-parka yollandım. Parkın zooparkla birləşən o biri başına getdim, zamanı nə ilə doldurmağı düşünərək və beynimdə qəhvəxanadakı söhbəti fırladaraq çinarın kölgəsində oturdum, vidalaşdığımız zaman Martinin üzündəki ifadəni xatırladım.

Yəqin orada heç yarım saat olmamışdım ki, mobil telefonum zəng çaldı. Tom idi, ev telefonundan zəng edirdi. Öz noutbukunda bizim günəşli mətbəximizdə necə işlədiyini təsəvvürümə gətirdim, amma onun yeni həyatının şərtləri bu xatirəyə qəhər qatırdı. Təzə arvadı haradasa yaxındadır, onun yeni həyatına hiss olunmadan kölgə salaraq çay dəmləyir ya da qızcığazı yedizdirir. Mən cavab vermədiym üçün zəng səsli poçta çevrildi. Telefonu çantaya qoydum və o barədə düşünməməyə çalışdım.

Daha onu dinləmək istəmirdim, ən azından bu gün; çünki bu gün xoşagəlməzliklər onsuz da çox idi, saat isə hələ on birin yarısıdır. Təxminən üç dəqiqə gözlədim, sonra telefonu çıxardım və səs poçtunu açdım. İşgəncəyə hazır idim: indi onun səsini eşitmək mənim üçün çox ağırdır, əvvəllər

mənimlə söhbət edərkən səsi şən və yumşaq olardı, indi isə yalnız nəsihət və təskinlik verir, ya da yazığı gəlir.

– Reyçel, bu Annadır.

Mən “qapamaq” düyməsini basdım.

Nəfəsim tutuldu, başımda yüzlərlə fikir dolaşdı, ətim ürpəşdi. Qalxıb Tiçfild-stritin küncündəki mağazaya qədər getdim və dörd banka cin-tonik aldım. Elə oradaca birini açıb içdim, sonra ikincisini götürdüm. Qaçışla məşğul olanları, uşaqlı anaları və turistləri görməmək üçün arxamı qaçış zolağına çevirdim. Balaca uşaqlar kimi elə fikirləşirdim ki, onları görməsəydim, onlar da məni görməyəcəkdilər. Yenə də səs poçtunu açdım.

– Reyçel, bu Annadır.

Uzun pauza.

– Səninlə telefon zəngləri barədə danışmaq istəyirəm.

Yenə uzun pauza. O mənimlə danışır və eyni zamanda, daim işi olan arvadlar kimi nəsə edir – evi yığışdırır, ya da paltaryuyan maşına paltar doldurur.

– Qulaq as, bilirəm indi sənə nə qədər çətindir, – deyir, sanki onun buna qətiyyən dəxli yoxdur, – amma gecələr bizə zəng etməyi yığışdırmalısan. – İndi onun tonu quru və acıqlıdır. – Bizi yuxudan oyandırdığın bəs deyil, hələ Evini də oyandırırsan, bu isə yolverilməzdir! Sonra biz onu heç cür sakitləşdirə bilmirik.

“Biz onu sakitləşdirə bilmirik”. Biz. Bizi. Bizim kiçik ailəmiz. Öz qaydaları və problemlərilə. Qancıq!

O öz yumurtasını mənim yuvama atmış bir ququ quşudur! O mənim hər şeyimi əlimdən alıb! O mənim hər şeyimi əlimdən alıb, indi də zəng edib deyir ki, mənim əzablarım onu narahat edir?

Mən ikinci bankanı bitirib üçüncünü açıram. Alkoqolun xoş təsiri cəmisi bir neçə dəqiqəlik yüngüllük gətirir, sonra vəziyyətim pisləşir. Bu dəfə hətta vərdiş etdiyimdən də çox tez içdim, sürəti azaltmaq lazımdır: əgər eyni

templə davam etsəm, bunun sonu heç də yaxşı qurtarmayacaq. Elə bir hərəkət edə bilərəm ki, sonra peşman olaram. Ona özüm zəng edib demək istəyirəm ki, mən ona da, ailəsinə də tüpürürəm, lap onun uşağı ömrünün sonuna qədər yatmasın, vecimə də deyil. Ona demək istəyirəm ki, Tom ona yazdığı sözləri, – ağlını itirmək barədə – mənə də yazmışdı, bizim tanışlığımızın başlanğıcında, hələ məni özünün əbədi məhəbbəti də adlandırmışdı. Bu ondan qabaq olub. Bu sözlər heç onun da deyil – onları Henri Millerdən oğurlayıb. İndi onun sahib olduğu hər şey köhnə, istifadə olunmuş şeylərdir. Maraqlıdır, o, bütün bunlara nə deyəcək? Zəng edib maraqlanmaq istəyirəm: Anna, mənim evimdə necə yaşayırsan, mənim aldığım mebelin əhatəsində, onunla neçə illər yatdığım yorğan-döşəkdə necə yatırsan, mənim düzəltdiyim mətbəx masasının üstündə uşağı yedizdirmək necədir?

Məni hələ də heyrətləndirir ki, onlar orada qalmaq qərarına gəliblər, o evdə, mənim evimdə. Bunu mənə deyəndə inana bilmədim. Mən bu evi sevirdim. Dəmir yoluna yaxın olmasına baxmayaraq, onun alınmasında mən təkid etmişdim. Yolun yaxınlıqdan keçməsi xoşuma gəlirdi, qatarlara tamaşa etmək, təkərlərin taqqıltısını dinləmək, şəhərlərarası avtobusların nəriltisini eşitməkdən mənə daha xoş idi. Tom deyirdi ki, zaman keçdikcə köhnə dəmir yollarını dəyişəcəklər və onda bizim yanımızdan sürət ekspressləri şütüyəcək, amma mən inanmırdım. Bu evdə qalıb yaşayardım və pulum olsaydı, Tomdan onun payını alardım. Lakin pul yox idi və boşandıqdan sonra evə yaxşı qiymət verən alıcı tapmadıq. O dedi ki, özü mənə düşən payı alacaq və orada qalıb yaşayacaq, o vaxta qədər ki, uyğun qiymətə alıcı tapılacaq. Lakin belə bir alıcı tapmadı, həm də Annanı buraya gətirdi. Ev Annanın xoşuna gəldiyi üçün onlar burada qalmağa qərar verdilər. Görünür, Anna özünə və ərinə o qədər əmin idi ki, əvvəllər burada başqa bir qadının yaşamasından narahat deyildi. O, açıq-aşkar məni təhdid hesab etmir. Mən Ted Hyuzu[3] xatırladım, əvvəllər Silviya Platla yaşadığı evə Asya Vevilli gətirdiyini xatırladım: Asya Silviyanın paltarlarını geyinmiş, saçlarını onun darağı ilə daramışdı. Mən Annaya zəng edib xatırlatmaq istəyirəm ki, Asya da eynən Silviya kimi özünü dəm qazı ilə zəhərləyərək intihar etmişdi.

Görünür, qızmar günəş və içki məni mürgülətmişdi. Birdən qəfil ayıldım və təlaşla çantamı axtararaq əlimi oturacağın üzərində gəzdirdim. Çantam yerində idi. Dərim qaşınırdı. Hər yerimdə – saçlarımda, boynumda, sinəmdə

qarışqalar gəzirdi. Tez ayağa sıçrayıb onları üstümdən çırpmağa başladım. Yaxında top qovan iki yeniyetmə oynamağa ara verib gülməkdən ikiqat olaraq məndən gözlərini çəkmirdi.

Qatar dayanır. Biz düz Cecc və Ceysonun evinin qarşısındayıq, amma yolların arxasında ev görünmür – mənzərənin qarşısını həddindən çox adam kəsib. Maraqlıdır, onlar evdədirlərmi, Ceyson hadisədən xəbərdardırmı, evdən getmişdirmi, yoxsa əvvəlki yalançı həyatı yaşamağa davam edirlər?

Şənbə, 13 İyul 2013-cü İl

Səhər

İndi saat səkkiz olduğunu – uzağı on beş dəqiqə oyan-buyan ola bilər – saata baxmadan da deyə bilərəm. Mən bunu işığa görə, küçədən gələn səslərə, Ketinin otağımın qarşısındakı dəhlizin xalçasını tozsoranla təmizləməsinə görə bilirəm. Şənbə günləri Keti mütləq evi səliqəyə salmaq üçün tezdən durur, həmin günün bayram-filan olması rol oynamır. Hətta həmin gün onun ad günü olsa belə, yenə Keti erkən durub yır-yığışa başlayacaq. O deyir ki, bu onu rahatladır və istirahət günlərini yaxşı keçirməyə həvəsləndirir, bu həm də fiziki iş olduğundan, trenajor zalına getməkdən azad edir.

Ümumiyyətlə, onun belə səhər tezdən yır-yığışı və tozsoranın səs-küyü mənim vecimə deyil, çünki onsuz da yatmıram. Səhərlər yata bilmirəm, günortaya qədər yataqda yuxulu-yuxulu oyan-buyana aşa bilmirəm. Birdən ayılıram, ürəyimin bərk döyündüyünü, əsəbi nəfəs aldığımı, dilimin quruduğunu hiss edirəm və onda anlayıram ki, hər şey bitdi. Mən yuxudan ayıldım. Özümü nə qədər zorla səhər mürgüsünə dalmağa məcbur etsəm, buna müvəffəq olma şansım o qədər az olur. Həyat və işıq mənə imkan vermir. Ketinin gümrah və şən fəaliyyətinə qulaq verərək yerimdə uzanmışam, dəmir yolunun kənarındakı köhnə cındır yığını və səhər günəşinin şüaları altında oynaşını öpən Cess haqqında düşünürəm.

Qarşıda məni heç bir şeylə məşğul olmayacağım bir gün gözləyir.

Fermer bazarına gedib maral əti və bekon alıb bütün günü mətbəx plitəsinin önündə keçirmək olar.

Divanda televizor qarşısında bir fincan çayla oturub kulinariyaya aid verilişə baxmaq olar.

İdman zalına getmək olar.

Öz CV-mi yenidən yazmaq olar.

Ketinin evdən getməsini gözləyib mağazaya getmək və iki şüşə “Sovion blan” almaq olar.

O biri həyatda da mən yuxudan tez ayıldım. Bayırda 8:04 qatarı gurultu ilə keçdi. Gözümü açdım və pəncərə şüşəsini döyəcləyən yağış damcılarını dinlədim. Yanımda onu hiss edirdim – yuxulu, isti və ereksiyalı. Sonra o qəzetləri gətirməyə getdi, mən isə qayğanaq bişirdim, mətbəxdə oturub çay içdik. Sonra pivəxanaya gedib xeyli gec yemək yedik və evə gəlib televizorun qarşısında qucaqlaşaraq yuxuya getdik. Yəqin indi onun həyatı tamam başqa cürdür – şənbə günləri heç bir tənbəl seks və qayğanaq yoxdur, bunların əvəzinə başqa xoş işlər: yataqda onunla arvadının arasında nəsə mızıldanan kiçik qızcığaz. İndi o yenicə danışmağı öyrənir: yalnız “a-ta” və “a-na”lardan ibarət və ancaq valideynlərin anladığı xüsusi dildə danışır.

Köksümdə nəfəs almağa imkan verməyən bir ağrı ilişib qaldı. Nəhayət, Ketinin nə vaxt evdən çıxıb gedəcəyini gözləməyə səbrim çatmır.

Axşam

Ceysonu görməyi düşünürəm.

Bütün günü yataq otağımda oturub Ketinin getməsini gözlədim ki, bir az içəm. Amma o, heç yerə getmədi – öz yataq otağında, postda duran əsgər kimi, dözüm və mətanətlə dayanaraq “kompu təmizlədi”. Axşama yaxın daha öz həbsimə və darıxmağıma dözmədim, ona dedim ki, mən gəzməyə gedirəm. Hay-stritdəki “Uitşif” pivəxanasına getdim və üç böyük bakal şərab içdim. Əlavə iki drink də Cek Daniel viskisi. Sonra stansiyaya gedib iki banka cin-tonik aldım və qatara əyləşdim.

Ceysonu görmək fikrindəydim.

Onunla görüşmək, evinin qapısını döymək fikrində deyiləm. Buna bənzər heç bir şey. Ağılsız heç bir hərəkət etmək fikrim yoxdur. Mən, sadəcə,

qatarda onların evinin yanından keçmək istəyirəm. Onsuz da mənim elə bir işim də yoxdur, evə isə getmək istəmirəm. Sadəcə, onu görmək istəyirəm. Hər ikisini görmək istəyirəm.

Bu düzgün deyil. Mən bilirəm, bu düzgün deyil. Lakin bunda pis nə var? Mən Yustona qədər gedəcəyəm, yenidən qatara əyləşib geri qayıdacağam (Qatarlar mənim xoşuma gəlir, bunda nə var? Qatarlar əladır).

Əvvəllər mən hələ özüm olanda, Tomla romantik səyahətlər haqqında xəyallar qururdum (Düyünümüzün beşilliyində Norveçdə Bergendən Henefossa qədər və onun qırx yaşında Mavi Qatarla).

Diqqət, biz onların evlərinə yaxınlaşırıq. Hava hələ işıqlı olsa da mən pis görürəm (Gözüm iki görür. Birini yummaq lazımdır. Belə daha yaxşıdır.) Budur onlar! Bu Ceysondur? Onlar terrasda dayanıblar. Elə deyilmi? Bu Ceysondur? Bu Cessdir?

Yaxında olmaq istəyirəm, pis görürəm. Onlara yaxın getmək lazımdır. Mən Yustona getməyəcəyəm. Uitnidə qatardan enəcəyəm. (Mən Uitnidə görünməməliyəm, bu çox təhlükəlidir. Əgər Tom və ya Anna məni görsə, necə olar?)

Nə olur olsun, mən Uitnidə enəcəyəm.

Bu heç də ən yaxşı ideya deyil.

Bu çox pis fikirdir.

Qarşı tərəfdə, saçlarının rəngi zəncəfil rənginə oxşayan bir kişi oturub. Mənə baxıb gülümsəyir. Ona nəsə demək istəyirəm, lakin sözlər, mən onları tələffüz etməyə macal tapmadan öncə dilimin ucundan uçub gedir. Mən onların dadını hiss edirəm, amma deyə bilmərəm, onlar şirindir ya turş.

O mənə gülümsəyir. Yoxsa istehza edir? Deyə bilmərəm.

Bazar, 14 İyul 2013-cü İl

Səhər

Sanki nəbzim boğazımın dərinliyində, yüksəkdən və xoşagəlməz bir şəkildə döyünür. Ağzım qurudur, udqunanda ağrı hiss edirəm. Mən

pəncərəyə tərəf yana çevrilirəm. Pərdələr örtülü olsa da, onlardan gələn işıq gözlərimi ağrıdır. Əlimi üzümə yaxınlaşdırıram və barmaqlarımla göz qapaqlarıma basıram ki, ağrını azaldım. Dırnaqlarım çirklidir.

Nəsə olub. Bir saniyəliyə mənə elə gəlir ki, aşağı uçuram, elə bil kimsə altımdan yatağı çəkib. Dünən axşam. Nəsə baş verib. Nəhayət, hava ciyərlərimə dolur və mən oturuœuram, amma çox sərt şəkildə. Ürəyim şiddətlə döyünür, başım partlayır.

Yaddaşımın nə zaman geri dönəcəyini gözləyirəm. Bəzən uzun müddət gözləməli oluram. Bəzən də yaddaşım bir neçə saniyə ərzində bərpa olunur. Bəzən isə heç bir şey xatırlamaq olmur.

Nəsə çox pis bir iş baş verdi. Qovğa oldu. Qışqırtılar eşidilirdi. Dava? Bilmirəm, xatırlamıram. Mən barda idim, sonra qatara mindim, sonra stansiyada endim, küçədə oldum. Blenhaym-roudda. Mən Blenhaym-rouda getmişəm!

Bunu dərk etdikdə vahiməyə düşürəm.

Nəsə olub, bunu dəqiq bilirəm. Nə olduğunu dəqiq anlaya bilmirəm, lakin bunu hiss edirəm. Ağzımda nəsə ağrıyır, elə bil ovurdumu dişləmişəm və dilimdə qanın metal dadını hiss edirəm. Ürəyim bulanır, başım hərlənir. Əlimi başıma çəkirəm və ağrıdan diksinirəm. Sağ tərəfdə iri bir şiş var. Qana bulaşmış saçlarım bir-birinə yapışıb.

Yəqin ayağım dolaşıb, yıxılmışam. Pilləkəndə, Uitni stansiyasında. Nədir, yoxsa orada başımla harasa dəymişəm? Qatarda getdiyimi xatırlayıram, lakin sonra nə baş verdi – yaddaşımda qara bir dəlik. Dərindən nəfəs alıram, ürəyimi yavaş döyünməyə məcbur etməyə və köksümdə artan vahiməni söndürməyə çalışıram. Düşün! Mən nə etdim? Mən pivəxanaya getdim, sonra qatara mindim. Orada bir kişi vardı – indi xatırlayıram ki, onun sarı saçları vardı. O mənə gülümsədi. Deyəsən o nəsə deyirdi, dəqiq olaraq nə dediyini xatırlaya bilmirəm. Onunla bağlı yenə nəsə var, bunu xatırlayıram, amma məhz nə olduğunu yaddaşımın qara dəliyindən çıxara bilmirəm.

Məni dəhşət bürüyür, amma məni dəqiq olaraq nəyin qorxutduğu anlaşılmır və bu səbəbdən qorxu daha da güclənir. Mən hətta bilmirəm, doğrudanmı nədənsə qorxmaq lazımdır. Otağı gözdən keçirirəm. Yatağın

yanındakı tumbada telefon yoxdur. Çantam nə döşəmə üzərində, nə də həmişə asdığım stulun başındadır. Yəqin o haradasa buralardadır, çünki mən evdəyəm, açarlar isə çantamda idi.

Yataqdan çıxıram. Çılpağam. Qarderobdakı böyük güzgüdə özümə göz gəzdirirəm. Əllərim əsir. Kirpiklərimdəki tuş yanaqlarıma yayılıb, alt dodağımda yara var. Ayaqlarımda qançırlar. Ürəyim bulanır. Yenidən yatağımda otururam, başımı dizlərimə əyərək gözləyirəm ki, ürək bulanması keçsin. Sonra ayağa qalxıram, xalatı götürüb qapını azca aralayıram, yarıqdan dəhlizə baxıram. Mənzildə sakitlikdir. Nədənsə əminəm ki, Keti evdə yoxdur. O deyirdi ki, Demyengildə qalacaq? Mənə elə gəlir ki, hə, amma xatırlamıram nə zaman. Mən getməmişdən qabaq? Yoxsa biz sonra danışmışdıq? Ketinin yataq otağının qapısı açıqdır. Baxıram. Yatağı yığışdırılıb. Ola bilər ki, o, artıq yuxudan oyanıb və yerini yığmağa macal tapıb, amma mənə elə gəlir ki, o evdə gecələməyib. Bu məni sevindirir. Əgər o evdə olmamışsa, onda mənim necə qayıtdığımı görməyib, eşitməyib, deməli, mənim halımdan xəbəri yoxdur. Əslində bunun mənə dəxli olmamalıdır, lakin vəziyyət başqadır: mənim hiss etdiyim xəcalət hissi təkcə situasyanın ağırlığı ilə deyil, həm də onun şahidi olmuş insanların sayı ilə müəyyən edilir.

Pilləkənin yuxarısında yenidən ürəyim bulanır və mən məhəccərdən bərk-bərk yapışıram. Ən böyük qorxularımdan biri (nəhayət, içkidən mənim qaraciyərim parçalandığı zaman qarnımda ola biləcək qanaxma qorxusu ilə yanaşı) – pilləkəndən yıxılıb boynumu qırmaq qorxusudur. Bunu düşünmək yenidən məndə ürək bulanması yaradır. Uzanmaq istəyirəm, amma əvvəlcə çantamı tapıb telefonu yoxlamalıyam. Hər şeydən əvvəl, ən azından kredit kartlarımı itirmədiyimi və həm də kimin nə zaman mənə zəng etdiyini bilməliyəm. Çantam dəhlizdə qapının ağzına atılmışdı. Yanında cins paltarlar və hələ qapıdan girəndə sidik qoxusu verən alt paltarı vardı. Mən çantanı qapıb telefonu axtarıram – şükürlər olsun, əzilmiş iyrimiliklər və üstünə qan bulaşmış salfet kağızı arasında onu tapıram. Yenə ürək bulanması başlayır, bu dəfə daha güclü. Hiss edirəm ki, buradaca qusacağam, ona görə də özümü vanna otağına çatdırmaq üçün yuxarı qaçıram, lakin çatmıram və düz pilləkənin ortasında xalçanın üstünə mədəmi boşaldıram.

Mənə uzanmaq lazımdır. Əgər uzanmasam, sadəcə, olaraq huşumu

itirəcəyəm və aşağı yıxılacağam. Buraları sonra təmizləyərəm.

Yuxarıda telefonu dolmağa qoyuram və yatağa uzanıram. Sonra ehtiyatla ayaqlarımı gözdən keçirirəm. Dizimdən yuxarı çoxlu göyərmələr var – içkili halda yeriyərkən müxtəlif əşyalara dəyərək hərəkət edənlər üçün adi haldır. Əlimdəki qançırlar daha ciddidir – onlar daha qara və uzunsovdurlar, bərk yapışmaq izləridir. Amma bu heç də pis bir şeyə dəlalət etmir: məndə belə şeylər olmuşdu, əsasən də içib yıxılanda və mənə qalxmaq üçün yardım etdiklərində. Başımdakı şiş göynəyir, lakin onun meydana gəlməsinin səbəbi tamamən sadə ola bilər: məsələn, maşına oturarkən başım dəyib. Evə gəlmək üçün taksidən istifadə etmiş ola bilərəm.

Telefonu götürürəm. Orada iki səsli mesaj var. Biri Ketidən saat altıya yaxın, harada olduğumu soruşur. O, Demienin yanına gedir və gecə onunla qalacaq, odur ki, biz yalnız sabah görüşəcəyik. Ümid edir ki, mən içmirəm. İkinci mesaj – artıq Tomdandır və 10:15-də alınıb. Onun qışqırığını eşidib az qala telefonu əlimdən salacaqdım:

“İlahi, Reyçel, sən nə zaman, sakitləşəcəksən?! Mən artıq cana doydum, anladın? Mən ətrafda səni tapmaq üçün az qala bir saat maşın sürdüm. Sən Annanı ölümcül qorxutdun, fərqindəsən? O düşünürdü ki, sən... Mən onu polisə müraciət etməkdən zorla saxlamışam. Bəsdir, bizi sakit burax. Mənə zəng etmə, əl çək, sadəcə, bizi rahat burax! Mən səninlə danışmaq istəmirəm. Başa düşdün? Nə səninlə danışmaq, nə də səni görmək istəyirəm. Mənim ailəmdən uzaq dur. Öz həyatınla istədiyini edə bilərsən, lakin mənim həyatımı məhv etməyə sənə imkan vermərəm. Bəsdir! Sənin hərəkətlərini daha ört-basdır etməyəcəyəm, anladın? Sadəcə, bizdən uzaq dur”.

Bilmirəm mən nə eləmişəm. Nə? Saat 5-dən 10:15-ə qədər nə ilə məşğul olmuşam? Nəyə görə Tom məni axtarırmış? Annaya mən nə etmişəm? Adyalı başıma çəkib gözlərimi bərk yumuram. Evə necə yaxınlaşdığımı təsəvvürümə gətirirəm: onların bağını qonşularınkından ayıran ensiz zolaqla gedirəm, çəpərdən adlayıram. Şüşə qapını necə açdığımı təsəvvür edirəm; gözə çarpmadan mətbəxə keçirəm. Anna masa arxasında oturub. Arxadan onun sarı saçlarından yapışıb özümə tərəf çəkirəm. O yıxılır və mən onun başını soyuq mavi plitələrə vururam.

Axşam

Kimsə qışqırır. Günəş şüalarının pəncərəyə necə düşməsindən anlayıram ki, çox yatmışam. İndi yəqin artıq axşama yaxındır. Başım partlayır, yastıqda qan var. Aşağıdan gələn qışqırığı eşidirəm:

– Gözlərimə inana bilmirəm! Tanrı eşqinə! Reyçel! REYÇEL!!!

Mən yatmışam. İlahi! Mən pilləkənlərdən qusuntunu təmizləməmişəm. Nə də qapının ağzındakı paltarları yığışdırmışam. Aman Allah!

İdman şalvarını və köynəyi əynimə keçirib qapını açıram. Keti düz qapının qarşısında dayanıb, məni gördükdə dəhşətə gəlir.

– Sənə nə olub? – o soruşur və o saat da əlini qaldırır. – Ümumiyyətlə, Reyçel, bağışla, amma mən bunu bilmək istəmirəm. Mən öz evimdə belə şeylərə dözə bilmərəm! Dözə bilmərəm... – o cümləni bitirmir, geri dönərək pilləkəndən aşağı baxır.

– Bağışla, – mən deyirəm. – Bilirəm, yaxşı iş görməmişəm, amma vəziyyətim doğrudan da pis idi, mən yır-yığış etməyi düşünürdüm...

– Sənin vəziyyətin pis deyildi, düzdür? Sən, sadəcə olaraq, içib sərxoş oldun. Sonra da içki sonrası sindromu oldu. Bağışla, Reyçel. Daha belə davam edə bilməz. Mən belə yaşaya bilmərəm. Sən getməli olacaqsan, sözləşdikmi? Özünə yeni yaşayış yeri tapmaq üçün, sənə dörd həftə vaxt verirəm, sonra sən gedəcəksən. – O çevrilib öz otağına gedir. – Bir də, lütfən, bu zir-zibili yığışdır və təmizlə! – Və qapını bərk çırpır.

Təmizliyi bitirdikdən sonra öz otağıma qayıdıram. Ketinin otağının qapısı hələ də qapalıdır, lakin hiss edirəm ki, o, heç cür sakitləşə bilmir. Əgər evə qayıdıb dəhlizdə sidikli alt paltarı və pilləkəndə qusuntu ilə rastlaşsaydım, mən özüm də quduza dönərdim. Yataqda oturdum, noutbuku açaraq poçta girdim və anama məktub yazmağa başladım. Görünür, kömək üçün müraciət etməyin vaxtı çatıb. Başqa çıxış yolu yoxdur. Əgər mən evə qayıtsam əvvəlki həyat tərzini davam etdirə bilməyəcəyəm, daha yaxşı olmağa, dəyişilməyə məcbur olacağam. Lakin mən söz seçməkdə çətinlik çəkirəm, bilmirəm bunu anama necə izah edim. Kömək üçün yalvarışlarımı oxuyanda onun üzündə hansı hisslərin əks olunacağını təsəvvür edirəm: məyusluq və əsəbilik. Mən az qala onun köks ötürməsini eşidirəm.

Telefon siqnal verir. Bir neçə saat əvvəl alınmış səs mesajını yada salır. Bu yenə Tomdur. Mən onu daha dinləmək istəmirəm, lakin zəngi də nəzərə almaya bilmərəm. Səs poçtunu açaraq özümü ən pisinə kökləyirəm.

– Reyçel, mənə zəng et, yaxşımı? – Onun səsində daha acıq yoxdur və mən bir az yüngülləşirəm. – Mən əmin olmaq istəyirəm ki, sən evə normal gedib çıxmısan. Dünən sən elə halda idin ki! – Uzun və səmimi bir köks ötürmə. – Qulaq as, dünən özümdən çıxıb, sənin üstünə qışqırdığıma təəssüf edirəm. Mənim sənə çox yazığım gəlir, Reyçel, həqiqətən, lakin belə davam edə bilməz.

Mən bir neçə dəfə təkrar bu səsli mesajı dinləyirəm, onun səsində səmimi notlar eşidirəm və gözlərim yaşarır. Uzun müddət ağlayıram, sonra mesaj yazıb göndərirəm və xəbər verirəm ki, evdəyəm. Başqa bir şey əlavə edə bilmərəm, çünki nəyə görə üzr istəyəcəyimi bilmirəm. Annaya nə etdiyimi, onu nə ilə qorxutduğumu bilmirəm. Düzünü desəm, bu məni o qədər də narahat etmir, amma Tomun həyatına zərər vurmağım məni narahat edir. Onun nələrdən keçdiyini nəzərə alsaq, xoşbəxtliyə haqqı var, heyif ki, artıq mənimlə deyil.

Uzanıram və adyalın altına girirəm. Nə baş verdiyini və nəyə görə utanmalı olduğumu bilmirəm. Yaddaşımın ələ gəlməyən qırıntılarından bir məna çıxarmağa çarəsizcə cəhd edirəm. Şübhə yoxdur ki, hansısa mübahisənin şahidi olmuşdum. Anna iləmi? Əlimi saçlarıma çəkir və dodağımdakı yaraya toxunuram. Budur, davanın mənzərəsi yaddaşımda oyanmağa başlayacaq və nə dediklərini eşidəcəyəm. Artıq mənzərənin mənə aşkar olacağını zənn edərkən hər şey yenidən qaranlığa gömülür.

3 Edvard Ceyms Hyuz(1930-1998) – İngilis şairi və uşaq yazıçısı, “Britaniyanın müharibə sonrası 50 ən yaxşı yazıçıları” siyahısında dördüncü yeri tutmuşdu.

3 Edvard Ceyms Hyuz(1930-1998) – İngilis şairi və uşaq yazıçısı, “Britaniyanın müharibə sonrası 50 ən yaxşı yazıçıları” siyahısında dördüncü yeri tutmuşdu.

# Meqan

Çərşənbə axşamı, 2 oktyabr 2012-cİ İl

Səhər

Tezliklə yağış yağacaq, mən onun yaxınlaşmasını hiss edirəm. Soyuqdan donmuşam və dişlərimin bir-birinə dəyməsi başımda əks olunur, barmaqlarım ağarıb, ucları isə gömgöydür. Lakin evə getməyi düşünmürəm. Mənə burada durmaq xoşdur, bu buzlu xaç suyunda təmizlənməyə bənzəyir. Onsuz da tezliklə Skott gələcək, məni evə sürüyüb aparacaq, uşaq kimi adyala bükəcək.

Dünən axşam evə qayıdarkən yolda birdən-birə vahiməyə düşdüm. Orada bir motosikletçi vardı, tez-tez qaz verir, mühərriki nərildədirdi. Səkinin kənarı ilə qırmızı bir maşın yavaş-yavaş gedirdi, elə bil sürücü fahişə axtarırdı, mənim yolumu isə kolyaskalı iki qadın kəsmişdi. Mən səkidə onların yanından keçə bilməzdim, maşın yoluna addım atdım, bir möcüzə əsəri əks tərəfə gedən maşının təkərləri altına düşmədim, onu mən heç görmürdüm. Sürücü siqnala basıb mənə nəsə qışqırdı. Nəfəsimi dərə bilmirdim, ürəyim dəhşətli dərəcədə döyünürdü, qarnımda isə qusmaq dərmanı qəbul edərkən olduğu kimi bir yumaq əmələ gəlmişdi. Adrenalinin artması eyni zamanda ağrı, həyəcan və qorxu oyandırır.

Mən evə tərəf atıldım, evdən qaçaraq keçdim və relslərə çıxdım, orada oturaraq qatarı gözləməyə başladım, onun gurultusu bütün qalan səsləri batıracaq. İstəyərdim ki, Skott gəlib məni sakitləşdirsin. Amma o evdə yox idi. Mən çəpərdən aşmaq və kimsənin gəzmədiyi o biri tərəfdə bir az oturmaq istədim, lakin əlimi kəsdim və evə dönməyə məcbur oldum. Sonra da Skott gəldi və nə baş verdiyini soruşdu. Cavab verdim ki, qab yuyarkən stəkanı sındırmışam. O inanmadı və çox dilxor oldu.

Dünən gecə Skott yatarkən, sakitcə yataqdan sivrilib çıxdım və terrasa keçdim. Nömrəni yığdım və o dəstəyi götürəndə səsinə qulaq asdım: o əvvəlcə sakitcə, yuxulu-yuxulu danışırdı, sonra daha yüksəkdən, sonra isə həyəcan və acıqla danışdı. Mən “qapama” düyməsini basdım və onun zəng edib-etməyəcəyini gözlədim. Öz nömrəmi blok etmədim, odur ki, nömrə mütləq onun telefonunda qeyd olundu, mənə elə gəldi ki, o zəng edə bilər. Lakin o zəng etmədi, ona görə də mən yenə zəng etdim, sonra yenə, yenə.

Çağırış səs poçtuna keçdi: öz yumşaq səsilə ilk fürsətdəcə zəng edəcəyini işgüzarcasına vəd etdi. Onun ofisinə zəng edib sonrakı seansımın vaxtını dəyişmək istədim, lakin başa düşdüm ki, onların avtomatlaşdırılmış sistemi gecələr yəqin işləməz, ona görə də yatağa geri döndüm. Gecə gözümü belə yummadım.

Səhər mən Korli-Vuda gedib bir neçə şəkil çəkə bilərəm. Səhər bura dumanlı, alatoran və mənzərəli olacaq, odur ki, yaxşı alınmalıdır. Düşündüm ki, bəlkə balaca şəkilciklər düzəldib onları Kinqli-rouddakı suvenir dükanında satmağa cəhd etməyə dəyər. Skott hələ də mənə iş barədə narahat olmamağımı, sadəcə, istirahət etməli olduğumu söyləməyə davam edirdi. Elə bil mən əliləm-nəyəm! Mənə lazım olan şey istirahət deyil. Mənə günlərimi dolduracaq bir iş tapmaq lazımdır. Bu olmasa, hər şeyin nə ilə bitəcəyini bilirəm.

Axşam

Günün ikinci yarısındakı seansda doktor Abdik-Kamal – o özünü mənə bu cür adlandırmağa icazə verdi – gündəlik yazmağı sınaqdan keçirməyi təklif etdi. Mən az qala bunun mümkün olmadığını söyləyəcəkdim, çünki mən qorxuram ki, onu ərim oxuyacaq. Amma demədim, çünki bunun Skotta qarşı yaxşı hərəkət olmayacağını düşündüm. Lakin bu həqiqətdir. Mən heç zaman öz hisslərimi, fikirlərimi və hərəkətlərimi yaza bilmədim. Bunun səbəbinə dair bir misal: bu axşam evə qayıtdıqda noutbukum isti idi. O brauzerin tarixini silməyi, öz izini gizləməyi və bu kimi şeyləri yaxşı bacarır, amma mən dəqiq bilirəm ki, evdən çıxanda noutbuku söndürmüşdüm. O, yenə mənim elektron poçtumu oxuyub.

Ümumiyyətlə, bu məni həyəcanlandırmır, çünki orada elə bir şey yoxdur (İş təklif edən firmalardan spam, bir də Cennidən məktub: kulinar klubunda pilateslə məşğul olmaqda ona yoldaşlıq etməyimi təklif edir, klub üzvləri növbə ilə bir-birini cümə axşamında şam yeməyinə qonaq edirlər. Ölsəm də getmərəm). Bu məni pərt etmir, çünki bu onda mənə qarşı əminlik yaradır ki, mənim qətiyyən belə fikrim yoxdur. Bu da mənim üçün yaxşıdır – bizim üçün yaxşıdır – hətta bu həqiqət deyilsə belə. Mən ona acıqlana bilmərəm, çünki daim sayıq olmaq üçün onun əsası var. Artıq ona qısqanclıq üçün əsas vermişdim və yəqin ki, sonuncu dəfə deyil. Mən nümunəvi bir arvad deyiləm.

Heç ola da bilmərəm. Onu nə qədər çox sevsəm də, yenə o mənə azlıq edəcək.

Şənbə, 13 oktyabr 2012-cİ İl

Səhər

Dünən gecə beş saat yatmışam, belə bir şey çoxdan olmamışdı. Ən təəccüblüsü də bu idi ki, evə elə vəziyyətdə gəlmişdim ki, uzun müddət evdə dolaşıb sakitləşə bilməyəcəyimdən bir saniyə də şübhə etmirdim. Öz-özümə deyirdim – bu bir daha təkrar olunmayacaq, xüsusilə o dəfəkindən sonra, lakin onu görəndə və istəyəndə, düşündüm: niyə də olmasın? Mən anlamıram, niyə özümü məhdudlaşdırmalıyam, axı bunu çox adamlar özlərinə rəva bilirlər. Kişilər, məsələn. Heç kəsin xətrinə dəymək istəmirəm, lakin heç olmasa öz-özümüzlə dürüst olmalı deyilikmi? Mən həqiqətdə necəyəmsə, elə olmaq istəyirəm. Məni bu cür heç kəs tanımır – nə Skott, nə Kamal, ümumiyyətlə, heç kim.

Dünən axşam pilates kursundan sonra Taradan soruşdum ki, gələn həftə o mənimlə kinoya getmək istəyirmi? Sonra da mənə kömək etməsini xahiş etdim.

– Əgər o zəng etsə, ona deyə bilərsən ki, mən səninləyəm, sadəcə, tualetə getmişəm, ona zəng edəcəyəm? Sonra sən mənə zəng edirsən, mən də ona, və hamı razı qalır.

Tara gülümsədi, çiyinlərini çəkdi və razı oldu.

– Yaxşı.

O, hətta heç maraqlanmadı, haraya və kiminlə gedirəm. O, həqiqətən mənim rəfiqəm olmaq istəyir.

Onunla Korlidə “Qu quşu” hotelində görüşdüm, o orada bizim üçün otaq tutdu. Biz ehtiyatlı olmalıyıq, biz ələ keçə bilmərik. Bu onun üçün bütün ümidlərin puç olması demək olardı. Mənim üçün də əsl fəlakət. Skottun özünü necə aparacağını heç düşünmək belə istəmirəm.

O sonra mənimlə gənclik illərimdə Norviçdə olmuş hadisələr haqqında danışmaq istəyirdi. Artıq bu barədə ötəri danışmışdım, lakin dünən o

detallarını da bilmək istədi. Ona çox şeylər uydurub dedim, amma həqiqəti deyil. Mən uydururdum, onun eşitmək istəmədiyi pis şeylər danışırdım, yalan söyləyirdim. Gülməli idi. Mən yalan danışmaqdan utanmıram. Həm də o yəqin ki, hamısına inanmadı. Şübhə etmirəm ki, o da yalan danışır.

O, yataqda uzanıb mənim necə geyinməyimə baxırdı. Sonra dedi:

– Bu bir daha təkrar olunmamalıdır, Meqan. Sən özün bunu bilirsən. Biz buna son verməliyik.

O haqlı idi. Mən bilirəm ki, biz buna son verməliyik. Biz davam etməməliyik, lakin mütləq edəcəyik. Bu gün də sonuncu deyil. O mənə yox deyə bilmir. Bu barədə evə dönərkən yolda düşündüm, ən çox mənim xoşuma gələn də budur – başqa insan üzərində öz hökmünü hiss etmək. Bu ən sərxoşedici bir hissdir.

Axşam

Mən mətbəxdə şərab şüşəsini açıram, Skott arxadan yaxınlaşır, əllərini çiyinlərimə qoyur və soruşur:

– Psixoterapevtlə seans necə keçdi?

Cavab verirəm ki, yaxşı keçdi, irəliləyiş var. Mənim ətraflı danışmayacağıma artıq alışıb. Birdən o daha bir sual verir:

– Dünən Tara ilə yaxşı şənləndiniz?

Arxam ona sarı oturmuşam və bilmirəm ki, o bunu elə-belə soruşur, yoxsa nədənsə şübhələnib? Səsindən bunu anlamaq mümkün deyil.

– O əladır, – cavab verirəm. – Siz sözsüz bir-birinizi xoşlayarsınız. Gələn həftə kinoya getməyi düşünürük. Bəkə sonra onu bizə şam yeməyinə gətirim?

– Bəs məni kinoya dəvət etmək istəmirsiniz? – o soruşur.

– Hər zaman gözümüz üstə yeriniz var, – cavab verirəm, geri dönüb dodağından öpürəm, – lakin Tara, Sandra Ballokun iştirak etdiyi bir filmə baxmaq istəyir, odur ki...

– Daha bir kəlmə də demə! Seansdan sonra onu gətir, – o deyir və məni

belimdən qucaqlayıb yüngülcə özünə sıxır.

Mən şərab süzürəm və biz həyətə çıxırıq. Çəmənliyin qarşısında əyləşib, ayaq barmaqlarımızı otlara toxundururuq.

– O evlidir? – Skott soruşur.

– Tara? Yox. Təkdir.

– Boyfrendi də yoxdur?

– Belə görünür ki, yoxdur.

– Doğrudan? – o, qaşlarını qaldıraraq təəccüblənir və mən cavabında gülürəm. – Bəs onda onun neçə yaşı var?

– Düşünürəm ki, qırxa yaxın.

– Aydındır. Təkdir. Məyus oldum.

– Sənə həmişə təklər rast gəlir, doğrudur? Onlar üçün sən dəfedilməzsən.

– Elə düşünürsən? Onda yəqin onun uşaqları da yoxdur? – az sükutdan sonra o soruşur.

Bəlkə bu mənə belə gəlir, lakin hər dəfə uşaqlardan söhbət gedəndə onun səsində bir gərginlik duyuram. Hiss edirəm ki, biz qovğa edə bilərik və mən bunu istəmirəm, ona görə də qalxıram və bakalları götürməsini xahiş edirəm, axı biz yatağa gedirik.

O mənim arxamca gəlir və mən pilləkənlərlə qalxarkən paltarlarımı soyunmağa başlayıram, biz yataq otağına çatanda o məni yatağa atır, amma mən heç onun barəsində düşünmürəm, lakin bu önəmli deyil, çünki o bu barədə bilmir. Onu yalnız onun haqqında düşündüyümə inandırmaq üçün kifayət qədər təcrübəm var.

Reyçel

---

Bazar ertəsİ, 15 İyul 2013-cü İl

Səhər

Səhər mən evdən çıxanda Keti məni səslədi və xəfifcə qucaqladı. Ümid edirdim ki, o deyəcək ki, hər halda məni qovmamaq qərarına gəlib. Amma Keti yalnız tarixi göstərilməklə evdən çıxarılmaq haqqında printerdə yazılmış rəsmi xəbərdarlığı mənim əlimə verdi. Bu sırada o, baxışlarını gizlədirdi. Mənim ona yazığım gəldi, həqiqətən, lakin özümə yazığım gəldiyi kimi yox. Keti təqsirkarcasına gülümsünüb dedi:

– Sənə qarşı bu cür davranmaq mənə dəhşətli dərəcədə ağırdır, Reyçel. İnan, lütfən.

Hər ikimiz son dərəcə pərt idik. Dəhlizdə dayanmışdıq, orada isə xlorlu su ilə bütün səylərimə baxmayaraq, xoşagəlməz qoxu hələ də qalırdı. Gözlərim yaşardı, lakin istəmirdim ki, o özünü indikindən daha pis hiss eləsin, buna görə də onu ürəkləndirərək gülümsədim və dedim:

– Heç bir problem yoxdur, narahat olma, – elə bil o məndən hansısa kiçik bir şey xahiş etmişdi.

Qatarda göz yaşlarıma sərbəstlik verirəm, mənə baxdıqlarını da vecimə almıram. Onlar hardan bilsinlər, mənə nə olub? Bəlkə mənim itciyəzim maşın altına düşüb. Ya da indicə mənə ölümcül bir diaqnoz qoyublar. Yaxud mən sonsuzam, boşanmışam və tezliklə evsiz akoholik olacağam.

Başıma gələnlər məni heyrətləndirməyə bilməz. Bu vəziyyətə necə gəlib çıxdım? Mənim üzü aşağı yuvarlanmağım hansı andan başladı? Özümdən soruşuram: nə zaman mən bunu dayandıra bilərdim, nə zaman səhv buraxdım? Hər halda Toma rast gələndə deyil, o məni atam öldükdən sonra ümidsizlikdən xilas etdi.

Nə də yeddi il əvvəl soyuq bir may günündə biz ev lənərkən deyil. Biz çox qayğısız idik və sözün əsl mənasında səadət içində üzürdük. Mən xoşbəxt, zəngin və müvəffəqiyyətli idim. Nə də biz mənim ən cəsur xəyallarımdakından da geniş və gözəl olan və çox zərif bir yaşda, 26 yaşımda yaşayacağım 23 nömrəli evə köçəndə deyil. O ilk günləri çox yaxşı xatırlayıram: ayaqyalın gəzərək, taxta döşəmənin istisini hiss etdiyimi, genişlikdən, bütün bu otaqların dolmağı gözləyən boşluğundan həzz aldığımı. Tomla planlar cızırdıq: bağda nə əkəcəyik, divarlardan nə asacağıq, qonaq otağını nə rəngdə rəngləyəcəyik, – mən hələ o zamanlar təsəvvür edirdim ki,

orada uşaq otağı olacaq.

Yəqin hər şey elə onda başladı. Dönüş nöqtəsi də o zaman oldu ki, mən ailə olduğumuzu qərara alaraq, daha özümüzü cüt hesab etmədim. Bundan sonra mənim tam xoşbəxtlik haqqında təsəvvürümdə biz ikimiz artıq yetərli ola bilməzdik. Bəlkə Tom məhz o zaman mənə başqa cür baxmağa başladı və onun məyusluğu mənimkinin inikası idi? Öz həyatını mənimki ilə bağlayaraq mənim üçün etdiyi hər şeydən sonra, ona hiss etdirdim ki, tək o mənim üçün azdır.

Nortkouta qədər ağlamağı özümə rəva gördüm, sonra özümü ələ aldım, gözlərimi sildim və etməli olduqlarımın siyahısını Ketinin mənə təqdim etdiyi evdən çıxarılma xəbərdarlığının arxasına yazmağa başladım:

"Holborn" kitabxanası.

Anama elektron məktub göndərmək.

Martinə təqdimat üçün elektron məktub göndərmək.

Anonim içki düşkünlərinin mərkəzi London/Eşberidə keçiriləcək toplantı haqqında öyrənmək.

Ketiyə iş haqqında danışmaq (?)

Qatar semaforda dayanarkən gözlərimi qaldırır və Ceysonu görürəm – o terrasda dayanıb bizə doğru baxır. Mənə elə gəlir ki, onun baxışları düz mənə yönəlib. Sanki bu artıq bir dəfə olmuşdu və o həqiqətən məni görmüşdü – bu hiss məni tərk etmirdi. Onun mənə necə baxıb gülümsədiyini xəyalıma gətirir və nədənsə qorxu hiss edirəm.

O üzünü çevirir və qatar tərpənir.

Axşam

Universitet kolleci xəstəxanasının "Təcili yardım"ının qəbul şöbəsində oturmuşam. Qreys-İnn roudu keçərkən məni taksi vurmuşdu. Dərhal qeyd etmək istəyirəm ki, qətiyyəm içməmişdim, düzdür, çox dilxordum – hətta ümidsizliyin son həddində idim. Sağ gözümün üstündə bir düym uzunluğunda çapıq var – tikişi nadir dərəcədə gözəl həkim-stajer qoydu –

təəssüf ki, o əsl işgüzarlıq mücəssəməsi idi və uyğun şəkildə davranırdı. Tikişləri bitirərək başımdakı şişkinliyə diqqət yetirdi.

– O, əvvəldən var idi, – mən izah edirəm.

– Təzə görünür, – o etiraz edir.

– Bu gün artıq deyil.

– Kiminləsə savaşmısınız?

– Maşına oturarkən dəymişəm.

O mənim başımı diqqətlə nəzərdən keçirir və maraqlanır:

– Doğrudan? – Bir addım geri çəkilərək gözlərimə baxır. – Amma elə görünür ki, elə bil sizi kimsə vurub, – o deyir və mən hiss edirəm ki, üşüyürəm.

Zərbədən yayınmaq üçün geri əyildiyimi və əllərimi qabağa verdiyimi xatırlayıram. Doğrudanmı elə belə də olmuşdu? Həkim yenidən yaxın gəlir və yaranı gözdən keçirir.

– Zərbə iti bir şeylə vurulub, istisna deyil ki, diş-diş bir şeylə...

– Yox əşi, – mən öz dediyimin üstündə dururam, – avtomobildə olub. Maşına oturarkən dəymişəm.

Onu inandırmaqdan çox özümü inandırmağa çalışıram.

– Olsun, – o gülümsünür, yenə bir az geriyə çəkilir və əyilir ki, gözlərimiz eyni səviyyədə olsun. – Sizdə hər şey qaydasındadır... – o qeydlərə baxır. – Reyçel?

– Bəli.

O uzun-uzadı mənə baxır. Mənə inanmır. Narahatdır. Yəqin hesab edir ki, məni ərim döyüb.

– Yaxşı. Mən yaranı yuyaram, çünki o qorxunc görünür. Bəlkə mən kiməsə zəng edim? Ərinizə?

– Mən boşanmışam, – ona deyirəm.

– Onda başqa kiməsə? – Mənim boşanmış olmağım onun vecinə deyil.

– Rəfiqəmə, lütfən. O mənim üçün narahat olar.

Ona Ketinin adını və telefon nömrəsini verirəm. Dəqiq bilirəm ki, Keti heç həyəcanlanmayacaq, həm də evə getməyim üçün hələ çox tezdir, amma məni maşın vurduğunu eşidib, bəlkə rəhmə gələr və dünənkini bağışlayar. Yəqin düşünəcək ki, içkili olduğuma görə maşının altına düşmüşəm. Görəsən, həkimdən qan analizi etməsini xahiş etmək olar ki, içkisiz olduğumun sübutunu Ketiyə təqdim edə bilim? Mən ona gülümsünürəm, lakin o mənə baxmır, nə isə yazır. İstənilən halda bu axmaq fikirdir.

Baş verən hadisədə müstəsna olaraq mən özüm günahkaram, taksi sürücüsünün bunda heç bir günahı yoxdur. Mən düz maşının altına addımlamışam. Birdən haraya qaçmağa qərar verdiyim barədə anlayışım belə yoxdur. Yəqin heç bir qərar verməmişəm, ən azından özüm barədə düşünməmişəm. Mənim bütün fikrim Cesslə bağlı idi. O da heç Cess deyilmiş, itkin düşmüş Meqan Hipvell imiş.

Mən Teobalds-roudda kitabxanada idim, anama elektron poçtu ilə öz “Yahoo”dakı qutumdan məktub göndərirdim (orada elə vacib bir şey yazmamışdım, sadəcə, analıq hisslərinin vəziyyətini yoxlamaq istəyirdim). Bu axtarış motorunun birinci səhifəsində yeniliklər yerləşdirilir, onlar da poçt səhifəsində görünür – mənim təsəvvürüm belə yoxdur ki, onlar ünvanımı haradan bilirlər, amma fakt faktlığında qalır. Orada onun şəkli vardı – Cessin şəkli, mənim Cessimin, həmin ideal sarışının, yanında da başlıq “UİTNİDƏ QADIN İTMİŞDİR”.

Əvvəlcə əmin deyildim. Şəkildəki qız oxşayırdı, daha doğrusu, mən onu təsəvvür etdiyim kimi görünürdü, bununla belə, şübhə edirdim. Sonra məqaləni oxudum, küçənin adını gördüm, bütün şübhələrim yox oldu.

Bakingemşir polisi, itkin düşmüş 29 yaşlı, Uitni, Blenhaym-roudda yaşayan Meqan Hipvellin taleyindən narahatdır. Missis Hipvellin əri Skott Hipvell son dəfə öz arvadını şənbə günü axşam saat yeddidə öz rəfiqəsigilə qonaq gedərkən görmüşdür. Mister Hipvellin sözlərinə görə, “bu onun xarakterinə tamamilə uyğun deyil”. Missis Hipvell – arıq, mavi gözlü, sarışın, 5 fut 4 düym boyunda, cins və qırmızı idman köynəyi geymişdi. Missis

Hipvell haqqında hər hansı informasiyası olan hər kəsdən qraflığın polisi ilə əlaqə saxlamağı xahiş edirik.

O itkin düşüb. Cess itkin düşüb. Şənbə günündən yoxdur. Mən “Google”də axtarış apardım – onun haqqında məqalə “Uitni-Arqus”da olub, ancaq təfərrüatsız. Mən Ceyson haqqında, daha doğrusu, Skott haqqında düşündüm: o necə səhər-səhər terrasda dayanıb mənə baxır və gülümsünürdü. Çantamı qapıb kitabxanadan çölə atıldım və yolun maşın gedən hissəsində özümü taksinin qarşısına verdim.

– Reyçel! Reyçel! – Yaraşıqlı həkim mənim diqqətimi cəlb etməyə çalışırdı. – Rəfiqəniz sizi aparmaq üçün gəlib.

# Meqan

Cümə axşamı, 10 yanvar 2013-cü İl

Səhər

Bəzən heç yerə getmək istəmirəm və bəzən də mənə elə gəlir ki, daha heç vaxt evin astanasından içəri ayaq basmasam xoşbəxt olaram. Hətta iş üçün də darıxmıram. Mən, sadəcə olaraq, öz sığınacağımda, təhlükəsizlikdə və istidə Skottla birlikdə olmaq və kimsənin buna mane olmamasını istəyirəm.

Yaxşı ki, indi qaranlıq və soyuqdur, hava zəhlətökəndir. Yaxşı ki, artıq bir neçə həftədir, kəskin külək həmlələri ilə soyuq və mənfur yağış yağır. Onların təzyiqi altında ağaclar qatarların səsini batıran bərk inilti ilə yellənirlər. Məni harayasa yola çıxmağa cəlb edən təkərlərin taqqıltısını eşitmirəm.

Bu gün heç yerə getmək istəmirəm, qaçmaq da istəmirəm, hətta küçə ilə getməyə həvəsim yoxdur. Burada, sığınacaqda, öz ərimlə qalmaq, televizora baxmaq və dondurma yemək istəyirəm. Mən ondan işdən erkən gəlməsini xahiş edəcəyəm ki, biz gündüz sekslə məşğul ola bilək.

Əlbəttə, sonra onsuz da evdən çıxmalı olacağam, çünki bu gün mənim

Kamalla seansımın günüdür. Son zamanlar onunla Skott barəsində, düzgün eləmədiyim şeylər, və mənim necə pis bir arvad olduğum haqqında danışmışam. Kamal deyir ki, mən xoşbəxt olmağın üsulunu tapmalıyam, başqa yerlərdə xoşbəxtlik axtarışlarına son verməliyəm. Bu doğrudur, elədir ki var, bunu bilirəm, lakin sonra mənə nə isə olur və mən düşünürəm: lənət şeytana, axı həyat çox qısadır!

Ailəmizin Pasxa bayramı zamanı tətil günlərində italyan kurortu Santa-Marqaritaya getməsini xatırlayıram. On beş yaşım təzəcə tamam olmuşdu, çimərlikdə özümdən xeyli yaşlı bir kişi ilə tanış oldum – onun otuzdan çox, bəlkə də qırxdan çox yaşı olardı, – ertəsi gün məni yaxtada gəzintiyə dəvət etdi. Qardaşım Ben də mənimlə idi, onu da dəvət etdilər, lakin böyük qardaş – daimi mühafiz – qəti surətdə əleyhinə oldu, çünki o həmin adama etibar etmirdi və onu iyrənc bir şəhvətpərəst hesab edirdi. Yəqin ki, elə bu cür adam idi. Amma mən dəhşətli dərəcədə acıqlanmışdım: bir də nə vaxt başqasının yaxtasında Liquri dənizində gəzmək imkanımız olacaq? Ben məni inandırmağa çalışdı ki, belə imkanlar bizdə milyon dəfə olacaq, çünki həyatımız macəralarla dolu olacaq. Biz o dəvətdən istifadə etmədik, yayda isə Ben motosiklin idarəsilə bacarmadı və biz heç yelkən altında gəzə bilmədik.

Benlə birlikdə olduğumuz o vaxtlar üçün çox darıxıram. Bizi heç nə qorxutmurdu.

Ben haqqında hər şeyi Kamala danışdım və biz indi ən əsas şeyə, əsl səbəbə, Makdan əvvəl və sonra olanlara yaxınlaşırdıq. Kamaldan heç bir şeyi gizlətməyə bilərəm – o kimsəyə bir şey söyləməz, çünki həkimlik sirri ilə bağlıdır.

Hətta o danışa bilsə belə, bunu edəcəyini düşünmürəm. Ona etibar edirəm, bu doğrudan da belədir. Təəccüblüdür ki, indiyəcən ona hər şeyi danışmamışam, amma ona görə yox ki, o bu informasiyadan necəsə başqa cür istifadə edər, ya da mənə daha pis münasibət bəsləyər, yox, yalnız Skotta görə bunu etməmişdim. Mənə elə gəlir ki, Skotta danışa bilmədiyimi Kamala danışsam, bu xəyanət kimi olacaq. Etdiyim bütün günahlarla müqayisədə bu xırda bir şey kimi görünər, amma bu belə deyil. Səbəb odur ki, bu artıq real həyatdır, mənim mahiyyətimdir və mən bunu ondan gizlədirəm.

Yenə də əvvəlki kimi, hamısını danışmıram, çünki hər şeyi danışa

bilmirəm. Anlayıram ki, elə müalicənin mənası da bundan ibarətdir, lakin yenə də bacarmıram. Mən yayınaraq danışmalı oluram, mənimlə olmuş bütün kişiləri bir yerə qarışdıraraq danışıram, lakin özümə deyirəm ki, bu normaldır, çünki onların kim olmasının əhəmiyyəti yoxdur. Yalnız onların məndə hansı hisslər doğurduğu önəmlidir. Məyusluq, təşviş, aclıq. Niyə mən, sadəcə, istədiyimi ala bilmərəm? Niyə onlar mənə bunu verə bilmirlər?

Bununla belə, bəzən verirlər. Bəzən Skott – mənə lazım olan hər şeydir. Əgər mən bu hissi saxlaya bilsəm, həmin anda hiss etdiyimi saxlaya bilsəm, növbəti dəfə onun nə zaman olacağı haqqında düşünmədən, həmin konkret andan həzz ala bilsəm, məndə hər şey qaydasında olacaq.

Axşam

Kamalla seanslar zamanı mən özümə diqqət etməliyəm. O, ayağını ayağının üstünə aşırıb dizini çarpazlaşmış barmaqları ilə tutanda və mənə öz şir gözlərilə baxanda açıq danışmamaq mümkün deyil. Birlikdə nə ilə məşğul ola biləcəyimiz haqqında düşünməmək mümkün deyil.

Fikrimi cəmləmək üçün çox güc sərf etməli oluram. Benin dəfnindən sonra evdən qaçdığım zaman nə baş verdiyindən danışdıq. Bir müddət İpsviçdə vaxt keçirtdim, amma uzun müddət qalmadım. Orada Maka rast gəldim. O, pivəxanada ya da buna bənzər bir yerdə çalışırdı. O, evə qayıdarkən məni yolda götürmüşdü. Yazığı gəlmişdi mənə.

– O, hətta istəmirdi... yəqin anlayırsan, nə demək istədiyimi. – Mən güldüm. – Biz onun mənzilinə gəldik, mən pul istədim. Mənə elə baxdı ki, elə bil dəli idim. Dedim ki, mənim kifayət qədər yaşım var, amma inanmadı. Gözlədi, həqiqətən on altı yaşım tamam olana qədər gözlədi. O zaman Holkhemdəki köhnə evinə köçmüşdü. Ev qədim idi, daşdan tiklmişdi və dənizdən yarım mil aralı, heç yerə aparmayan yolun sonunda yerləşirdi. Makın kiçik torpaq sahələrinin bir tərəfində dəmir yolu vardı. Gecələr mən yarıyuxulu uzanırdım – onda çox vaxt hallı olurdum, çünki çox nəşə çəkirdik – mənə elə gəlirdi ki, qatar səsi eşidirəm. Bu hiss o qədər real idi ki, ötüb-keçən qatarın işıqlarına baxa bilmək üçün qalxıb bayıra çıxırdım.

Kamal kresloda oturuşunu azca dəyişir və yavaşca başı ilə təsdiqləyir. O, heç bir şey demir. Bu onu bildirir ki, mən davam etməliyəm. Odur ki, sözümə

davam edib deyirəm:

– Mən Makla həqiqətən xoşbəxt idim. Biz onunla yaşadıq... Ümumilikdə götürsək, yəqin ki, üç ilə qədər. Mən çıxıb gedəndə on doqquz yaşım vardı. Hə. On doqquz.

– Əgər xoşbəxt idinsə niyə getdin? – o soruşur.

Bax, biz artıq məsələnin məğzinə az qala çatmışıq, özü də mənim düşündüyümdən daha sürətlə. Nəsə uydurmağa vaxtım yox idi, hər şeyi isə danışa bilməzdim. Hələ hazır deyiləm.

– Mak məni atdı. Mənim ürəyimi parçaladı, – deyə cavab verirəm; bu həqiqətdir, amma eyni zamanda həm də yalandır.

Mən hələ bütün həqiqəti söyləməyə hazır deyiləm.

Mən qayıtdıqda Skott evdə yox idi, buna görə də noutbuku çıxarıb axtarış sətrinə Makın tam ad və soyadını daxil edirəm. Bütün bu zaman ərzində ilk dəfə. Makı bu on ildə ilk dəfədir ki, axtarıram. Lakin onu tapmaq olmur. Dünyada yüzlərlə Kreyq Makkenzilər yaşayır, lakin onlardan heç biri mənə lazım olana oxşamır.

Cümə, 8 fevral 2013-cü İl

Səhər

Meşə ilə gedirəm. Dan yeri sökülməzdən əvvəl evdən çıxmışam, indi isə hava işıqlaşmağa başlayır. Ətrafda ölü bir sükut hökm sürür, arabir bu sükutu ağacların başında gizlənmiş sağsağanların səsi pozur. Onların muncuq kimi gözlərinin dəyərləndirici baxışlarını öz üzərimdə hiss edirəm. Burada onlar çoxdurlar. Birinci – qəmli, ikinci – gülməli, üçüncü – qızvarı, dördüncü – oğlanvarı, beşinci – gümüşü, altıncı – qızılı, yeddinci – gizlin və məxfi.

Mənimsə gizlinlərim və sirlərim kifayət qədərdir.

Skott haradasa Sasseksdə kursa getdi. O dünən axşam çıxmışdı və yalnız bu gün axşam qayıtmalıdır. Mən nə istəsəm edə bilərəm.

Getməzdən əvvəl ona dedim ki, psixoterapevtin qəbulunda olduqdan sonra Tara ilə kinoya getməyi düşünürəm və orada mobil telefonumu

söndürəcəyəm. Tara ilə də danışdım və onu xəbərdar etdim ki, Mak yoxlamaq üçün zəng edə bilər. Bu dəfə Tara maraqlandı ki, mən nə işlə məşğulam. Cavab əvəzinə, sadəcə, göz vurdum və gülümsündüm, o da güldü. Düşünürəm ki, o tənha olduğu üçün kiçik bir sirr onun həyatına hansısa müxtəliflik gətirər.

Kamalla seansda, Skott və noutbukla insident haqqında danışdıq. Bu təxminən bir həftə bundan əvvəl baş vermişdi. Makı axtarırdım, – müxtəlif sorğular göndərirdim, sadəcə, onun harada olduğunu və nə ilə məşğul olduğunu öyrənmək istəyirdim. İndiki vaxtda İnternetdə praktiki olaraq istənilən adamın şəklini tapmaq olar, buna görə də onun üzünü görmək istədim. Amma tapmadım. O gecə yatmağa həmişəkindən daha tez getdim. Skott televizora baxmağa qaldı. Mən brauzerin tarixini silməyi unutdum. Axmaq bir səhv – adətən bunu lap axırda, noutbukun qapağını örtməzdən öncə edirəm, nə axtardığımdan asılı olmayaraq. Bilirəm ki, Skott onsuz da mənim İnternetdə nəyə baxdığımı öyrənmək üçün bir üsul tapacaq, çünki texnikadan yaxşı başı çıxırdı, amma bu xeyli vaxt aparacağından bunu etmirdi.

Nə isə, mən unutmuşam. Ertəsi gün dava qopdu. Özü də dəhşətli. O bilmək istədi ki, Kreyq kimdir, nə vaxtdan bəri onunla görüşürəm, harada tanış olmuşuq. O mənə nə verir ki, mən onu Skottan ala bilmirəm. Axmaqlıq edib Skotta dedim ki, Kreyq mənim köhnə dostumdur, elə bil odun üstünə yağ tökdüm. Kamal soruşdu ki, Skottdan qorxurammı? Bu sual məni sözün əsl mənasında dəli etdi.

– O mənim ərimdir! – çımxırdım. – Əlbəttə, ondan qorxmuram!

Kamal bu qədər kəskin reaksiya verəcəyimi açıq-aşkar gözləmirdi. Mən özüm də şokda idim. Bu cür hirslənə biləcəyim və Skottu bu qədər müdafiə etməyə hazır olmağım ağlıma da gəlməzdi. Mənim üçün bu tam bir kəşf oldu.

– Məncə, qadınların çoxu öz ərlərindən qorxurlar, Meqan.

Etiraz etmək istədim, lakin o əlini qaldıraraq məni dayandırdı.

– Sənin danışdığın davranış – məktubları oxumaq, brauzerdə sorğuları izləmək – sən bunları çox adi bir şey kimi təsvir edirsən. Sanki bu normal haldır. Amma elə deyil, Meqan. Kiminsə şəxsi həyatına bu dərəcədə

müdaxilə etmək normal deyil. Bu çox vaxt emosional təcavüz forması sayılır.

Mən güldüm, çünki bu çox melodramatik səslənirdi.

– Bu təcavüz deyil, – deyə etiraz etdim. – Ən azından, adamı gərginləşdirmirsə. Mənsə bundan qətiyyən gərgin olmuram.

O qəmgin-qəmgin gülümsünərək soruşdu:

– Bəs sən hesab etmirsən ki, əslində gərginləşdirməlidir?

Mən çiyinlərimi çəkdim:

– Ola bilər, amma mən bu hala düşmürəm. O qısqancdır, xüsusiyyətçidir. O, sadəcə, belədir. Bu onu sevməyimə mane olmur və elə şeylər var ki, onlarla mübarizə aparmaq mənasızdır. Mən ehtiyatlıyam. Bir qayda olaraq. İzimi itirməyi bacarıram, odur ki, bu adətən problem yaratmır.

O, xəfifcə başını buladı.

– Düşünmürdüm ki, mənim təsəvvürlərimə qiymət vermək sənin vəzifənə daxildir, – dedim.

Seans bitdikdən sonra ondan soruşdum ki, mənimlə içmək istəmirmi? O dedi ki, yox, bunu edə bilməz, bu düzgün olmazdı. Onda mən onu evinə qədər izlədim. O öz iş yerindən bir küçə aralıda mənzildə yaşayırdı. Qapını döydüm və o qapını açdıqda soruşdum:

– Bəs belə düzgündürmü?

Sonra onun boynundan qucaqlayıb özümə çəkdim, barmaqlarımın ucunda qalxaraq dodaqlarından öpdüm.

– Meqan, – o öz məxməri səsiylə dedi, – lazım deyil. Mən bacarmaram. Lazım deyil.

Bu çox gözəl idi: təzyiq və müqavimət, istək və təmkinlilik. Bu hissi buraxmaq istəmirdim, bu həzzi uzatmaq istəyirdim.

Səhər erkən qalxdım, fikirlərin çoxluğundan başım fırlanırdı. Yuxudan oyanıb, yerimdə tək uzanıb qala bilməzdim, buna görə də məşğul ola biləcəyim müxtəlif işləri fikrimdə götür-qoy etdim, sonra geyinib evdən

çıxdım. Budur, indi mən buradayam. Mən addımlayır və baş vermiş hadisəni beynimdə fırladıram – o dedi, bu dedi, yoldan çıxarma, boşalma. Əgər özümü nə iləsə sakitləşdirə bilsəydim və ondan yapışıb qalsaydım, ətrafda dolaşmasaydım. Bəs axtardığımı tapmasam, onda necə? Əgər bu, sadəcə, mümkün deyilsə?

Soyuqdan nəfəs ala bilmirəm, barmaqlarımın ucları göyərib. Buna baxmayaraq elə buradaca, bu yarpaqların arasında uzanmaq və soyuğa öz işini görməsinə imkan vermək istəyirəm. Lakin bacarmaram. Evə getmək vaxtıdır.

Blenhaym-rouda saat doqquza yaxın qayıdıram, tini döndükdə, onun əlində uşaq arabası tutaraq mənə doğru gəldiyini görürəm. Uşaq susub. O mənə baxır, başını tərpədib gülümsəyir, amma mən cavabında gülümsəmirəm. Adi vəziyyətlərdə gülərüz görünməyə çalışardım, amma bu gün özümü əslində olduğum kimi hiss edirəm. Özümü qanadlanmış hiss edirəm, lap səyahətdə olduğum kimi. Buna görə də, hətta istəsəydim belə, mehriban görünə bilməzdim.

Gündüz

Gündüz yuxuya getdim. Qorxu hiss edərək, başdan-ayağa tər içində oyandım. Həm də təqsirkar kimi. Mən dəhşətli dərəcədə günahkaram. Elə günahkaram ki, bağışlanmağa da haqqım yoxdur.

Onun gecə yarısı necə çıxıb getdiyini xatırladım, vidalaşarkən dedi ki, bu sonuncu dəfədir, ən sonuncu və daha heç zaman təkrarlanmayacaq. O, cinsi əyninə keçirirdi. Yataqda uzanıb gülürdüm, çünki eyni sözləri o keçən dəfə də demişdi, ondan əvvəlki və daha öncəki dəfə də. Mənə diqqətlə baxdı. Bilmirəm, bu baxışlarda olanı necə təsvir edim – qəzəb deyil, heç nifrət də deyildi, – bu baxışlarda xəbərdarlıq vardı.

Özümü yaxşı hiss etmirəm. Evdə narahat halda var-gəl edirəm, məndə elə bir hiss var ki, elə bil mən yatarkən evdə kimsə olub. Hər şey öz yerindədir, lakin evdə nə isə dəyişilib, elə bil əşyalara toxunublar, azca yerlərindən tərpədiblər. Elə bil bu saat da evdə kimsə var, amma mənim görüş sahəmə daxil deyil – və bu hiss məni tərk etmir. Bağa açılan şüşə qapıları üç dəfə yoxlamışam – bağlı idi. Skottu səbirsizliklə gözləyirəm. O

mənə lazımdır.

# Reyçel

---

Çərşənbə axşamı, 16 İyul 2013-cü İl

Səhər

Mən 8:04-də yola düşən qatardayam, amma Londona getmirəm. Mənim məqsədim – Uitnidir. Ümid edirəm ki, oranı görmək yaddaşımı təzələyər, stansiyada olsam və hər şeyi yenidən görsəm hər şeyi xatırlayaram. Mənim xüsusi illüziyam da yoxdur, amma başqa bir ideya da ağlıma gəlmir. Toma zəng edə bilmərəm. Çox utanıram, həm də o açıqca dedi ki, daha mənimlə heç bir əlaqəsinin olmasını istəmir.

Meqan hələ də tapılmayıb. 60 saatdan çoxdur ki, o yoxdur. Onun itkin düşməsi ölkə miqyaslı bir xəbər oldu. Bu gün səhər o BBC və "Daily Mail" saytlarında peyda oldu, onun haqqında digər saytlarda da məlumat verildi.

Mən BBC və "Daily Mail" saytlarında olan məqalələrin surətini çıxarıb özümlə götürdüm. Onlardan aşağıdakıları öyrəndim:

Meqan və Skott şənbə günü axşam dalaşıblar. Qonşu onların yüksəkdən söyüşdüklərini eşidib. Skott dava etdiklərini boynuna alıb. Amma düşünüb ki, arvadı Korlidə yaşayan rəfiqəsi Tara Epstaynın yanına gecələməyə gedib.

Meqan Taranın evinə qədər gedib çıxmayıb. Tara xəbər verdi ki, son dəfə Meqanı cümə günü pilates məşğələsində görüb (Meqanın pilateslə məşğul olduğunu bilirdim). Miss Epsteynin sözlərinə görə "o normal görünürdü və gələn ay öz otuz illiyini xüsusi bir şəkildə qeyd etmək istədiyini deyirdi".

Şənbə günü axşam bir şahid Meqanı saat 7:15-də Uitni dəmiryol stansiyasına gedərkən görüb.

Meqanın bu ətrafda heç bir qohumu yoxdur. Onun ata və anası ölüb.

Meqan işləmir. Əvvəllr o Uitnidə kiçik bir bədii qalereya işlədirdi, lakin

aprel ayında qalereya bağlandı. (Mən bilirdim ki, Meqan incəsənət adamıdır).

Skott informasiya texnologiyaları üzrə xüsusi məsləhətçi işləyir (Skottun məsləhətçi işlədiyinə inana bilmirəm).

Meqan və Skott üç ildir evlidirlər və Blenhaym-rouddakı evdə 2012-ci ilin yanvarından yaşayırlar.

“Daily Mail”ə görə onların evinin 400000 funt sterlinqə qiyməti var.

Bütün bunları oxuyaraq anladım ki, Skottun işi şuluqdur. Ona görə yox ki, onlar dava ediblər. Sadəcə olaraq, əgər qadının başına bir iş gəlirsə, polis ilk növbədə ərindən, ya da oynaşından şübhələnir. Lakin bu hadisədə polis bütün faktlara malik deyil. Onun oynaşı haqqında heç bir şey bilmədiyindən, yəqin polis onun ərini yeganə şübhəli hesab edir.

Bəlkə də mən oynaşdan xəbəri olan yeganə adamam.

Çantamda kağız parçası axtarıram. İki şüşə şərab qəbzinin arxasında Meqan Hipvellin itkin düşməsinin mümkün izahlarının siyahısını tərtib etdim:

1. O, bundan sonra “B” ilə işarə edəcəyim oynaşı ilə qaçıb.

2. ”B” ona nə isə pis bir şey edib.

3. Skott ona nə isə pis bir şey edib.

4. O, sadəcə, ərindən qaçıb, onunla birlikdə olmamaq üçün.

5. Skott və “B” deyil, bir başqası ona nə isə pis bir şey edib.

Məncə, birinci bəndin ehtimalı ən yüksəkdir, lakin dördüncü də tam real bir variantdır, çünki Meqan sərbəst və şıltaq bir qadındır. Bundan qətiyyən şübhə etmirəm. Onun başqa biri ilə eşq macərası vardısa, təkliyə çəkilib qərar vermək üçün çox asanlıqla evdən çıxıb gedə bilərdi, elə deyilmi? Beşinci bənd mənə az ehtimallı görünür, çünki tanış olmayan adamlar nadir hallarda qətl törədirlər.

Başımdakı şiş göynəyən ağrı ilə özünü bildirir. Şənbə günü axşam şahidi olduğum, ya da gözümə görünən dava-dalaş haqqında düşünməyə bilmirəm.

Meqan və Skottun evinin yanından keçdikdə oraya nəzər salıram. Gicgahlarımda qanın necə vurduğunu eşidirəm. Adrenalinin həmləsini hiss edirəm. Məni dəhşət bürüyür. Səhər işığını əks etdirən pəncərələr kor gözlərə bənzəyir.

Axşam

Oturacaqda yerimi rahatlayıram, elə bu zaman telefon zəng çalır. Ketidir. Cavab vermirəm və səs poçtuna keçməsini gözləyirəm. O mesaj göndərir:

"Salam, Reyçel, sənin, sadəcə, yaxşı olduğunu bilmək istəyirəm. – Taksi ilə olan hadisədən sonra o məndən ötrü narahat olur. – Demək istəyirdim ki, çox təəssüf edirəm, o gün sənə otağı boşaltmağını dedikdə haqlı deyildim. Əsəbiləşmişdim. Mənim evimdə nə qədər istəsən yaşaya bilərsən. – o, xeyli susduqdan sonra əlavə edir: – Mənə zəng elə, yaxşı? Özü də birbaşa evə gəl, Reyç, pivəxanaya getmə".

Mən heç pivəxanaya getmək fikrində deyildim. Səhər Uitnidə baş verənlərdən sonra nahar vaxtı çox içmək istəyirdim. Lakin içmədim, çünki başımın dumanlı olmasını istəmirdim. Artıq çoxdan nəyinsə xatirinə başımı aydın saxlamaq istəyirdim.

Uitniyə səhər ziyarətim məni çox təəccübləndirdi. Sanki çoxdan idi ki, orada olmamışdım, halbuki cəmisi bir neçə gün keçmişdi. Elə bil tamam başqa bir yerdə idim, başqa stansiyada və başqa şəhərdə. İndi şənbə günü axşam stansiyaya gələn həmin Reyçelə oxşamırdım. İndi tamamilə ayıq idim və sirri açmağa çalışaraq bütün nüansları həssaslıqla yaxalayırdım, amma eyni zamanda mümkün cavabdan da dəhşətə gəlirdim.

Mən özgə ərazisinə daxil olmuşdum. Məhz belə hiss edirdim, çünki indi bu yer Tom və Annaya, Skott və Meqana məxsusdur. Mən burada yadam, burada heç nəyim yoxdur, amma eyni zamanda burada hər şey çox tanışdır. Əvvəlcə beton pillələrlə aşağı, stansiyaya, sonra qəzet köşkünün yanından Rouzberi-avenuyə çıxmaq, yarım kvartaldan sonra T şəkilli yol ayırıcının sonuna qədər getmək, sonra sağa, nəm yeraltı keçidin qübbəsi altına dönmək – bu zaman solda ensiz, kölgəli və hər iki tərəfində gözəl viktorian stilində terraslar olan Blenhaym-roud görünəcək. Sanki evimizə qayıdıram – özü də indiki evimə deyil, oraya. Böyüdüyüm və çox-çox əvvəllər tərk etdiyim o

evə. Burada hər şey ən kiçik detallara qədər tanışdır, burada hansı pillənin hökmən cırıldayacağını əvəlcədən bilirsən.

Burada hər şey mənə tanışdır, bu bilgi nəinki ağlımda idi, həm də qanıma, canıma hopmuşdu. Bu səhər yeraltı keçidin qaranlıq tuneli ilə gedərkən, bilaixtiyar addımlarım yeyinləndi. Bu intuitiv olaraq baş verdi, çünki mən həmişə buradan mümkün qədər tez keçməyə çalışmışam. Hər axşam evə qayıdarkən, xüsusilə qış vaxtı, buranı tez keçməyə tələsirdim, orada heç kəsin olmadığına şübhəm qalmasın deyə sağa göz atardım. Orada heç vaxt heç kəs olmurdu – nə o axşamlar, nə də bu gün – amma yenə də mən dayanıb qaranlığa baxmağa başladım, çünki birdən özümü gördüm. Gördüm ki, başımı əllərimin arasına alaraq divara söykənib oturmuşam. Başım və əllərim qan içində.

Yerimdə donub qaldım: ürəyim şiddətlə döyünür, qatara tələsən vətəndaşlar mənim ətrafımdan keçib gedirlər. Bəziləri mənə nə olduğunu bilmək üçün dönüb geri baxırlar. Bilmirəm – bu həqiqətən olmuşdumu? Mən yeraltı keçidə nə üçün getmişdim? Mənim qaranlıq, nəm və sidik qoxuyan tuneldə nə işim vardı?

Geri dönüb stansiyaya tərəf getdim. Burada daha qalmaq istəmirdim, Skott və Meqanın evini görmək istəmirdim. Buradan mümkün qədər tez getmək istəyirdim. Orada nə isə dəhşətli bir şey baş vermişdi, bundan heç şübhəm yox idi.

Bilet aldım və sürətlə digər platformaya aparan pilləkənlərə yönəldim. Bax burada yaddaşım işıqlandı, bu dəfə yeraltı keçidi deyil, pillələri xatırladım: mən büdrəyib yıxılmışdım, mənə qalxmağa bir kişi kömək etmişdi. Qatarda mənimlə yol yoldaşı olmuş qızılı saçlı kişi. Onun sifətini xatırladım, amma nə dediyini xatırlaya bilmədim. Özümə və ya onun dediyi nəyəsə güldüyümü xatırlayıram. O mənimlə özünü çox mədəni aparırdı, buna əminəm. Ya da, demək olar ki, əminəm. Nəsə pis bir şey baş vermişdi, amma onun buna aidiyyəti olduğunu düşünmürəm.

Qatara minib Londona qayıtdım. Kitabxanaya girib kompüterin arxasına keçdim və Meqan haqqında məqalələr axtarmağa başladım. “Telegraph” saytında qısa bir məlumatda deyilirdi ki, “polis təhqiqatına yaşı otuzdan bir az çox olan kişi kömək göstərir”. Yəqin, bu Skottdur. Mən inanmıram ki, o

Meqana pis bir şey etsin. Bilirəm ki, eləməz. Onları bir yerdə görmüşdüm, onların münasibətindən xəbərim vardı. Məqalədə “qaynar xətt”in nömrəsi göstərilmişdi,
oraya istintaq üçün yararlı olacaq hər hansı informasiyanı xəbər vermək olardı. Evə qayıdarkən yolda avtomatdan zəng etməyi düşünürəm. “B” haqqında xəbər verəcəyəm və nə gördüyümü deyəcəyəm.

Biz Eşberiyə yaxınlaşdıqda telefonum yenidən zəng çalır. Bu Ketidir. Yazıq qız, doğrudan da, məndən sarı narahatdır.

– Reyç? Sən qatardasan? Evə gəlirsən? – Səsindən hiss olunur ki, həyəcanlanır.

– Bəli, gəlirəm, – cavab verirəm. – On beş dəqiqəyə çataram.

– Buraya polislər gəliblər, Reyçel, – o deyir, və mən bədənimə üşütmə düşdüyünü hiss edirəm. – Onlar səninlə danışmaq istəyirlər.

Çərşənbə, 17 İyul 2013-cü İl

Səhər

Meqanı tapmadılar və mən polisə yalan söylədim, özü də bir neçə dəfə.

Dünən axşam evə qayıdanda çox əsəbiləşirdim. Özümü sakitləşdirməyə cəhd edərək inandırmağa çalışdım ki, polislər taksi ilə baş vermiş hadisəni aydınlaşdırmaq üçün gəliblər, lakin bunun heç bir mənası yox idi. Mən polislə hadisə yerində danışmışdım və orada günah tamamilə məndə idi. Deməli, bu, şənbə gününün axşamı ilə əlaqədardır. Yəqin, nəsə eləmişəm. Böyük ehtimalla dəhşətli bir şey, indi də yaddaşım bir müdafiə reaksiyası olaraq xatirələri bloklayır.

Anlayıram ki, bunun ehtimalı azdır. Mən nə etmiş ola bilərdim? Blenhayma gedib Meqan Hipvellə hücum etmiş, meyiti haradasa gizləmiş və bu barədə unutmuşam? İnandırıcı səslənmir.

Özü də belə şey, sadəcə, ola bilməzdi. Amma mən bilirəm ki, şənbə günü nəsə baş verib. Dəmir yolunun altındakı qaranlıq tunelə baxdıqda bunu hiss etdim, onda mənim damarlarımda qanım dondu.

Yaddaşda itkilər olur, lakin bu o hala aid deyil ki, klubda şənlikdən sonra evə necə gəldiyini, ya da pivəxanada söhbət edərkən hamının nəyə güldüyünü xatırlaya bilməyəsən. Burada tam unutqanlıq var: bütöv saatlar hafizədən silinib və bərpası mümkün deyil.

Tom bu barədə mənə bir kitab gətirdi. O qədər də romantik bir davranış deyil, lakin o səhərlər mənim özümün də anlamadığım üzrxahlıqlarımdan yorulub bunu etmişdi. Mənə elə gəlir ki, o davranışlarımın ətrafdakılara necə əzab verdiyini və əslində nəyə qadir olduğumu anlamağımı istəmişdi. Kitabı bir həkim yazmışdı, lakin mən bilmirəm ona nə dərəcədə inanmaq olar: müəllif hesab edir ki, yaddaşın itməsi hər şeydən əvvəl unutmaq istəyi yox, xatirələrin özünün mövcud olmaması ilə bağlıdır. Onun nəzəriyyəsinə görə, insan elə bir vəziyyətə düşür ki, onun beyni qısa yaddaşın məsul olduğu xatirələri saxlamır. Bu qaranlıq dəlikdə olduqda insan özünü adi həyatda olduğu kimi aparmır, çünki özünün son hadisə hesab etdiyi şeyə reaksiya verir, amma həqiqətdə onu, sadəcə, xatırlamır və onun haqqında heç bir təsəvvürə malik deyil. Müəllif hətta yaddaş pozğunluğundan əziyyət çəkən içki düşkünlərinin həyatından ibrətamiz misallar da gətirir. Nyu Cersidən bir oğlan 4 iyul müstəqillik günündə şənlikdə yaxşıca içir. Sonra maşına oturaraq qarşı zolaqla sürür və içində 7 adam olan mikroavtobusla toqquşur. Mikroavtobus yanır və içindəki altı adam ölür. Əyyaşın özünün isə heç burnu da qanamır. Adətən belə də olur. O, hətta maşına necə oturduğunu belə xatırlamır.

Digər bir halda, Nyu-Yorklu bir kişi bardan çıxıb böyüdüyü evin yanına gəlmiş, orada iki adamı öldürmüş, sonra üstündən bütün paltarını çıxarmış, maşına oturaraq evə getmiş və yatağa girib yatmışdır. Səhər başı ağrıyaraq oyanmış, paltarının harada olduğunu və evə necə gəldiyini anlamağa cəhd etsə də bacarmamışdı. Heç bir səbəb olmadan iki adamı boğazladığını yalnız onun arxasınca gəlmiş polislərdən öyrənmişdi.

Nə qədər inanılmaz səslənsə də belə bir imkanı istisna etmək olmazdı, buna görə də evə gəldikdən sonra az qala şübhə etmirdim ki, mənim Meqanın yox olması ilə necəsə bir əlaqəm var.

Polislər qonaq otağında divanda oturmuşdular: qırxdan çox yaşı olan mülki geyimli bir kişi və bir də polis formasında daha gənc, boynunda

sızanaq olan biri. Keti əsəbi şəkildə əllərini ovuşduraraq pəncərənin qarşısında dayanmışdı. Onun rəngi qaçmışdı. Polislər ayağa qalxdılar. Mülki geyimli kişi – çox ucaboy, bir az belibükük – əlimi sıxdı və özünü kriminal polis inspektoru Qaskill kimi təqdim etdi. Mənə öz vəsiqəsinin nömrəsini desə də, yadımda qalmadı. Fikrimi cəmləyə bilmirdim. Güclə nəfəs alırdım.

– Nə məsələdir? – Həmin dəqiqə hücuma keçdim. – Nəsə olub? Anama? Toma?

– Hər şey yaxşıdır, miss Uotson, sizinlə şənbə günü axşam nə etdiyiniz haqqında, sadəcə, danışmaq istəyirik, – Qaskill cavab verdi.

Buna bənzər sözləri televizorda filmlərdən çox eşidir, lakin onları ciddi qəbul etmirsən. Onlar şənbə günü axşam nə etdiyimi bilmək istəyirdilər. Şənbə günü axşam axı nə etmişdim?

– Mən oturmaq istəyirəm, – dedim; detektiv əl işarəsilə məni divanda, sızanaqlı polisin yanında oturmağa dəvət etdi.

Keti ayağının birini qaldırıb o birini qoyurdu, alt dodağını dişləyirdi. Çox gərgin idi.

– Hər şey qaydasındadırmı, miss Uotson? – Qaskill gözümün üstündəki tikişi göstərərək soruşdu.

– Məni taksi vurub, – cavab verdim. – Dünən axşam, Londonda. Mən xəstəxanada olmuşam, yoxlaya bilərsiniz.

– Yaxşı. – O, yüngülcə başı ilə təsdiqlədi. – Bəs, şənbə günü axşam?

– Uitniyə getmişdim, – səsimdəki titrəyişi cilovlamağa çalışaraq, dedim.

– Nə üçün?

Sızanaqlı polis dəftəri çıxarıb yazmağa hazırlaşdı.

– Ərimlə görüşmək istədim.

– İlahi! Reyçel! – Keti dilləndi.

Detektiv ona fikir vermədi.

– Ərinizlə? – O soruşdu. – Demək istəyirsiniz ki, keçmiş ərinizlə? Tom Uotsonla?

Mən əvvəlki kimi, onun soyadını daşıyıram. Belə daha yaxşıdır. Kredit kartını, elektron ünvanımı dəyişmək, yeni pasport almaq lazım deyil, və s.

– Bəli, onunla. Mən onunla danışmaq istəyirdim, sonra fikrimi dəyişdim və evə qayıtdım.

– Bu nə zaman olub? – Qaskill həmin rəvan səsilə maraqlandı.

Onun üzündən heç nə anlamaq olmazdı. O dodaqlarını azca tərpədərək danışırdı. Mən ikinci polisin nə isə yazdığını və qulağımda nəbzimin necə yüksəkdən vurduğunu eşidirdim.

– Bu... hm... məncə, haradasa yeddinin yarısında idi. Mənə elə gəlir ki, qatara altıya yaxın mindim.

– Və evə qayıtdınız?..

– Bəlkə səkkizin yarısında?

Ketinin baxışını tutdum və üzünün ifadəsindən anladım: mənim yalan danışdığımı o bilir.

– Bəlkə bir az gec, səkkizə yaxın. Ümumiyyətlə, mən xatırlayıram... ki, səkkizdən dərhal sonra qayıtdım.

Mən hiss edirdim ki, necə qızarıram – bu adam yalan danışdığımı başa düşmədisə, onun polisdə nə işi var.

Detektiv çevrilib, stulu masanın altından çıxartdı və qətiyyətlə özünə tərəf çəkdi. Sonra onu düz mənim önümə, bir-iki fut aralıda qoydu. Oturdu, əllərini dizinin üstünə qoyub başını yana əydi.

– Yaxşı, – dedi. – Deməli, siz saat altı radələrində getdiniz, yəni Uitnidə yeddinin yarısında oldunuz. Və buraya səkkizdə qayıtdınız, deməli Uitnidən yeddi otuzda çıxmış olmalısınız. Təxminən belə?

– Bəli, elə çıxır, – səsimin məni ələ verərək titrədiyini hiss edib təsdiqlədim.

İndi o məndən bu bir saat ərzində nə etdiyimi soruşacaq, mənsə cavab verə bilməyəcəkdim.

– Siz heç keçmiş ərinizlə də görüşməmisiniz. Bəs onda Uitnidə düz bir saat nə etdiniz?

– Bir az gəzdim.

O bir az gözlədi ki, bəlkə mən daha nə isə əlavə edərəm. Bara girdiyimi demək istədim, amma bu axmaqlıq olardı, çünki çox asanlıqla yoxlana bilərdi. Hansı bar olduğunu, orada kiminləsə danışıb-danışmadığımı soruşardı. Ona nə deyəcəyimi fikirləşərkən, birdən ağlıma gəldi ki, mənim şənbə günü axşam harada olduğumu nə üçün bilmək istədiyini ondan soruşmadım, əslində bunun özü şübhə doğururdu, elə bil mən nədəsə günahkar idim, ya da nəyəsə qarışmışdım.

– Siz kiminləsə danışdınızmı? – o soruşdu, elə bil mənim fikirlərimi oxumuşdu. – Mağazalara, barlara girdinizmi?

– Mən stansiyada bir kişi ilə danışdım! – təntənə ilə dedim, sanki bu nəyisə dəyişəcəkdi. – Bəs siz nə üçün bunu soruşursunuz? Nə baş verib?

İnspektor Qaskill kresloda əyləşib arxaya söykəndi.

– Bəlkə də eşitmisiniz ki, Uitnidən bir qadın, sizin keçmiş ərinizin evindən bir neçə ev aralıda Blenhaym-roudda yaşayan bir qadın itkin düşüb. Biz evlərə gedərək sakinlərdən onların həmin axşam nə isə qeyri-adi bir şey görüb-görmədiklərini, ya da eşitmədiklərini soruşduq. Bu sorğular zamanı sizin adınız ortaya çıxdı.

O, deyilənləri qavramağım üçün bir müddət susdu.

– Sizi Blenhaym-roudda həmin axşam təxminən Missis Hipvell – itmiş qadın – evdən çıxdığı zaman görüblər. Missis Anna Uotson bizə xəbər verdi ki, o sizi Missis Hipvellin evinin yanında və öz evindən bir az uzaqda küçədə görüb. Dedi ki, siz özünüzü qəribə aparırdınız və onun əsəbiləşməsinə səbəb olmusunuz. O, hətta düşünüb ki, bəlkə polis çağırsın.

Ürəyim çox şiddətlə döyünürdü, elə bil köksümdən çıxacaqdı. Danışa bilmirdim, çünki gözlərimin qarşısına bu səhnə gəldi: mən yeraltı keçiddə

beli bükülmüş halda oturmuşam və əllərim qan içindədir. Əllərimdə qan var. Yəqin ki, öz qanım? O mənim qanım olmalı! Mən Qaskillə baxdım, onun baxışını gördüm və başa düşdüm ki, o anda nəsə deməliyəm ki, o mənim fikirlərimi oxuya bilməsin.

– Mən heç nə etməmişəm, – dedim. – Heç nə. Mən, sadəcə... mən, sadəcə, öz ərimi görmək istəyirdim...

– Keçmiş ərinizi, – yenə Qaskill düzəliş verdi. O pencəyinin yan cibindən şəkil çıxarıb mənə göstərdi. Şəkildə Meqan idi.

– Siz şənbə günü axşam bu qadını gördünüzmü? – o soruşdu.

Uzun müddət şəklə baxdım. Bunda nə isə sürrealistik bir şey vardı, mən əvvəlcə həyatı mənim xəyalımın məhsulu olan, sonra isə acı məyusluğa səbəb olan sarışın qadını görürdüm. Şəkil iri planda və peşəkarlıqla çəkilmişdi. Meqanın üz cizgiləri mənim xəyalımın Cess üçün çəkdiyi kimi incə deyildi.

– Missis Uotson! Siz onu gördünüzmü?

Onu görüb-görmədiyimi bilmirdim. Həqiqətən bilmirdim. İndiyə qədər də bilmirəm.

– Məncə, görməmişəm.

– Sizcə? Demək, bəlkə də görmüsünüz?

– Mən... Mən əmin deyiləm.

– Şənbə günü axşam içmişdinizmi? – o soruşdu. – Uitniyə getməzdən əvvəl siz içmişdinizmi?

Yanaqlarım yenə qızardı.

– Bəli, – deyə təsdiqlədim.

– Missis Uotson, yəni Anna Uotson dedi ki, sizi evinin yanında gördükdə siz sərxoş idiniz. Siz sərxoş idinizmi?

– Yox, – deyə cavab verdim, gözümü polisdən çəkmirdim ki, Ketinin baxışları ilə rastlaşmayım. – Yeməkdən sonra bir az içmişdim, lakin sərxoş deyildim.

Qaskill köks ötürdü. Görünür, onu məyus etmişdim. O öz sızanaqlı yoldaşına, sonra da mənə baxdı. Sonra çox yavaş-yavaş qalxdı və stulu yerinə qoydu.

– Əgər o şənbə axşamı haqqında nəsə xatırlasanız, bizə yardım edə biləcək hər hansı bir informasiya yadınıza düşsə, lütfən zəng edin, – o, vizit kartını uzadaraq dedi.

Qaskill getməyə hazırlaşarkən Ketiyə baxıb qaşqabaqlı halda başını yellədi. Mən divana söykəndim, yüngülləşərək ürəyimin yavaş-yavaş sakitləşdiyini hiss etdim. Lakin birdən ürəyim az qala yenə yerindən qopacaqdı.

– Siz ictimai əlaqələrlə məşğul olan firmada işləyirsiniz? “Hantinqton Uaytli”də?

– Doğrudur, – deyə təsdiq etdim. – “Hantinqton Uaytli”də.

O yoxlayacaq və biləcək ki, mən yalan söyləmişəm. Buna imkan vermək olmaz, o bunu məndən bilməlidir.

Bax, elə bunu mən bu səhər etmək fikrindəyəm. Polisə gedib hər şeyi olduğu kimi danışacağam ki, bir neçə ay bundan əvvəl işimi itirmişəm, şənbə günü axşam da bərk sərxoş idim və saat neçədə evə döndüyüm barədə anlayışım belə yoxdur. Hələ dünən deməli olduqlarımı söyləmək fikrindəyəm: onlar yanlış izlə gedirlər. Xəbər verəcəyəm ki, Meqan Hipvellin, deyəsən, eşq macərası olub.

Axşam

Polis hesab edir ki, mənə inanmaq olmaz. Düşünürlər ki, ağlım başımda deyil, məsuliyyətsizəm və psixi cəhətdən normal deyiləm. Mən oraya getməməliydim. Mən yalnız özümə zərər verdim və Skotta da kömək edə bilmədim, halbuki elə bunun üçün polis şöbəsinə getmişdim. Skottun mənim köməyimə ehtiyacı var. Polis açıq-aşkar şübhələnir ki, o Meqana nəsə edib, mənsə bunun belə olmadığını bilirəm, çünki onu tanıyram. Bu nə qədər qeyri-adi səslənsə də, mən həqiqətən buna əminəm. Onun Meqanla necə davrandığını görmüşəm. O Meqana əziyyət verə bilməzdi.

Yaxşı, tutaq ki, Skotta yardım etmək polisə getməyimin yeganə səbəbi

deyildi. Bir də yoluna qoyulmalı olan bir yalan məsələsi də vardı. “Hantinqton Uaytlidə” işlədiyim barədə yalan.

Polis şöbəsinə daxil olmağa uzun müddət cəsarət etmədim. On dəfə geri dönüb evə getmək istədim, lakin axır ki, içəri gördüm. Növbətçi serjantdan soruşdum ki, kriminal polis inspektoru Qaskillə danışmaq olarmı? O məni havası ağır olan qəbul otağına gətirdi, orada bir saatdan çox gözlədim, nəhayət, mənim arxamca gəldilər. Bu müddət ərzində tərdən tamamilə islanmışdım və qarşıda məni eşafot gözləyən kimi titrəyirdim. Məni daha da kiçik, havasız və pəncərəsiz başqa bir otağa apardılar. Orada tənhalıqda daha on dəqiqə gözlədikdən sonra, nəhayət, Qaskill və bir qadın gəldi. Qaskill nəzakətlə salamlaşdı və deyəsən, məni yenidən gördüyünə heç təəccüblənmədi. O, qadını kriminal polis serjantı Rayli olaraq təqdim etdi. Serjant Rayli məndən daha gənc, ucaboy, arıq, qara saçlı və əgər kiməsə tülkününkü kimi kəskin üz cizgiləri xoş gəlirsə, xeyli cazibədar bir qadın idi. O mənim gülümsəməyimə cavab vermədi.

Biz bir söz demədən oturduq və onlar nə deyəcəyimi gözləyərək mənə baxdılar.

– Mən bir kişini xatırladım, – dedim. – Sizə stansiyada gördüyüm bir kişi haqqında demişdim. Mən onu təsvir edə bilərəm.

Rayli qaşlarını azacıq qaldıraraq kresloda tərpəndi.

– O, təxminən orta boylu, orta bədən quruluşlu, kürən saçlı idi. Mən pillələrdə sürüşdüm, o məni əlimdən tutub yıxılmağa qoymadı.

Qaskill irəli əyildi, dirsəklərinə söykənərək, barmaqlarını üzünün qarşısında biri-birinə daraqladı.

– Onun əynində... Mənə elə gəlir ki, onun əynində mavi köynək vardı...

Əslində tam da belə deyildi. Mən həqiqətən həmin kişini xatırlayıram və əminəm ki, onun kürən saçları var idi, mənə elə gəlir ki, vaqonda gedərkən o mənə gülümsədi. Məncə, o Uitnidə qatardan endi və deyəsən, mənimlə danışdı. Mən pillələrdə büdrəmiş ola bilərdim. Bunu xatırlayıram, amma deyə bilmərəm ki, bu şənbə günü axşam olmuşdu, yoxsa başqa bir vaxtda. Mən tez-tez büdrəyirəm, həm də çox pilləkənlərdə. Üstəlik, onun nə geymiş

olduğu barədə təsəvvürüm də yoxdur.

Mənim söylədiklərim detektivlərdə heç bir təəssürat yaratmadı. Rayli güclə hiss olunacaq şəkildə başını yellədi. Qaskill barmaqlarını ayırdı və ovuclarını yuxarı tutub əllərini uzatdı.

– Yaxşı. Siz doğrudan da bunları mənə danışmaq üçün buraya gəlmisiz, miss Uotson? – o maraqlandı.

Onun səsi qəzəbli deyildi və söhbətə çəkirdi. Raylinin çıxıb getmədiyinə təəssüf edirdim. Mən Qaskillə danışa bilərdim; ona etibar edə bilərdim.

– Mən daha “Hantinqton Uaytli”də işləmirəm, – dedim.

– O-o. – Qaskill kresloya söykəndi və açıq-aşkar maraqlandı.

– Üç ay bundan əvvəl işdən çıxmışam. Öz otaq yoldaşıma – əslində o evin sahibidir – bu barədə demədim. Mən başqa iş tapmağa çalışıram. İstəmədim ki, o bilsin və kirayə pulundan dolayı narahat olsun. Mənim az-çox pulum var. Kirayə haqqını verə bilərəm, lakin... Nə isə, dünən iş barədə sizə yalan söylədim və buna görə üzr istəyirəm.

Rayli irəli əyildi və saxta-saxta gülümsündü.

– Aydındır. Siz daha “Hantinqton Uaytli”də işləmirsiniz. Siz, ümumiyyətlə, işləmirsiniz, doğrudurmu? İşsizsiniz?

Mən başımla təsdiqlədim.

– Yaxşı. Beləliklə... siz heç nə ilə məşğul olmursunuz, heç yerdən qazanmırsınız?

– Yox.

– Həm də... otaq qonşunuz hiss etmədi ki, siz hər gün işə getmirsiniz?

– Gedirəm. Amma işə yox, sadəcə, əvvəlki kimi eyni vaxtda qatarla Londona gedirəm ki, o bilməsin.

Rayli Qaskillə baxdı – o məndən baxışlarını çəkmirdi və azca qaşqabaqlı idi.

– Mən anlayıram ki, bu qəribə görünür... – deyə sözə başladım, amma cümləni bitirmədim, çünki düzünü desəm, bu nəinki qəribə görünürdü, həm də tamam ağılsızlıq idi.

– Yaxşı. Deməli, siz özünüzü elə göstərirsiniz ki, hər gün işə gedirsiniz? – Rayli də üzünü turşudaraq soruşdu, guya mənim üçün narahatlıq keçirir və sanki məni başıxarab hesab edirdi.

Cavab vermədim, ya da başımla təsdiqləmədim, sadəcə, susdum.

– Bilmək olarmı, miss Uotson, siz işi niyə buraxdınız?

Yalan danışmağın mənası yox idi. Bu söhbətdən əvvəl iş tarixçəmi öyrənməmişdilərsə, indi hökmən yoxlayacaqdılar.

– Məni işdən çıxartdılar, – deyə cavab verdim.

– Sizi işdən çıxartdılar, – Rayli kinayə ilə təkrar etdi. O aşkar şəkildə belə bir cavab gözləyirdi. – Bəs nə səbəbə?

Mən köks ötürdüm və üzümü Qaskillə çevirdim:

– Bu vacibdirmi? Nə fərqi var, mən işdən niyə çıxmışam?

Qaskill cavab vermədi və Raylinin onun qarşısına düzdüyü hansısa kağızlara baxmağa başladı, lakin xəfifcə başını silkələdi. Rayli mövzunu dəyişdi:

– Miss Uotson, mən şənbə axşamı haqqında soruşmaq istərdim.

Qaskillə baxdım – biz axı bunu müzakirə etmişik, – lakin o mənə baxmırdı.

– Yaxşı, – dedim və bilaixtiyar başımdakı şişə əlimlə toxundum.

– Deyə bilərsizmi, şənbə axşamı Blenhaym-rouda nə üçün getmişdiniz? Keçmiş ərinizlə nə haqda danışmaq istəyirdiniz?

– Hesab edirəm ki, bu sizin işiniz deyil, – cavab verdim və o mənə bir söz deməyə macal tapmamış xahiş etdim: – Mənə su verə bilərsinizmi?

Qaskill qalxıb otaqdan çıxdı, bunu heç gözləmirdim. Rayli susur və

gözlərini məndən çəkmirdi, üzündəki saxta təbəssümü də silməmişdi. Onun baxışlarına dözmədim, masanın üstünə baxdım, sonra divarları gözdən keçirməyə başladım. Mən bilirəm ki, bu bir taktikadır: qəsdən susurlar ki, mən öz-özümə narahat olum və hətta istəməsəm belə axırda danışmağa başlayım.

– Onunla bəzi şeyləri müzakirə etməli idim, – dedim. – Şəxsi məsələlər. – Bu çox yekəxana və axmaqcasına səsləndi.

Rayli köks ötürdü. Dodağımı dişlədim və Qaskill gəlincəyə qədər susmağa qərar verdim. O gəlib su ilə dolu tərləmiş stəkanı qarşıma qoyduqda, Rayli danışdı.

– Şəxsi məsələlər? – o soruşdu.

– Məhz elə.

Rayli və Qaskill baxışdılar. Mən anlamadım, onların baxışları nə ifadə edir: qəzəb, yoxsa istehza? Üst dodağımda tər damçıları əmələ gəldi. Sudan bir udum aldım. Dadından köhnə suya oxşayırdı. Qaskill qarşısındakı kağızları yığdı və bir tərəfə qoydu, elə bil onlarla işini qurtarmışdı, ya da bu kağızlar daha onun üçün heç bir maraq kəsb etmirdi.

– Miss Uotson, sizin keçmiş ərinizin... indiki arvadı, missis Anna Uotson, sizin davranışnz barədə narahatlığını bildirib. O bizə dedi ki, siz ona sakit yaşamağa imkan vermirsiniz, onun ərini izləyirsiniz, dəvətsiz onların evinə gəlibsiniz, bir dəfə... – Qaskill baxışlarını kağızlara çevirdi, lakin burada Rayli sözə qarışdı.

– Bir dəfə siz Mister və Missis Uotsonların evinə soxulmuş və onların yeni doğulmuş uşaqlarını götürmüsünüz.

Otağın ortasında nəhəng bir dəlik açıldı və məni uddu.

– Bu yalandır! – hiddətlə dedim. – Mən götürmədim... belə bir şey olmayıb, bu yalandır. Mən... mən onu götürməmişdim.

Elə sarsılmışdım ki, titrəməyə başladım. Göz yaşlarımı saxlaya bilmədim və getmək istədiyimi dedim. Rayli stulda geri çəkildi, ayağa qalxdı və Qaskillə başı ilə işarə edib çıxdı. Qaskill mənə kağız salfet verdi.

– İstədiyiniz vaxt gedə bilərsiniz, miss Uotson. Siz özünüz bizimlə danışmağa gəlmisiniz. – O gülümsündü və bu gülümsəmə üzr istəməyə bənzədi.

Həmin anda o mənə elə anlayışlı göründü ki, hətta əlindən tutub sıxmaq istədim, lakin özümü saxladım, çünki belə davranış çox qəribə görünə bilərdi.

– Mənə elə gəlir ki, siz mənə daha nə isə söyləmək istəyirsiniz, – o dedi, bu mənim daha çox xoşuma gəldi, çünki o “bizə” deyil, “mənə” dedi. – Bəlkə, – qalxıb məni qapıya qədər müşayiət edərək sözünə davam etdi, – yaxşısı budur fasilə verək, ayaqlarınızın keyi açılsın və bir şeylər yeyəsiniz. Bir az dincəldikdən sonra qayıdarsınız və mənə hamısını danışarsınız.

Mən hər şeyi atıb evə getmək istəyirdim. Dəmiryol stansiyasına doğru gedirdim, bu barədə daha heç vaxt xatırlamamağa hazır idim. Lakin sonra qatar barədə düşündüm, bu yolla hər gün Meqan və Skottun evinin yanından keçərək necə gedib-qayıdacağımı fikirləşdim. Birdən onlar Meqanı heç tapmasalar? Mən daim özümə sual verəcəyəm ki, söyləyəcəyim şey ona kömək etməzdimi? Doğrudur, bu ehtimalın az olduğunu anlayırdım. Bəs birdən Skottu ona zərər verməkdə günahkar saysalar, sadəcə, ona görə ki, onlar “B” haqqında heç bir şey bilmirlər? Bəlkə Meqan döyülüb və qan içində indi “B”-nin evində zirzəmidə, ya da bağda basdırılıb?

Mən Qaskillin dediyinə əməl edib mağazadan buterbrod və bir şüşə su aldım və Uitni parkına – evlərlə əhatə olunmuş, asfalt oyun meydançaları ilə örtülü, xeyli kasıb bir parka getdim. Oturacaqda əyləşib ana və dayələrin yerdən hər cür şeyi götürüb ağızlarına atan uşaqlarını necə danladıqlarına baxırdım. Nə vaxtsa – bir neçə il bundan əvvəl – mən özüm bu barədə xəyallar qururdum. Buraya necə gələcəyimi təsəvvürümə gətirirdim, – aydındır ki, indiki kimi polis sorğu-sualı arasında buterbrod yeməyə deyil, öz uşağımla. Yüngül gəzinti arabası almağı, uşaq ticarət mərkəzindən qəşəng paltarlar və inkişaf etdirici oyuncaqlar seçib almağı arzulayırdım. Burada oturub öz körpəmi dizlərimin üstündə yırğalayacağımı düşünürdüm.

Lakin bütün bunlar baş tutmadı. Həkimlər niyə mənim hamilə qala bilmədiyimi izah edə bilmədilər. Mən hələ çox gənc və sağlam idim, biz buna cəhd edəndə az içirdim. Ərimin sperması sağlam və çox idi. Sadəcə, hamiləlik baş vermirdi. Məndə uşaq salma olmadı, sadəcə, hamilə qalmırdım.

Biz bir sikl süni mayalanma (İVF – in vitro fertilisation) keçdik – bunu davam etdirməyə maddi imkanımız olmadı. Prosedur, bizi xəbərdar etdikləri kimi, həqiqətən xoşagəlməz və müvəffəqiyyətsiz oldu. Lakin kimsə mənə demədi ki, bu bizi sındıracaq. Amma elə oldu. Daha doğrusu, əvvəlcə mən sındım, sonra hər ikimiz. Mən özüm hər şeyi məhv etdim.

Sonsuzluq problemi ondan ibarətdir ki, ona laqeyd qalmaq olmur. Ən azından sizin otuza yaxın yaşınız varkən. Rəfiqələrimin uşaqları vardı, rəfiqələrimin rəfiqələrinin də uşaqları vardı, hamı hamiləliyini, doğuşlarını və ad günlərini qeyd edirdilər. Məndən həmişə bu barədə soruşurdular. Anam, dostlarımız, işdə həmkarlarımız. Mənim növbəm nə zaman çatacaq? Bir anda mənim sonsuzluğum bazar günü söhbətlərinin adi mövzusuna çevrildi – təkcə Tomla mənim deyil, həm də tanışlarımızın. Biz nəyi yoxladıq, nəyi sınaqdan keçirdik, nəyi sınaqdan keçirmək lazımdır, ikinci şərab piyaləsini içmək lazım idimi? Mən hələ gənc idim, irəlidə hələ vaxt çox idi, amma ilk uğursuzluq mənim kəfənim oldu, bütün ətrafımı zəhərlədi, ayaqlarımın altından dayağı uçurtdu və mən ümid etməyi buraxdım. O vaxtlar problemin məndə olduğuna inanmaq istəmirdim, fikirləşirdim ki, bizdə heç nə alınmır. Lakin Tomun tez bir vaxtda Annanı hamilə qoyması göstərdi ki, onda heç bir problem yox imiş. Təqsirin hər ikimizdə olduğunu düşündükdə səhv edirmişəm – hər şeydə günahkar yalnız mən idim.

Mənim ən yaxın universitet rəfiqəm Lara iki il ərzində iki uşaq – əvvəlcə oğlan, sonra qız doğdu. Onlardan xoşum gəlmirdi, onlarla görüşmək istəmirdim. Bir müddətdən sonra Lara mənimlə ünsiyyəti kəsdi. İşdə bir qız mənə danışdı ki, – özü də çox saymazyana şəkildə, elə bil söhbət apendisitdən, ya da ağıl dişinin çıxarılmasından gedirdi, – bu yaxında tibbi abort etdirib, bu onun tələbə vaxtı etdirdiyi cərrahi abortdan daha yüngül olub. Bundan sonra onunla danışa bilmədim, hətta ona baxa da bilmədim. Ofisdə bunu hiss etdilər və dedi-qodular başlandı.

Tom bütün bunlara mənim kimi münasibət bəsləmirdi. Əvvəla, problem onda deyildi, ona uşaq mənə olduğu qədər lazım deyildi. O ata olmaq istəyirdi, həqiqətən istəyirdi – mən əminəm ki, o oğlu ilə həyətdə top qovmağı, ya da qızını çiyninə qoyub parkda gəzdirməyi arzu edirdi. Lakin hesab edirdi ki, biz uşaqsız da xoşbəxt yaşaya bilərik. İndi bizə yaxşıdır, – o deyirdi, – bəs niyə gələcəkdə də yaxşı olmasın? Mən onun kefini pozurdum.

O başa düşmürdü ki, öz həyatında heç zaman olmamış bir şeyin yoxluğundan niyə adam bu qədər əzab çəkir? Buna yas saxlamağa dəyərmi?..

Mən öz dərdimlə özümü tənha hiss edirdim. Tənhalıqdan içməyə başladım, əvvəlcə az, sonra bir az çox və bununla hər şeyi dərinləşdirdim, çünki məndən yan gəzməyə başladılar, kim əyyaşla oturub-durmaq istəyər? Mən çox şey itirirdim, çünki içirdim və yeni itkilərdən dolayı içməkdə davam edirdim. İşim xoşuma gəlirdi, lakin "əla karyeradan" söhbət getmirdi, lap getsə də, açıq danışaq: qadında hələ də yalnız gözəllik və doğmaq qabiliyyəti dəyərləndirilir. Mən gözəl deyiləm və doğa da bilmərəm, onda mənim nə dəyərim ola bilər? Heç nə.

Mən bütün bunlarla içkiyə meylimə haqq qazandıra bilmərəm – nə valideynlərimi, nə də uşaqlığımı günahlandıra bilərəm, nə şəhvətli dayını, nə də bədbəxt bir faciəni bəhanə edə bilərəm. Bu bütövlükdə mənim günahımdır. Mən həmişə içməyi sevmişəm. Lakin məni tədricən xiffət üstələməyə başladı, xiffət isə həm adamın özü, həm də ətrafındakılar üçün pis yoldaşdır. Beləcə get-gedə əyyaşa çevrildim, belələrindən isə hamı yan gəzir.

İndi uşaq probleminə daha sakit münasibət bəsləyirəm, ərimlə boşanandan bəri bu ağrını daha əvvəlki kimi kəskin hiss etmirəm. Mənim seçimim yox idi. Çox kitablar və məqalələr oxudum və anladım ki, bununla yaşamağı öyrənməliyəm. Variantlar var, ümid var. Əgər ağlımı başıma toplayıb içməyə son qoysam, onda kimisə oğulluğa götürə bilərəm. Mənim 34 yaşım var, amma tam olaraq özümə gəlməmişəm. İndi bir neçə il əvvəlkinə görə yaxşıyam, onda supermarketdə çoxlu ana və uşaq olanda mən arabanı atıb çıxırdım; onda mən parka gəlib ana və oynayan uşaqlara baxa bilmirdim. Bəzən əzab elə dözülməz olurdu ki, ağlımı itirəcəyimi düşünürdüm.

Bəzən doğrudan da ağlımı itirirmişəm. Həmin gün, polis şöbəsində məni sorgu-sual etdikləri gün, özümdə deyildim. Onda Tomun dediyi söz mənim beynimdə dolaşırdı və dəli kimi olmuşdum. Daha doğrusu, dediyi yox, "feysbuk"da yazdığı sözlər, – mən onları həmin səhər oxudum. Onların uşağının doğulması mənim üçün şok deyildi – bilirdim ki, Anna hamilədir, o mənə bu barədə demişdi, həm də mən Annanı görmüşdüm, uşaq otağındakı çəhrayı pərdələri də görmüşdüm. Ona görə də bunun olacağını bilirdim.

Lakin uşaq haqqında Annanın uşağı olaraq düşünürdüm. O vaxta qədər ki, Tomun qucağında uşaqla şəklini gördüm və şəklin altındakı yazını oxudum: "Bax, bütün səylər bundan ötrüdür! Heç bilməzdim ki, belə məhəbbət olar! Bu mənim həyatımda ən xoşbəxt gündür!" Bunu görəcəyimi və oxuyacağımı bilə-bilə belə bir şeyi necə yazdığını düşündüm. O bilirdi ki, bu məni öldürəcək, amma yenə də yazmışdı. Onun üçün mühüm deyildi. Valideynlərə yalnız öz uşaqları mühümdür. Onlar kainatın mərkəzidirlər, yalnız onların əhəmiyyəti var. Qalan heç bir şeyin əhəmiyyəti yoxdur, nə sevinclərinin, nə əzablarının, çünki bütün qalan şeylər reallıq xaricindədir.

Mən dəliyə dönmüşdüm, beynim heç nə qavramırdı. Bəlkə də intiqam almaq istəmişdim. Onlara əzablarımın həqiqi olduğunu göstərmək üçün. Bilmirəm. Lakin mən axmaq hərəkətə yol verdim.

Təxminən iki saatdan sonra polis şöbəsinə qayıtdım; onunla təklikdə danışmaq istədiyimi dedim, lakin o cavab verdi ki, Raylinin də iştirakı lazımdır. Bundan sonra o mənim daha az xoşuma gəldi.

– Mən onların evinə soxulmadım, – dedim. – Bəli, mən həqiqətən onlara getmişdim, Tomla danışmaq istəyirdim. Lakin zəngə kimsə cavab vermədi...

– O zaman, siz evə necə daxil oldunuz? – Rayli soruşdu.

– Qapı açıq idi.

– Giriş qapısı?

Mən köks ötürdüm:

– Yox. Əlbəttə. yox. Arxadakı bağa açılan qapı.

– Bəs siz evin arxasındakı bağa necə girdiniz?

– Çəpərdən aşdım, bilirdim ki...

– Deməli, siz keçmiş ərinizin evinə girmək üçün çəpərdən aşdınız?

– Bəli. Biz əvvəllər... Arxada həmişə ehtiyat açar olur. Açarı itirsəydik, ya da unutsaydıq, ehtiyat açarı gizlədildiyi yerdən götürərdik. Lakin mən evə zorla girməmişəm, bu yalandır. Mən, sadəcə, Tomla danışmaq istədim, düşündüm ki, zəng xarab olub, ya da başqa nəsə.

– Bu iş günü idi, düzdür? Niyə siz qərar verdiniz ki, keçmiş əriniz evdə olacaq? Siz ona zəng edib öyrəndinizmi? – Rayli soruşdu.

– Lənət şeytana, siz mənə sözümü bitirməyə imkan verəcəksiniz? – qışqırdım və o başını bulayaraq gülümsündü, elə bil göstərmək istəyirdi ki, mənim fikirlərimi oxuyur. – Çəpərdən aşdım, – səsimdəki titrəyişi kəsməyə çalışaraq davam etdim, – şüşə qapını döydüm, qapı yarıaçıq idi. Kimsə cavab vermədi. Başımı içəri salıb, Tomu çağırdım. Yenə kimsə cavab vermədi, bu zaman mən uşağın ağladığını eşitdim. İçəri girdim və Annanı gördüm...

– Missis Uotsonu?

– Bəli. Missis Uotson divanda uzanmışdı, yatırdı. Uşaq isə yataqda idi və ağlayırdı, daha doğrusu, elə qışqırırdı ki, üzü qızarmışdı. Aydın idi ki, çoxdan qışqırır. – Bunları danışarkən birdən ağlıma gəldi ki, uşağın qışqırığını küçədən eşitdiyimi və buna görə evin arxasında çəpərdən aşdığımı deyə bilərdim. Onda mən manyak qadına daha az oxşayardım.

– Deməli, uşaq qışqırırdı, anası yanında idi və ayılmırdı? – Rayli dəqiqləşdirdi.

– Bəli.

Rayli dirsəklərilə masaya söykənərək, əllərilə üzünün bir hissəsini örtüb oturmuşdu, onun üzündəki ifadəni görmürdüm, lakin bilirdim ki, o mənə inanmır.

– Mən çağanı götürdüm ki, sakitləşdirim. Vəssalam. Götürdüm ki, sakitləşdirim.

– Yox, vəssalam deyil, çünki Anna ayılanda siz orada deyildiniz, doğrudurmu? Siz çəpərin yanında dəmir yolunda idiniz.

– Uşaq tez sakitləşmədi, – cavab verdim. – Mən onu yırğaladım, o, hələ ağlamağa davam edirdi, buna görə də onu həyətə çıxartdım.

– Dəmir yoluna?

– Bağa.

– Siz Uotsonların uşağına zərər vermək niyyətindəydiniz?

Bu zaman hiddətlə ayağa qalxdım. Bunun bir az melodramatik göründüyünü anlayıram, amma istəyirdim ki, onlar görsünlər – Qaskill görsün ki, bu barədə hətta düşünmək belə necə hiddətləndiricidir.

– Mən bütün bunları dinləməyə məcbur deyiləm! Sizə bir adam barədə danışmaq üçün buraya gəlmişdim! Sizə kömək etməyə gəlmişdim! İndi isə... siz konkret olaraq məni nədə günahlandırırsınız? Nədə?

Qaskill təmkinini saxlayırdı – mənim hiddətlənməyim ona təsir etməmişdi. O işarə ilə məni yenidən oturmağa dəvət etdi.

– Miss Uotson, biz Meqan Hipvell barədə soruşarkən, missis Uotson... e-e Anna sizdən danışdı. Dedi ki, keçmişdə sizin davranışınız qeyri-adekvat olub. Uşaqla bağlı hadisəni də danışdı. Dedi ki, siz onu və ərini izləyirsiniz, daim onların evinə zəng edirsiniz. – Qaskill öz qeydlərinə nəzər saldı. – Bəli, demək olar ki, hər gecə. Siz boşanmağınızla razılaşa bilmirsiniz...

– Bu tam cəfəngiyyatdır! – deyə hiddətləndim, hərçənd bunda həqiqət payı da vardı.

Mən həqiqətən arabir Toma zəng edirdim, lakin hər gecə – bu açıq-aşkar mübaliğə idi. Amma indi mənə elə gəldi ki, Qaskill heç də mənim tərəfimdə deyilmiş və gözümdən yaş süzülməyə başladı.

– Soyadınızı nə üçün dəyişməmisiniz? – Rayli məndən soruşdu.

– Bağışlayın?

– Siz əvvəlki kimi keçmiş ərinizin soyadını daşıyırsınız. Niyə? Əgər ərim məni başqa bir qadına görə atsaydı, düşünmürəm ki, onun soyadını daşımaq istərdim. Səndən üstün tutulan qadınla soyadını paylaşmaq...

– Görünür, mən o qədər vasvası deyiləm.

Əslində isə çox vasvasıyam. Annaya indi missis Uotson olduğuna görə nifrət edirəm.

– Yaxşı. Bəs boynunuzdan asılmış üzük? Bu nişan üzüyüdür?

– Xeyr, – mən yalan söylədim. – Bu... mənim nənəmindir.

– Doğrudan? Yaxşı. Sizin davranışınız sübut edir ki, missis Uotsonun təxmin etdiyi kimi, siz gerçəkliyi qəbul etmək və keçmiş ərinizin yeni ailəsi olduğu faktı ilə barışmaq istəmirsiniz.

– Başa düşmürəm...

– Bunun Meqan Hipvellə nə əlaqəsi var? – Mənim əvəzimə cümləni Rayli bitirdi. – Yaxşı. Meqanın itkin düşdüyü axşam, sizi – sərxoş olan və qeyri-stabil davranışı ilə fərqlənən qadını – onun yaşadığı küçədə görüblər. Meqanla missis Uotsonun müəyyən fiziki bənzərliyini nəzərə alaraq...

– Onların heç bir ümumi cəhəti yoxdur!

Belə müqayisədən mən lap özümdən çıxdım. Cess qətiyyən Annaya oxşamır. Meqan qətiyyən Annaya oxşamır.

– Onların hər ikisi sarışın, arıq, zərif, açıq dərili...

– Mən də onu Anna hesab edərək, Meqan Hipvellə hücum etmişəm?! Bu nə cəfəngiyyatdır! – hiddətlə dedim. Lakin başımdakı şiş yenə döyünməyə başladı, şənbə axşamı isə əvvəlki kimi mənim yaddaşımda hələ də qara dəlik olaraq qalmışdı.

– Siz bilirdiniz ki, Anna Uotson Meqan Hipvellə tanışdır? – Qaskill soruşdu və mən donub qaldım.

– Mən... nə? Yox. Yox, onlar bir-birini tanımırdılar.

Rayli bir anlığa gülümsündü, sonra yenə ciddiləşdi.

– Tanıyırdılar. Meqan Uotsonlarda uşağa dayəlik edirdi... – o, qeydlərinə göz atdı, – ötən ilin avqustunda.

Mən nə deyəcəyimi bilmirdim. Ağlıma girmirdi: Meqan mənim evimdə, onunla, onun uşağı ilə.

– Dodağınızdakı yara – bu günlərdə siz maşın altına düşdüyünüzdə olub? – Qaskill maraqlandı.

– Bəli, yəqin yıxılanda dodağımı dişləmişəm.

– Bəs maşın sizi harada vurmuşdu?

– Londonda. Teobalds-roudda. Holborn yaxınlığında.

– Sizin orada nə işiniz vardı?

– Bağışlayın?

– Nədən siz Londonun mərkəzində idiniz?

– Bunu artıq sizə demişəm, – deyə soyuq cavab verdim və çiyinlərimi çəkdim. – Otaq yoldaşım işdən çıxdığımı bilmir. Ona görə də mən adi qayda üzrə Londona getməkdə davam edirəm, iş axtarmaq və CV üzərində işləmək üçün kitabxanalara baş çəkirəm.

Rayli başını buladı – ya inanmadığı üçün, ya da təəccübdən. Belə vəziyyətə necə düşmək olar?

Mən stulu kəskin hərəkətlə geri itələdim, getməyə hazırlaşdım. Məni idiot və dəli göstərən kifayət qədər böhtan dinlədim. İndi əsas kartı açmağın vaxtı çatıb.

– Mən bütün bu söhbətlərin nə üçün olduğunu yaxşı başa düşmürəm, – dedim. – Mənə elə gəlir ki, sizin daha vacib işləriniz olmalı idi, məsələn, Meqan Hipvellin itkin düşməsinin istintaqı. Belə anlayıram ki, siz artıq onun oynaşı ilə söhbət etmisiniz?

Onlar bir kəlmə demədən gözlərini mənə zillədilər. Bunu gözləmirdilər. Onlar onun haqqında heç nə bilmirdilər.

– Bəlkə də sizin xəbəriniz yoxdur. Meqan Hipvellin eşq macərası vardı, – qapıya yönələrək dedim.

Məni Qaskill saxladı: səssiz və təəccüb ediləcək dərəcədə sürətlə hərəkət edərək, mən qapının dəstəyindən yapışmağa macal tapmamış, o yolumu kəsdi.

– Mənə elə gəldi ki, siz Meqan Hipvell ilə tanış deyilsiniz? – o soruşdu.

– Elədir ki, var, – deyə onun yanından keçməyə çalışaraq, təsdiq etdim.

– Əyləşin, – məni qapıya tərəf buraxmayıb dedi.

Qatarın pəncərəsindən baxaraq Meqanı bağda günəşlənərkən, ya da

terrasda qəhvə içərkən tez-tez müşahidə etdiyimi onlara danışdım. Keçən həftə onu bir kişi ilə gördüyümü, – bu kişi açıq-aşkar Meqanın əri deyildi, – onların çəmənlikdə öpüşdüklərini dedim.

– Bu nə zaman olub? – Qaskell qırıq-qırıq soruşdu.

Deyəsən, bunu dərhal söyləmədiyim üçün mənə acığı tutmuşdu. Mənimlə söhbət edərək günlərini bada vermişdilər.

– Cümə günü. Bu cümə günü səhər olub.

– Deməli, onun yoxa çıxmasından bir gün əvvəl siz onu başqa kişi ilə görmüsünüz? – Rayli köks ötürərək soruşdu və acığını gizlətmədən qarşısındakı qovluğu örtdü.

Qaskill kreslonun arxasına söykəndi və sınayıcı baxışlarla məni gözdən keçirdi. Rayli mənə qəti inanmırdı, Qaskill isə şübhələnirdi.

– Siz onu təsvir edə bilərsinizmi? – o soruşdu.

– Ucaboylu, qarabuğdayı...

– Cazibədar? – Rayli sözümü kəsdi.

Mən fikirli-fikirli ordumu şişirtdim.

– Skott Hipvelldən hündür. Bunu bilirəm, çünki onları birlikdə görmüşəm, Cess... bağışlayın, Meqan və Skott Hipvelli, o kişi isə başqa görkəmdə idi. Daha arıq, incə və dərisi daha tünd. Bəlkə də asiyalı idi, – dedim.

– Siz qatarın pəncərəsindən baxıb etnik mənsubiyyəti təyin etdiniz? – Rayli soruşdu. – Maraqlıdır. Bəs, Cess kimdir?

– Bağışlayın?

– Siz indicə hansısa Cessin adını çəkdiniz.

Yenə qızardığımı hiss etdim.

– Mən heç kəsin adını çəkmədim, – etiraz etdim.

Qaskill ayağa durdu və vidalaşaraq əlini mənə uzatdı:

– Məncə, kifayətdir.

Mən onun əlini sıxdım və Raylini əhəmiyyət verməyərək çevrilib getmək istədim.

– Blenhaym-rouddan uzaq durun, miss Uotson, – Qaskill dedi. – Xüsusi məcburiyyət olmasa, keçmiş ərinizə zəng etməyin və Anna Uotsonla onun uşağından uzaq durun.

Evə qayıtmaq üçün qatara oturub bu gün istədiyim kimi olmayan hadisələri fikrimdən keçirərkən təəccüb etdim ki, özümü gözlədiyim qədər pis hiss etmirəm. Səbəbini anlayırdım: dünən axşam içməmişdim, heç indi də içmək istəmirdim. Məni əzablarım yox, nə isə başqa bir şey daha çox maraqlandırırdı. Qarşımda bir məqsəd peyda olmuşdu. Ən azından mənim diqqətimi cəlb edən bir şey.

Cümə axşamı, 18 iyul 2013-cü il

Səhər

Səhər qatarına gedərkən üç qəzet aldım: Meqanı artıq dörd gün idi ki, tapa bilmirdilər və bu barədə çox yazırdılar. "Daily Mail", gözlənildiyi kimi, Meqanın bikinili şəklini əldə etmişdi, həm də onun haqqında başqa qəzetlərə nisbətən daha çox informasiya toplamışdı.

Meqan, – qızlıq soyadı Mills, – Roçesterdə 1983-cü ildə anadan olmuş, on yaşında valideynləri ilə birlikdə Norfolkda Kinqs-Linnə getmişdi. O, ağıllı və çox mehriban bir qız idi, yaxşı şəkil çəkir və mahnı oxuyurdu. Bir məktəb rəfiqəsinin dediyinə görə "çox şən, çox gözəl və xeyli dəlisov" bir qız idi. Görünür, onun dəlisovluğu çox sevdiyi qardaşı Benin ölümü ilə daha da artmışdı. Ben on doqquz yaşındaykən motosikldə qəza nəticəsində ölmüşdü. O zaman bacısının on beş yaşı vardı. Onun dəfnindən sonra qız üç gün evə gəlməmişdi. Onu iki dəfə həbs etmişdilər: bir dəfə oğurluq, ikinci dəfə dilənçilik üstündə. Əgər qəzetə inansaq, valideynləri onunla heç bir əlaqə saxlamırdılar. Onlar bir neçə il bundan əvvəl qızları ilə barışmadan ölüblər (Bunu oxuyanda Meqana çox yazığım gəldi. Mən anlayıram ki, ümumiyyətlə, o məndən çox da fərqlənmirdi. Elə mənim kimi tənha və narahat idi).

On altı yaşında o şimali Norfolkda Holkhem qəsəbəsində evi olan bir

oğlanla tapışmışdı. Məktəb rəfiqəsinin sözlərinə görə "o, qızdan yaşlı imiş, musiqiçi imiş, ya da buna bənzər bir peşəsi varmış və narkotik qəbul edirmiş. Meqan onunla tanış olduqdan sonra biz demək olar ki, ünsiyyət saxlamadıq". Bu oğlanın adı qəzetdə verilməmişdi, yəqin onu öyrənmək mümkün olmamışdı. Bəlkə də o heç mövcud deyildi. Rəfiqəsi bunu, sadəcə, uydura bilərdi ki, adı qəzetə düşsün.

Qəzet Meqanın həyatının bir neçə ili haqqında bir şey yazmamışdı. Budur, artıq onun 24 yaşı var və o Londonun şimal hissəsində bir restoranda ofisiant işləyir. Orada – həmin restoranın meneceri ilə dostluq edən, informasiya texnologiyaları üzrə konsultant Skott Hipvellə tanış olur. Onların arasında evliliklə nəticələnən bir eşq macərası olur. Meqanın 26, Skottun isə 30 yaşı var.

Məqalədə başqa tanışların da mülahizələrinə yer verilmişdi, məsələn, onun itkin düşdüyü gecə birlikdə olacağı rəfiqəsi Tara Epstayn deyir ki, "Meqan əla və gülərüz bir qızdır" və "çox xoşbəxt" görünürdü. "Skott ona əzab verə bilməzdi, – Tara açıqlayır. – O, Meqanı həddindən çox sevir". Taranın söylədikləri hamısı şablondur. Mənə Meqanın bir zamanlar işlədiyi qalereyada rəsmləri olan rəssamlardan birinin sözləri daha maraqlı gəldi. Onun adı Radjeş Qucral idi. O deyirdi ki, Meqan "yaxşı zövqü olan əla bir qadındır, şən və gözəl, dərin daxili aləmə və qayğıkeş ürəyə malikdir". Görünür, bu Radjeş ona heç də laqeyd deyilmiş. Son bir sitatda hansısa Devid Klarkın – Skottun "keçmiş həmkarı"nın sözləri: "Meqan və Skott – əla cütdürlər. Onlar birlikdə çox xoşbəxtdirlər və bir-birlərini son dərəcə sevirlər" verilmişdi.

Qəzet həm də istintaqın gedişindən xəbər verirdi, lakin polisin bildirişi bundan ibarət idi ki, "bir sıra şahidlər dindirilmişdir" və "bir neçə versiya üzərində iş gedir". Yeganə maraq doğuran şey – inspektor Qaskillin istintaqa iki adamın kömək etməsi haqqındakı sözləridir. Mən başa düşürəm ki, onların hər ikisi şübhəli şəxs idi. Biri sözsüz ki, Skottdur. İkincisi, bəlkə – "B"-dir? Bəlkə də Radjeş – elə bu "B"-dir.

Qəzet oxumağa başım elə qarışmışdı ki, semafora necə çatdığımızı hiss etmədim və qatar qıjıltı ilə qırmızı işıqda dayandı. Skottun bağında hansısa adamlar qurdalanırlar, arxa qapının yanında polis formasında iki adam

dayanıb. Başımda hər şey bir-birinə qarışır. Onlar nə isə tapıblar? Meqanı tapıblar? Onun bədəni bağda ya da evdə döşəmənin altında basdırılıb? Mən dəmiryol relslərinin yanındakı cındır yığını barədə düşünməyə bilmirəm, bu da axmaqlıqdır, çünki onu Meqan yox olmazdan əvvəldən görmüşəm. Əgər onun başına bədbəxt bir hadisə gəlibsə, Skottun bunda heç bir günahı yoxdur, onun bu işdə iştirakı ola bilməz. O Meqanı hədsiz sevir, bunu hamı deyir.

Bu gün işıq azdır, hava korlanıb və qurğuşun kimi buludlar səmanı örtüb. Mən evdə nə baş verdiyini görmürəm. Hiss edirəm ki, məni ümidsizlik bürüyür. Kənarda qala bilmərəm, elə alındı ki, bütün bunlara mənim də aidiyyətim var. Nə baş verdiyini bilməliyəm.

Ən azından, mənim planım var. Əvvəla, şənbə günü axşam nə baş verdiyini xatırlamağa məni məcbur etmənin bir üsulu olub-olmadığını aydınlaşdırmaq lazımdır. Mən kitabxanaya gedəcəyəm və çalışacağam öyrənim ki, hipnoterapiya bu işdə mənə yardımçı ola bilərmi, doğrudanmı onun vasitəsilə yaddaşdakı boşluğu bərpa etmək mümkündür? İkincisi – bunun mühüm olduğunu düşünürəm, çünki polis mənim Meqanın sevgilisi barədə dediklərimə yəqin ki, inanmayıb, – mən Skott Hipvellə əlaqə yaratmalıyam. Ona hər şeyi danışmalıyam. Onun hər şeyi bilməyə haqqı var.

Axşam

Qatar yağış altında islanmış sərnişinlərlə doludur, onların paltarlarından buxar qalxır və vaqonların pəncərələrində kondensasiya olur. Bürkülü hava tər, ətir və paltar sabunu qoxusu ilə dolmuş və aşağı əyilən nəm başları bürümüşdü. Səhərdən bəri yağış yağacağını xəbər verən buludlar bütün günü qaralıb şişmişdi, nəhayət, pik saatında, küçələr qulluqçularla dolanda leysanla nəticələndi, yollarda hərəkət tıxandı, metro girişləri isə çətirlərini açıb qapayan insanlarla doldu.

Mənim çətirim yox idi, alt paltarıma qədər islanmışdım, elə bil başımdan vedrə ilə su tökmüşdülər. Pambıq şalvarım qıçlarıma yapışmışdı, mavi köynəyim isə rüsvayçı şəkildə şəffaf olmuşdu. Kitabxanadan metroya qədər bütün yolu, az da olsa yağışdan qorunmaq üçün çantamı sinəmə sıxaraq qaçdım. Nədənsə bu məni birdən dəhşətli dərəcədə şənləndirdi – yağışın səni hazırlıqsız yaxalamasında bir anlamsızlıq var, – və mən elə bərkdən güldüm ki, nəhayət, Qreys-İnn-rouda çatdıqda zorla nəfəs alırdım. Son dəfə nə zaman

belə güldüyüm yadıma gəlmir.

İndi mənim gülməyə halım qalmamışdı. Yer boşalan kimi əyləşdim və telefonda Meqan barədə son yeniliklərə baxdım. Mənim ən çox qorxduğum şey olmuşdu. "Uitni polis şöbəsində şənbə günü axşam evdən çıxdıqdan sonra itkin düşmüş Meqan Hipvellin yoxa çıxması ilə əlaqədar saxlanılmış otuz beş yaşlarında bir kişi istintaq edilir". Bu sözsüz ki, Skottdur, buna heç bir şübhəm yoxdur. Mən yalnız ümid edirəm ki, o həbs edilməzdən əvvəl elektron poçtunda mənim məktubumu oxuyub, çünki həbsdən sonrakı istintaq – çox ciddi işdir və onu günahkar saydıqlarını göstərir. Baxmayaraq ki, hələ çox şey aydın deyildi. Bəlkə heç bir cinayət işlənməyib və Meqana heç nə olmayıb. Hərdən düşünürəm ki, o sağ-salamatdır, indi hansısa hotelin dənizə baxan eyvanında ayaqlarını məhəccərə söykəyib sərin içki içir.

Bu fikir eyni zamanda məni həm sevindirir, həm də kədərləndirir, sonra da ümidim boşa çıxdığı üçün xəcalət çəkirəm. Skotta xəyanət etdiyi üçün və ideal ailə haqqında təsəvvürlərimi məhv etdiyinə görə ona nə qədər acığım tutsa da, yenə də ona pislik arzulamıram. Sadəcə olaraq, özümü bu sirrin bir parçası hesab edir və özümü bu işin iştirakçısı kimi hiss edirəm. Mən artıq, sadəcə, o tərəf-bu tərəfə gedən qatardakı qız deyiləm. Meqanın sağ-salamat geri dönməsini istəyirəm. Həqiqətən istəyirəm. Lakin elə bu saat deyil, bir az sonra.

Səhər Skotta elektron poçtla məktub göndərdim. Onun ünvanını tapmaq çətin olmadı: axtarış motorunda onun adını yazdım və onun "biznes və qeyri-ticarət təşkilatları üçün internet texnologiyalarına dair məsləhətçi xidməti" reklam etdiyi sayta çıxdım. Bilirdim ki, bu odur, çünki ev və iş ünvanları uyğun gəlirdi. Mən saytda göstərilən əlaqə ünvanına qısa bir mesaj göndərdim.

Hörmətli Skott!

Mənim adım Reyçel Uotsondur. Biz tanış deyilik. Mən Sizinlə Sizin arvadınız haqqında danışmaq istərdim. Mən bilmirəm o haradadır və ona nə olmuşdur. Lakin məndə Sizə bəlkə də yararlı ola biləcək bir informasiya var.

Əgər Siz mənimlə ünsiyyətdə olmaq istəməsəniz, Sizi anlayaram, lakin istəsəniz bu ünvana yazın.

Hörmətlə:

Reyçel

Onun yerində olsaydım, o mənimlə əlaqə qurmaq istəyərdimi – bunu bilmək çətindir, yəqin istəməzdi. Elə polis kimi, o da böyük ehtimalla düşünəcək ki, yəqin dəlidir, qəzetdə hadisə haqqında oxumuş başdanxarabın biridir. Əgər həbs olunubsa, bu mesajı görüb-görməyəcəyini bilmirəm. Həbs ediblərsə, bu mesaj haqqında yalnız polis biləcək, bu da mənə yaxşı heç nə vəd etmir. Amma mən hər halda cəhd göstərməli idim.

İndi ümidsizliyin məni necə caynağına aldığını hiss edirəm. Sərnişin izdihamından vaqonun o biri tərəfindəki yolları görmürəm, hətta görsəydim də, yağışdan heç nə ayırd edə bilməyəcəkdim. Maraqlıdır, yağış dəlilləri yuyub aparırmı, siqaret kötükləri üzərində qan ləkələri və ya DNT nümunələri kimi vacib sübutları birdəfəlik məhv edirmi? İçmək istəyirəm ki, hətta ağzımda şərabın dadını hiss edirəm. Spirtli içki qanda həll olub başa çıxanda necə təsir etdiyini əla təsəvvür edirəm.

Mən içmək istəyirəm, amma eyni zamanda istəmirəm, çünki bu gün içməsəm, onda artıq üç gün içkisiz olacağam. Hətta xatırlamıram ki, son zamanlar nə vaxt mən dalbadal üç gün içkisiz olmuşam. Həm də özümdə köhnə və unudulmuş bir inadkarlıq hiss edirəm. O zaman özümü səhər yeməyinə qədər 10 kilometr qaçmağa məcbur edə bilərdim və bir neçə həftə boyunca gündə 1300 kalori ilə keçinə bilərdim. Bu xasiyyətim Tomun çox xoşuna gəlirdi və o tez-tez deyirdi ki, mənim gücüm inadkarlığımdadır. Son mübahisələrimizdən birini xatırlayıram, – onda aramızda artıq hər şey pozulmuşdu, – Tom özündən çıxdı. “Sənə nə oldu, Reyçel? – o qışqırdı. – Nə zaman sən belə zəif oldun?”

Bilmirəm. Bilmirəm. Mənim gücüm haraya getdi, xatırlamıram onu necə itirməyə başladım. Mənə elə gəlir ki, o tədricən parçalanmağa başladı, bu parçaları həyat özü, onun axını qoparıb aparırdı.

Qatar birdən əyləclərini qıcırdadaraq Londona gedən xəttin semaforunun qırmızı işığında dayanır. Vaqon yerində dayana bilməyib qonşusunu itələmiş və ya ayağını basmış sərnişinlərin üzrxahlıq uğultusu ilə dolur. Gözlərimi qaldırdıqda baxışlarım həmin şənbə axşamı mənə qalxmağa kömək etmiş

kürən saçlı kişi ilə rastlaşır. Onun qeyri-təbii mavi gözləri düz mənə baxır və mən diksinərək telefonu əlimdən yerə salıram. Onu döşəmədən qaldırmaq üçün əyilirəm və yenə o kişiyə baxıram, bu dəfə ehtiyatla və bir az yana baxıram. Vaqonu gözdən keçirirəm, pəncərədən baxmaq üçün tərləmiş şüşəni dirsəyimlə silirəm və nəhayət, baxışlarımı həmin kişiyə çevirirəm. O başını bir az yana əyərək mənə gülümsəyir.

Mən qızardığımı hiss edirəm. Onun gülümsəməsinə necə reaksiya vermək lazım olduğunu bilmirəm, çünki bu təbəssümün nə məna verdiyi mənə aydın deyil. Bu "salam, biz artıq bir dəfə axşam görüşmüşdük", və ya "bu ki, pilləkəndə yıxılan və ağlına gələni danışan həmin sərxoş qadındır" və ya daha nə deməkdir? Bilmirəm, amma bu barədə fikirlərim birdən yaddaşımdan onun mən pilləkəndə sürüşərkən dediyi sözləri üzə çıxarır. "Hər şey qaydasındadır, gözəlim?" – o soruşmuşdu. Mən çevrilib pəncərəyə baxıram. Üzərimdə onun baxışlarını hiss edirəm, gizlənmək, yox olmaq istəyirəm. Qatar yerindən dartınır və bir neçə saniyədən sonra Uitni platformasına yanaşaraq dayanır, sərnişinlər çıxmağa hazırlaşaraq əşyalarını yığışdırmağa başlayırlar: qəzetləri bükürlər, elektron kitabları və planşetlərini götürürlər. Mən yenidən baxışlarımı çevirirəm və yüngülləşərək görürəm ki, o, artıq mənə arxasını çevirərək qatardan çıxır.

Bax, necə axmaq olduğumu bu zaman anlayıram. Qalxıb onun arxasınca çıxmaq və onunla danışmaq istəyirəm. O nə baş verdiyini və ya baş vermədiyini söyləyə bilərdi, ən azından hansısa naməlum nöqtələrə aydınlıq gətirərdi. Mən qalxıram, amma anlayıram ki, çox gecdir: qapılar elə indicə bağlanacaq, mənsə vaqonun ortasındayam və izdihamın arasından keçib çıxışa tez çata bilmərəm. Xəbərdarlıq siqnalı verilir və qapılar bağlanır. Ayaq üstdə dayanmağa davam edərək dönürəm və pəncərədən platformaya baxıram. Həmin şənbə axşamındakı kişi yağışın altında durub mənə baxır.

Evə nə qədər çox yaxınlaşıramsa, öz-özümə o qədər acığım tutur. Mən hətta Nortkoutda qatardan çıxıb Uitniyə qayıtmaq və onu axtarmaq istəyirəm. Axmaq fikirdir, əvvəla; ikincisi, nəzərə alsaq ki, Qaskill elə dünən mənə Uitnidən uzaq durmağı tapşırmışdı, demək, bu həm də xoşagəlməz nəticələrlə bağlı idi. Lakin məni dilxor edən odur ki, şənbə axşamı hadisələri haqqında bir şey xatırlamaq fürsəti əlimdən çıxırdı. Nahardan sonra İnternetdə keçirdiyim bir neçə saat (sözsüz ki, yetərsiz) mənim ən pis gözləntilərimi

yalnız təsdiqlədi: hipnoz yaddaşın itməsi zamanı baş verən hadisələr haqqında xatirələri bərpa etmir. İş burasındadır ki – mən bu barədə əvvəllər də oxumuşdum – bizim yaddaşımız itmə zamanı xatirələri qeyd etmir. Onda xatırlamağa bir şey olmur. Həmin period elə qara dəlik olaraq qalır.

# Meqan

---

Cümə axşamı, 7 mart 2013-cü İl

Günün ikinci yarısı

Otaqda qaranlıqdır, hava bizim şirin qoxumuzla doludur. Biz yenə “Qu quşu” hotelinin üst mərtəbəsindəki nömrədəyik. Düzdür, indi hər şey həmişəki kimi deyil, çünki o buradadır və mənə baxır.

– Sən haraya getmək istəyirsən? – o soruşur.

– Kosta de la Lus sahilində çimərlikdəki evə, – cavab verirəm.

O gülümsünür:

– Orada biz nə edəcəyik?

Mən gülürəm.

– Sən bundan əlavə daha nəyisə nəzərdə tutursan?

O, ehtiyatla barmaqlarını mənim qarnımda gəzdirir:

– Bundan əlavə.

– Biz qəhvəxana açarıq, incəsənətlə məşğul olarıq, serfinqi öyrənərik.

O yan tərəfdən mənim qarnımı öpür.

– Bəs Tayland necə olsun? – o soruşur.

Mən burnumu qırışdırıram.

– Orada cahil gənclər həddən artıq çoxdur. Siciliya olsun. Eqad adaları. Biz çimərlikdə bar açarıq, balıq tutmaqla məşğul olarıq...

O yenə gülür, sonra da mənim üstümə uzanır və öpür.

– Sən qəşəngsən, – o pıçıldayır. – Sən çox gözəlsən!

İstəyirəm qəhqəhə çəkib deyəm: “Görürsən? Mən qalib gəldim! Mən axı deyirdim ki, bu sonuncu dəfə deyil, sonuncu dəfə heç zaman olmur”. Mən dodaqlarımı gəmirirəm, gözlərimi yumuram. Haqlı idim, bunu bilirdim, lakin bunu dilə gətirməyə ehtiyac yox idi. Öz qələbəm haqqında bir söz demədən həzz alıram; bu həzz elə onun toxunuşlarından aldığım həzzə bərabər olacaq.

Sonra o mənimlə əvvəllər heç zaman olmadığı kimi danışdı. Adətən yalnız mən danışıram, lakin bu dəfə onun dili açılmışdı. O, boşluq hissindən, əlaqə saxlamadığı valideynlərindən, mənə qədər olan qadından danışdı. Bir də ondan əvvəlki qadından – onun ürəyini qırmış və ruhunu məhv etmiş qadından. Mən ruhların yaxınlığına inanmıram, lakin biz bir-birimizi sözsüz də başa düşürük, əvvəllər bunu heç vaxt hiss etməmişdim, ən azından artıq çoxdan idi ki, hiss etmirdim. Bu uyğun hisslər keçirməkdən, məyusluğu, pərtliyi anlayıb hiss etməkdən doğur.

Mən boşluğun nə olduğunu anlayıram. Mənə elə gəlir ki, onu prinsipcə heç bir şeylə doldurmaq mümkün deyil. Psixoterapiya seansları mənə bir şey öyrətdi: həyatda bu boşluqlar daimidir. Bu boşluqları örtərək böyüməyi öyrənmək lazımdır, beton tikilini öz budaqları ilə örtən bitkilər kimi. Bu boşluqlar insanı bir şəxsiyyət kimi formalaşdırır. İndi mən bunu bilirəm, amma bu barədə yüksəkdən demirəm, ən azından indi.

– Bəs nə zaman gedəcəyik? – soruşuram, lakin o cavab vermir və mən yuxuya gedirəm, ayılanda isə o artıq yoxdur.

Cümə, 8 mart 2013-cü İl

Səhər

Skott terrasda mənə qəhvə gətirir.

– Sən dünən yatırdın, – o deyir və əyilir ki, məni başımdan öpsün. O mənim arxamda dayanaraq isti və güclü əllərini çiyinlərimə qoyub. Başımı geri əyərək ənsəmlə ona söykənir və gözlərimi yumuram, qatarın necə relslərə şaqqıltı ilə vuraraq evimizin qarşısında dayandığını dinləyirəm. Biz bu evə təzəcə köçəndə, Skott tez-tez sərnişinləri salamlayaraq əl yelləyirdi, bu məni güldürərdi. O, yüngülcə çiynimi sıxır, əyilib boynumdan öpür.

– Sən yatmışdın, – o təkrar edir. – Yəqin özünü daha yaxşı hiss edirsən.

– Elədir ki, var, – cavab verirəm.

– Düşünürsən ki, təsiri oldu? – o soruşur. – Psixoterapiya?

– Sən soruşmaq istəyirsən, inanıram ki, mənim beynimi yerinə qoydular?

– Əlbəttə, yox, – o deyir və onun səsində inciklik hiss olunur. – Mən heç ...

– Bilirəm. – Mən əlimi qaldırır və onun ovucunu sıxıram. – Zarafat etdim. Mənə elə gəlir ki, bu bütöv bir prosesdir. Burada hər şey o qədər də sadə deyil. Heç bilmirəm, mən nə zamansa deyə biləcəyəm ki, alındı və mən normadayam?

Sükut çökdü və o mənim çiynimi bir az bərk sıxdı.

– Deməkr sən davam etmək istəyirsən? – o soruşur və mən “hə” cavabı verirəm.

Vaxt vardı, elə fikirləşirdim ki, o mənə lazım olan hər şeydir, o mənə yetərlidir. Bir neçə il belə düşündüm. Onu bütün qəlbimlə sevirdim. Lakin indi başqa bir həyat istəyirəm. Yalnız gizlicə görüşüb sevişdikdə özümü özüm kimi hiss edirəm, onda bu yarıqaranlıq və istinin içində elə bil canlanıram. Lakin qaçsam belə, mənə yenə nə isə çatışmayacağına əmin olmaq olardımı? Kim zəmanət verə bilər ki, mən yenə indi hiss etdiyimi hiss etməyəcəyəm – himayə altında olmaq deyil, əzilmək? Bəlkə mənim könlümdən yenə qaçmaq keçəcək, sonra yenə bir dəfə və nəhayət, yenə köhnə dəmir yollarının yanında olacağam, çünki daha getməyə yer olmayacaq. Belə də ola bilər. Bəlkə də yox. Risk etmək lazımdır, elə deyilmi?

Onu işə yola salmaq üçün aşağı enirəm. O məni belimdən qucaqlayır və başımdan öpür.

– Səni sevirəm, Meqs, – o pıçıldayır, mənsə özümü ən axırıncı alçaq hiss edirəm.

Tez onun arxasınca qapını örtmək istəyirəm, çünki elə bu saat ağlayacağımı bilirəm.

# Reyçel

---

Cümə, 19 İyul 2013-cü İl

Səhər

8:04 qatarı yarıboşdur. Pəncərələr açıq və dünənki yağışdan sonra hava sərindir. Meqanın yoxa çıxmasından 133 saat keçib. Özümü çoxdan idi ki, belə yaxşı hiss etməmişdim. Səhər güzgüyə baxdım və üzümün necə dəyişdiyini gördüm: dərim təmiz, gözlərim parlaq olub. Yüngüllük hiss edirəm. Arıqlamadığımı bilirəm, amma heç bir ağırlıq da hiss etmirəm. Elə bil yenidən özüm olmuşam – bir vaxtlar olduğum kimi.

Skottdan heç bir xəbər yoxdur. İnternetə baxdım – onun həbsi barədə heç bir məlumat yox idi. Qərara gəldim ki, o, sadəcə, cavab vermək istəmir. Məyus oldum, lakin yəqin elə bunu gözləmək lazım idi. Səhər mən artıq evdən çıxdıqda Qaskill zəng etdi. Məndən soruşdu ki, bu gün polis şöbəsinə baş çəkə bilərəmmi? Əvvəlcə qorxdum, sonra yumşaq və sakit səslə mənə bir neçə şəkil göstərəcəyini dedikdə sakitləşdim. Skott Hipvellin həbs edilib-edilməməsi ilə maraqlandım.

– Heç kim həbs olunmayıb, miss Uotson, – o dedi.

– Lakin saxladıqları kişi...

– Mən heç bir şey açıqlaya bilmərəm.

Onun danışıq tərzi elə sakitləşdirici idi ki, o yenə xoşuma gəlməyə başlamışdı.

Axşam idman paltarımı geyib divanda əyləşdim və nə etməli olduğumu düşünməyə başladım. Məsələn, pik saatında Uitniyə gedib stansiya ətrafında veyillənə bilərdim, ki, o şənbə axşamı ünsiyyətdə olduğum kürən saçlı kişini tapım. Onu içməyə dəvət edə bilərdim və bu zaman həmin axşam barədə soruşa bilərdim. Düzdür, burada Annaya, ya da Toma rast gəlmək qorxusu da var, onlar polisə xəbər versələr, polislə problemim daha da dərinləşər. Başqa bir mənfi cəhət də var – mən özüm təhlükədə ola bilərəm. Yaddaşımda

hansısa davanın dumanlı xatirəsi var, başımdakı şiş və dodağımdakı çapıq bu faktın maddi sübutudur. Bəlkə mənə əl qaldıran elə bu kürən saçlıdır? Onun təbəssümü və əlini yelləməsi heç nə ifadə etmir, o, sadəcə, psixopat da ola bilər. Lakin o mənə psix kimi görünmür. Səbəbini bilmirəm, amma o mənimçün simpatikdir.

Skotta yenə yazmaq olar. Lakin ona elə şey bir haqqında məlumat vermək lazımdır ki, onu maraqlandırsın. Hərçənd, normal bir qadın olmağımdan şübhə etməsinə əsas vermədən bunu necə bacaracağımı bilmirəm. O, hətta elə düşünər ki, Meqanın yoxa çıxmasında mənim əlim var və bu barədə polisə xəbər verər. Bax, onda məni həqiqətən ciddi problemlər gözləyər.

Hipnozu sınaqdan keçirmək olar. Şübhə etmirəm ki, heç nə xatırlamayacağam, amma hər halda maraqlıdır. Həm də bunun heç bir ziyanı yoxdur.

Mən oturub qeydlər edirdim. Çap olunan yeniliklərə baxdığım zaman Keti gəldi. Demienlə o kinoya getmişdilər. Keti içmədiyimi görüb çox sevindi, lakin ehtiyatlı davranırdı, çünki çərşənbə axşamı polislərin gəlişindən sonra biz onunla hələ də danışmamışdıq. Artıq üç gündür içmədiyimi dedikdə məni qucaqladı.

– Sənin normal həyata geri dönməyinə çox şadam, – o pıçıldadı, elə bil mənim üçün bu xəttin haradan keçdiyini bilirdi.

– Polislərin gəlişi, – dedim, – sadəcə, bir anlaşılmazlıq idi. Mənim Tomla heç bir problemim yoxdur, itkin düşmüş o qız haqqında isə heç nə bilmirəm. Sənin narahat olmağına heç bir əsas yoxdur.

O yenə məni qucaqladı və ikimiz üçün çay hazırladı. Bu xoş ab-havadan yararlanaraq işimlə bağlı situasyanı demək istədim, ancaq bu xoş axşamı korlamaq istəmədim.

Səhər də mənə çox yaxşı münasibət göstərdi. Mən getməyə hazırlaşarkən yenə qucaqladı.

– Sənin üçün çox şadam, Reyç, – dedi. – Sevinirəm ki, sən özünlə məşğul olmaq qərarına gəlmisən. Mən çox narahat idim.

Sonra həftə sonunu günləri Demiengildə keçirəcəyini dedi. Bu zaman ağlıma gələn ilk fikir bu oldu ki, evə qayıdan kimi mütləq içəcəyəm, çünki evdə heç kim olmayacaq.

Axşam

Soyuq cin-tonikdə acı xinin dadı xüsusilə xoşuma gəlır. Özü də tonik hökmən "Şveps" olmalı və plastik qabda deyil, yalnız şüşə qabda olmalıdır. Bu hazır qarışıqlar bir şeyə dəyməsə də, yoxluğundan daha yaxşıdır. Mən bilirəm ki, içməməliyəm, lakin bütün günü bunun xəyalı ilə dözmüşəm. Özü də bu tənhalıq duyğusu deyil, həyəcan və adrenalin həmləsi idi. Həvəsə gəlmişdim və dərimin necə qıcıqlandığını hiss edirdim. Yaxşı bir gün idi.

Səhər kriminal polis inspektoru Qaskillə düz bir saat söhbət etdk. Başqa heç kəs yox idi. Mən şöbəyə gələn kimi onun yanına apardılar. Bu dəfə biz istintaq otağında deyil, onun kabinetində söhbət etdik. O mənə qəhvə təklif etdikdə razılaşdım. Təəccüblü olsa da, qəhvəni özü hazırladı. Onun çaydanı vardı, soyuducunun üstünə isə "Neskafe" bankası qoyulmuşdu. Şəkər yoxdur – deyib, üzr istədi.

Onunla bir yerdə olmaq, onun əllərinin hərəkətinə baxmaq mənim xoşuma gəlirdi. O, çox çəkingən və təmkinlidir, lakin daim masanın üzərində nəyisə qurdalayır. Mən bunu əvvəllər hiss eləməmişdim, çünki istintaq otağındakı masada heç bir əşya yox idi. Burada, öz kabinetində isə, o daim qəhvə fincanının, qələmlərlə dolu stəkanın, steplerin yerlərini dəyişdirir, kağızları üst-üstə yığırdı. Onun səliqə ilə kəsilmiş dırnaqları olan uzun barmaqları və iri əlləri var. Barmaqlarında üzük yoxdur.

Bugünkü ab-hava tamam başqa cür idi. Özümü onun nədəsə yaxalamağa çalışdığı şübhəli biri kimi saymırdım. Yararlı olduğumu hiss edirdim. Xüsusilə, o qovluqlardan birini götürüb oradan şəkillər çıxardaraq mənim qarşımda düzdükdə. Orada Skott Hipvell, mənim heç zaman görmədiyim üç kişi və nəhayət, "B" vardı.

Əvvəlcə əmin deyildim. Mən şəklə baxdım, həmin gün Meqanla gördüyüm və əyilib onu qucaqlayan kişinin obrazını xatirimdə canlandırmağa çalışırdım.

– Bu odur, – dedim. – Düşünürəm ki, bu odur.

– Siz əmin deyilsiniz?

– Məncə, bu odur.

O, şəkli aldı və bir müddət nəzərdən keçirdi.

– Siz deyirdiniz ki, onların öpüşdüyünü gördünüz, doğrudur? Ötən cümə günü? Bir həftə bundan əvvəl?

– Elədir ki, var. Cümə günü səhər. Onlar bağda idilər.

– Siz əminsiniz ki, səhv etmirsiniz? Yənu bu bir dost qucaqlaşması deyildi və ya... Platonik bir öpücük deyildi?

– Xeyr, öpüş lap əsl öpüş idi. Romantik.

Mənə elə gəldi ki, onun dodaqlarının yanları dartıldı, elə bil gülümsəmək istəyirdi.

– Bəs o kimdir? – soruşdum. – O ...düşünürsünüz ki, Meqan onunla?

Qaskill cavab vermədi, sadəcə, başını buladı.

– Mən... mənim sizə köməyim dəydi? Bu sizə heç olmasa nədəsə işinizə yarayacaq?

– Bəli, miss Uotson. Siz bizə çox yardım etdiniz. Sağ olun ki, gəlməyə vaxt tapdınız.

Biz biri-birimizin əlini sıxdıq və o bir anlığa sol əli ilə mənim sağ çiynimə toxundu. Mən çevrilib onu öpməkdən özümü zorla saxladım. Artıq çoxdan kimsə mənə belə şəfqətə bənzər bir hisslə toxunmamışdı. Əlbəttə, Ketini hesaba almasaq.

Qaskill məni yola salırdı və biz öz masaları arxasında işləyən onlarla polisin olduğu geniş bir otağa gəldik. Öz üzərimdə bir-iki nəfərin baxışlarını hiss etdim, amma onların maraq, yoxsa ikrah ifadə etdiyini anlamadım. Biz ofisdən keçərək dəhlizə çıxdıq, sonra mən Skot Hipvellin Raylinin müşayiəti ilə əsas qapıdan binaya daxil olduğunu gördüm. O, başını aşağı salıb gedirdi, lakin mən onu o saat tanıdım. O gözünü qaldırıb Qaskillə başı ilə salam verdi, sonra mənə baxdı. Bir anlığa baxışlarımız qarşılaşdı və mən and içməyə hazır

idim ki, o məni tanıdı. Onu terrasda gördüyüm səhər haqqında düşündüm: o aşağı, yollara baxırdı, mənə isə elə gəlirdi ki, mənə baxır. Biz dəhlizdə biri-birimizin yanından əks tərəflərə keçdik. O elə yaxın keçdi ki, ona toxuna bilərdim. O həqiqətən də çox gözəl oğlan imiş, lakin indi çox gərgin idi, sıxılmış yaya bənzəyirdi: elə bil ondan əsəb impulsları çıxırdı. Əsas dəhlizə çıxdıqda üzərimdə kiminsə baxışlarını hiss edib geri çevrildim, ancaq arxamca baxan Rayli idi.

Qatara oturaraq Londona getdim və birbaşa kitabxanaya yollandım. Bu işlə əlaqədar aşkar etdiyim bütün məlumatları oxudum, lakin yeni bir şey öyrənmədim. Eşberidə olan hipnoterapevtlər haqqında məlumat topladım, amma praktiki bir şey etmədim – bu bahalıdır və yaddaşın bərpasına yardım etməsi hələ aydın deyil. Lakin hipnoterapiyanın yardım etdiyini deyənlərin fikirlərini oxuduqda başa düşdüm ki, bu müalicənin müvəffəqiyyəti məni daha çox qorxudur. Mən qorxuram ki, nəinki şənbə axşamı nə baş verdiyini bilərəm, həm də daha artığını öyrənərəm. Öz axmaq və dəhşətli hərəkətlərimi yenidən yaşamağa, acıqlı vaxtımda dediyim sözləri və onları qışqıranda Tomun üz ifadəsini xatırlamağa hazır olduğuma əmin deyiləm. Bu qaranlıq yola ayaq basmaq məni çox qorxudur.

Mən elektron poçtu ilə Skotta daha bir məktub göndərmək haqqında düşündüm, lakin buna heç bir zərurət yox idi. Kriminal polis inspektoru Qaskillə səhərki görüşüm göstərdi ki, polis mənim ifadəmi ciddi qəbul edir. Bundan artıq bir şey edə bilmərəm, bununla razılaşmaq lazımdır. Ən azından hesab edə bilərəm ki, istintaqa böyük kömək göstərmişəm, çünki Meqanın mən onu başqa bir kişi ilə birlikdə gördüyüm günün səhərisi yoxa çıxması, sadəcə, təsadüf ola bilməzdi.

Cin-tonikin ikinci bankası şən bir şıqqıltı və fışıltı ilə açıldı. Bu vaxt mənim ağlıma batdı ki, bütün gün ərzində bir dəfə də olsun Tom haqqında düşünməmişəm. Ən azından bu ana qədər. Mən Skott haqqında, Qaskill, “B”, hətta qatardakı yol yoldaşı haqqında düşünmüşdüm. Tom beşinci plana keçmişdi. Cin-tonikdən bir udum alıb hiss etdim ki, indi qeyd etməli olduğum bir cəhət var. İşlərimin qaydaya düşəcəyini və mən xoşbəxt olacağımı bilirdim. Tezliklə.

Şənbə, 20 İyul 2013-cü İl

Səhər

Həyat məni heç nəyə öyrətmir. Yuxudan dərin bir günah və utanc hissi ilə oyanıram və o saat anlayıram ki, nəsə bir axmaqlıq etmişəm. Mən etdiyim hərəkətlərin yenə əzablı və tanış bir yaddaş bərpası ritualından keçirəm. Elektron poçtla məktub göndərmişəm. Bax, mən bunu etmişəm.

Dünənki axşamın hansısa anında Tom mənim yaddaşımda yüksəlmiş və düşündüyüm adamların siyahısına yenə daxil olmuşdu. Buna görə də ona elektron poçtla məktub göndərmişdim. Yatağımın yanında döşəmənin üzərinə qoyduğum noutbukum bu barədə lal bir məzəmmət kimidir. Qalxıb onun üstündən addımlayaraq vanna otağına gedirəm. Orada birbaşa krandan su içirəm və güzgüdə özümə baxıram.

Heç yaxşı görünmürəm. Lakin içkisiz üç gün o qədər də pis deyil və mən hər şeyi yenidən başlamağa qərarlıyam. Duşun altında çox qalıram və tədricən suyun temperaturunu aşağı salıram, əvvəlcə sərin, sonra lap soyuq. Birbaşa soyuq duş altına girmək olmaz, bu şok doğurar, həm də çox qəddarcasına olar, amma suyun temperaturunu tədricən azaltdıqda, hər şey hiss edilmədən baş verir, qurbağanı bişirdikləri kimi, yalnız əksinə. Sərin su dərini sakitləşdirir və başımdakı, gözümün üstündəki yaraların yandırıcı ağrısını azaldır.

Noutbuku aşağı aparıram və özümə çay süzürəm. Çox cüzi ehtimal var ki, Toma yazdığım məktubu bəlkə göndərməmiş olam. Dərindən köks ötürürəm, poçtumu açıram və sevinclə görürəm ki, məktub gəlməyib. Lakin “Göndərilənlər” qovluğunu yoxlayanda anlayıram ki, mən ona məktub göndərmişəm, sadəcə, o cavab verməyib. Hələlik. Məktub gecə saat on ikidə gedib, bu vaxta qədər mən artıq bir neçə saat idi ki, içirdim. Adrenalin və içkidən gələn ehtiras çoxdan yox olmalı idi. Məktubu açıram.

Zəhmət olmasa, öz arvadına de ki, qoy o mənim haqqımda polisə yalan danışmağı kəssin. Guya mən onu və onun eybəcər övladını izləyirəm deyə mənə pislik edərək yalanlar uydurmaq alçaqlıq deyilmi? Yaxşısı budur qoy özü ilə məşğul olsun. O məluna de ki, məni sakit buraxsın.

Gözlərimi yumur və noutbukun qapağını sərt şəkildə örtürəm. Büzüşürəm, bədənim bir yumaq kimi sıxılır. Lap kiçicik olmaq, yox olmaq

istəyirəm. Həm də məni dəhşət bürüyür, çünki Tom bunu polisə göstərməyə qərar versə, onda mənim üçün çox böyük problemlər yarana bilər. Əgər Anna mənim kinliliyim və zəhlətökənliyim haqqında sübutlar toplayırsa, onda bu onun dosyesində əsas punkt ola bilər. Özü də balaca qızın bura nə dəxli var? Mən özümə belə bir şeyi necə rəva görmüşəm? Bu necə mümkün olub? Mən uşağa heç bir pislik arzulamıram – mən uşaq haqqında pis düşünüə bilmərəm, hər hansı uşaq haqqında, xüsusən də Tomun uşağı haqqında. Özümü başa düşmürəm, nəyə çevrildiyimi anlamıram. İlahi, o indi mənə nifrət etməlidir. Mən özüm özümə nifrət edirəm – ən azından dünən bu məktubu yazan özümə. O, qətiyyən mənə bənzəmir, çünki mən elə deyiləm. Elə kinli deyiləm.

Doğrudanmı? Ən pis günlər barədə düşünməməyə çalışıram, lakin belə anlarda xatirələr özü beyinə girir. Elə bizim ayrılmağımızdan əvvəl baş vermiş qovğanı götürək: mən bir şənlik gecəsindən sonra ayılmışdım, heç bir şey xatırlamırdım. Tom özümü orada necə apardığımı, onun yenə utanmağına necə səbəb olduğumu mənə danışdı: onun həmkarının arvadını, ərimlə flirt etməkdə günahlandıraraq, təhqir etmişdim. “Mən səninlə daha heç yerə getmək istəmirəm, – o mənə dedi. – Soruşursan ki, niyə mən dostlarımı heç vaxt dəvət etmirəm, niyə daha səninlə pivəxanalara getməyi sevmirəm. Bunun səbəbini həqiqətən bilmək istəyirsənmi? Bütün səbəblər səndədir. Çünki mən sənə görə utanıram”.

Mən çantanı və açarı götürüb məhəllənin axırındakı mağazaya getmək istəyirəm. Hələ səhər saat doqquz olmayıb, amma bu məni maraqlandırmır; mən qorxmuşam və heç bir şey haqqında düşünmək istəmirəm. Əgər indi bir ağrıkəsici, bunun üstündən də spirtli içki içsəm, onda huşumu itirəcəyəm və bütün günü yatacağam. Yalnız ondan sonra necə olmaq haqqında qərar verəcəyəm. Giriş qapısına yaxınlaşıram, dəstəyə əlimi uzadıb dayanıram. Mən üzr istəyə bilərdim. Əgər elə bu saat üzr istəsəm, bəlkə hələ vəziyyəti xilas etmək olar. Bəlkə bu məktubu Annaya, ya da polisə göstərməməyə onu razı sala bildim. O, əvvəllər də məni bu cür xilas edib.

Keçən yay, həmin gün mən Tom və Annanın evində olanda, hər şey heç də mən polisə danışdığım kimi olmamışdı. Əvvəla, zəngi mən basmamışdım. Nə istədiyimi heç özüm də bilmirdim və ümumiyyətlə, oraya nə üçün getdiyimi indi də anlamıram. Mən cığırla getdim və çəpərdən aşdım. Sakitlik

idi, heç bir şey eşitmirdim. Arxa qapıya yaxınlaşıb içəri baxdım. Həqiqətən Anna divanda yatmışdı. Mən nə onu, nə də Tomu çağırdım. Annanı oyatmaq istəmədim. Körpə ağlamırdı, anasının yanında yüyrükdə mışıl-mışıl yatmışdı. Onu qucağıma alıb, dərhal evdən çıxdım. Onunla çəpərə doğru necə qaçdığımı, onun necə ayıldığını və hıqqıldamağa başladığını xatırlayıram. Beynimdə nə olduğunu bilmirəm. Ona pislik etmək fikrim yox idi. Körpəni köksümə sıxaraq çəpərə qədər getdim. İndi o bütün səsiylə ağlayırdı, sonra çığırmağa başladı. Onu yırğalamağa və sakitləşdirməyə çalışırdım, sonra yaxınlaşan qatarın səsini eşitdim, evə tərəf döndükdə Annanı gördüm. O, var gücü ilə mənə doğru qaçırdı – ağzı geniş yara kimi açıq idi, dodaqları tərpənsə də, sözlər eşidilmirdi.

O məndən uşağı aldı, mən qaçmaq istədim, lakin ayağım dolaşdı və yıxıldım. O, başımın üstündə dayanıb qışqırır və yerimdə qalmağımı tələb edirdi, yoxsa polis çağıracağı ilə hədələyirdi. Toma zənd edib evə çağırdı. Tom gəldikdə onunla qonaq otağında yanaşı oturdu. Anna isterik hala düşdü, elə hey polisə zəng etməyə çalışırdı və məni uşağı oğurlamaq üstündə həbs etdirmək istəyirdi. Tom onu sakitləşdirir və polisə şikayət etməməyə, məni buraxmağa razı salmaq istəyirdi. O məni xilas etdi, sonra evə apardı və mən maşından çıxanda əlimi tutdu. Düşündüm ki, bu bir dəstək hərəkətidir, lakin o mənim əlimi getdikcə daha bərk sıxdı, axır dözməyib qışqırdım. Onun sifəti qəzəbdən qıpqırmızı idi. Dedi ki, əgər onun qızına zərər versəm, məni öldürəcək.

Onda mənə nə olduğunu bilmirəm. Bu günə qədər də bilmirəm. Mən qərarsız şəkildə qapının dəstəyindən tutaraq dayanır və dodaqlarımı gəmirirəm. Bilirəm ki, əgər indi içməyə başlasam, özümü bir-iki saat yaxşı hiss edəcəyəm, altı-yeddi il – çox pis. Qapının dəstəyini buraxıram və qonaq otağına qayıdıb yenidən noutbuku açıram. Mən üzr istəməliyəm. Yenə poçtumu açıram və yeni mesaj görürəm. O, Tomdan deyil, Skott Hipvelldəndir.

Hörmətli Reyçel!

Mənə yazdığınıza görə təşəkkür edirəm. Meqanın Sizin barənizdə dediyini xatırlamıram, lakin qalereyada tanışları çox idi, adları yadda saxlamaq mənim üçün həmişə problem olub. Mən bildikləriniz barədə Sizinlə

danışmaq istərdim. Lütfən, mənimlə 07583 123657 nömrəsilə mümkün qədər tez əlaqə saxlayın. Hörmətlə,

Skott Hipvell

Əvvəlcə mənə elə gəldi ki, o bu məktubu mənim ünvanıma səhvən göndərib. Bu məktub başqa birinə ünvanlanıb. Lakin bu zaman beynim aydınlayır və mən xatırlamağa başlayıram. Divanda oturmuşdum, ikinci şüşəni bitirirdim və anlayırdım ki, bu işdən kənarda qalmaq istəmirəm. Onun mərkəzində olmaq istəyirəm. Elə onda mən ona yazdım. Onun cavab məktubunu oxuduqdan sonra öz məktubumu tapdım.

Hörmətli Skott!

Bağışlayın ki, mən sizə yenə yazıram, lakin hiss edirəm ki, bizim danışmağımız lazımdır. Meqanın mənim barəmdə danışmasına əmin deyiləm. Lakin mən Uitnidə yaşayarkən biz qalereyada tanış olmuşduq. Düşünürəm ki, məndə Sizin üçün maraqlı ola biləcək informasiya var. Lütfən, mənə bu ünvana yazın.

Reyçel Uotson

Sifətimin necə alışıb-yandığını, qarnımda yumaq əmələ gəldiyini hiss edirəm. Dünən mən ağıllı və məntiqli olduqda qərara gəldim ki, bu işdə iştirakıma artıq nöqtə qoyulub. Lakin mənim bu xoş niyyətimə içki və o başqa Reyçel, mən içəndə çevrildiyim o Reyçel son qoyub. Sərxoş Reyçel işin nəticəsini düşünmür, o ya həddindən artıq açıq və optimistdir, ya da nifrətlə doludur. Onun nə keçmişi, nə də gələcəyi var. O, müstəsna olaraq konkret anda mövcuddur. Meqanın yoxa çıxması hadisəsinin bir hissəsi olmaq istəyən və Skottu onunla danışmağa inandırmaq istəyən Sərxoş Reyçel yalan danışıb. Mən yalan danışmışam.

Mən dərimi bıçaqla cızmaq istəyirəm, sadəcə, utancdan başqa nə isə bir şey hiss etmək üçün, lakin hətta buna da cəsarətim çatmır. Mən Toma yazmağa başlayıram, yazıram və silirəm, yazıram və pozuram, axşamkı axmaq hərəkətimə görə üzrxahlıq sözləri seçməyə çalışıram. Əgər Tomdan üzr istəməli olduğum şeylərin hamısını yazsam, bütöv bir kitab alınar.

Axşam

Bir həftə əvvəl – təxminən bir həftə əvvəl – Meqan Hipvell Blenhaym-roud 15 nömrəli evdən çıxdı və qeyb oldu. O vaxtdan onu kimsə görmədi. Ötən şənbə günündən bu yana onun telefonundan və bank kartlarından heç kəs istifadə etməyib. Bu gün bunu qəzetdə oxuyub ağladım. İndi mənim başımda peyda olan fikirlərə görə utanıram. Meqan öyrənilməsi zəruri olan bir sirr deyil, nə də filmin başlanğıcındakı hərəkət edən operator kamerası ilə çəkilmiş – gözəl, cisimsiz və şəffaf bir fiqur da deyil. O, boş bir yer deyil, o ən real bir insandır.

Mən qatarda gedirəm, onun evinə gedirəm. Onun ərilə görüşmək fikrindəyəm.

Mən ona zəng etməli oldum. Artıq geriyə yol qalmamışdı. Onun məktubuna əhəmiyyət verməyi bilməzdim – onda o, hər şeyi polisə danışa bilərdi. Elə deyilmi? Onun yerinə olsam, əgər yad bir adam mənimlə ünsiyyət qurmağa cəhd etsəydi və mənim üçün vacib bir informasiyaya sahib olduğunu deyib sonra birdən yoxa çıxsaydı, mütləq polisə xəbər verərdim. Bəlkə də o, artıq xəbər verib və polis onun evində mənim gəlməyimi gözləyir.

Vaqonda öz yerimdə otururam, doğrudur, həmişəki vaxtda deyil. Mənə elə gəlir ki, maşında qayadan aşağı yuvarlanıram. Səhər onun nömrəsini yığdıqda da eyni şeyi hiss edirdim: bu qaranlıqda düşməyə oxşayır, yerə nə zaman dəyəcəyini bilmirsən. O mənimlə alçaqdan danışırdı, elə bil otaqda daha kimsə var idi. Buna görə də sözlərinin eşidilməsini istəmirdi.

– Biz şəxsən görüşüb danışa bilərikmi? – o soruşdu.

– Mən... yox. Düşünmürəm...

– Mən çox xahiş edirəm.

Bir saniyəliyə duruxdum, sonra razılaşdım.

– Siz mənim evimə gələ bilərsiniz? İndi yox, mənim... indi burada kənar adamlar var. Bəlkə bu gün axşam? – O ünvanı dedi, mən özümü elə göstərdim ki, yazıram.

– Zəng etdiyiniz üçün təşəkkür edirəm, – o dedi və dəstəyi asdı.

Razılaşsam da başa düşürdüm ki, bu ən yaxşı fikir deyildir. Skott haqqında qəzetlərdən öyrəndiklərim boş şeylərdir. Öz müşahidələrimdən bildiklərim isə yalnız mənim xəyalımın məhsuludur. Mən Skott haqqında heç nə bilmirəm. Mən Ceysonu tanıyıram – bunu daim özümə xatırlatmalıyam – amma o, real həyatda mövcud deyil. Yalnız bir şey dəqiq məlumdur – bu da faktdır – ki, Skottun arvadı bir həftə bundan əvvəl itkin düşüb. Onun bu işdə şübhəli şəxslərdən biri olduğunu bilirəm. Həm də mən bilirəm ki, onu öldürmək üçün Skottun əlində əsas vardı, çünki mən o öpüşməni görmüşdüm. Əlbəttə, onun bundan xəbəri olmaya da bilərdi, amma... Mən bu barədə düşünməkdə və özümü zorlamaqda davam edirəm, lakin həmin vaqondan yüz dəfələrlə müşahidə etdiyim evi gözümlə görmək fürsətini necə əlimdən buraxa bilərəm? Onun qapısına yaxınlaşmağı, içəri girməyi, onları müşahidə etdiyim zaman vaxt keçirdikləri mətbəxdə, terrasda oturmağı?

Şirnikləndirici təsir çox böyük idi. İndi titrəməni sakitləşdirmək üçün özümü əllərimlə bərk-bərk qucaqlayıb, sakitləşməyə məcbur edilən uşaq kimi, qatarda oturmuşam. Bu işdə bir məqsədin peyda olmasına o qədər sevinmişdim ki, reallıq haqqında düşünməyi unutmuşdum. Meqan haqqında düşünməyi unutmuşdum.

İndi onun haqqında düşünürəm. Onu tanıdığıma, – amma çox da yaxndan deyil, – Skottu inandırmalıyam. Onda o inanar ki, mən onu başqa bir kişi ilə görmüşəm. Əgər tanışlığımız haqqında yalan söylədiyimi dərhal etiraf etsəm, o, heç vaxt mənə inanmaz. Odur ki, qalereyaya necə gəldiyimi, onunla qəhvə içə-içə necə söhbət etdiyimi təsəvvür etməyə çalışıram. O, heç qəhvə içir? Yəqin biz incəsənət haqqında danışardıq, ya da yoqa haqqında və yaxud ərlər haqqında dedi-qodu edərdik. Mən incəsənətdən heç nə anlamıram və heç vaxt yoqa ilə məşğul olmamışam. Heç ərim də yoxdur. O da öz ərinə xəyanət edib.

Mən onun barəsində əsl dostlarının dedikləri sözləri düşünürəm: qəşəng, şən, gözəl, qayğıkeş. Sevilən. O, yanlış iş gördü. Belə olur. Biz heç birimiz mükəmməl deyilik.

# Anna

---

Şənbə, 20 İyul 2013-cü İl

Səhər

Evi səhər saat altıda yuxudan durur. Mən yataqdan qalxıram, uşaq otağına gedib onu götürürəm. Sonra onu yedizdirib yanımda yatağa qoyuram.

Mən yenidən yuxudan ayılanda Tom artıq yanımda yoxdur, lakin onun addım səslərini pilləkənlərdə eşidirəm. O yaxınlaşır və dəhşətli dərəcədə yanlış bir səslə alçaqdan oxuyur: “Ad günün mübarək, ad günün mübarək...” Mənsə qalxarkən bunu xatırlamamışdım, sadəcə, uşağı yanımıza gətirib yenidən uzanmaq istəyirdim. İndi mən yuxulu-yuxulu gülümsəyirəm. Gözümü açıb görürəm ki, Evi də gülümsəyir. Tom əlində dolu sini qapıda dayanıb və əynindəki paltar yalnız mənim önlüyümdən ibarətdir.

– Yataqda yemək, yubilyar, – o deyir və sinini yatağın qırağına qoyub məni öpür.

Mən hədiyyələri açıram. Evidən oniksdən aplikasyası olan qəşəng gümüş qolbaq, Tomdan isə – qara ipəkdən erotik alt paltarı komplekti. Özümü gülümsəməkdən saxlaya bilmirəm. Tom yatağa qayıdır. Evini aramıza qoyuruq. Evi ovcunda onun ikinci barmağını sıxır, mənsə Evinin çəhrayı dabanından tuturam və məni xoş bir hiss bürüyür. Belə güclü bir sevgini təsəvvür etmək çətindir.

Az sonra Evi uzanmaqdan yorulur, mən onu götürürəm və biz Tomu yuxarıda mürgüləyə-mürgüləyə qoyub aşağı enirik. Onun buna haqqı var. Mən bir az yır-yığış edirəm, sonra həyətdə təmiz havada qəhvə içirəm, yanımızdan keçən yarıboş qatarlara baxıram və nahara nə hazırlamağı düşünürəm. İndi hava istidir, qızardılmış ət üçün çox istidir, lakin yenə də rostbif hazırlayacağam, çünki Tom onu xoşlayır, sonra da sərinləmək üçün dondurma yeyəcəyik. Yalnız mağazaya gedib bir-iki şüşə onun sevdiyi turş “Merlo” şərabı almaq lazımdır. Mən Evini geyindirib arabasına qoyuram və biz alış-verişə yollanırıq.

Mənə hamı deyirdi ki, Tomun evinə köçmək ağılsızlıq idi. Lakin mənim evli bir kişi ilə əlaqəmi də ağılsızlıq hesab edirdilər, hələ onu demirəm ki, onun arvadı əsl isteriya xəstəsidir. Lakin mən sübut etdim ki, bu barədə onlar yanılırlar. O qadın nə problem yaratsa da, Tom və Evi buna dəyər. Lakin ev

məsələsində onlar haqlı imişlər. Bugünkü kimi günəşli günlərdə bizim kiçik ağaclar əkilmiş səliqəli küçəmizlə gedərkən, sakinlər özlərini bir cəmiyyətin üzvləri kimi hiss edirlər. Yaşamaq üçün bundan yaxşı yer təsəvvür etmək çətindir. Səkilərdə mənim kimi uşaqla, itlə gəzən qadınlar çoxdur. Əgər qatarların əyləclərinin qıcırtısına fikir verməsən və 15 nömrəli evə dönüb baxmasan, bu yer ideal görünə bilər.

Mən geri qayıdanda Tom yemək masasının arxasında oturub noutbukda nə isə oxuyurdu. O şortda, lakin köynəksiz oturmuşdu – onun əzələlərinin necə hərəkət etdiyini görürəm. Buna baxmaq mənə həmişəki kimi çox xoş gəlir. Salam verirəm, lakin o fikrə gedib, mən onun çiyninə toxunduqda isə səksənir və noutbukun qapağını örtür.

– Salam, – o deyir və masanın arxasından qalxır. Gülümsəyir, lakin yorğun və təşviş içində görünür. Evini məndən alır, lakin baxışlarını qaçırır.

– Nə? – soruşuram. – Nə baş verib?

– Heç nə, – o cavab verir və Evini dizləri üstündə yelləyərək, pəncərəyə tərəf çevrilir.

– Tom, nə baş verib?

– Boş şey. – O mənə baxır. Üzünün ifadəsindən onun indi nə deyəcəyini sezirəm. – Reyçeldən növbəti məktub.

O başını bulayır və elə əzilmiş, dilxor görünür ki, əllərim yanıma düşür. Daha dözməyə səbrim qalmayıb. Bəzən onu öldürmək istəyirəm!

– Nə yazır?

O, yenə başını bulayır:

– Önəmli deyil. Sadəcə... adəti üzrə. Axmaqlıq.

– Mən çox təəssüf edirəm, – deyirəm. Amma nə axmaqlıq etdiyini soruşmuram, çünki onsuz da deməyəcək. O məni dilxor etməyi qətiyyən xoşlamır.

– Boş şeydir. Fikir vermə. Adi sərxoş sayıqlamalardır.

– İlahi, doğrudanmı o, heç zaman çıxıb getməyəcək və həmişə bizim xoşbəxtliyimizə əngəl olacaq?

O yaxınlaşır və ehtiyatla, qucağımda tutduğum qızımıza toxunmadan, məni öpür.

– Biz xoşbəxtik, – o deyir. – Xoşbəxtik.

Axşam

Biz xoşbəxtik. Biz çəmənlikdə nahar təşkil etdik, həddən artıq isti olduqda isə evə keçdik və Tom avtomobil yarışına baxarkən dondurma yedik. Evi ilə qida plastilini hazırladıq. Qız onu məmnuniyyətlə yedi. Öz küçəmiz haqqında düşündüm, bəxtim gətirmişdi, arzu etdiyim hər bir şeyim vardı. Ərimə baxıram və Tanrıya şükür edirəm ki, Tom məni tapdı, biz onunla rastlaşdıq və mən onu o qadından qurtardım. O qadın onu doğrudan da dəli edəcəkdi, mən belə düşünürəm: o qadın onu haldan çıxaracaqdı və o daha özünə bənzəməyəcəkdi.

Tom Evini yuxarı, çimizdirməyə apardı. Qızın necə ləzzətlə güldüyünü eşidib yenə gülümsəyirəm – bu gün bütün günü mənim üzümdən gülüş çəkilmir. Qab-qacağı yuyuram, qonaq otağını səliqəyə salıram və şam yeməyi haqqında düşünürəm. Nəsə yüngül bir şey hazırlamaq lazımdır. Maraqlıdır, amma bir neçə il əvvəl öz ad günümdə evdə qalıb bir şey hazırlamaq fikri özü mənə vəhşilik kimi görünərdi, indi isə bunu ən yaxşı variant hesab edirəm, çünki məhz belə də olmalıdır. Biz üçümüz və daha heç kim.

Mən Evinin qonaq otağının döşəməsinə dağılmış oyuncaqlarını yığıb bir qutuya qoyuram. Evini erkən yatızdırıb, Tomun hədiyyə etdiyi ipək alt paltarlarını geyəcəyim anı səbirsizliklə gözləyirəm. Qaranlığın düşməsinə hələ çox var, amma mən buxarının taxçasındakı şamları yandıracaq və ikinci "Merlo" şüşəsini açacağam ki, şərab bir az nəfəs alsın. Pərdələri örtmək üçün divanın üstündən əyilirəm. Pəncərəyə baxdıqda bir qadın görürəm, başını köksünə əyərək küçənin o biri tərəfi ilə sürətlə gedir. Sifətini görə bilmirəm, amma əminəm ki, bu odur. Ürəyim şiddətlə döyünür. Daha yaxşı görmək üçün irəli əyilirəm, amm o artıq yoxdur.

Geri dönürəm, evdən çıxıb onu küçədən qovmağa hazıram, lakin qapıda dəsmala bürünmüş Evini qucağında tutan Tomu görürəm.

– Hər şey yolundadır? – o soruşur. – Nə olub?

– Heç nə, – deyə əllərimin titrədiyini gizləmək üçün onları cibimə salıram. – Heç nə olmayıb. Heç nə.

Reyçel

---

Bazar, 21 İyul 2013-cü İl

Səhər

Onun haqqında fikirlərlə yuxudan oyanıram. Məndə elə bir hiss yaranıb ki, elə bil reallıqla bütün əlaqələrim kəsilib. Dərim gicişir. Dəhşətli dərəcədə içmək istəyi var, lakin içə bilmərəm. Beynim dumanlı olmamalıdır. Meqana görə. Skotta görə.

Dünən layiqincə görünməyə çalışdım. Başımı yudum, bir az kosmetikadan istifadə etdim. Hələ geyə bildiyim yeganə cinsimi, sətin köynəyimi və alçaq dabanlı səndəllərimi geyindim. Görkəmim pis deyildi. Öz-özümə deyirdim ki, yaraşıqlı görünməyimin heç bir mənası yoxdur, çünki bu saat Skott elə vəziyyətdə deyil ki, mənim görkəmimə fikir versin, amma özümü saxlaya bilmədim. Biz ilk dəfə bir yerdə olacaqdıq, bu mənim üçün mühüm idi. Hətta lazım olduğundan çox.

Mən saat yeddinin yarısında Eşberiyə yollanan qatara oturdum və səkkizə işləmiş Uitniyə çatdım. Yeraltı keçiddən yayınaraq Rouzberri-avenü ilə getdim. Oraya enməyə cəsarətim çatmadı. Tom və Annanın yaşadığı 23 nömrəli evin yanından çənəmi köksümə sıxaraq və gün eynəyi taxaraq tələsə-tələsə keçdim və dua etdim ki, onlar məni görməsinlər. Sakitlik idi, ətrafda kimsə yoxdu, yalnız bir-iki maşın park edilmiş maşınların arası ilə hərəkət edirdi. Bu sakit yuxulu küçədə imkanlı adamlar yaşayır, burada çoxlu gənc ailələr var. Saat yeddiyə yaxın onlar şam edir, ya da divanda əyləşirlər – ata, ana və onların arasında uşaqlar – və televizorda “X-faktor”a baxırlar.

23 nömrəli evdən 15 nömrəli evə qədər 50-60 addımdan artıq olmazdı, lakin bu məsafəni qət etmək üçün sanki sonsuzluq qədər zaman keçdi: ayaqlarımdan qurğuşun asıldı, yerişim sərxoş adamlar kimi qərarsız idi, elə bil indicə yolun ortasına çıxacaqdım.

Qapını döydüm və Skott qapını elə tez açdı ki, mən hələ əlimi aşağı salmağa macal tapmamış, o qapının ağzında peyda oldu.

– Reyçel? – o mənə yuxarıdan aşağı baxaraq, gülümsəmədən soruşdu.

Mən başımla təsdiqlədim. Skott əlini uzatdı. Mən onun əlini sıxdım. O, işarə ilə məni içəri dəvət etdi, lakin mən bir anlığa özümü itirdim. Məni dəhşət bürüdü. O yaxından qorxunc şəkildə güclü, ucaboy, enlikürək görünürdü. Əzələləri əla inkişaf etmişdi. Əlləri çox iri idi. Birdən ağlıma gəldi ki, o, çox asanlıqla mənim boynumu bura bilər, ya da heç çətinlik çəkmədən döş qəfəsimi sındırar.

Onun yanından keçib əlimlə onun əlinə toxunaraq və bu toxunuşdan necə qızardığımı hiss edərək dəhlizə girdim. Ondan kəsif tər qoxusu gəlirdi, qara saçları pırpızlanmışdı, elə bil çoxdan duş qəbul etmirdi.

Qonaq otağında dejavü[4] hissi adamı qorxudurdu. Divardakı buxarı, jalüzlərin arasından süzülən günəş işığı mənə tanış idi. Sola baxsam, şüşə qapılar arasından həyətdəki çəmənliyi, onun arxasında isə – dəmir yollarını görəcəyimi bilirdim. Dönüb baxdım və mətbəx masasını, şüşə qapını, onun arxasında sıx otlu yaşıl çəməni gördüm. Mən bu evi tanıyırdım. Başım gicəlləndi, oturmaq istədim – yoxluğun qara dəliyində qeyb olmuş ötən şənbənin axşam saatları haqqında düşündüm.

Əlbəttə, bunun hələ heç bir əhəmiyyəti yox idi. Mən bu evi burada əvvəllər olduğum üçün deyil, 23 nömrəli evin tam oxşarı olduğu üçün tanıyıram: dəhliz pilləkənə aparır, sağda isə qonaq otağı var, onun arxasında mətbəx yerləşir. Həyət və bağ mənə tanışdır, çünki onları vaqonun pəncərəsindən görmüşəm. Yuxarıda olmamışam, amma bilirəm ki, orada böyük pəncərə və mətbəxin damında terrasa aparan pilləkən var. Bilirəm ki, yuxarıda iki yataq otağı var: biri böyük idi və küçəyə baxan iki böyük pəncərəsi vardı. İkincisi daha kiçik otaq idi, pəncərəsi də bağa açılırdı. Evdə otaqların necə yerləşdiyini bilmək heç də o demək deyil ki, mən əvvəllər burada olmuşam.

Bütün bunlara baxmayaraq, Skott məni mətbəxə apardıqda həyəcandan titrədiyimi hiss etdim. O mənə çay təklif etdi. Mən mətbəx masasının arxasında əyləşdim və onun çaydanı plitənin üstünə qoymasına, çay paketini

fincana salmasına və qaynar suyu fincana kobudca süzərkən masanın üstünə daşırmasına baxdım. Antiseptikin kəskin qoxusu hələ mətbəxdən çəkilməmişdi, lakin özünü qaydaya salmaq açıq-aşkar onun qüvvəsi xaricində idi: köynəyində böyük tər ləkəsi vardı, cinsi aşağı sürüşmüşdü, elə bil ona böyük idi, mən hətta şübhələndim ki, o son günlər, ümumiyyətlə, yemək yeyibmi?

Skott çay fincanını önümə qoyub, əllərini çarpazlayaraq mənimlə üzbəüz oturdu. Sükut bizim aramızdakı fəzanı və bütün evi dolduraraq uzandı. Səssizlik qulaqlarda cingildəyirdi, mənim üçün isti oldu, özümü narahat hiss etdim və başımda bir boşluq yarandı. Mən bilmirdim, burada nə edirəm. Axı buraya niyə gəlmişdim? Uzaqdan yaxınlaşan qatarın səsi eşidilirdi. Tanış səs sakitləşdirici təsir etdi.

– Siz Meqanın rəfiqəsisiniz? – nəhayət, o soruşdu.

Onun adını necə tələffüz etməsini eşidəndə boğazım qurudu. Gözlərimi aşağı saldım və çayla dolu fincanı əlimdə bərk-bərk sıxdım.

– Bəli, – cavab verdim. – Biz tanışıq... bir az. Qalereyadan.

Skott gözləyərək mənə baxırdı. Mən onun dişlərini necə sıxdığını və üzündə əzələlərin gərildiyini gördüm. Davam etmək üçün söz axtarırdım, lakin söz də tapılmırdı. Mən qabaqcadan hazırlaşmalı idim, amma bunu etməmişdim.

– Hər hansı yenilik varmı? – nəhayət, deyə bildim.

O, düz mənim gözümə baxırdı, bir anlığa özümü itirdim. Mən axmaq bir söz demişdim, yenilik olub-olmamasının mənə dəxli yox idi. O hirslənəcək və mənim getməyimi istəyəcək.

– Xeyr, – o dedi. – Siz mənə nə söyləmək istəyirdiniz?

Qatar yaxınlıqdan yavaş-yavaş keçdi və mən ona şüşə qapıdan baxdım. Başım fırlanırdı və məndə elə bir hiss yarandı ki, elə bil ruhum bədənimi tərk edərək baş verənlərə kənardan baxırdı.

– Siz yazmışdınız ki, Meqan haqqında nə isə xəbər vermək istəyirsiniz. – Onun səsində səbrsizlik hiss olunurdu.

Mən dərindən köks ötürdüm. Özümü dəhşətli dərəcədə pis hiss edirdim və əla başa düşürdüm ki, mənim informasiyam hər şeyi yalnız mürəkkəbləşdirəcək və ona əzab verəcək.

– Mən onu bir kişi ilə gördüm, – dedim, özü də bunu hazırlıqsız, qəfildən söylədim.

O məndən gözünü çəkmirdi.

– Nə zaman? Siz onu şənbə günü axşam gördünüz? Siz bu barədə polisə xəbər verdinizmi?

– Xeyr, bu cümə günü səhər olmuşdur, – cavab verdim və o, həmin anda sındı.

– Lakin... cümə günü hər şey yolunda idi. Siz niyə bunu vacib hesab edirsiniz? – Üz əzələləri yenə gərildi və o hirslənməyə başladı. – Siz onu kiminlə gördünüz? Kişi ilə?

– Bəli. Mən...

– O necə görünürdü? – Ayağa qalxdı, işığın qarşısını kəsdi. – Siz polisə xəbər verdinizmi? – o yenə soruşdu.

– Bəli, lakin onların mənim sözlərimi ciddi qəbul etdiklərindən əmin deyiləm, – cavab verdim.

– Niyə?

– Mən, sadəcə... Bilmirəm... Mən düşündüm ki, siz bilməlisiniz.

O, irəli əyildi, yumruqlarını düyünləyib masaya söykəndi.

– Siz bununla nə demək istəyirsiniz? Siz onu harada gördünüz? O nə edirdi?

Yenə dərin bir nəfəs alma.

– O sizin çəmənlikdə idi, – cavab verdim. – Bax orada. – Mən bağı göstərdim. – O... mən onu vaqonun pəncərəsindən gördüm.

Onun üzünün ifadəsindən mənə inanmadığı görünürdü.

– Mən hər gün Eşberidən qatarla Londona gedirəm. Sizin evin yanından keçirəm. Onu bir kişi ilə gördüm. Bu kişi... siz deyildiniz.

– Haradan bilirsiniz? Cümə günü səhər? Cümə günü – yoxa çıxmazdan bir gün əvvəl?

– Bəli.

– Mən evdə yox idim, – o dedi. – Mən getmişdim. Birminqemdə konfransda idim və cümə günü axşam qayıtmışam. – Onun sifətində qırmızı ləkələr əmələ gəldi, inamsızlıq isə nə isə başqa bir şeylə əvəzləndi. – Deməli, siz onu kiminləsə çəməndə gördünüz? Sonra...

– Meqan onu öpürdü, – dedim.

Axır ki, mən bu sözü deməyə məcbur oldum. Bunu ona deməliydim.

– Onlar öpüşürdülər.

O dikəldi və onun hələ də yumruq kimi bükülmüş əlləri asılı qaldı, üzündəki ləkələr isə qəzəbdən tündləşdi.

– Təəssüf edirəm, – dedim. – Çox. Başa düşürəm, bunu eşitmək sizə necə əzab verir.

O, əlini yellədi. İyrənərcəsinə. Mənim təsəllimə onun ehtiyacı yox idi.

Bunun nə olduğunu yaxşı bilirəm. Burada ola-ola bir neçə ev aralıda mətbəxdə oturmağımızı qəribə bir aydınlıqla xatırlayıram, ən yaxşı rəfiqəm Lara isə dizinin üstündə toppuş uşağı ilə qarşımda oturmuşdu. Yadımdadır, o məni necə sakitləşdirirdi və deyirdi ki, bizim boşanmağımıza dəhşətli dərəcədə təəssüf edir. Bu bayağı sözlər məni elə acıqlandırdı ki, ona səsini kəsməsini əmr etdim. O isə mənə uşağın yanında belə danışmağıma icazə verməyəcəyini dedi. Mənə nə qədər əzab verdiyinin fərqinə varmamışdı. O vaxtdan bəri biz bircə dəfə də görüşməmişik.

– Onun birlikdə olduğu kişini təsvir edə bilərsinizmi? – Skott soruşdu. O arxası mənə tərəf dayanıb çəmənliyə baxırdı.

– O uca boylu idi, yəqin sizdən hündür olardı. Qarayanız idi. Asiyalıya oxşayırdı. Hindistandan, ya da buna bənzər bir şey.

– Özü də onlar burada, bağda öpüşürdülər?

– Bəli.

O dərindən köks ötürdü.

– İlahi, mənə içmək lazımdır. – O mənə doğru döndü. – Pivə istəyirsiniz?

İstəyirdim, həm də lap çox, amma imtina etdim. Mən onun soyuducudan necə özünə bir şüşə pivə çıxarıb açdığına və dodaqları ilə şüşəyə yapışdığına baxırdım. Baxır və soyuq mayenin onun boğazına necə getdiyini elə hiss edirdim ki, əllərim bakalın soyuğunu hiss etmək istəyindən keyimişdi. Skott başını taqətsizcə sallayaraq masaya söykəndi.

Özümü lənətləyirdim. Kömək edə bilməmişdim, onun əzablarını oyadaraq daha da pis etmişdim. Onun dərdinə kobudca müdaxilə etmişdim, bu isə doğru deyildi. Mən onun yanına gəlməməli idim. Yalan danışmaq lazım deyildi. Xüsusilə yalan danışmaq.

Mən artıq ayağa qalxmaq istəyirdim ki, o danışmağa başladı:

– Bəlkə... bilmirəm. Bəlkə bu əslində elə yaxşıdır? Bəlkə bu o deməkdir ki, onun işləri yolundadır? Və o sadəcə... – deyə acı-acı güldü, – sadəcə, kiminləsə qaçıb. – O, əlinin arxası ilə göz yaşlarını yanağından sildi göz yaşlarını yanağından əlinin arxa hissəsilə sildi və mənim ürəyim sıxıldı. – Amma məncə, elə olsaydı, o, mütləq zəng edərdi. – O mənə baxdı, elə bil cavab gözləyirdi, guya mən bunu bilirdim. – O mənə hökmən zəng edərdi, elə deyil? O mənim necə bərk narahat olacağımı...həyəcan keçirəcəyimi bilərdi. Axı o, elə qisasçı deyil, doğrumu?

O mənimlə etibar edə biləcəyi bir adamla, Meqanın rəfiqəsi ilə danışır kimi davranırdı. Mən bilirdim ki, bu belə deyil, lakin yenə də xoş idi. Skott pivədən bir udum aldı və bağa doğru döndü. Mən onun baxışlarını izlədim – o çəpərin yanında dekorativ dağcıqlar üçün hazırlanmış, amma istifadə olunmamış daşlara baxırdı. Sonra yenə pivədən udumlamaq istədi, lakin fikrini dəyişərək mənə doğru çevrildi.

– Siz qatardan baxaraq Meqanı gördünüz? – o soruşdu. – Deməli, siz... sadəcə, pəncərədən baxırdınız və bu zaman onu gördünüz – tanıdığınız bir qadını?

Onun əhval-ruhiyyəsi dəyişildi. İndi o bilmirdi, mən onun tərəfindəyəmmi və mənə etibar etmək olarmı? Onun üzündən inamsızlıq kölgəsi keçdi.

– Bəli, mən... bilirəm o harada yaşayır, – cavab verdim, amma sözümü bitirməmiş, dediyimə peşman olmuşdum. – Demək istədim ki, siz harada yaşayırsınız. Mən artıq burada olmuşdum. Çoxdan. Ona görə də qatarla keçərkən bəzən gözümlə onu axtarıram.

O mənə baxırdı və mən yanaqlarımın necə od tutub yandığını hiss edirdim.

– O, vaxtının çoxunu burada keçirirdi.

O, boş şüşəni masanın üstünə qoydu, bir-iki addım atdı və yanımda oturdu.

– Yəni, siz Meqanı yaxşı tanıyırdınız? Bir halda ki, bizim evdə olmusunuz...

Boynumun damarı vurmağa başladı, kürəyimdən tər axırdı, adrenalin atışından damarlarımda qan daha sürətlə hərəkət edirdi. Mən bunu deməməliydim, yalan danışmağa davam etməməliydim.

– Bu yalnız bir dəfə olmuşdu, lakin mən... evin harada olduğunu bilirəm, çünki özüm bir zamanlar yaxınlıqda yaşamışam.

O, təəccüblə qaşını qaldırdı.

– Bu küçə ilə aşağı. İyrimi üçüncü ev.

O yavaşca başını yellədi.

– Uotson, – o dedi. – Demək, siz Tomun əvvəlki arvadısınız?

– Bəli, mən buradan iki il əvvəl getmişəm.

– Lakin Meqanın qalereyasına gəlməkdə davam etmisiniz?

– Hərdən.

– Bəs onunla görüşəndə siz nə haqda... O sizə öz şəxsi məsələlərindən

danışırdı? Mənim haqqımda deyirdimi? – Onun səsi xırıltılı oldu. – Daha kimin haqqında danışırdı?

Başımı buladım:

– Yox-yox. Biz, sadəcə, mırt vururduq... boş şeylərdən.

Uzun bir fasilə yarandı. Birdən otaqda çox isti oldu, antiseptik qoxusu da elə bil gücləndi. Mən ürək bulantısı hiss etdim. Sağda üstündə çərçivəli şəkillər olan masa vardı. Şəkillərdən Meqan mənə şən və məzəmmətli təbəssümlə baxırdı.

– Getmək vaxtıdır, – dedim. – Onsuz da sizin vaxtınızı çox aldım.

Qalxmaq istədim, lakin o əliylə biləyimdən tutdu və gözlərimə baxdı.

– Lütfən, bir az da qalın, – o yumşaq səslə xahiş etdi.

Oturdum, lakin zorla saxlanıldığım üçün xoşagəlməz hisslər keçirərək əlimi kənara çəkdim.

– Onunla birlikdə gördüyünüz kişi ... – o dedi. – Sizcə, onu yenə görsəniz, tanıya bilərsiniz?

Mən artıq onu polisdə tanıdığımı deyə bilmədim. Onunla danışmağa qərar verməyimin səbəbi bu idi ki, polisdə mənə inanmamışdılar. Bunu boynuma alsaydım, onun etibarını itirərdim. Odur ki, yenə yalan danışmalı oldum.

– Əmin deyiləm, – dedim. – Lakin mənə elə gəlir ki, tanıya bilərəm.

Bir az susdum, sonra davam etdim:

– Qəzetlərdə Meqanın dostunun sözləri yazılmışdı. Onun adı Radjeşdir. Mən düşündüm, bəlkə...

Skott başını buladı:

– Radjeş Qucral? Mümkün deyil. O rəssamdır, qalereyada rəsmlərini sərgiləyirdi. Pis oğlan deyil, amma... O evlidir, onun uşaqları var.

Sanki bu nəyisə dəyişirdi.

– Dayanın, – o ayağa qalxaraq dedi. – Mənə elə gəlir ki, o bizdə haradasa fotoşəkillərdə var.

O yuxarı getdi. Birdən çiyinlərimin batdığını hiss etdim – bütün bu müddətdə gərginlikdən dartılmış sim kimi oturmuşdum. Yenə şəkillərə nəzər saldım: Meqan yay paltarında çimərlikdə; onun üzü yaxından çəkilib; qəşəng mavi gözləri var. Bütün şəkillərdə yalnız Meqan. Onların birlikdə çəkdirdiyi bircə şəkil də yoxdur.

Skott əlində buklet gəldi və onu mənə uzatdı. Qalereyanın reklamı idi.

– Budur, – o, səhifəni çevirərək dedi. – Radjeş, bax budur. Şəkildə parlaq abstrakt bir rəsmlə yanaşı çox da ucaboy olmayan, yaşlı və həm də saqqallı bir kişi durmuşdu. Bu mənim polisdə şəklini görüb tanıdığım adam deyildi.

– Bu o deyil, – dedim.

Skott yanımda dayanıb bukletə baxırdı, sonra birdən çevrildi, yenidən qərarlı şəkildə yuxarı, ikinci mərtəbəyə yönəldi. Bir neçə saniyədən sonra o əlində noutbuk qayıtdı və mətbəx masasının arxasında oturdu.

– Mən düşünürəm... – o, kompüterin qapağını qaldırdı və onu işə salaraq dedi, – mənə elə gəlir ki, bilirəm... – O susdu və mən onun möhkəm sıxılmış çənəsilə gərgin sifətinə baxdım. – Meqan psixoterapevtin yanına gedirdi, – dedi. – Onun adı... Abdikdir. Kamal Abdik. Asiyalı deyil, Serbiya, ya da Bosniyadan, oralardandır. Onun da üzü qarayanızdır. Uzaqdan onu hindliyə bənzətmək olar.

Skott klaviaturada nəsə yığdı.

– Böyük ehtimalla onun öz saytı var... Bax, deyəsən bu şəkildəki odur...

O noutbukun ekranını mənə tərəf çevirdi. Mən yaxşı görmək üçün əyildim.

– Bu odur, – təsdiq etdim. – Dəqiq odur.

Skott sərt hərəkətlə noutbuku qapatdı, dirsəklərini masaya dayayıb alnını titrəyən barmaqlarının ucuna qoyaraq, uzun müddət dinmədi.

– Qəfil həyəcanlanmalar ona əziyyət verirdi, – nəhayət, dedi. –

Yuxusuzluq problemi və s. Bu keçən il başladı. Məhz nə zaman – yadımda deyil.

O mənə baxmadan, sanki öz-özü ilə danışırdı, mənim mövcudluğumu unutmuşdu.

– Mütəxəssisin yanına getməyi mən özüm ona təklif etdim. Psixoterapevtə müraciət etməyi özüm təklif etdim, çünki mən özüm ona kömək edə bilmədim. – Onun səsi titrədi. – Mən ona kömək edə bilmədim. O, əvvəllər də belə problemlərdən əziyyət çəkdiyini, amma sonra bunun keçib getdiyini dedi. Ancaq mən təkid etdim... onu həkimə müraciət etməyə razı saldım. Ona bu adamı məsləhət gördülər. – Skott boğazını arıtlayaraq öskürdü. – Müalicə elə bil ki, ona yardım edirdi. O daha xoşbəxt oldu. – O acı-acı gülümsündü. – İndi mən nəyə görə belə olduğunu anlayıram.

Mən təsəlli vermək üçün onun əlinə toxunmaq istədim, lakin o kənara çəkildi və ayağa qalxdı.

– Sizin getmək vaxtınızdır, – birdən dedi. – Bir azdan anam gələcək, o məni bir-iki saatdan artıq tək buraxmır.

Qapıya çatanda Skott birdən əlimi tutdu.

– Mən sizi əvvəllər haradasa görmüşəmmi? – o soruşdu. Əvvəlcə mən demək istədim ki, bəli, siz məni polis şöbəsində, ya da burada, küçədə görə bilərdiniz, mən şənbə günü axşam burada idim. Lakin, sadəcə, başımı buladım:

– Yox, zənn etmirəm.

Mən mümkün qədər sürətli addımlarla stansiyaya yönəldim. Təxminən yolun yarısında geri dönüb baxdım. O, hələ də qapıda dayanıb dalımca baxırdı.

Axşam

Mən hər dəqiqə öz elektron poçtumu yoxlayırdım, lakin Tomdan heç bir xəbər yox idi. Bu elektron poçtu, sms və mobil telefonlar, bu hər cür elektronika və onların buraxdığı izlər peyda olmamışdan qabaq, görün, qısqanc əyyaşlara nə qədər asan imiş.

Bu gün qəzetlər Meqan haqqında demək olar ki, heç nə yazmamışdılar. Qəzetlərin birinci zolağında onun yerini başqa yeniliklər zəbt etmişdi: Türkiyədə siyasi böhran, Uiqanda itlər tərəfindən dişlənmiş dörd yaşında qızcığaz, İngiltərənin futbol komandasının Çernoqoriya komandasına biabırçı məğlubiyyəti. Yoxa çıxmasından cəmi bir həftə keçməsinə baxmayaraq, Meqanı artıq unutmağa başlamışdılar.

Keti məni yeməyə dəvət etdi. O, indi elə bil oyundan kənar vəziyyətdə idi, çünki Demyen anasına baş çəkmək üçün Birminqemə getmişdi. Ketini o özü ilə birlikdə getməyə dəvət etməmişdi. Onlar az qala iki ildir görüşürlər, amma Keti hələ də onun anası ilə tanış olmayıb. Biz Haystritdə mənim nifrət etdiyim bir məkana – “Zürafə”yə getdik. Zalın mərkəzində, yaşı beşdən aşağı uşaqların cığ-vığı ilə dolu bir yerdə oturmuşduq. Keti məndə olan yeniliklərlə maraqlandı. Dünən axşam hara getdiyimi soruşdu.

– Sən kiminləsə tanış oldunmu, – o ümidlə soruşdu.

Mən hətta riqqətə gəldim və az qala təsdiqləyici cavab verəcəkdim, çünki həqiqətən də elə idi. Amma hər halda vəziyyəti mürəkkəbləşdirməmək üçün yalan demək qərarına gəldim. Dedim ki, Uitnidə anonim əyyaşların görüşündə oldum.

– Aydındır, – o pərt olmuş vəziyyətdə gözünü iştaha küsdürən yunan salatına zillədi. – Mənə elə gəlir ki, sən yenə özünlə bacara bilməmisən. Cümə günü.

– Bəli. Bunun öhdəsindən tez gəlmək mümkün olmayacaq, Keti, – özümü dəhşətli dərəcədə pis hiss edərək dedim. Çünki içkini atıb-atmamağım onu doğrudan da maraqlandırırdı. – Lakin mən çox cəhd edirəm.

– Əgər sənə lazımdırsa, məsələn, mənim səninlə getməyim...

– Bu mərhələdə yox, – cavab verdim. – Lakin anlayış göstərdiyinə görə sağ ol.

– Onda yəqin biz birlikdə daha harasa, məsələn, idman zalına gedə bilərik? – o təklif etdi.

Mən güldüm, lakin onun zarafat etmədiyini anladıqda dedim ki, düşünərəm.

Keti elə indicə getdi – Demyen zəng elədi və xəbər verdi ki, anasının yanından qayıdıb; o da qalxıb getdi. İstədim, Ketiyə deyəm ki: – Nə üçün sən Demyenin bir zəngi ilə o saat onun yanına qaçırsan? Lakin mən kiməsə qarşılıqlı münasibətlər və ya hər hansı məsələ haqqında məsləhət verəcək halda deyiləm, həm də dəhşətli dərəcədə içmək istəyirəm (Bu barədə elə biz masa arxasında oturduğumuz andan düşünürəm; sızanaqlı ofisiant bizdən şərab istəyib-istəmədiyimizi soruşdu, Keti qətiyyətlə imtina etdi). Mən dərimdə tanış qıcıqlanma hiss edərək o barədə düşünmürəm, başımdan ağıllı fikirləri də atmağa çalışıram (Bunu etmə, hələlik sən özünü heç də pis saxlamırsan). Mən şərab mağazasına getməyə hazırlaşarkən telefon zəng çaldı. Tom, yəqin ki, zəng edən Tomdur. Telefonu çantadan çıxarıb ekrana baxıram və ürəyim dəli kimi çırpınır.

– Salam! – telefonda susurlar və mən soruşuram:

– Sizdə hər şey qaydasındadırmı?

Pauzadan sonra Skott cavab verir:

– Bəli, hər şey normaldır, mən, sadəcə, dünənkinə görə təşəkkür etmək istədim. Vaxt tapıb hər şeyi mənə danışdığınıza görə.

– Təşəkkürə dəyməz. Lazım deyil...

– Mən sizi işinizdən ayırıram?

– Xeyr, hər şey normaldır.

Xəttin o başında susurlar və mən təkrar edirəm:

– Hər şey normaldır. Bəs siz... nəsə baş verməyib ki? Siz polislə danışdınızmı?

– Nahardan sonra polisin zərərçəkmiş ailələrlə əlaqələr üzrə əməkdaşı gəlmişdi, – o cavab verir, mənim nəbzim daha tez-tez vurmağa başlayır, – Kriminal polis serjantı Rayli. Onunla söhbətdə mən Kamal Abdik haqqında dedim. Dedim ki, onunla danışmağa dəyər.

– Siz dediniz... Siz ona dediniz ki, mənimlə danışmısınız? – Mənim ağzımda dilim qurudu.

– Xeyr, demədim. Düşündüm ki, bəlkə... Bilmirəm. Düşündüm ki, onlar bu adın mənim öz ağlıma gəldiyini hesab etsələr, daha yaxşı olar. Mən dedim... bilirəm ki, bu yalandır, lakin dedim ki, vacib bir şeyi xatırlamağa çalışırdım. Bu vaxt qərara gəldim ki, onun psixoterapevti ilə danışmağa dəyər. Dedim ki, mənim əvvəldən də onların münasibətləri barədə müəyyən şübhələrim vardı.

Mən yenidən nəfəs ala bildim.

– Bəs, polis qadın necə reaksiya verdi? – soruşuram.

– Dedi ki, onlar artıq onunla söhbət ediblər, lakin yenə də danışacaqlar. O çoxlu suallar verdi, mənim bu barədə əvvəl niyə demədiyimi bilmək istədi. O... bilmirəm. Ona inanmıram. O mənim tərəfimdə olmalıdır, lakin məndə belə bir hiss əmələ gəlib ki, o hey nəyisə axtarır, məni dolaşdırmağa çalışır.

Əlbəttə, axmaqlıqdır, amma onun da Raylini qəbul etməməsi çox xoşuma gəlir ki. Bizi birləşdirən daha bir şey, bizi bağlayan daha bir bağ.

– Amma yenə də sizə minnətdarlığımı bildirirəm. Gəldiyinizə görə. Bilirsiniz... əlbəttə, qəribə səslənir, lakin mən ...mənimlə yaxından tanış olmayan biri ilə danışdığıma sevindim. Və məncə, sağlam düşünmək qabiliyyəti qazandım. Siz getdikdən sonra yadıma düşdü ki, Meqan onunla – Abdiklə ilk görüşdən qayıdanda necə idi. Onda nə isə bir yüngüllük peyda olmuşdu. – O, dərindən köks ötürdü. – Bilmirəm. Bəlkə də bütün bunlar, sadəcə, mənə elə gəlmişdi.

Məndə dünənki hiss yenidən baş qaldırmışdı: Skott yenə mənimlə deyil, öz-özünə danışırdı. Mən bir rezonatora çevrilmişdim və buna sevinirdim. Sevinirdim ki, ona yararlı ola bilərəm.

– Yenə bütün günü Meqanın əşyalarını eşələmişəm, – o davam edir. – Otağımızı bir neçə dəfə axtardım, bütün evi yenidən gözdən keçirdim ki, bəlkə onu tapmağa yardım edəcək bir ipucu əldə edim. Və ya onunla bağlı bir şey tapım. Lakin hamısı əbəs yerə. Nə elektron məktublar, nə açıqca, heç bir şey. Onunla əlaqə saxlamağa cəhd etdim, lakin bu gün qəbulu yoxdur, mobil telefonunun nömrəsini isə əldə edə bilmədim.

– Bunu etməyə dəyərmi, bundan əminsinizmi? – soruşuram. – Yəni bunu

polisə həvalə etmək daha yaxşı olmaz?

Bunu sözlə demək istəmirəm, lakin hər ikimiz başa düşürük ki, o təhlükəlidir. Ən azından təhlükəli ola bilər.

– Bilmirəm, mən doğrudan bilmirəm.

Onun səsində ümidsizlik səslənir, bunu eşitmək məni ağrıdır, lakin ona təsəlli vermək üçün deməyə sözüm yoxdur. Telefonda onun nəfəsini eşidirəm – qısa və fasilələrlə, – elə bil qorxub. Soruşmaq istəyirəm ki, onun yanında kimsə varmı? Amma soruşa bilmirəm, çünki bu doğru olmazdı və çox ağ olardı.

– Mən bu gün sizin keçmiş ərinizi gördüm, – o deyir və mən dərimin necə qıcıqlandığını hiss edirəm.

– Doğrudan?

– Hə, qəzetləri götürməyə çıxmışdım və onu küçədə gördüm. Əhvalımı və hər hansı yenilik olub-olmadığını soruşdu.

– Aydındır, – deyirəm, çünki, sadəcə, başqa bir şey ağlıma gəlmir.

Onun Tomla söhbət etməsini istəmirəm. Tom mənim Meqan Hipvellə tanış olmadığımı bilir. Tom bilir ki, mən onun yoxa çıxdığı gecə Blenhaym-roudda olmuşam.

– Sizin haqqınızda ona demədim. Bilirsinizmi... əmin deyildim ki, bizim görüşümüz haqqında danışmağa dəyər.

– Məncə, danışmağa dəyməz. Bu qəribə görünər.

– Yaxşı, – o razılaşır.

Biz uzun müddət susuruq. Ürəyimin sakitləşməsini gözləyirəm. Mənə elə gəlir ki, o indi dəstəyi asacaq, lakin birdən soruşur:

– O doğrudanmı heç zaman mənim haqqımda danışmırdı?

– Danışırdı... əlbəttə, danışırdı, – cavab verirəm. – Demək istəyirəm ki, biz o qədər də çox ünsiyyətdə olmamışıq, amma...

– Amma bizim evdə olmusunuz. Meqan boş yerə qonaq çağıran deyil. O, çox qapalı adamdır və heç kəsi öz aləminə buraxmır.

Mən bir səbəb uydurmağa çalışıram və onların evində olduğumu dediyimə təəssüf edirəm.

– Mən kitab dalınca gəlmişdim.

– Doğrudan?

O mənə inanmır. Meqan oxumağı sevmirdi. Mən onların evini xatırlayıram – rəflərdə kitab yox idi.

– Bəs o nə deyirdi? Mənim haqqımda?

– Deyirdi ki, çox xoşbəxtdir, – deyirəm. – Yəni sizinlə. Bir də münasibətlərinizin yaxşı olduğunu deyirdi.

Mən özüm hiss edirəm ki, bu çox qəribə səslənir, amma xırda detalları bilmirəm, buna görə də vəziyyəti düzəltməyə cəhd edirəm.

– Düzünü desəm, mənim də evlilik həyatımda hər şey yolunda olmadı, ona görə də, mənə elə gəlir ki, burada məsələ ziddiyyət və müqayisədədir. O sizin haqqınızda danışanda sözün əsl mənasında canlanırdı.

Nə dəhşətli şablon!

– Doğrudan?

Görünür, o bunu hiss etmir, çünki onun səsində əzab var.

– Bu əladır.

O, yenə susur və mən telefonda onun qırıq-qırıq və tez-tez nəfəs aldığını eşidirəm.

– Biz... biz həmin axşam ciddi mübahisə etdik, – o deyir. – Onun mənə hirsləndiyini düşünmək məni çox ağrıdır, o vaxt... – Cümlə eləcə yarımçıq qaldı.

– Mən əminəm ki, onun sizə uzun müddət acığı tuta bilməzdi, – cavab verirəm. – Ər-arvad arasında mübahisə nadir hal deyil. Onlar tez-tez

dalaşırlar.

– Lakin bu dava fərqli idi, sadəcə, dəhşətli idi və mən bacarmaram... Mənə elə gəlir ki, bu barədə heç kimə danışa bilmərəm, çünki cinayətkar kimi görünəcəyəm. – İndi onun səsində bir dəqiqə də onu tərk etməyən günahkarlıq hissi duyulurdu.

– Hər şeyin nədən başladığını xatırlamıram, – o deyir. Mən ona inanmıram, amma yadıma düşür ki, mən özüm də mübahisələrin nədən başladığını çox vaxt xatırlamırdım, odur ki, dilimi dişləyirəm. – Mən bərk hirsləndim. Lazımsız şeylər söylədim. Özümü lap gicbəsər kimi apardım. Axmaqlıq etdim. O da küsdü. Yuxarı qalxdı və çantasını yığdı. Nə götürdüyünü bilmirəm, amma sonra gördüm ki, onun diş fırçası yoxdur və evə qayıtmaq istəmədiyini anladım... Düşündüm ki... bəlkə Taranın yanında gecələməyə gedib. Belə şey bir dəfə olmuşdu. Bircə dəfə. Bu daim olmurdu. – Mən heç onu geri qaytarmağa da cəhd etmədim, – Skott deyir, və mən onun mənimlə danışmadığını, sanki keşişin qarşısında tövbə etdiyini anlayıram.

Tövbə divarının bir tərəfində o, digər tərəfində isə – görünməyən və şəxsiyyəti bilinməyən mən.

– Onun getməyinə mane olmadım.

– Bu şənbə günü axşam olmuşdu?

– Hə. Mən onu bir daha görmədim.

Bir şahid onu – ya da "təsvir olunana bənzər bir qadını" görmüşdü, – Uitni dəmiryol stansiyası yaxınlığında, saat 7.15-də. Bunu qəzetlərdən bilirəm. Bundan sonra onu heç kəs görməyib. Nə platformada, nə qatarda. Uitni stansiyasında videomüşahidə kamerası yoxdur, Korlidə isə kameralar onu qeyd etməyib, amma qəzetlər yazmışdı ki, bu mühüm deyil, çünki bu stansiyada "kor zonalar" çoxdur.

– Bəs onunla nə zaman əlaqə yaratmağa cəhd etdiniz? – soruşuram.

Yenə uzun bir sükut.

– Mən... mən pivəxanaya getdim. "Rouz"a – bilirsiniz, Kinqli-roudun tinində. Acığımı soyutmaq və özümə gəlmək istəyirdim. Bir-iki bakal pivə

içdim və evə qayıtdım. Saat ona yaxın. Onun sakitləşəcəyinə, evdə olacağına ümid edirdim. Amma o getmişdi.

– Deməli, onunla saat onda telefon əlaqəsi qurmağa çalışdınız?

– Yox, – indi o demək olar ki, pıçıldayırdı. – Çalışmadım. Evdə daha iki şüşə pivə içdim, televizora baxdım. Sonra yatmağa uzandım.

Tomla olan davalarımızı düşündüm; içkinin təsiri altında onun üzünə söylədiyim dəhşətli şeyləri, onu görmək istəmədiyini qışqıraraq küçəyə qaçdığımı xatırladım. Tom həmişə mənə zəng edir, sakitləşdirir və evə qayıtmaq üçün dilə tuturdu.

– Fikirləşdim ki, o Taranın yanında mətbəxdə oturub, mənim necə bir zibil olduğumu ona danışır. Ona görə də zəng etmədim.

"Zəng etmədim". Çox sərt və insafsız səslənir. Bunu heç kəsə danışmaması məni təəccübləndirmir. Bu mənim təsəvvür etdiyim, xəyalən tanıdığım Skott deyil. Bu o Skott deyil ki, terrasda Meqanın arxasında, iri əllərini onun kiçik çiyinlərinə qoyaraq, onu hər hansı təhlükədən qoruyacaq şəkildə dayanmışdı.

Mən əlaqəni kəsmək istəyirdim, lakin Skott danışmağa davam edirdi:

– Mən yuxudan erkən durdum. Telefonda bir dənə də mesaj yox idi. Narahat olmadım – düşündüm ki, o Taranın yanındadır və hələ də mənə acıqlıdır. Onda mən zəng etdim. Telefon səs poçtuna keçdi, mən yenə də vahiməyə düşmədim. Düşündüm ki, o yəqin hələ yatır, ya da, sadəcə, mənimlə danışmaq istəmir. Taranın nömrəsi məndə yox idi, amma ünvanı vardı – o Meqanın masası üstündə olan vizit kartında göstərilmişdi. Qalxıb, Taranın evinə getdim.

Əgər narahat olmamışdısa, onda Taragilə niyə getmişdi? – deyə təəccübləndim. Amma onun sözünü kəsmədim. Qoy davamını danışsın.

– Saat ona işləmiş Taragilə çatdım. O, qapını bir az gec açdı və mənim peyda olmağıma çox təəccübləndi. Görünür, məni belə erkən saatda evinin astanasında görməyi heç gözləmirdi və onda mən anladım... Yalnız onda anladım ki, Meqan onun yanında deyil. Və düşündüm... düşündüm...

O sözünə davam edə bilmədi və mən ondan şübhələndiyim üçün utandım.

– O dedi ki, Meqanı son dəfə cümə günü axşam pilates məşğələsində görüb. Bax, onda mən vahiməyə düşdüm.

Telefonu asdıqdan sonra düşündüm ki, əgər Skottu tanımasan və onun Meqanla necə davrandığını görməsən, – mənsə bunu görmüşdüm, – onda onun sözlərində çox şey şübhəli görünər.

Bazar ertəsİ, 22 İyul 2013-cü İl

Səhər

Mən özümdə deyiləm. Bərk yatmışdım, yuxu görürdüm, odur ki, səhər oyana bilmirdim. Yenə də havalar istiləşmişdi və bu gün, yarıboş olmasına baxmayaraq, vaqonda da isti idi. Yuxudan gec qalxdığıma görə qəzet götürmək, ya da İnternetdə yeniliklərə baxmağa vaxtım olmamışdı, ona görə də telefonumda BBC saytını açmaq istəyirəm, lakin o da nədənsə heç açılmaq istəmir. Nortkoutda mənim yanımda planşeti olan bir kişi oturdu. Onun noutbukunda hər şey bir anda açılır və o “Daily Telegraph” saytını açır. Üçüncü xəbər iri qalın hərflərlə yığılmışdı: “MEQAN HİPVELLİN YOXA ÇIXMASI İŞİNƏ GÖRƏ BİR KİŞİ HƏBS EDİLİB”.

Mən elə karıxmışdım ki, özümü unudaraq ekranı yaxşı görmək üçün vaqon qonşuma tərəf əyilmişdim. O mənə təəccüb və az qala qorxu ilə baxırdı.

– Lütfən bağışlayın, – deyirəm. – Mən onu tanıyıram. İtən qadını. Biz tanışıq.

– Dəhşətli hadisədir, – o cavab verir.

O yaşlı, nəzakətli idi və yaxşı geyinmişdi.

– Oxumaq istəyirsiniz?

– Lütfən. Mən öz telefonumda saytı yükləyə bilmədim.

O, xoş niyyətlə gülümsünür və planşeti mənə uzadır. Mən başlığa toxunuram və məqalə ekranda görünür.

Uitnidə yaşayan və 13 iyulda, şənbə günü axşam yoxa çıxan 29 yaşlı Meqan Hipvellin işi üzrə otuz yaşlı kişi həbs edilib. Polis həbs olunan şəxsin, cümə günü istintaqa çağırılmış Skott Hipvell – Meqanın əri olduğunu təsdiq etməkdən imtina etdi. Bu gün səhər polisin mətbuat katibi şərh verdi: "Biz təsdiq edə bilərik ki, Meqanın yoxa çıxması ilə bağlı bir kişi həbs edilib. Cinayətlə bağlı ona hələ ittiham irəli sürülməyib. Meqanın axtarışı davam etdirilir, biz bir ünvanda axtarış aparırıq, təxminimizə görə həmin ünvan cinayət yeri ola bilər".

Biz bu vaxt Hipvellərin evinin yanından keçirik; bu dəfə semaforun işığı qırmızı deyil və qatar dayanmır. Mən tez başımı çevirirəm, lakin yenə də nə isə görməyə gecikirəm. Planşeti sahibinə qaytaranda əllərim əsir. O qəmgin halda başını bulayır.

– Mən həqiqətən təəssüf edirəm, – deyir.

– O sağdır, – xırıltılı səslə deyirəm və özüm də özümə inanmıram.

Gözümdən yaş gəlir. Mən onun evində oldum. Orada oldum. Onun qarşısında masa arxasında oturdum, onun gözlərinə baxdım, nə isə hiss etdim. Onun nəhəng əllərini xatırlayıram – əgər bu əllər çox asanlıqla məni əzə bilərdisə, miniatür və kövrək Meqana nə var.

Əyləclərin cingiltisi Uitni stansiyasının yaxınlaşdığını bildirir və mən ayağa sıçrayıram.

– Mən çıxmalıyam, – yol yoldaşıma deyirəm, o azca təəccüblənir, lakin anlayışla başını tərpədir:

– Uğurlar arzulayıram.

Mən platforma ilə, sonra pilləkənlə aşağı qaçıram. Qarşıdakı insan selinin arasından irəliləyirəm və aşağıdakı meydançaya çatmağa azca qalmış birdən büdrəyirəm. Kimsə deyir: "Ehtiyatlı olun!" Mən səsə tərəf dönmürəm və sonuncu pillədən əvvəlki beton pillənin kənarına baxıram. Onun üzərində qan izi var. Maraqlıdır, o nə vaxtdan qalıb? O burada bir həftə qala bilərdimi? Bu mənim qanımdırmı? Bəlkə Meqanındır? Bəlkə o kişini, evində Meqanın qan izini tapdıqları üçün, həbs ediblər? Mən mətbəxi, qonaq otağını təsəvvür etməyə çalışıram. Antiseptikin çox güclü qoxusu. Təmizləyici vasitənin?

Bilmirəm, xatırlaya bilmirəm, mən yalnız köynəkdəki tər qoxusunu və onun nəfəsindən gələn pivə qoxusunu xatırlayıram.

Mən yeraltı keçidin yanından qaçıram və Blenhaym-roudun küncündə büdrəyirəm. Nəfəs almamağa çalışaraq başımı əyib səki ilə qaçıram. Gözümü qaldırmağa qorxuram, lakin buna qərar verdikdə, görürəm ki, heç nə olmayıb.

Skottun evinin yanında heç bir furqon və polis maşını yoxdur. Bəlkə onlar artıq axtarışı qurtarıblar? Lakin əgər onlar bir şey tapsaydılar, mütləq hələ burada olardılar – dəlil axtarışı və hər şeyi gözdən keçirmək üçün onlara bir neçə saat lazım olardı. Mən addımlarımı yeyinlədirəm. Onun evinə çatanda dayanıram və dərin nəfəs alıram. Həm aşağıda, həm də yuxarıda pərdələr örtülüdür. Qonşu evdə pərdənin çəkildiyini gördüm. Məni müşahidə edirlər. Qapıya yaxınlaşıb əlimi qaldırıram. Mən burada olmamalıyam. Burada nə etdiyimi bilmirəm. Mən sadəcə baxmaq istədim. Bilmək istədim. Daxili bir səs məni dönüb getməyə çağırır, lakin mən dəhşətli dərəcədə qapını döymək istəyirəm. Amma hər halda getmək qərarına gəlirəm, lakin bu an qapı açılır.

Mən reaksiya verməyə macal tapmamış, onun əli məni özünə çəkir. Onun dodaqları möhkəm sıxılıb, gözlərindən od yağır. O özündən çıxıb. Məni qorxu və adrenalin dalğası bürüyür və mən üstümə gələn qaranlığı görürəm. Qışqırmaq üçün ağzımı açıram, amma çox gecdir – o məni çəkib içəri salır və qapını çırpır.

4 İnsanın nə vaxtsa özünü oxşar bir situasiyada olduğunu hiss etdiyi psixi hal

4 İnsanın nə vaxtsa özünü oxşar bir situasiyada olduğunu hiss etdiyi psixi hal

# Meqan

---

Cümə axşamı, 21 mart 2013-cü İl

Səhər

Mən heç zaman uduzmuram. O mənim haqqımda bunu bilməlidir. Belə oyunlarda heç vaxt məğlub olmuram.

Telefonumun ekranında heç nə yoxdur. Nə sms-lər, nə buraxılmış çağırışlar. Hər dəfə ona baxarkən, mənə elə gəlir ki, şillə yeyirəm, məni qəzəb boğur. Onda hotel nömrəsində mənə nə olub? Mən özümdən niyə bədgümanam? Aramızda nəsə bir əlaqə yarandığını və hər şeyin ciddi olduğunu düşünmüşəm? O mənimlə heç yerə getməyi fikirləşmirmiş. Mənsə ona bir saniyəliyə – bir saniyədən bir az çox – inandım; bu məni həqiqətən qəzəbləndirir. Mən sadəlövh və inanan bir axmağam. O isə lap başlanğıcdan mənə gülürmüş.

Əgər o hesab edirsə ki, mən oturub onun üçün ağlayacağam, çox möhkəm yanılır. Mən onsuz yaşaya bilərəm, özü də lap əla yaşaya bilərəm, lakin mən uduzmağı sevmirəm. Mən elə adam deyiləm. Qətiyyən elə deyiləm. Məndən imtina etmirlər. Mən imtina edirəm.

Mən özüm özümü dəli edirəm və bununla bacarmıram. Hoteldə olan həmin görüşü, onun sözlərini, məni nə hiss etməyə məcbur etdiyini dönə-dönə başımda fırladıram, bunu dayandıra bilmirəm.

Köpək oğlu!

Əgər o düşünürsə ki, mən yox olacağam, sakitcə çıxıb gedəcəyəm, çox səhv edir. Əgər o ən yaxın vaxtda cavab verməsə, daha onun mobil telefonuna zəng etməyəcəyəm, elə birbaşa evinə zəng edəcəyəm. Mən belə saymazlığa yol vermərəm.

Səhər yeməyində Skott məndən psixoterapevtin seansını təxirə salmağı xahiş edir. Mən susub, özümü eşitməzliyə vururam.

– Deyv bizi şam yeməyinə dəvət edib, – o deyir. – Biz artıq çoxdan bir yerdə olmamışıq. Sən öz seansını başqa vaxta keçirə bilərsənmi?

O bunu neytral bir səslə deyir, elə bil adi bir şey xahiş edir, lakin mən onun diqqətli baxışlarını üzərimdə hiss edirəm. Biz dava etməyə hazırıq, buna görə də ehtiyatlı olmalıyam.

– Mən bunu edə bilmərəm, Skott, artıq çox gecdir, – deyirəm. – Yaxşısı budur, gəl, Deyv və Kareni şənbə günü bizə dəvət edək?!

İstirahət günləri Deyv və Kareni əyləndirmək perspektivi məni heç açmır, lakin kompromisə getmək lazımdır.

– Xeyr, hələ gec deyil, – o etiraz edir və öz fincanını qarşımda masanın üstünə qoyur. Sonra əllərini mənim çiynimə qoyur, bir az saxlayıb xahişini təkrar edir: – Seansı təxirə sal, yaxşımı? – deyib otağı tərk edir.

Onun arxasınca qapı örtülən kimi, mən fincanı qapıb divara çırpıram.

Axşam

Özümə deyə bilərdim ki, əslində o heç də məndən imtina etmir. Özümü inandırmağa çalışa bilərdim ki, o, sadəcə, həm mənəvi, həm də professional cəhətdən düzgün davranmaq istəyir. Amma bilirəm ki, bu belə deyil. Və yaxud ən azından, tam belə deyil, axı mənəviyyat (iş isə lap dəqiq) elə şey deyil ki, insan həqiqətən onun üçün dəyərli bir məxluq uğrunda ondan keçə bilməsin. İnsan sevdiyi şəxsin uğrunda bütün qalan şeyləri qurban verməyə hazır olar. Sadəcə olaraq, mən Skott üçün kifayət qədər qiymətli deyiləm.

Mən bütün günü Skottun zənglərinə cavab vermədim, psixoterapevtin seansına təyin olunmuş vaxtdan gec gəldim və katibəyə bir söz demədən birbaşa kabinetə keçdim. O masa arxasında oturub nəsə yazırdı. Mən içəri girəndə o mənə baxdı, lakin gülümsəmədi və yenə kağızlara nəzər saldı. Dayanıb gözlədim ki, o nə zaman diqqətini mənə yönəldəcək. Mənə elə gəldi ki, bu sonsuzluq qədər uzandı.

– Hər şey yaxşıdırmı? – nəhayət, o soruşdu. Gülümsədi. – Sən gecikdin.

Mənim nəfəsim tıxandı və ağzımdan bir kəlmə də çıxara bilmədim. Masanın ətrafına dolanıb ayağımla onun buduna toxunaraq oturdum. O bir az kənara çəkildi.

– Meqan, – o təkrar etdi, – özünü yaxşı hiss edirsən?

Mən başımı buladım və əlimi ona uzatdım. O əlimdən tutdu.

– Meqan, – yenə o başını bulayaraq dedi.

Mən susurdum.

– Sən ... Sənə oturmaq lazımdır. Gəl danışaq.

Mən başımı bulayaraq etiraz etdim.

– Meqan.

Mənim adımı tələffüz etməklə, o yalnız hər şeyi dərinləşdirdi.

O qalxdı, masanın ətrafına dolanıb məndən uzaqlaşdı və otağın ortasında dayandı.

– Yaxşı də, – işgüzarcasına və hətta kəskin şəkildə dedi. – Otur.

Mən ona yaxınlaşdım və bir əlimlə belindən qucaqlayıb, o biri əlimi onun sinəsinə qoydum. O mənim əllərimi araladı, biləyimdən tutub geri çəkildi.

– Meqan, lazım deyil. Sən edə bilməzsən... biz edə bilmərik... – O üzünü çevirdi.

– Kamal, – dedim; səsim titrədi, buna görə özümə nifrət etdim. – Lütfən.

– Burada... bunu... Bura yeri deyil. İstəkdə mühakimə ediləcək bir şey yoxdur, inan, lakin...

Onda mən ona dedim ki, onunla birlikdə olmaq istəyirəm.

– Bu hisslərin köçürülməsidir, Meqan, – o təslim olmurdu. – Belə şeylər olur. Mənimlə də həmçinin. Gərək bu barədə hələ keçən dəfə səninlə danışaydım. Çox təəssüf edirəm.

Mən az qala qışqıracaqdım. Onun sözlərindən belə çıxırdı ki, bu adi bayağılıqdır, ən trivial bir şeydir.

– Sən demək istəyirsən ki, heç nə hiss etmirsən? – soruşdum. – Demək, bunların hamısını mən uydurmuşam?

O başını buladı:

– Sən anlamalısan, Meqan. Mən hər şeyin bu qədər uzağa getməsinə imkan verməməliydim.

Ona yaxınlaşdım, əllərimi onun budlarına qoydum və özümə doğru çevirdim. O yenə öz incə barmaqları ilə biləyimdən yapışıb əllərimi özündən

uzaqlaşdırdı.

– Mən işimi itirə bilərəm, – o dedi və onda mən özümdən çıxıb qəzəbləndim.

Hiddətlə və kəskin hərəkətlə kənara çəkildim. O məni saxlamağa cəhd etdi, lakin bacarmadı. Mən qışqırmağa başladım, “sənin işinə tüpürüm” dedim. O məni sakitləşdirməyə çalışdı – yəqin katibənin və digər pasientlərin nə düşünəcəklərindən narahat idi. Çiynimdən tutub bərk-bərk sıxdı, sakitləşməyə və özümü uşaq kimi aparmamağa çağırdı. Məni bərk silkələdi. Hətta elə düşündüm ki, o indicə mənə bir şillə çəkəcək.

Mən alt dodağını dişləyərək onu öpdüm və onun qanının dadını hiss etdim. O məni kənara itələdi.

Evə gələrkən yolda intiqam planı qururdum. Ona nə edə biləcəyim haqqında fikirləşdim. Onu işdən məhrum edə bilərəm və hətta daha pis. Lakin bunu etməyəcəyəm, çünki o həddən artıq xoşuma gəlir. Ona zərər vurmaq istəmirəm. İndi məni ən çox qəzəbləndirən səbəb – məndən imtina edilməsi deyil. Məni ən çox acıqlandıran odur ki, hələ son nöqtə qoyulmayıb və mən bir başqası ilə hər şeyi yenidən başlaya bilmirəm – bu çox ağırdır.

Mən evə getmək istəmirəm, çünki əllərimdəki qançırların haradan əmələ gəldiyini necə izah edəcəyimi bilmirəm.

# Reyçel

---

Bazar ertəsİ, 22 İyul 2013-cü İl

Axşam

İndi mən gözləyirəm. Bir şey bilmədən hər şeyin müəyyən ediləcəyini gözləmək necə də əzabverici olurmuş. Lakin nəsə etmək də mümkün deyil.

Səhər mən qorxu hiss etməkdə haqlıymışam. Sadəcə olaraq, nədən qorxmalı olduğumu bilmirdim.

Skottdan deyil. Məni içəri dartdıqdan sonra, yəqin, gözümdəki dəhşət

ifadəsini görüb o saat buraxdı. Üst-başı səliqəsiz idi, dəli baxışları ilə sanki işığa baxa bilmirdi və buna görə də tez qapını örtdü.

– Siz burada nə edirsiniz? Burada hər tərəfdə jurnalistlər və fotoqraflar dolaşır. Mən kiminsə qapıya yaxınlaşmasına, ya da yaxınlıqda veyillənməsinə imkan verə bilmərəm. Dedi-qodular başlayacaq... Onlar... bir neçə şəkil üçün hər şeyə hazırdırlar...

– Orada kimsə yoxdur, – inandırmağa çalışdım, halbuki heç baxmamışdım.

İstisna etmək olmaz ki, kimsə maşında oturub hadisələrin inkişafını gözləyir.

– Siz burada nə edirsiniz? – o yenə tələbkarcasına soruşdu.

– Xəbərlərdə eşitdim ki... Mən, sadəcə, istəyirdim... demək, bu odur? Onu həbs ediblər?

O başı ilə təsdiq edir:

– Bəli, bu gün səhər. Xəbər vermək üçün polis zabiti, o qadın gəlmişdi. Amma onlar... nəyə görə həbs edildiyini demirlər. Yəqin nəsə tapıblar, lakin məndən gizlədirlər. Hər halda bu Meqan deyil. Mən bilirəm ki, onu tapmayıblar. – O, pilləkəndə oturur və titrəməsini kəsmək üçün özünü əllərilə qamarlayır. – Mən buna dözməyəcəyəm. Mən beləcə oturub telefonun nə vaxt zəng edəcəyini gözləyə bilmərəm. O zəng nə gətirəcək? Ən dəhşətli xəbər? Yoxsa... – O sözünü bitirmir və mənə baxır, elə bil ki, ilk dəfə görür. – Siz niyə gəldiniz?

– Mən istədim... Düşündüm ki, siz tək olmaq istəməzsiniz.

O mənə dəliyə baxan kimi baxdı.

– Mən tək deyiləm, – dedi və qonaq otağına keçdi.

Mən dayanıb qaldım, bilmədim onun arxasınca gedim, yoxsa bayıra çıxım. Lakin bu zaman onun səsi eşidildi:

– Qəhvə istəyirsinizmi?

Çəmənlikdə bir qadın siqaret çəkirdi. Ucaboy idi, qara saçlarına dən düşmüşdü, əynində dəblə tikilmiş şalvar və bütün düymələri bağlı ağ köynək vardı. O, çəmənlikdə var-gəl edirdi, lakin məni görüb dayandı, siqaretin kötüyünü yerə atıb ayağı ilə əzdi.

– Polis? – mətbəxə keçərək şübhə ilə maraqlandı.

– Yox, mən...

– Bu Reyçel Uotsondur, ana. – Skott izah etdi. – Mənə Abdik barədə xəbər verən qadın.

O yavaşca başını silkələdi, elə bil Skottun izahatı çox az şey aydınlaşdırmışdı və sürətli baxışlarla məni başdan-ayağa gözdən keçirdi:

– Aydındır.

– Mən, sadəcə...

Mənim burada olmağım üçün inandırıcı bir səbəb yox idi. Boynuma ala bilməzdim ki, hər şeyi öz gözlərimlə görüb bilmək istədim.

– Çox yaxşı, Skott sizə minnətdardır. Biz indi nə baş verdiyi barədə xəbər gözləyirik. – O mənə doğru addımladı, qoluma girdi, yumşaq hərəkətlə giriş qapısına doğru çevirdi.

Skotta baxdım, lakin o mənə baxmırdı; onun baxışları haradasa, yolun o tərəfinə zillənmişdi.

– Sağ olun ki, baş çəkdiniz, miss Uotson. Biz həqiqətən sizə çox minnətdarıq.

Mən qapının ağzında qaldım və qapı arxamca örtüldü. Baxışlarımı küçəyə çevirdim və onları gördüm. Tom kolyaskanı sürürdü, Anna isə onun yanında addımlayırdı. Məni gördükdə hər ikisi donub qaldı. Anna əlini ağzına tutdu və o saat əyilib uşağı götürməyə çalışdı. Dişi pələng balasını müdafiə edirdi. Mənim gülməyim tutdu və demək istədim ki, buraya sizə görə gəlməmişəm və sizin qızınız məni qətiyyən maraqlandırmır.

Məni qapıdan bayıra çıxartdılar. Skottun anası açıq-aşkar bildirdi ki, bura mənim yerim deyil. Məni qovdular və mən məyus oldum, amma bu mühüm

deyil, çünki Kamal Abdik həbs edilib. Onu tutublar və bunda mənim də əməyim var. Mən düz hərəkət etmişəm. Detektivlər onu tutublar və indi Meqanı tapıb evə qaytaracaqlar.

# Anna

---

Bazar ertəsİ, 22 İyul 2013-cü İl

Səhər

Tom məni yuxudan öpüşlər və sirli təbəssümlə oyatdı. Bu gün nahara yaxın onun müştəri ilə görüşü vardı, buna görə də təklif etdi ki, mən Evini də götürüb tindəki kafeyə səhər yeməyinə gedim. Bizim münasibətlərimiz hələ yenicə başladıqda bu kafedə görüşərdik. Pəncərə önündə əyləşərdik – o Londonda işləyirdi, buna görə də onun buradan keçib bizi görə biləcəyindən qorxmurduq. Lakin bu yenə də hisslərə bir kəskinlik qatırdı: bəlkə birdən o evə erkən dönərsə, məsələn, özünü pis hiss edər ya da hansısa vacib sənədi unutmuş olarsa, onda necə? Mən bunu çox arzu edirdim. Mən çox istəyirdim ki, bir gün o məni Tomla görsün. Çünki daha Toma aid olmadığını dərhal anlayacaqdı. İndi hətta təsəvvür etmək də çətindir ki, bir vaxtlar mən onun qarşımıza çıxmasını arzulayırdım.

Meqan yoxa çıxdığına görə buradan keçməməyə çalışırdım – onların evinin yanında dərim qıcıqlanırdı, – lakin qəhvəxanaya başqa yol yoxdur. Tom bir az irəlidə gedib kolyaskanı sürürdü. O, Eviyə nəsə oxuyur, Evi də gülürdü. Bax belə, üçlükdə gəzmək mənim xoşuma gəlir. Yoldan keçənlərin bizə baxıb, necə qəşəng ailədir deyə düşündüklərini görürəm. Bu mənim qəlbimi iftixar hissi ilə doldurur, həyatımda heç bir şeylə bu qədər çox fəxr etməmişəm.

Qəlbimin xoşbəxtliklə necə dolduğunu hiss edirəm. Biz 15 nömrəli evə yaxınlaşırıq və onun qapısı açılır. Mənə elə gəlir ki, məndə hallüsinasiya başlayır, çünki mən onu görürəm! Reyçel! O çıxır, bir az yavaşıyır, sonra bizi görür və yerində donub qalır. Bu dəhşətdir! Onun üzündə maskaya bənzəyən qəribə bir təbəssüm peyda olur. Mən düşünmədən kolyaskaya əyilib Evini götürürəm və özümə sıxıram. O qorxur və ağlamağa başlayır.

Reyçel sürətlə stansiyaya doğru gedir.

Tom onu səsləyir:

– Reyçel! Sən burada nə edirsən? Reyçel!

Lakin o addımlarını yeyinlədir və demək olar ki, qaçır, biz isə yerimizdə dayanıb qalırıq. Tom mənə doğru çevrilir, üzümdəki ifadəmi görüb deyir:

– Gəl, evə qayıdaq.

Axşam

Evdə öyrəndik ki, Meqanın yoxa çıxması ilə bağlı kimisə həbs ediblər. Meqanın psixoterapevti olan və haqqında heç eşitmədiyimiz bir kişini. Mən yüngüllük hiss etdim, çünki başıma ən dəhşətli fikirlər dolurdu.

– Mən axı deyirdim ki, bu işdə tanış adamın barmağı var, – Tom dedi. – Həmişə belə olur, elə deyilmi? Hər halda nə baş verdiyini bilmirik. Bəlkə də ona heç bir şey olmayıb. Bəlkə o, sadəcə, kiminləsə qaçıb.

– Onda bu adamı niyə həbs ediblər?

O, çiyinlərini çəkdi. Özünə aid nəyisə fikirləşərək, pencəyi geyindi, qalstukunu düzəldib, bu gün son müştəri ilə görüşə getməyə hazırlaşdı.

– Bəs, biz nə edəcəyik? – soruşdum.

– Nə edəcəyik? – O, təəccüblə mənə baxdı.

– Reyçeli deyirəm. O niyə gəlmişdi? Niyə Hipvellərin evindəydi? Sənə elə gəlmirmi ki, o... qonşuların həyətindən bizim bağa girmək istəyirdi?

Tom qəmgin-qəmgin gülümsündü:

– Şübhəm var. Qulaq as, biz axı Reyçeldən danışırıq. O öz şişman dalını bu çəpərdən aşıra bilməz. Onun burada nə axtardığından anlayışım yoxdur. Bəlkə o sərxoşdur və qapını səhv salıb?

– Yəni bizə gəlirmiş? – deyə o, başını buladı.

– Mən bilmirəm. Qulaq as, bunu başından çıxar, yaxşı? Bütün qapıları kilidlə. Mən zəng edib aydınlaşdıraram ki, onun ağlında nə var.

– Məncə, polisə xəbər vermək lazımdır.

– Biz nə deyəcəyik? O, axı heç nə eləməyib.

– Əlbəttə, əgər Meqan Hipvellin yoxa çıxdığı gecə onun burada olduğunu saymasaq, son günlər heç nə eləməyib, – dedim. – Bu barədə biz çoxdan polisə danışmalıydıq.

– Anna, sakit ol. – O məni qucaqladı. – Düşünmürəm ki, Meqan Hipvellin yoxa çıxmasında Reyçelin iştirakı olsun. Lakin mən onunla danışaram, yaxşı?

– Amma keçən dəfə sən özün dedin...

– Mən bilirəm, – yumşaqlıqla sözümü kəsdi. – Mən bilirəm nə dedim. – O məni öpdü və əlini mənim cinsimin kəməri altına soxdu. – Gəl zərurət olmadıqca polisi cəlb etməyək.

Mənə isə elə gəlirdi ki, belə zərurət artıq var. Onun təbəssümünü, daha doğrusu, istehzalı təbəssümünü başımdan çıxara bilmirəm. Təntənə ilə gülümsəyirdi. Biz buradan getməliyik. Ondan canımızı qurtarmalıyıq.

# Reyçel

---

Çərşənbə axşamı, 23 İyul 2013-cü İl

Səhər

Mən yuxudan ayılanda nə hiss etdiyimi həmin dəqiqə anlamadım. Qorxu ilə qarışıq bir həyəcan. Mən bilirəm ki, biz kələfin açılmasına yaxınlaşırıq. Bu sonun dəhşətli olacağı fikrindən heç cür qurtula bilmirəm.

Yataqda otururam, noutbuku götürüb işə salır və səbirsizliklə İnternetin yüklənməsini gözləyirəm. Proses mənə çox uzun görünür. Mən Ketinin necə evdə hərəkət etdiyini, qabları yuduğunu, özünə səhər yeməyi hazırladığını və yuxarı dişini fırçalamağa qaçdığını eşidirəm. Qapımın önündə dayandığını eşidirəm və qapını döymək üçün əlini qaldırdığını təsəvvür edirəm. Sonra fikrini dəyişir və pilləkənlə aşağı qaçır.

Ekranda BBC səhifəsi açılır. Əsas yenilik – hüquqi yardım göstərilməsinə ayrılan vəsaitin azaldılması haqqında, sonra pedofiliyada günahlandırılan 70-ci illərin teleulduzu barəsində xəbər. Nə Meqan, nə də Kamal haqqında nəsə var. Dilxor oldum. Mən bilirəm ki, ittiham irəli sürmək üçün polisin 24 saat vaxtı var, bu müddət artıq bitib. Doğrudur, bəzi hallarda bu müddət daha 12 saat uzadıla bilər.

Bunların hamısını bilirəm, çünki dünən bu məsələni xüsusi olaraq araşdırmışam. Mən Skottun evindən zorla çıxarıldıqda, evə qayıtdım, televizoru işə saldım və günün çox hissəsini televizorda və İnternetdə yeniliklərə baxmaqla keçirdim. Mən gözləyirdim.

Günortaya polis şübhəli şəxsin adını dedi. Xəbərlərdə dedilər ki, "doktor Abdikin evində və maşınında dəlillər tapılıb", lakin məhz hansı dəlillər olduğunu demədilər. Bəlkə qan? Bəs onun telefonunu hələ də tapmayıblar? Paltarını, çantasını, diş fırçasını? Daim Kamalın iri planda çəkilmiş fotosunu göstərirdilər: onun qarabuğdayı gözəl üzü var. Bu foto polisdə məlumat bazası üçün çəkilməyib, haradasa istirahətdə çəkilib: şəkildə o təbəssümünü zorla gizlədir. O, bir qatil üçün həddən artıq yumşaq, həddən artıq gözəl görünür, lakin zahiri görkəm aldadıcıdır. Deyirlər, Ted Bandi[5] Keri Qranta oxşayırmış.

Mən bütün günü yenilikləri izlədim ki, adam oğurluğu, hücum ya da daha pis bir şey haqqında xəbər verəcəklər. Gözləyirdim ki, Meqanın harada olduğu, onu harada saxladıqları haqqında danışacaqlar. Blenhaym-roudun, dəmiryol stansiyasının, Skottun evinin qapısının şəkillərini göstərdilər. Şərhçilər bir həftədən artıq müddətdə nə Meqanın telefonundan, nə də bank kartlarından heç kəsin istifadə etməməsinin mümkün səbəbləri haqqında mülahizələr yürütdülər.

Bir neçə dəfə Tom zəng etdi, lakin mən cavab vermədim. Onun nə üçün zəng etdiyini bilirəm. O dünən axşam mənim Hipvellərin evində nə işim olduğunu bilmək istəyirdi. Qoy bir az əzab çəksin. Bunun ona heç bir dəxli yoxdur. Mənim bütün həyatım ondan ibarət deyil. Həm də mən heç şübhə etmirəm ki, o arvadının göstərişi ilə zəng edir. Onun arvadına mən nə isə izah etmək məcburiyyətində deyiləm.

Mən gözləməkdə davam edirdim, lakin ittiham irəli sürülmürdü. Bunun

əvəzində Kamal haqqında yeni təfərrüatlar bildirilirdi; o professional olaraq psixoterapiya ilə məşğul olur; Meqan bütün öz sirlərini və dərdlərini ona deyib; o Meqanın etibarını qazanıb və bundan sui-istifadə edərək onu yoldan çıxarıb, sonra isə – kim bilir sonra nə olub?

Mən öyrəndim ki, o müsəlmandır, bosniyalıdır, Balkanlardakı müharibədən qaçaraq, 15 yaşında bir qaçqın kimi İngiltərəyə gəlib. O itkilərlə bilavasitə tanışdır, çünki Serebrenitsedə atasını və iki böyük qardaşını itirib. Ev üstündə dava etdiyinə görə məhkəməyə düşüb. Kamal barəsində nə qədər çox bildikcə, onun haqqında polisə və Skotta xəbər vermək qərarımın doğru olduğuna daha çox inandım.

Ayağa qalxıram, xalatı çiynimə atıb aşağı enirəm və televizoru işə salıram. Bu gün harasa getməyi düşünmürəm. Əgər gözlənilmədən Keti qayıtsa, özümü pis hiss etdiyimi deyəcəyəm. Sonra özümə bir fincan qəhvə süzüb televizorun qarşısında otururam və gözləyirəm.

Axşam

Saat üçdə hər şeydən zəhləm getdi. Yetmişinci illərin televiziya pedofilləri və müavinətlər barədə məlumatı dinləməkdən bezdim. Meqan və Kamal haqqında heç nə demədikləri üçün hirslənirdim, ona görə də şərab mağazasına yollandım və iki şüşə ağ şərab aldım.

Mən birinci şüşəni bitirəndə nəsə dəyişilir. İndi köhnə xəbərlərə yeniləri əlavə olunur. Ekranda şəkillər tərpənir – süjet hansısa yarımçıq tikilidən (ya da yarıuçuq) çəkilib, uzaqda partlayışlar eşidilir. Suriya, Misir, bəlkə də Sudan? Televizorun səsini kəsirəm, çünki bu məni o qədər də maraqlandırmır. Sonra hərəkətli alt yazıdan öyrənirəm ki, hökumət hüquqi yardıma ayrılan vəsaitin azaldılmasına qarşı müqavimətə rast gəlib, Fernando Torres dizaltı vətəri dartıldığı üçün dörd həftə meydançaya çıxa bilməyəcək və Meqan Hipvellin yoxa çıxmasında şübhəli bilinən adam ittiham irəli sürülmədən sərbəst buraxılıb.

Mən bakalı masaya qoyub pultu götürürəm və səsucaldan düyməyə bir neçə dəfə basıram. Bu ola bilməz! Hərbi əməliyyat haqqında reportaj davam edir və heç bitənə oxşamır, hiss edirəm ki, təzyiqim qalxır, və nəhayət, ekranda studiya görünür. Diktor xəbər verir:

– Dünən Meqan Hipvellin yoxa çıxması ilə bağlı həbs edilmiş Kamal Abdik ittiham irəli sürülmədən azad edilib. Missis Hipvellin psixoterapevti olan Abdik dünən saxlanılmışdı, lakin bu gün səhər sərbəst buraxıldı. Polisin sözlərinə görə, ittiham irəli sürülməsi üçün yetərli dəlillər yoxdur.

Sonra diktorun nə dediyini eşitmirəm. Mən oturmuşam, gözlərimin qarşısında hər şey dalğalanır, qulaqlarımda küy var, başımda yalnız bir fikir: o onların əlində idi və onlar onu buraxdılar.

***

Sonra yuxarıda həddən artıq içərək kompüterin ekranını pis görürəm, gözümdə hər şey ikiləşir, hətta üçləşir. Yalnız bir gözümü əlimlə tutduqda oxuya bilirəm. Bundan da başım ağrıyır. Keti evdədir, o məni çağırdı, lakin mən özümü pis hiss etdiyim üçün uzandığımı dedim. O mənim içdiyimi.

Mədəm spirtli içki ilə doludur. Ürəyim bulanır. Başım işləmir. Belə erkən içməyə başlamaq lazım deyildi. Ümumiyyətlə, içməyə başlamaq lazım deyildi. Mən bir saat əvvəl Skottun nömrəsini yığdım, bir də bir az bundan əvvəl. Bunu da etmək lazım deyildi. Sadəcə, Kamalın onlara nə yalanlar danışdığını bilmək istəyirdim. Görəsən, Kamal onlara nələr danışıb ki, onlar aldanıblar? Polis hər şeyi korladı. Axmaqlar! Bunların hamısına səbəbkar Raylidir, bu onun səhvidir. Buna əminəm.

Qəzetlər də bir işə yaramırlar. İndi də onlar bəyan edirlər ki, Kamal indiyə qədər heç bir zorakılıq üstündə ittiham edilməyib. Əvvəlki informasiya səhv imiş. İndi onu az qala zərərçəkmişə çevirirlər.

Mən daha içmək istəmirəm. Bilirəm ki, şərabın qalanını ləyənə tökmək lazımdır, çünki səhər erkən yuxudan qalxanda ilk olaraq içmək istəyəcəyəm və içəcəyəm, sonra da davam etmək istəyəcəyəm. Hamısını tökmək lazımdır, amma bilirəm ki, heç nəyi tökən deyiləm. Çünki sabah, bəs nədən ötrü oyanacağam.

Hər tərəf qaranlıqdır və mən kiminsə onu adı ilə çağırdığını eşidirəm. Səs əvvəlcə alçaqdan, sonra ucadan eşidilir. Bu səsdə acıq və ümidsizlik var və o Meqanı çağırır. Bu Skottdur – o bu qadınla xoşbəxt deyil. Amma onu dönə-dönə çağırır. Yəqin bu mənim yuxuma girib. Mən bu röyanı saxlamağa çalışıram, lakin nə qədər çox cəhd edirəmsə, o qədər tez əriyib yox olur.

Çərşənbə, 24 İyul 2013-cü İl

Səhər

Məni qapının ehtiyatla döyülməsi oyadır. Yağış damlaları pəncərəni döyəcləyir, artıq saat doqquza işləyir, lakin elə bil küçədə hələ də qaranlıqdır. Keti sakitcə qapını aralayıb otağa baxır.

– Reyçel? Özünü yaxşı hiss edirsən? – O, yatağın yanında şüşəni görür və həqiqətən dilxor olur. – İlahi, Reyçel!

O, yaxına gəlib şüşəni götürür. Mən cavab vermək üçün çox xəcalət çəkirəm.

– Sən işə getmək fikrində deyilsən? – o soruşur. – Sən dünən işə getmişdinmi?

O, cavab gözləmir və dönüb gedəndə deyir:

– Əgər belə davam etsən, səni işdən çıxaracaqlar.

İndi ona hər şeyi danışmaq üçün çox uyğun bir andır, çünki o mənə onsuz da acıqlıdır. Onun arxasınca gedib deməliyəm ki, məni artıq bir neçə ay əvvəl işdən çıxarıblar. Mən müştəri ilə üç saata qədər uzanan yeməkdən tam sərxoş vəziyyətdə geri döndüm və müştərilə o qədər kobud və qeyri-professional davrandım ki, o bizim şirkətin xidmətindən imtina etdi. Gözlərimi yumub həmin yeməyin sonunu xatırlayıram – ofisiant qız hansı ifadə ilə mənim jaketimi verdi, ofisdə necə səndələyərək yeriyirdim və əməkdaşlar arxamca necə baxırdılar. Martin Maylz məni kənara çəkib dedi: Düşünürəm ki, evə getsən yaxşı olar, Reyçel.

İldırım çaxır, göy guruldayır. Mən səksənirəm və kəskin hərəkətlə qalxıb otururam. Dünən axşam huşumu tamam itirməzdən əvvəl nə haqda düşünürdüm? Öz kiçik qara bloknotumu vərəqləyirəm, lakin son qeydlər hələ nahar vaxtı edilib: Kamal haqqında qeydlər – yaşı, etnik mənsubiyyəti, məhkəməyə düşməsi. Qələmi götürüb son bəndi qaralayıram.

Aşağıda özümə qəhvə süzürəm və televizoru işə salıram. Dünən axşam polis mətbuat konfransı təşkil etmişdi, indi onu “Sky-news” kanalı ilə göstərirdilər. Orada kriminal polis inspektoru Qaskill – rəngi ağarmış, yorğun

və məyus vəziyyətdə iştirak edirdi. Alçaq! O, heç Kamalın adını da çəkmədi, sadəcə, dedi ki, şübhəli şəxs saxlanıldı, istintaq edildi, lakin ittiham irəli sürülmədən azad olundu və istintaq davam edir. Sonra ekranda kameraların qarşısında başını aşağı salmış Skott görünür – o, gözlərini tez-tez qırpır, onun üzündə əzab var. Mənim ürəyim sıxılır. O gözlərini aşağı dikərək alçaqdan danışır. Ümidini itirmədiyini deyir və polisin nə bəyan etməsindən asılı olmayaraq, əvvəlki kimi inanır ki, Meqan evə qayıdacaq.

Onun sözləri inandırıcı səslənmir, bu sözlərdə bir sünilik hiss olunur, lakin onun gözlərini görmədən bunun səbəbini anlaya bilmirəm. Mən Meqanın qayıtmasına onun niyə inanmadığını bilmirəm. Son günlərin hadisələri onun inamını sarsıdıb, yoxsa o, həqiqətən bilir ki, Meqan daha heç vaxt evə dönməyəcək?

Bax, bu zaman dünən ona zəng etdiyimi xatırlayıram. Bir, ya da iki dəfə? Telefonun dalınca yuxarı qaçıram, onu yataqda tapıram. Üç buraxılmış zəng: biri Tomdan, ikisi Skottdan. Mesaj yoxdur. Tom axşam zəng edib. Skott birinci dəfə zəng gecə yarısı, ikinci dəfə isə səhər zəng edib, bir neçə dəqiqə bundan əvvəl.

Kefim bir az yaxşılaşır. Bu yaxşı yenilikdir. Anasının davranışına və məni qapıdan çölə çıxartmasına (Köməyinizə görə çox sağ olun, indi gedə bilərsiniz) baxmayaraq, Skott hələ də mənimlə danışmaq istəyir. Mən ona lazımam. Elə oradaca, şərabın qalanını atdığına görə, Ketiyə məhəbbət və minnətdarlıq hiss edirəm. Mən zehnimin aydınlığını qorumalıyam. Skott üçün. Mənim yardımıma onun ehtiyacı var.

Duş qəbul edib geyinirəm, özümə bir fincan da qəhvə süzürəm, sonra qonaq otağına keçərək divanda otururam, bloknotu yanıma qoyub Skottun nömrəsini yığıram.

– Siz özünüz haqqında mənə həqiqəti deməli idiniz, – o dəstəyi götürən kimi soyuq və neytral bir səslə deyir. Mənim qarnımda bir düyün əmələ gəlir. O bilir. – Onlar onu sərbəst buraxdıqdan sonra detektiv Rayli mənimlə söhbət etdi. O, onların arasında eşq macərası olduğunu inkar etdi. Onun haqqında danışan şahid isə, onun sözlərinə görə, etibarlı deyil. Çünki içir. Ola bilər ki, psixi cəhətdən sabit deyil. O mənə şahidin adını demədi, amma məncə, o sizin haqqınızda danışırdı.

– Amma... yox, – cavab verirəm. – Yox. Mən... mən onları görəndə içməmişdim. Bu səhər saat 8:30-da olmuşdu.

Guya bu nəyisə dəyişirdi.

– Həm də polis dəlillər tapmışdı. Bu barədə əvvəlcə xəbərlərdə deyilib. Onlar tapıblar...

– Dəlil çatışmazlığı.

O telefonun dəstəyini asır.

Cümə, 26 İyul 2013-cü İl

Səhər

Mən daha öz xəyali işimə getmirəm. Daha riyakarlıq etmirəm. Demək olar ki, yatağımdan qalxmıram. Mənə elə gəlir ki, son dəfə dişimi çərşənbə günü fırçalamışam. Hələ də özümü elə göstərirəm ki, guya xəstəyəm, lakin çətin ki, buna inanan olsun.

Mən özümü qalxıb, geyinib Londona getməyə və orada küçələrdə veyillənməyə məcbur edə bilmirəm. Bu heç yaxşı havada belə asan deyil, belə yağışda isə heç mümkün deyil. Bu gün üçüncü gündür ki, arası kəsilmədən soyuq yağış yağır.

Mən pis yatıram, lakin problem təkcə içkidə deyil, həm də kabuslardadır. Yuxuda görürəm ki, elə bil tələyə salınmışam, bilirəm ki, kimsə gəlir və çıxış yolu var. Çıxış yolunun olduğunu dəqiq bilirəm, çünki onu əvvəllər görmüşəm, lakin heç cür oraya gedib çıxa bilmirəm, o peyda olanda mən qışqıra bilmirəm. Mən var gücümlə çalışıram, dərindən nəfəs alıb-verirəm, lakin yalnız can verən adamlardakı kimi xırıltı eşidilir.

Bəzən bu kabuslarda mən Blenhaym-rouddakı yeraltı keçiddə oluram, geriyə yol bağlı olur, irəli də gedə bilmirəm, çünki orada kimsə var və bu kimsə məni gözləyir və mən dözülməz dəhşətdən ayılıram.

Onu heç zaman tapmayacaqlar. Hər keçən gün mənim bundan əminliyim artır. Onun adı xəbərsiz itkinlərin, meyitləri tapılmayanların siyahısına daxil olacaq. Skott da ədalət məhkəməsi görməyəcək, daxili rahatlıq tapmayacaq.

O, heç zaman sevgilisinin, üstündə ağlaya biləcəyi meyitini görməyəcək, onun başına nə iş gəldiyini heç vaxt bilməyəcək. Son nöqtə qoyulmayacaq. Mən yuxusuz halda uzanmışam və bu barədə ağrı hissi ilə düşünürəm. Heç bir şey məchulluq aqoniyası ilə müqayisə ediləcək qədər əzablı ola bilməz, onun sonu olmur.

Mən ona yazdım. Boynuma aldım ki, içki ilə bağlı problemim var, lakin yenə yalan danışıb dedim ki, indi yardıma müraciət etmişəm və vəziyyəti nəzarətdə saxlayıram. Psixikamın yerində olduğuna onu inandırdım, amma özüm bunun belə olduğunu bilmirəm. Dedim ki, həmin gün hər şeyi çox aydın gördüm və həmin gün içməmişdim. Ən azından bu doğru idi. O cavab vermədi. Onun cavab verəcəyinə heç inanmamışdım da. O məni öz həyatından atdı. Mən heç zaman ona nə istədiyimi deyə bilmərəm. Bu barədə yaza da bilmərəm, çünki lazımi sözləri seçmək gücündə deyiləm. Mən onun, sadəcə, Kamalı tapmağın kifayət etmədiyinə necə təəssüfləndiyimi bilməsini istəyirəm. Mən daha nəsə etməliydim. Həmin şənbə axşamı gözlərimi çox geniş açmalı idim.

Axşam

Mən tamam islanmış və donmuşdum, barmaqlarımın ucları ağappaq olmuş, dərisi qırışmışdı, başım saat altının yarısından bəri içkinin təsirindən çatlayırdı. Nəzərə alsaq ki, içməyə hələ günortadan başlamışdım, bu qətiyyən təəccüblü deyildi. Mən daha bir şüşə şərab almağa çıxdım, amma planlarımı çoxdan gözlənilən hökmü verən bankomat pozdu: Hesabınızda kifayət qədər vəsait yoxdur.

Bundan sonra gəzməyə getdim və leysan yağışın altında bir saatdan çox boş-boş veyilləndim. Eşberinin piyada zonasına çevrilmiş kimsəsiz mərkəzində məndən başqa heç kəs yox idi. Gəzinti zamanı qərar verdim ki, nəsə etməliyəm. Öz maddi vəziyyətimi düzəltməliyəm.

İndi də islanmış və demək olar ki, sərxoşluqdan ayılmış vəziyyətdə Toma zəng etmək fikrindəyəm. Həmin şənbə axşamı nə etdiyimi və nə dediyimi bilmək istəmirəm, amma aydınlaşdırmalıyam. Bəlkə bu yaddaşımı canlandırar. Nədənsə əminəm ki, yaddaşımda nəsə çox vacib bir şeyi bərpa edə bilmirəm. İstisna deyil ki, bu, sadəcə, özünüaldatmadır, bir dəyərim olduğunu öz-özümə isbatlamaq üçün daha bir cəhddir. Lakin başqa bir

ehtimal da istisna deyil – bəlkə məni hesabdan silmək hələ tezdir.

– Bazar ertəsindən səninlə əlaqə saxlamağa cəhd etmişəm, – Tom zəngə cavab verərək deyir. – Sizin ofisə də zəng etdim, – deyir və daha bir söz əlavə etmədən susur.

Mən yerə girməyə hazır idim, xəcalətdən nə edəcəyimi bilmədim.

– Səninlə şənbə axşamı barədə danışmaq istəyirəm, – deyirəm. – Həmin şənbə axşamı haqqında.

– Sən nədən bəhs edirsən? Mən bazar ertəsi haqqında soruşmaq istəyirəm, Reyçel. Skott Hipvellin evində sənin nə işin vardı?

– Bu önəmli deyil, Tom.

– Çox önəmlidir, lənət şeytana! Sən orada nə edirdin? Sən axı başa düşürsən, bu adam Skott da ola bilər... Demək istəyirəm ki, hələ heç nə məlum deyil. Skott ona nəsə etmiş ola bilər. Məgər belə deyil? Öz arvadına?

– O öz arvadına heç nə eləməyib, – inamla elan edirəm. – O deyil.

– Sən hardan bilirsən? Reyçel, nə baş verir?

– Mən, sadəcə... Sən mənə inanmalısan. Amma mən başqa səbəbə zəng edirəm. Həmin şənbə axşamı haqqında danışmaq istəyirəm. Mənə göndərdiyin mesaj haqqında. Sən özündən çıxmışdın. Həm də dedin ki, mən Annanı qorxutmuşam.

– Elədir. O görmüşdü ki, sən səndələyərək küçə ilə gedir və onun ünvanına təhqirlər yağdırırsan. O həqiqətən keçən dəfəkindən daha çox həyəcanlanmışdı. Evi ilə olan məsələni deyirəm.

– O... o nəsə etmişdi?

– Etmişdi?

– Mənə?

– Nə?

– Mənim başımda kəsik vardı, Tom. Qan axırdı.

– Sən bunda Annanı günahlandırırsan? – İndi o artıq özünü saxlaya bilmir, qışqırır. – Ciddi deyirəm, Reyçel, bəsdir! Mən artıq dəfələrlə Annanı fikrindən daşındırmışam ki, polisə müraciət etməsin, amma bizdən əl çəkməsən və olmazın şeylər uydurmağa davam etsən...

– Mən onu heç nədə günahlandırmıram, Tom. Mən, sadəcə, hadisələrin gedişini bərpa etmək istəyirəm. Mən...

– Sən xatırlamırsan! Əlbəttə! Reyçel heç nə xatırlamır. – O yorğun-yorğun köks ötürür. – Qulaq as, Anna görmüşdü ki, sən sərxoş və aqressiv halda idin. Bu barədə mənə danışmaq üçün evə qayıtmışdı, çox dilxor idi. Buna görə də səni axtarmağa getdim. Sən küçədə idin. Yəqin yıxılmışdın. Özündə deyildin. Əlini kəsmişdin.

– Mən yox...

– Hər halda sənin əlin qanlı idi. Bilmirəm, qan sənə haradan bulaşmışdı. Dedim, səni evinə aparım, amma sən eşitmək belə istəmədin. Heç nə qavrayacaq halda deyildin, mənasız şeylər deyirdin. Sən irəli getdin, mən qayıtdım ki, maşını götürüm, amma gələndə sən artıq yox idin. Stansiyaya sürdüm, amma sən orada yox idin. Ətrafda maşınla çox dolaşdım. Anna çox qorxurdu ki, sən haradasa yaxında olarsan və qayıdıb evə girməyə cəhd edərsən. Sənin yıxıla biləcəyinə, ya da hansısa bir bəlaya düşə biləcəyinə görə narahat idim... Eşberiyə qədər getdim, qapını döydüm, amma sən evdə yox idin. Sənə bir neçə dəfə zəng etdim. Mesaj yolladım. Bəli, mən dəhşətli dərəcədə acıqlı idim. Özümdə deyildim.

– Təəssüf edirəm, Tom, – deyirəm. – Həqiqətən çox təəssüf edirəm.

– Mən bilirəm, – o razılaşır. – Sən həmişə təəssüf edirsən.

– Dedin ki, mən Annaya qışqırırdım, – özümü pis hiss edərək deyirəm. – Ona nə deyirdim?

– Anlayışım belə yoxdur! – o çımxırır. – İstəyirsən ki, təfərrüatı ilə öyrənim? Bəlkə bu barədə onunla özün laqqırtı vurmaq istəyirsən?

– Tom...

– Yaxşı, bəs indi bütün bu sorğu-sual nə üçündür?

– Həmin axşam sən Meqan Hipvelli gördünmü?

– Yox. – Onun səsində həyəcan eşidilir. – Nədir? Bəs sən gördünmü? Sən heç bir şey eləmədin?

– Yox, əlbəttə yox.

O qısa müddət susur.

– Onda nə üçün bu barədə soruşursan? Reyçel, əgər nəsə bilirsənsə...

– Heç bir şey bilmirəm, – deyə onu əmin edirəm. – Mən heç nə görmədim.

– Bazar ertəsi Hipvellərin evinə niyə getmişdin? Xahiş edirəm, bunu mənə de ki, Annanı sakitləşdirə bilim. O əsəb keçirir.

– Ona bəzi şeyləri danışmalıydım. Çox vacib saydığım şeyləri.

– Axı sən Meqanı görməmişdin, nə danışacaqdın?

Cavabı ləngidirəm. Bilmirəm, hər şeyi ona ətraflı danışımmı, yoxsa qoy bu barədə yalnız Skott bilsin?

– Bu Meqanla əlaqədardır, – deyirəm. – O başqa kişi ilə sevişirdi.

– Dayan, dayan. Siz tanış idiniz ki?

– Bir az, – deyirəm.

– Haradan?

– Biz onun qalereyasında tanış olmuşduq.

– Aydındır. Bəs o kimdir?

– Onun psixoterapevti, – izah edirəm. – Kamal Abdik. Onları birlikdə görmüşdüm.

– Doğrudan? O həbs etdikləri oğlan? Məncə, onu buraxıblar.

– Buraxıblar. Bunun günahı məndədir. Çünki mən etibarlı şahid deyiləm.

Tom gülür. Səmimi və istehzasız.

– Nə danışırsan, Reyçel? Sən hər şeyi düzgün elədin, bu barədə xəbər verdin. Mən əminəm ki, iş səndə deyil.

Haradasa arxa fonda uşaq mızıltısı eşidilir və Tom telefonu qulağından ayıraraq nəsə deyir, – nə dediyini mən eşitmirəm.

– Mən getməliyəm, – deyə o vidalaşır. Mən necə onun dəstəyi asdığını, uşağı götürüb öpdüyünü və arvadını qucaqladığını təsəvvür edirəm.

Ürəyimi elə bil xəncərlə deşib oyurlar.

Bazar ertəsİ, 29 İyul 2013-cü İl

Səhər

İndi saat 8:07-dir, mən yenə qatardayam. Guya işə gedirəm. Keti bütün istirahət günlərini Demyenlə keçirdi. Dünən axşam isə biz görüşəndə, məni danlamasına imkan vermədim. Dərhal öz davranışıma görə üzrxahlıq etməyə başladım. Dedim ki, həqiqətən çox utanıram, lakin özümü ələ almışam və yeni, təmiz səhifədən başlayıram. O mənim üzrxahlığımı qəbul etdi ya da özünü elə göstərdi. Hətta məni qucaqladı. Anlayış göstərdi – başqa cür demək olmazdı.

Yeniliklərdə Meqan haqqında demək olar ki, bir şey yox idi. ”Sunday Times”-da polisin qeyri-peşəkarlığı haqqında şərh çap olunmuşdu. Orada qısa şəkildə işin məğzi verilmiş və Kral prokuror xidmətindən adı göstərilməyən mənbə bunu “polisin yoxlanılmamış və ya şübhəli dəlillərə əsaslanaraq adamı tələsik həbs etməsinə dair” bir misal adlandırmışdı.

Biz semafora yaxınlaşırıq. Mən tanış qıcırtı eşidirəm, təkan hiss edirəm və qatar yavaşıyır; evə tərəf baxıram, çünki özümü saxlaya bilmirəm, lakin orada baxmalı bir şey yoxdur. Qapılar bağlı, pərdələr endirilib. Yalnız yağış yağdığını və bulanıq suyun bağın aşağı hissəsində gölməçələndiyini görmək olur.

Qəfil bir impulsa tabe olaraq Uitni stansiyasında vaqondan çıxıram. Tom mənə yardım edə bilmədi, bəlkə bir başqası kömək edər – həmin o kürən saçlı. Mən bütün sərnişinlərin pilləkənlə aşağı düşməsini gözləyirəm və açıq platformada skamyada otururam. Bəlkə bəxtim gətirəcək. Onun qatara mindiyini görəcəyəm, arxasınca gedib söhbət edəcəyəm. Edə biləcəyim başqa

bir şey qalmır, bu mənim son şansımdır. Əgər burada da bir şey alınmasa, vəziyyətlə barışmalı olacağam. Variantsız.

Yarım saat keçir. Hər dəfə pillələrdə ayaq səsi eşidəndə nəbzim sürətlənir. Kabluk səsi eşidəndə məni həyəcan bürüyür. Əgər Anna məni burada görsə, bu mənim üçün heç yaxşı qurtarmayacaq. Tom xəbərdarlıq etmişdi. O Annanı polisə müraciət etməməyə razı salmışdı, lakin mən yenə ...

9.15. Əgər o işə gec başlamırsa, deməli, mən onu artıq qaçırmışam. Yağış gücləndi, mənsə bütün günü Londonda boş-boş veyillənmək istəmirəm. Məndə yalnız Ketidən borc aldığım onluq var, bu pulla, cürət edib anamdan borc istəyənə qədər dolanmalıyam. Pilləkənlə enirəm, yeraltı keçidlə digər platformaya keçmək istəyirəm ki, Eşberiyə qayıdım. Bu zaman stansiyanın girişi qarşısında qəzet köşkündən tələsik uzaqlaşan Skottu görürəm, o yaxalığını qaldıraraq üzünü örtüb.

Mən onun arxasınca qaçıram və yeraltı keçidin yanında ona yetişirəm. Onun qolundan yapışıram və o səksənərək çevrilir.

– Lütfən, – deyirəm, – biz danışa bilərikmi?

– O! İlahi! – o hiddətlənir. – Lənət şeytana, sizə nə lazımdır?

Mən geri çəkilir və əllərimi qaldırıram.

– Bağışlayın, lütfən bağışlayın. Mən üzrxahlıq etmək istədim və izah...

Yağış əsl leysana çevrildi. Platformada bizdən başqa heç kəs yoxdur və hər ikimiz iliyimizə qədər islanmışıq. Skottu gülmək tutur. O, əllərini qaldırır və gülməyini kəsə bilmir.

– Evə gedək, – o deyir. – Burada boğularıq.

O çaydanı qoyur və yuxarı qalxır ki, mənə dəsmal gətirsin. Ev indi bir həftə əvvəl olduğu kimi səliqəli deyil və artıq antiseptik yox, nəm qoxuyur. Qonaq otağının küncündə qəzet qalağı, jurnal masasının üstündə və buxarının sürahisində çirkli fincanlar var.

Skott gəlir və mənə dəsmal uzadır.

– Zibillikdir, bilirəm. Anam daim mənim arxamca nəyisə yığışdırır, silib

təmizləyirdi. Biz bir az mübahisə etdik, buna görə də bir neçə gündür ki, gəlmir.

Onun mobil telefonu çalır, o ekrana baxır və telefonu cibinə qoyur.

– Bax budur, xatırladım. Artıq məni rahat buraxmayacaq.

Onun arxasınca mətbəxə gedirəm.

– Mən dəhşətli dərəcədə təəssüf edirəm ki, belə alındı, – deyirəm.

– Bilirəm. Burada sizin günahınız yoxdur. Demək istəyirəm ki, siz olmasaydınız...

– Əyyaş?

O, arxası mənə doğru dayanıb qəhvə süzür.

– Ümumiyyətlə, hə. Lakin polisin onsuz da ittiham irəli sürmək üçün yetərli əsası yox idi.

O, fincanı mənə uzadır və biz masa arxasında əyləşirik. Şəkillərdən birinin üzü aşağı çevrildiyini görürəm. Skott davam edir:

– Onun evində Meqanın saçını və dəri fraqmentləri aşkar ediblər, lakin Meqanın onun yanına gəldiyini o inkar etmir. Yəni əvvəlcə inkar etmişdi, amma sonra boynuna aldı ki, gəlib..

– Bəs nə üçün yalan söyləyirmiş?

– Düzdür. O, boynuna almışdı ki, Meqan onun evində iki dəfə olub və onlar, sadəcə, söhbət ediblər. Nə haqda – o, deməkdən imtina edir: həkim sirridir və s. Saçlar və dəri hissələri aşağıda tapılıb. Yataq otağında yox. O bütün müqəddəslərə and içir ki, onların arasında heç bir eşq macərası olmayıb. Lakin o yalançıdır, odur ki...

Skott əllərilə gözlərini örtür. Ona baxdıqda, elə bil onun uzaqlarda dayandığını görürsən. Çiyinləri aşağı düşmüş və özü də elə bil balacalaşmışdı.

– Onun maşınında qan izləri tapılıb.

– İlahi!

– Bəli. Qan qrupu Meqanınkı ilə eynidir. Onlar bilmirlər ki, DNT analizi etmək mümkün olacaq, ya yox, çünki qan ləkəsi çox kiçikdir. Özü də daim qeyd edir ki, bunun heç bir əhəmiyyəti olmaya bilər. Amma onun maşınında Meqanın qanı varsa? – O özünü itirmiş halda başını bulayır. – Siz haqlı idiniz. Bu oğlan haqqında çox bildikcə, məndə buna şübhələr azalır.

Gəldiyimizdən bəri ilk dəfə idi ki, o düz mənə baxırdı.

– O, qızı qayırırdı, qız da buna son qoymaq istədikdə, o nəsə... edib. Vəssalam. Heç şübhəm yoxdur.

O, ümidini tamam itirib və mən onu günahlandırmıram. Artıq iki həftədən çox vaxt keçsə də, Meqan nə telefonundan, nə kredit kartlarından istifadə edib, nə də bankomatdan pul çıxarıb. Heç kəs onu görməyib. O, yox olub.

– O polisə deyib ki, Meqan qaça bilər, – Skott deyir.

– Doktor Abdik? – Skott başı ilə təsdiqləyir.

– O, polisə deyib ki, Meqan mənimlə xoşbəxt deyildi və qaça bilərdi.

– O, sadəcə olaraq, şübhələri özündən uzaqlaşdırmaq və polisi sizin ona nəsə etdiyinizə inandırmaq istəyir.

– Bilirəm. Lakin belə görünür ki, onlar bu yaramazın bütün dediklərinə inanırlar. Elə bu Raylini götürək – bu polis qadın onun haqqında danışanda hər şey aydın olur. O bu qadın polisin xoşuna gəlir. Yazıq, bədbəxt qaçqın. – O, ümidsizcəsinə başını aşağı salır. – Bəlkə də o haqlıdır. Bizim aramızda doğrudan da dəhşətli bir mübahisə oldu. Lakin inana bilmirəm... O mənimlə bədbəxt deyildi. Deyildi! Deyildi!

O bunu üçüncü dəfə təkrar edəndə, düşündüm ki, o özünü inandırmağa çalışır.

– Amma başqası ilə sevişirdisə, deməli, o bədbəxt idi, belə deyil?

– Hökmən deyil, – deyirəm. – Bu ola bilər... o necə adlanır? Nəsə hisslərin köçürülməsi kimi bir şey. Pasientdə öz doktoruna qarşı hiss yaranır,

ya da ona belə gəlir. Lakin doktor bunu təqdir etməməlidir və bu hissin gerçək olmadığını izah etməyə borcludur.

O məndən gözünü çəkmir və mənə elə gəlir ki, o heç məni dinləmir.

– Bəs sizə nə oldu? – o soruşur. – Ərinizi tərk etdiniz. Yoxsa başqa biri qarşınıza çıxdı?

Mən başımı bulayıram.

– Əksinə, Anna peyda oldu.

– Bağışlayın, – deyir və susur.

Onun nə soruşmaq istədiyini bilirəm, buna görə də sualı gözləmədən özüm deyirəm:

– Bu xeyli əvvəl başladı. Hələ biz ailə olan vaxtdan. İçki ilə bağlı problemlər. Axı siz bunu bilmək istəyirdiniz.

O, başı ilə təsdiqləyir.

– Biz uşaq olmasını istədik, – davam edirəm və mənim boğazım tıxanır. Hətta bu qədər zaman keçməsinə baxmayaraq, hər dəfə bu barədə danışanda gözümdən yaş gəlir.

– Bağışlayın.

– Hər şey qaydasındadır.

O qalxıb krandan stəkana su süzür və qarşımda masanın üstünə qoyur.

– Biz uşaq istəyirdik, lakin heç nə alınmırdı. Bu məni çox əzirdi, buna görə də içməyə başladım. Mənimlə yola getmək çox çətin idi və Tom kənarda təsəlli tapmağa çalışdı. O da məmnuniyyətlə bu təsəllini verdi.

– Mən çox təəssüf edirəm, bu çox dəhşətlidir. Bilirəm... mən də uşaq istəyirdim. Meqan isə daim deyirdi ki, hələ hazır deyil. – İndi də göz yaşını silmək növbəsi ona çatmışdı. – Biz bunun üstündə... hətta mübahisə edirdik.

– Həmin gün, o gedəndə buna görə mübahisə etmişdiniz?

O köks ötürür və ayağa qalxır.

– Yox, – o üzünü çevirərək deyir. – Başqa səbəbdən.

Axşam

Mən gələndə Keti artıq evdə idi. O mətbəxdədir, stəkandan su içir və özünü güclə saxladığı görünür.

– İş yerində vəziyyət necədir? – o, dodaqlarını sıxaraq, maraqlanır.

Ona hər şey məlumdur.

– Keti...

– Bu gün Demienin Yuston yaxınlığında görüşü vardı. Oradan qayıdarkən o Martin Maylzla rastlaşıb. Onlar bir az tanışdırlar, əgər xatırlayırsansa, Demien "Lenq Fand Menecment"-də işləyən zaman Martin onlarda ictimai əlaqələrlə məşğul idi.

– Keti...

O əlini qaldırdı və daha bir udum aldı.

– Sən artıq orada bir neçə aydır işləmirsən! Aylar! Özümü necə bir axmaq kimi hiss etdiyimi təsəvvür edirsən? Demien necə bir idiot kimi görünür? Lütfən, lütfən, sən mənə de ki, başqa bir iş tapmısan, sadəcə, mənə deməmisən. Lütfən, de ki, hər gün işə getməyi yalandan eləməmisən. De ki, bir neçə ay ərzində hər gün sən mənə yalan söyləməmisən!

– Mən bilmirdim, sənə necə deyim...

– Bilmədin necə deyəsən? Belə necədir: "Keti, məni işdən qovdular, çünki işdə içib sərxoş oldum?" Necədir?

Mən səksənirəm və o yumşalır:

– Bağışla, amma bu necə olur, Reyçel?

O, həqiqətən də həddən artıq yaxşı adamdır.

– Sən nə edirdin? Haraya gedirsən? Bütün günü nə ilə məşğul olursan?

– Mən şəhərdə veyillənirəm, kitabxanaya baş çəkirəm. Hərdən...

– Pivəxanalara baş çəkirsən?

– Hərdən, lakin...

– Niyə mənə demədin? – O yaxınlaşıb əllərini çiynimə qoyur. – Sən mənə deməli idin.

– Mən utanırdım, – deyib ağlamağa başlayıram.

Bu dəhşət idi, vicdan əzabı çəkirdim və heç dayana bilmirdim. Mən elə hey hıçqırıram, yazıq Keti də məni qucaqlayıb, başımı sığallayır və sakitləşdirir, inandırmağa çalışır ki, mənim bütün işlərim yoluna düşəcək və hər şey yaxşı olacaq. Mən özümü çox pis hiss edirəm. Həm də əvvəllər heç zaman olmadığı qədər özümdən nifrət edirəm.

Sonra Keti ilə divanda oturub çay içirik və o nə etmək lazım olduğunu danışır. Mən içkini buraxmalıyam, öz CV-mi qaydaya salmalıyam, Martinlə əlaqə saxlayıb ondan zəmanət almaq lazımdır. Həm də lazımsız yerə qatarla Londona gedib-gəlməyə pul xərcləməyə son verməliyəm.

– Həqiqətən, Reyçel, mən anlamıram, bu qədər uzun müddət bunu necə gizləyə bildin?

Mən çiynimi çəkirəm:

– Səhər saat 8:04-də çıxan qatara minirəm, axşam isə 17:56 qatarı ilə geri dönürəm. Bu mənim qatarımdır. Həmişə ona minirəm. Bax belə.

Cümə axşamı, 1 avqust 2013-cü İl

Səhər

Mənim üzümə nə isə basılır, nəfəs ala bilmirəm, boğuluram. Yuxudan ayılıb acgöslüklə havanı uduram, sinəm ağrıyır. Gözlərimi geniş açaraq yerimdə otururam və otağın küncündə nəyinsə qımıldandığını görürəm. Qaranlığın sıx yumağı böyüməyə başlayır, mən qışqırığımı güclə saxlayıram – elə bu yerdə tamam yuxudan ayılıram. Əlbəttə, otaqda heç kəs yoxdur, mən gözlərim yaşlı halda yataqda oturmuşam.

Tezliklə səhər açılacaq, pəncərənin çölündə işıqlaşmağa başlayır və bir neçə gündür aramsız yağan yağış şüşəni döyəcləməyə davam edir. Yenidən

yuxuya getmək istəmirəm – hələ də ürəyim elə döyünür ki, köksüm ağrıyır, onsuz da yata bilməyəcəyəm.

Tam əmin olmasam da, mənə elə gəlir ki, aşağıda bir az şərab var. İkinci şüşəni içib qurtardığımı xatırlamıram. İçki yəqin ki, soyuq deyil, çünki şüşəni soyuducuya qoya bilməzdim – Keti mütləq götürüb atardı. O çox istəyir ki, mən daha içməyim, lakin hələlik onun planları baş tutmur. Dəhlizdə qaz sayğacının yanında balaca bir şkaf var. Əgər şərab qalmışsa, mən orada gizləmişəm.

Ehtiyatla, barmaqlarımın ucunda pilləkənin yarıqaranlığında aşağı enirəm, şkafı açıb şüşəni çıxarıram – o xeyli yüngüldür, orada şərab ancaq bir bakal qədər olar. Lakin heç olmamaqdan bu yaxşıdır. Mən onu fincana tökürəm (əgər birdən Keti aşağı ensə, özümü elə göstərərəm ki, çay içirəm) və boş şüşəni zibil vedrəsinə atıram (əvvəlcə süd və çipsi paketləri ilə örtürəm). Qonaq otağında televizoru işə salır, o saat da səsini azaldıram və divanda əyləşirəm.

Kanalları tez-tez dəyişirəm, lakin hamısında uşaq verilişləri və reklam rolikləri fırladırlar, birdən ekranda lap yaxınlıqda yerləşən və qatardan yaxşı görünən Korli-Vud – meşə peyda olur. Leysan yağış altında Korli-Vud və dəmir yolu ilə meşə arasında demək olar ki, tamamilə su basmış bir sahə.

Nə baş verdiyini niyə bu qədər çətin anladığımı bilmirəm. On. On beş, iyirmi saniyə avtomobillərə, polis lenti ilə əhatəyə alınmış sahəyə və arxa plandakı ağ çadıra baxıram. Nəfəsim yavaşıyır və nəhayət, ümumiyyətlə, nəfəs almağı kəsirəm.

Bu odur. O, bütün bu müddət ərzində meşədə, dəmir yolunun yaxınlığında imiş. Mən onun cəsədinin orada gizlədildiyindən xəbərsiz olaraq, hər gün səhər və axşam bu ərazinin yanından keçmişəm.

Meşədə. Mən alçaq kolların altında qazılmış və tələsik gizlədilmiş qəbri təsəvvür edirəm. Hətta daha dəhşətli bir səhnəni təsəvvürümə gətirirəm: onun bədəni meşənin dərinliyində ağacdan asılıb – oraya heç kəs getmir.

Bəlkə bu heç o deyil, tamam başqa biridir. Amma bunun belə olmadığını bilirəm.

Ekranda müxbir görünür: onun qara saçları islanaraq başında tünd ləkə kimi görünürdü. Mən səsi yüksəldirəm və artıq mənə onsuz da bəlli olan, hiss etdiyim şeyi eşidirəm: mən yox, Meqan daha nəfəs ala bilmir.

– Bəli, hamısı doğrudur, – o əlini qulağına tutaraq studiyada kiməsə cavab verir. – Polis artıq təsdiq etdi ki, Korli-Vud ətrafında sel sularında gənc qadın meyiti aşkar edilib. Buradan Meqan Hipvellin evinə beş mildən az məsafə var. Missis Hipvell, bildiyiniz kimi, iyulun əvvəlində yoxa çıxmışdı – on üç iyulda, əgər tam dəqiq desək, – o vaxtdan bəri onu heç kəs görməmişdi. Polis deyir ki, itlərini gəzməyə çıxarmış yerli sakinlər tərəfindən aşkar edilən meyiti hələ rəsmən tanımaq lazımdır. Lakin onlar praktiki olaraq bunun Meqan olduğuna şübhə etmirlər. Missis Hipvellin əri artıq xəbərdar edilib.

O susur və studiyadakı aparıcının sualını dinləyir, lakin mən heç nə eşitmirəm, çünki həyəcanımdan qulağım tutulub. Fincanı dodaqlarıma yaxınlaşdırıb hamısını son damlasına qədər içirəm.

Müxbir yenidən danışır:

– Bəli, Key, hamısı doğrudur. Görünən odur ki, cəsəd burada, meşədə bir müddət əvvəl basdırılıbmış, lakin son günlər yağan güclü yağışlar qəbri yuyub.

Bu hətta mən təsəvvür etdiyimdən də pisdir. Onun pis hala düşmüş, palçığa bulaşmış üzünü, sanki qəbirdən çıxmağa cəhd edən yuxarı qalxmış solğun əllərini görürəm. Ağzımda ödümün və şərabın isti, acı dadını hiss edirəm və bu saat qusacağımı anlayaraq yuxarı, vanna otağına qaçıram.

Axşam

Demək olar ki, bütün günü yataqda keçirdim. Başıma dolmuş fikirləri qaydaya salmaq, həmin şənbə axşamına aid xatirə parçalarını və yuxuları bir yerə toplamaq istədim. İşimi asanlaşdırmaq üçün hamısını yazmaq qərarına gəldim. Qələmin kağız üzərində xışıltısı pıçıltıya bənzəyirdi və məni əsəbiləşdirirdi: mənə elə gəlirdi ki, evdə yenə kimsə var və düz qapımın önündə dayanıb. Gözlərimin qarşısında isə Meqan dayanmışdı.

Qorxudan qapını açmağa cürət etmirdim, nəhayət, qərar verəndə, orada təbii ki, heç kəs yox idi.

Yenə aşağı enib televizoru işə saldım. Yenə həmin mənzərəni göstərirdilər: sel basmış meşə, palçıqlı yolla sürünən polis maşınları, nəmlə doymuş dumanda ağ çadır. Birdən ekranda Meqanın şəkli peyda oldu – gözəl, həyat dolu və üzündə təbəssüm. Sonra Skottun necə başını əyərək ona evin giriş qapısına getməyə mane olan fotoqrafların arası ilə zorla irəlilədiyini göstərdilər, onunla yanaşı Rayli addımlayırdı. Sonra ekranda Kamalın ofisini göstərdilər. Amma onun özü görünmürdü.

Mən nə dediklərini eşitmək istəmirdim, amma yenə də səsi qaldırdım ki, sükut qulaqlarımda zəng çalmağı kəssin. Polis bəyan edirdi ki, qadın hələ rəsmən tanınmayıb və o artıq bir neçə həftə əvvəl ölmüşmüş. Ölüm səbəbini müəyyən etmək hələ qarşıdadır. Onların sözlərinə görə, qətlin seksual motivlərlə törədildiyini ehtimal etməyə əsasları yoxdur.

Bu sözlərin mənasızlığı məni heyrətləndirir. Mən bilirəm ki, onlar nəyi nəzərdə tutur, onlar demək istəyirlər ki, o zorlanmayıb, – çox yaxşı! – lakin bu o demək deyil ki, seksual motiv yoxdur. Məncə, Kamal onu istəyirdi, lakin saxlaya bilmədi. Yəqin Meqan buna son vermək istəyib, o isə bununla razılaşmaq istəməyib. Bəs bu seksual motiv deyilmi?

Xəbərlərə baxmağa daha səbrim çatmır, yuxarı gedib adyalın altına girirəm. Çantamdan bütün qeydləri töküb, öz yaddaşımdan çıxara bildiyim, kağız parçalarına yazılmış qırıq-qırıq informasiyaları gözdən keçirirəm və daim özümə bu sualı verirəm: Bütün bunları mən nə üçün edirəm? Nəyə can atıram?

5 Teodor Robert “Ted” Bandi (1946-1989) – 1970-ci illərdə fəaliyyət göstərmiş amerikalı qatil-residivist, adam oğrusu, zorlayıcı və nekrofil

5 Teodor Robert “Ted” Bandi (1946-1989) – 1970-ci illərdə fəaliyyət göstərmiş amerikalı qatil-residivist, adam oğrusu, zorlayıcı və nekrofil

# Meqan

---

Cümə axşamı, 13 İyun 2013-cü İl

Səhər

Mən belə dəhşətli istidə yata bilmirəm. Dərimdə görünməyən böcəklər qaçışır, sinəmdəki qıcıqlanma daim məni narahat edir. Skottdan da isti yayılır: onunla yanaşı uzanarkən özümü sobanın yanındakı kimi hiss edirəm. Ondan yetərli qədər uzağa çəkilə bilmirəm, yatağın lap kənarında, mələfəni də üstümdən atıb uzanmışam. Bu dözülməzdir. Qonaq otağına keçib, orada döşəyin üstündə uzanmağı düşündüm. Amma o ayılıb məni yanında görməməkdən nifrət edir və bu həmişə mübahisə ilə nəticələnir. Orada nə ilə məşğul olduğumu, ya da tək uzandıqda kimin haqqında düşündüyümü aydınlaşdırmaqla bitir. Bəzən mən düz onun üzünə demək istəyirəm: Məni rahat burax. Cana gətirmə. Nəfəs almağa imkan ver. Ona görə də yata bilmirəm və hirslənirəm. Elə hiss edirəm ki, sanki biz artıq dalaşırıq, halbuki hələ bu yalnız təxəyyülümdə baş verir. Başımda fikirlər hey fırlanır. Hiss edirəm ki, boğuluram. Bu ev nə zaman belə dar oldu? Nə zaman mənim həyatım belə darıxdırıcı oldu? Doğrudanmı mən məhz bunu istəyirdim? Xatırlaya bilmirəm. Ancaq onu bilirəm ki, bir neçə ay özümü yaxşı hiss etdim, indi isə fikirləşə bilmirəm, yata bilmirəm, rəsm çəkə bilmirəm, qaçmaq istəyinin qarşısını ala bilmirəm. Gecədən xeyli keçmiş, gözlərim açıq halda uzanaraq, başımda sakit, amansız və sonsuz pıçıltı eşidirəm, o məni tovlayır: “Qaç, uzaqlaş!” Gözlərimi yuman kimi başıma keçmiş və gələcəklə bağlı görüntülər dolur, guya istədiklərimin, bir vaxtlar mənim olanların və imtina etdiklərimin görüntüləri. Özümü rahat hiss edə bilmirəm, çünki hər dəfə dalana dirənirəm. Bağlanmış qalereya, küçədəki evlər, pilates studiyasındakı qadınların zəhlətökən diqqəti, bağın arxasındakı dəmir yolu; o yolla qatarlar öz sərnişinlərini harayasa aparır, mənə də heç yerə getmədiyimi və burada ilişib qaldığımı gündə on dəfə xatırladır.

Mənə elə gəlir ki, dəli oluram. Amma axı bir neçə ay bundan əvvəl özümü əla hiss edirdim, yaxşılaşmışdım. Məndə hər şey normal idi. Yatırdım. Gecə kabusları qarşısında qorxu hiss etmirdim. Nəfəs ala bilirdim. Bəli, onda da qaçmaq istəyi duyurdum. Bəzən. Amma hər gün deyil.

Kamalla ünsiyyət mənə yaradı, bunu inkar etmək axmaqlıq olar. Onunla söhbət etmək xoşuma gəlirdi. O mənim xoşuma gəlirdi. O məni xoşbəxt etmişdi. İndi bütün bunlar keçmişdə qalmış və sona çatdırılmamışdı. Əlbəttə, bunda mən özüm günahkaram, çünki özümü axmaqcasına, uşaq kimi apardım, amma məndən imtina edilməsinə dözə bilmirəm. Mən uduzmağı

öyrənməliyəm. İndi öz davranışıma görə xəcalət çəkirəm, bundan utanıram. Özümü necə apardığım haqqında düşünəndə xəcalətdən qızarıram. İstəmirəm ki, o məni bu cür yadda saxlasın. Məndə yaxşı cəhətləri görsün deyə onunla yenidən görüşmək istəyərdim. Bilirəm ki, ona müraciət etsəm, o kömək edər. O elədir.

Öz hekayəmi sona qədər danışmalıyam. Hər şeyi heç olmasa bircə dəfə kiməsə danışmaq. Sözləri ucadan demək. Əgər bunu etməsəm, bu sirr məni daxildən öldürəcək. İçimdəki qara dəlik məni bütünlüklə udana qədər daim böyüyəcək.

Öz məğrurluğumu udmalı, xəcaləti aşmalı və onun yanına getməliyəm. O məni dinləməli olacaq. Mən onu məcbur edərəm.

Axşam

Skott düşünür ki, biz Tara ilə kinodayıq. Mən Kamalın mənzili yanında, özümü görüşə hazırlayaraq, on beş dəqiqə dayandım və qapını döyməyə heç cür qərar verə bilmədim. Keçən dəfəkindən sonra məni necə qarşılayacağını fikirləşəndə, dəhşətə gəlirəm. Mən xəcalət çəkdiyimi göstərməliyəm, buna görə də uyğun bir şəkildə, çox sadə geyinmişəm – sadəcə, cins və köynək və demək olar ki, makiyajsızam. O görməlidir ki, mən onu yoldan çıxartmağı düşünmürəm.

Qapıya yaxınlaşıb zəngi basarkən nəbzimin necə tezləşdiyini hiss edirəm. Cavab verən yoxdur. Pəncərələrdə işıq yanır, lakin kimsə çıxmır. Bəlkə o məni küçədə gördü, bəlkə də yuxarıdadır və ümid edir ki, əgər qapını açmasa, mən çıxıb gedərəm. Amma mən getməyəcəyəm. O bilmir, mən nə dərəcədə israrlı ola bilərəm. Əgər bir şeyə qərar verdimsə, bununla hesablaşmağa məcbur edərəm.

Bir də zəng edirəm, sonra daha bir dəfə də və nəhayət, pilləkəndə səs eşidirəm. Qapı açılır. Onun əynində idman şortu və ağ idman köynəyi var. Ayaqyalındır, saçları nəm, üzü qızarmışdır.

– Meqan? – O təəccüblənir, lakin hirslənmir, bu yaxşı əlamətdir. – Səninlə hər şey qaydasındadır? Hər şey yaxşıdır?

– Mən üzr istəməyə gəldim, – deyirəm və o məni içəri buraxmaq üçün

geri çəkilir.

Məni bürüyən minnətdarlıq hissi o qədər güclüdür ki, nə iləsə hətta məhəbbətə oxşayır.

O məni mətbəxə aparır. Burada səliqəsizlik hökm sürür: masanın üstünə çirkli qab-qacaq yığılıb, zibil vedrəsi boş qutularla doludur. Bəlkə on da depressiyaya düşüb? Qapıda dayanıram; o mənim qarşımda, əlləri sinəsində masaya söykənib.

– Mən nə kömək edə bilərəm? – o soruşur.

Onun üzü tamamən neytraldır, terapevt belə də olmalıdır. Mən onu gülümsəməyə məcbur etmək üçün çimdikləmək istəyirəm.

– Sənə deməliyəm ki... – başlayıram və susuram, çünki hər şeyi bu cür birdən danışa bilmərəm, giriş vermək lazımdır. Taktikanı dəyişirəm. – Mən olub keçənlərə görə üzrxahlıq etmək istəyirəm. Keçən dəfə.

– Hər şey qaydasındadır, – o cavab verir. – Bu barədə narahat olmağa dəyməz. Əgər sənə kiminləsə danışmaq lazımdırsa, səni başqa mütəxəssisin yanına göndərə bilərəm, amma mən bacarmaram...

– Lütfən, Kamal.

– Meqan, mən daha sənin psixoterapevtin ola bilmərəm.

– Bilirəm. Bunu bilirəm. Lakin başqa biri ilə yenidən başlaya bilmərəm. Bacarmaram. Biz çox irəli getmişik. Elə yaxın olduq. Sənə danışmalıyam. Son dəfə. Sonra gedəcəyəm. Söz verirəm. Bir də səni heç vaxt narahat etməyəcəyəm.

O başını yana çevirir. Yəqin, mənə inanmır. Düşünür ki, əgər razılaşsa, onda məndən heç vaxt canını qurtara bilməyəcək.

– Lütfən, məni dinlə. Mən daha susa bilmərəm. Sadəcə, istəyirəm ki, kimsə məni dinləsin.

– Bəs, ərin? – o soruşur və mən başımı bulayıram.

– Mən bacarmaram ...ona danışa bilmərəm. Onun üçün başqa olaram. O,

bağışlamaq gücündə olmayacaq. Lütfən, Kamal. Mən bu zəhəri tüpürməsəm, heç zaman yata bilməyəcəyəm. Məni bir psixoterapevt kimi deyil, bir dost kimi dinlə.

O geri dönür. Çiyinlərinin sallandığını görürəm və düşünürəm ki, bu sondur. Ürəyim sızıldayır. O şkafı açır və iki bakal çıxarır.

– Yaxşı, qoy bir dost kimi olsun. Şərab istəyirsənmi?

Biz qonaq otağına keçirik. Bura zəif işıqlandırılıb və mətbəx kimi səliqəsizdir. Şüşə masanın arxasında üzbəüz otururuq, onun üstündə kağızlar, jurnallar və hazır yemək çatdıran firmaların menyuləri qalaqlanıb. Mən bakalı əlimdə bərk-bərk sıxıram. Bir udum alıram. Bu turş qırmızı şərabdır, amma təzə, hələ çökməmiş şərabdır. Yenə içirəm. O mənim nə zaman başlayacağımı gözləyir, lakin başlamaq çətindir, düşündüyümdən də çətindir. Bunu çox uzun müddət – düz on il, həyatımın üçdə biri qədər gizli saxlamışam ki. Qərar vermək asan deyil. Lakin bilirəm ki, danışmağa başlamalıyam. Bunu indi etməsəm, lazımi sözləri daha heç vaxt ucadan deyə bilməyəcəyəm və bu sözlər boğazımda düyünlənib məni yuxuda boğa bilər.

– İpsviçdən getdikdən sonra Makla rastlaşdım və biz Holkhem yanında, onun yolun lap sonunda yerləşən kottecində yaşamağa başladıq. Mən artıq bu barədə danışmışdım, yadındadırmı? Bu yer tamam əldən-ayaqdan uzaq, ən yaxın qonşuya tam iki mil məsafədə və ən yaxın mağazaya da daha iki mil məsafədə yerləşirdi. Əvvəllər biz tez-tez axşam qonaqlıqları təşkil edərdik, qonaq otağında həmişə bir neçə adam gecələyərdi, ya da yayda həyətdə asma yelləncəklərdə yatardılar. Amma biz bundan yorulduq və nəticədə Mak hamı ilə dalaşdı, odur ki, qonaqlar bizə gəlməyi kəsdilər və biz ikilikdə qaldıq. Günlər keçirdi və biz heç kəsi görmürdük. Ərzağı benzin doldurma məntəqəsindəki mağazadan alırdıq. İndi o dövrü xatırlayarkən bu mənə qəribə gəlir, lakin onda – İpsviçdən sonra, bütün o adamlardan və mənim elədiklərimdən sonra, – mənə məhz bu lazım idi. Makla tək qalmaq və ətrafda yalnız köhnə dəmir yolu, ot, qum təpələri və coşqun boz dənizin olması xoşuma gəlirdi.

Kamal başını əyir və mənə azacıq gülümsünür. İçimdə hər şey bir-birinə qarışır.

– Yaxşı səslənir. Amma sənə elə gəlmir ki, bütün bunları ideallaşdırırsan? "Coşqun boz dəniz?"

– Bunun əhəmiyyəti yoxdur, – etiraz edirəm. – Lakin istənilən halda bu belə deyil. Sən Norfolkun şimalında olmusan? Bu Adriatik dənizi deyil. Orada dəniz coşqun və hər zaman bozdur.

O əllərini yuxarı qaldırıb gülümsəyir.

– Yaxşı.

O saat kefim durulur, gərginlik çiynimi və boynumu buraxır. Şərabdan bir udum da alıram – onun dadı artıq elə də acı deyil.

– Mən Makla xoşbəxt idim. Başa düşürəm ki, həmin həyat mənim xoşuma gələn həyata az oxşayır, lakin Benin ölümündən sonra baş verənləri nəzərə alsaq, başqa bir həyat istəmirdim. Mak məni xilas etdi. Məni öz yanına aldı. O məni sevir və mühafizə edirdi. Onunla darıxdırıcı deyildi. Axıra qədər dürüst olmaq üçün boynuma almalıyam ki, biz çox narkotik qəbul edirdik, daim hallı olanda darıxmaq bir az çətindir. Mən xoşbəxt idim. Həqiqi xoşbəxt idim.

Kamal başı ilə təsdiqləyir.

– Başa düşürəm, amma əmin deyiləm ki, bu real xoşbəxtliyə oxşasın, – o deyir. – O xoşbəxtliyə ki, çətin dəqiqələrdə dəstəkləyib güc verə bilsin.

Mən gülürəm:

– Mənim on yeddi yaşım vardı. Xoşuma gələn və məni sevən adamla birlikdə idim. Valideynlərimdən, hər şeyi ilə mənə ölmüş qardaşımı xatırladan evimizdən uzağa qaçmışdım. Mənə dəstək üçün xoşbəxtlik lazım deyildi. Onu, sadəcə, hiss etmək kifayət idi.

– Bəs nə baş verdi?

Mənə elə gəldi ki, otaqda rənglər tündləşdi. Və biz heç zaman heç kimə danışmadığım məsələyə yaxınlaşdıq.

– Mən hamilə qaldım.

O başını silkələyir və davamını gözləyir. İstəyirəm ki, o məni dayandırsın, suallar versin, lakin o susur və sadəcə, gözləyir. Qonaq otağı daha da qaranlıqlaşır.

– Mən bunu biləndə artıq gec idi... ondan can qurtarmaq. Əgər elə axmaq və fərasətsiz olmasaydım, bunu edərdim. Problem onda idi ki, bu uşaq bizim heç birimizə lazım deyildi.

Kamal qalxıb mətbəxə gedir və kağız dəsmal gətirir ki, gözümü silim. O dəsmalı mənə uzadır və oturur. Mənim sakitləşməyim bir az uzanır. Kamal bizim seanslarımızda olduğu kimi, əllərini dizi üstə qoyub gözlərini məndən çəkmədən hərəkətsiz və səbirlə oturur. Belə təmkinli olmaq üçün yəqin həddən çox enerji sərf etmək lazımdır.

Ayaqlarım əsir, dizlərim isə kukla teatrındakı marionet kimi dartınır. Ayaqlarımın titrəməsini kəsmək üçün qalxıb mətbəxin qapısına qədər gedirəm və əllərimi əsəbi halda ovuşduraraq geri qayıdıram.

Bizim hər ikimiz dəhşətli dərəcədə yelbeyin idik, – davam edirəm. – Baş vermiş hadisə üzərində heç düşünmədən, heç bir şey olmamış kimi yaşamağa davam edirdik. Mən özümü həkimə göstərmədim, lazımi qidalar yemirdim, vitaminlər qəbul etmirdim, lazım olan heç bir şeyi etmirdim. Biz, sadəcə, əvvəlki kimi yaşamağa davam edirdik. Elə bil heç nə dəyişməmişdi. Mən çox yekə və yöndəmsiz olmuşdum, tez yorulurdum, hər ikimiz qıcıqlanır və tez-tez dalaşırdıq, lakin uşağın dünyaya gəlməsinə qədər heç bir şey dəyişmədi.

O mənim ağlamağıma mane olmur. Göz yaşlarımı sildiyim zaman yanımdakı stulda əyləşir və dizləriylə demək olar ki, mənim budlarıma toxunur. Mənə tərəf əyilir. Mənə toxunmasa da, bədənlərimiz o qədər yaxındır ki, onun qoxusunu – zibilli otaqda kəskin təmizlik qoxusu – hiss edirəm.

Mən pıçıltı ilə danışıram – bu barədə yüksək səslə danışmaq mümkün deyil.

– Mən onu evdə doğdum. Bu axmaqlıq idi, amma o vaxlar xəstəxanalara qərəzlə yanaşırdım, çünki orada son dəfə Ben öləndə olmuşdum. Həm də

hamiləlik zamanı heç bir həkimin müşahidəsi altında olmamışdım. Siqaret çəkir, bir az içir və əxlaq dərsi dinləməyi istəmirdim. Mənə elə gəlir ki, ən son ana qədər bütün bunların ciddi olduğuna və nə vaxtsa baş verəcəyinə inanmırdım.

Makın bir tanışı vardı, tibb bacısı idi ya da hələ oxuyurdu, nə isə buna bənzər bir şey. O gəldi və hər şey normal keçdi. Elə də dəhşətli deyil. Yəni demək istəyirəm ki, əlbəttə, həm ağrılı, həm də qorxulu idi, amma... o peyda oldu. Lap kiçicik qızcığaz. Çəkisinin nə qədər olduğunu dəqiq xatırlamıram. Bu heç yaxşı deyil, eləmi?

Kamal heç nə demir və tərpənmir.

– Qız gözəl idi. Qara gözləri, sarışın saclarıvardı. Az ağlayırdı və lap başlanğıcdan yaxşı yatırdı. Əla qız idi.

Gücümü toplamaq üçün qısa müddət susuram.

– Mən qorxurdum ki, çətin olacaq, amma çətin deyildi.

Otaq daha da qaranlıqlaşdı, buna əminəm. Başımı qaldırıb Kamala baxıram – o qımıldanmadan oturub və gözlərini mənə dikib, üzündən halıma yandığı hiss olunur. O dinləyir. Davamını gözləyir. Ağzım quruduğu üçün şərabdan bir udum da alıram. Udqunmaq da ağrılıdır.

– Biz onun adını Elizabet qoyduq. Libbi.

İllər sonra onun adını yüksəkdən söyləmək mənə çox qəribə gəlir.

– Libbi, – onun adının dadından həzz alaraq təkrar edirəm.

Mən onu təkrar-təkrar tələffüz etmək istəyirəm. Kamal əlimi əlinə alır və baş barmağını biləyimə qoyub nəbzimi yoxlayır.

– Bir dəfə biz Makla dalaşdıq. Səbəbi yadımda deyil. Hərdən belə şeylər olurdu: xırda fikir ayrılığından başlayır və əsl skandala qədər böyüyürdü. Əl-qol atmırdıq, amma bir-birimizin üstünə qışqırırdıq, mən ayrılacağımla hədələyir, o isə evdən gedir və bir neçə gün görünmürdü.

Həmin gün o məni Libbi doğulduqdan sonra ilk dəfə tək qoydu – sadəcə, durub getdi. Qız bir neçə aylıq idi. Evin damından su sızırdı. Mətbəxdə

qoyduğum vedrələrə düşən damlaların səsini indiyə qədər xatırlayıram. Çox soyuq idi, bir neçə gün idi yağış yağırdı, dənizdən əsən külək adamın iliklərinə işləyirdi. Mən qonaq otağındakı buxarını qızdırdım, lakin istiliyi külək sovurub aparırdı. Dəhşətli dərəcədə yorulmuşdum. İsinmək üçün bir az içdim, lakin isinmədim, onda vannaya girmək qərarına gəldim. Libbini özümlə götürdüm, köksümə sıxdım – o başını sinəmə söykəmişdi.

Qonaq otağı qaranlığa qərq olmağa davam edir və mən yenə həmin vannada su içində, çağanı özümə sıxaraq uzanmışam. Başımın üstündə şamın alovu rəqs edir. Mum qoxusu hiss edirəm, küləyin necə vıyıldadığını eşidirəm, onun soyuğunu boynumda və çiynimdə hiss edirəm. Üstümə ağırlıq çökür, bədənimsə istiyə daxil olur. Taqətim yoxdur. Sonra birdən şam sönür və mənə həqiqətən çox soyuq olur. Elə soyuq ki, dişlərim bir-birinə dəyir, bədənimə titrəmə düşür. Elə bil evi də titrəmə tutur, külək isə uğuldayaraq damdan şiferləri qopartmağa çalışır.

– Mən yatmışam, – deyirəm və davam edə bilmirəm, çünki onu daha hiss etmirəm: o, artıq mənim döşümdə deyil, onun körpə bədəni əlimlə vannanın kənarı arasında sıxışıb, üzüsə sudadır. İkimizə də dəhşətli dərəcədə soyuqdur.

Hər ikimiz donub qalmışıq. Mən ona baxmağa cəsarət etmirəm, nəhayət, gözlərimi qaldıranda o uzaqlaşmır. O heç bir söz demir, mənim çiyinlərimi qucaqlayır və özünə çəkir, üzümü köksünə sıxır. Onun qoxusunu nəfəsimə çəkirəm və özümü nə zaman başqa cür hiss edəcəyimi gözləyirəm, nə zaman yüngülləşəcəyimi və ya daha da ağırlaşacağımı gözləyirəm, çünki indi bu məsələ daha bir canlı qəlbə bəlli olmuşdu. Mənə elə gəlir ki, onun reaksiyasından yüngüllük hiss etdim, bu hər şeyi danışmaqla mənim doğru hərəkət etdiyimi göstərir. O məndən uzaqlaşmır, məni bir vəhşi hesab etmir. Onun yanında mən təhlükəsizlikdəyəm, tam təhlükəsizlikdə.

Onun qucağında nə qədər olduğumu bilmirəm, lakin telefon zəngi məni reallığa qaytarır. Cavab vermirəm, amma bir neçə andan sonra mobil telefon səs siqnalı verir ki, sms alınıb. Bu Skottdandır, o mənim harada olduğumu soruşur. Bir neçə saniyə sonra telefon yenidən çalır. Bu dəfə zəng edən Taradır. Kamalın qucağından sürüşüb cavab verirəm.

– Meqan, bilmirəm sənin ağlında nə var, amma sənin Skotta zəng etməyin lazımdır. O, buraya dörd dəfə zəng edib. Mən dedim ki, sən

mağazaya şərab almağa getmisən, lakin düşünmürəm ki, o mənə inandı. Deyir ki, sən zənglərə cavab vermirsən.

Tara açıq-aşkar hirslənib və mən bilirəm ki, onu sakitləşdirməliyəm, lakin buna gücüm yoxdur.

– Yaxşı, – deyirəm. – Sağ ol. İndi ona zəng edərəm.

– Meqan... – o başlayır, lakin mən onu axıra qədər dinləmirəm.

Artıq saat on birə işləyir. Mən burada iki saatdan çox qaldım. Telefonu söndürüb Kamala dönürəm.

– Mən evə getmək istəmirəm, – deyirəm.

O başını yelləyir, lakin qalmağı təklif etmir. Bunun əvəzində deyir:

– Əgər istəsən yenə gələ bilərsən. Başqa vaxt.

Ona lap yaxınlaşıram, barmaqlarımın üstünə qalxaraq dodaqlarından öpürəm. O özünü geri çəkmir.

# Reyçel

Şənbə, 3 avqust 2013-cü İl

Səhər

Dünən yuxuda gördüm ki, meşədə təkbaşınayam. Anlamadım, bu günün hansı vaxtı idi – axşam alaqaranlığı, yoxsa səhər alatoranı, – lakin yaxında kiminsə olduğunu hiss edirdim. Heç kəsi görmürdüm, sadəcə, bilirdim ki, məni izləyirlər və artıq mənə çatmaq üzrədirlər. Mənə çatmalarını istəmirdim, qaçmağa cəhd edirdim, amma bacarmırdım – ayaqlarım elə bil pambıqdan idi, qışqırmaq istədikdə isə heç bir səs çıxara bilmirdim.

Yuxudan ayılanda jalüzün aralarından ağ işıq zolaqları süzülürdü. Nəhayət, yağış öz işini görüb, kəsmişdi. Otaqda istidir və dəhşətli bir qoxu var – xoşagəlməz və turş – mən praktiki olaraq cümə axşamından bəri otaqdan çıxmamışam. Bayırdan tozsoranın uğultusu eşidilir. Keti yır-yığışla

məşğuldur. Sonradan o harayasa getməyə hazırlaşır və onda mən evdən çıxa bilərəm. Mən hələ nə ilə məşğul olacağımı bilmirəm və indiyə qədər də özümü ələ ala bilmirəm. Bəlkə bir gün də şüşə ilə yoldaşlıq edib ağıllanmağı sabaha saxlayacağam.

Telefon siqnal verir ki, batareya son həddədir. Onu enerji doldurana qoşduqda, iki buraxılmış zəng olduğunu görürəm və səs poçtunu açıram. Orada bir qeyd var:

"Reyçel, salam. Bu anandır. Qulaq as, sabah mən Londonda olacağam. Şənbə günü. Bəzi şeylər almalıyam. Görüşüb bir yerdə qəhvə içsək necə olar? Əzizim, indi mənim yanımda yaşamaq vaxtı deyil. Sadəcə... qısacası mənim yeni tanışım peyda olub, sən anlayırsan başlanğıcda bu necə olur. – O qıqqıldayır. – İstənilən halda sənə məmnuniyyətlə bir-iki həftəliyə borc pul verərəm. Bu barədə sabah danışarıq. Hələlik, əzizim!"

Ona işlərimin həqiqətdə nə qədər pis olduğunu danışmağı düşünürəm və belə bir söhbəti içmədən aparmaq məni heç cəlb etmir. Yataqdan çətinlikdə çıxıram: elə indi gedib, görüşə qədər gərginliyi götürmək üçün, bir-iki bakal içmək olar. Yenə telefona baxır və buraxılmış zəngləri yoxlayıram. Anamdan yalnız bir dənə, ikincisi – Skottdan. Gecə saat birə on beş dəqiqə qalmış. Əlimdə telefon oturub qərar verirəm – zəng etməyə dəyərmi deyə. İndi hələ çox erkəndir. Bəlkə sonra? Bir bakal şərabdan sonra, lakin dəqiqliklə iki bakaldan sonra olmaz.

Telefonu dolmağa qoyuram, jalüzləri qaldırıb pəncərəni açıram, sonra vanna otağına gedib soyuq duş qəbul edirəm. Dərimi sürtürəm, başımı yuyuram və başımda mənə pıçıldayan sakit səsi susdurmağa cəhd edirəm. Skottun gecə vaxtı başqa bir qadına zəng etməsi çox qəribədir, halbuki arvadının cəsədinin aşkar edilməsindən cəmi iki gün keçib.

Axşam

Yer hələ qurumayıb, amma günəş ağ buludları dəlib keçir. Mən kiçik bir şərab şüşəsi aldım – yalnız birini. Başa düşürəm ki, bunu etməməliydim, amma anamla yemək hətta ən inamlı içki əleyhdarının belə möhkəmliyini yerindən oynatmağa qadirdir. Bununla belə, o mənim bank hesabıma üç yüz funt qoymağa söz verdi, odur ki, onunla görüş boş yerə vaxt itkisi deyildi.

Mən öz işlərimin nə qədər ağlamalı vəziyyətdə olduğunu boynuma almadım. Demədim ki, artıq bir neçə aydır işsizəm və məni işdən qovublar (o düşünür ki, pul mənə maaş alıncaya qədər lazımdır). İçki ilə vəziyyətin nə dərəcədə pis olduğunu da demədim, o da bir şey hiss etmədi. Ketidən fərqli olaraq. Onu səhər evdən çıxarkən görəndə, mənə çox aydın bir baxış atdı, bu baxışı yalnız belə açıqlamaq olardı: "İlahi! Belə tezdən?!" Mən anlamıram, bu ona necə müyəssər olur, amma o, həmişə bilir. Hətta cəmisi yarım bakal içsəm belə, mənə tək bir baxış atması kifayətdir ki, bunu bilsin.

– Bu sənin gözlərindən görünür, – o izah edir, amma mən bunu yoxlamaq üçün güzgüyə baxanda, mənə elə gəlir ki, həmişəki kimi görünürəm.

Onun səbri tükənmək üzrədir, hüsn-rəğbəti də. Mən bitirməliyəm. Amma bu gün yox. Bu gün bacarmaram. Həddən artıq ağır gündür.

Mən buna hazır olmalıydım, buna bənzər bir şeyi gözləməliydim, lakin nəyə görəsə alınmadı. Qatara mindim; bu qadın hər yerdə vardı. Onun sifəti bütün qəzetlərin səhifələrindən təbəssümlə parlayırdı: gözəl, sarışın, xoşbəxt Meqan düz kameranın obyektivinə baxır, düz mənə baxırdı.

Kimsə oturacaqda "Times"-in nömrəsini qoymuşdu və mən orada hesabatı oxudum. Meyitin rəsmən tanınması dünən axşam keçirilmişdi, meyiti yarma əməliyyatı isə bu gün olacaqdı. Polis təmsilçisinin sözləri verilmişdi: "Missis Hipvellin ölüm səbəbinin müəyyən edilməsi çətinlik törədə bilər, çünki onun cəsədi müəyyən müddət havada qalıb, buna qədər isə bir neçə gün suda olub". Onun qəzetdəki şəklinə baxıram, fikrimdə onun əvvəlki görkəmi ilə indiki görkəmini müqayisə edərək dəhşətə gəlirəm.

Qəzetdə Kamalın həbsi və azad olunması qısaca qeyd olunmuşdu və kriminal polis inspektoru Qaskillin sözləri verilmişdi. Onlar "bir sıra versiyalar üzərində işləyirlər". Mənim təsəvvürümdə bu onların dalana dirəndikləri anlamına gəlir. Qəzeti yığışdırıb ayağımın yanında döşəməyə qoydum. Daha ona baxa bilmirəm. Daha bu ümidsiz və boş sözləri oxumaq istəmirəm.

Başımı pəncərəyə söykəyirəm. Tezliklə biz 23 nömrəli evin yanından keçəcəyik. Bir anlığa baxışlarımı o tərəfə çevirirəm, lakin biz hələ bir şey

görə bilmək üçün çox uzaqdayıq. Mən Kamalı gördüyüm həmin gün haqqında düşünməyə davam edirəm: necə o Meqanı öpdü, mən necə hirsləndim və bunu ona demək istədim. Əgər mən belə etsəydim, nə olardı? Əgər onların evinə gəlib qapını döyərək: nə etdiyini düşünürsənmi? – deyə soruşsaydım? O yəqin indi, həmişəki kimi, öz balkonunda otururardı?

Mən gözlərimi yumuram. Nortkoutda kimsə qatara minir və mənim yanımdakı yerdə oturur. Onun kim olduğunu görmək üçün gözlərimi açmıram, hərçənd bu qəribə idi, çünki vaqon yarıboşdur. Tüklərim biz-biz olur. Mən tütün losyonu qoxusu hiss edirəm və anlayıram ki, bu qoxu mənə tanışdır.

– Salam.

Başımı çevirir və kürən saçlı kişini görürəm – həmin o stansiyadan, həmin şənbə axşamından. O mənə gülümsünür və əlini uzadır. Təəccübdən, bu əli sıxıram. Onun ovcu bərk və qabarlıdır.

– Məni xatırlayırsanmı?

– Bəli, – cavab verirəm. – Bir neçə həftə əvvəl, stansiyada.

O başı ilə təsdiq edir və gülümsəyir.

– Mən onda bir az içmişdim, – o deyir və gülür. – Elə sən də həmçinin, doğrudur, xanım qız?

O mənə göründüyündən daha gəncdir, yəqin otuza yaxın yaşı var. Onun xoş sifəti var, gözəl yox, xoş. Açıq və gülümsər. O, Londondan ya da ölkənin cənub-şərqindən gəlmiş biri kimi sadə xalq ləhcəsində danışır. Mənə sınayıcı nəzərlərlə baxır, elə bil mənim haqqımda nəsə bilir, ya da yalnız ikimizə bəlli olan ümumi bir sirrimiz var. Belə bir sirrimiz yoxdur və mən üzümü çevirirəm. Nəsə deməliyəm, onun nə gördüyünü soruşmalıyam.

– İşlərin yolundadırmı? – o soruşur.

– Bəli, hər şey yaxşıdır. – Mən pəncərəyə baxıram, lakin üzərimdə onun baxışını hiss edirəm və nə səbəbdənsə, dönüb onun paltarının və nəfəsinin qoxusunu almaq istəyirəm.

Tütün tüstüsünün qoxusu xoşuma gəlir. Biz tanış olanda Tom siqaret çəkirdi. Mən də hərdən bir bakal şərabdan ya da seksdən sonra siqaret çəkərdim. Mənim üçün bu qoxu erotika ilə assosasiya edir, mənə xoşbəxt zamanları xatırladır. Alt dodağımı dişləyirəm və düşünürəm ki, əgər çevrilib onun dodağından öpsəm, o necə reaksiya verər? Onun hərəkətini hiss edirəm – o əyilir və ayağımın yanındakı qəzeti götürür.

– Dəhşətdir, elə deyilmi? Yazıq. Həm də təəccüblüdür ki, həmin axşam biz orada idik. O elə onda itib? Həmin axşam?

O, sanki fikirlərimi oxudu və mən donub qaldım. Çevrilib ona baxıram. Onun gözlərinin ifadəsini görmək istəyirəm.

– Nə?

– Həmin axşam biz qatarda rastlaşdıq. Bu cəsədi tapılan qız elə o vaxt itib. Deyirlər ki, son dəfə onu stansiyada görüblər. Bilirsənmi, mənə elə gəlir ki, onu görə bilərdim. Lakin xatırlamıram. İçmişdim. – O çiynini çəkir. – Axı sən də heç nə xatırlamırsan?

O bunu deyəndə məni qəribə bir hiss bürüyür. Əvvəllər məndə belə şey olmazdı. Cavab vermirəm, çünki fikrim tamam başqa şeydə idi. İş onun sözlərində deyil, losyonunda idi. Tüstü qoxusunun arasından keçərək, losyonun limon aromatı yaddaşımda belə bir xatirə oyadır: onunla qatarda yanaşı gedirəm, lap indiki kimi, yalnız əks istiqamətdə – kimsə bərkdən gülür. O əlini mənim çiynimə qoyur və harasa gedib içməyi təklif edir, sonra nəsə pis bir şey baş verir. Mən qorxu hiss edirəm. Kimsə məni vurmağa cəhd edir. Mənə atılan yumruğu görüb əllərimlə başımı örtərək əyilirəm. Mən artıq qatarda deyil, küçədəyəm. Yenə gülüş ya da qışqırıq səsi eşidilir. Pilləkənlərdə, səkidəyəm, heç nə anlamıram və ürəyim şiddətlə bərk döyünür. Bu adamla yanaşı qalmaq istəmirəm. Getmək istəyirəm.

Dik ayağa qalxıram və bağışlayın, deyirəm, özü də başqa sərnişinlər eşitsin deyə, qəsdən hündürdən deyirəm – lakin vaqonda adam azdır, heç kəs bizə diqqət yetirmir. Kişi təəccüblə mənə baxır və ayağını götürərək keçidi azad edir.

– Bağışla, xanım qız, – o deyir. – Sizi incitmək istəmədim.

Onun yanından mümkün qədər tez keçmək istəyirəm, lakin qatar təkanlarla irəliləyir, vaqon yellənir və mən çətinliklə ayaqda dura bilirəm. İndi hamı mənə baxır. Mən çox sürətlə vaqonun sonuna çatıram, o biri vaqona keçirəm, sonra da o birisinə və sonda qatarın quyruğuna gəlib çıxıram. Mən qorxuram, fikirlərim qarışır. Üzü qapıya doğru otururam ki, o arxamca gəlsə, görə bilim.

Ovuclarımla gözlərimi örtüb fikrimi cəmləmək istəyirəm. Elə indicə məni bu qədər qorxudan xatirələri qaytarmağa çalışıram. Əyyaşlığa görə özümü lənətləyirəm. Əgər onda düşünmək qabiliyyətinə malik olsaydım... lakin indi daha heç nəyi dəyişdirmək olmaz. Məndən bir qadın uzaqlaşır? Mavi paltarda bir qadın. Bu Annadır.

Başıma qan vurur, ürəyim az qalır yerindən çıxsın. Nə gördüyümü, nə hiss etdiyimi bilmirəm, bunların reallıq, yoxsa xəyal ya da xatirə olduğunu bilmirəm. Yenə gözlərimi bərk yumuram və mənzərəni yenidən qaytarmağa cəhd edirəm, lakin artıq gecdir.

# Anna

Şənbə, 3 avqust 2013-cü İl

Axşam

Tom bu gün öz əsgərlik tanışları ilə görüşür, Evi isə yatır. Mən çox isti olmasına baxmayaraq bütün pəncərə və qapıları bağlayıb mətbəxdə otururam. Bütün keçən həftəni aramsız yağan yağış, nəhayət, kəsib və indi çox bürkülü hava var.

Darıxıram. Özümə bir məşğuliyyət uydura bilmirəm. Mən mağazalarda gəzib özümə bir az pul xərcləməyi sevirəm, amma Evi ilə bu mümkün deyil. O, şıltaqlıq etməyə başlayır, mən də əsəbiləşirəm. Odur ki, sadəcə, evdə veyillənirəm. Televizora baxa və ya əlimə qəzet ala bilmirəm. Bu barədə oxumaq istəmirəm, Meqanın üzünü görmək istəmirəm, bu barədə düşünmək istəmirəm.

Bəs necə fikirləşməmək olar, axı biz onlardan cəmi üç ev aralı yaşayırıq?

Mən tanış uşaqlı analara zəng etdim. Onların arasında uşaq meydançasına getməyə hazırlaşan varmı deyə öyrənmək istəyirdim. Lakin hamısının nəsə işi varmış. Mən hətta bacıma zəng etdim, lakin onunla görüşməyə ən azı bir həftə öncədən sözləşmək lazımdır. Hər nə isə, bacım dedi ki, dünənki gecə şənliyindən sonra vaxtını uşaqla keçirməyə, sadəcə, taqəti yoxdur. Mənim dəhşətli dərəcədə paxıllığım tutdu və məyus olub, keçmiş günlərimi düşünməyə başladım: bir vaxtlar bütün şənbəni divanda qəzetlərlə və axşam klubdan gec çıxmağım haqqında xatirələrlə sərələnib qalardım.

Axmaqlıqdır, əlbəttə, çünki indi mən milyon dəfə daha yaxşı bir şeyə sahibəm və bu mənə çox baha başa gəlib. İndi məndən yalnız öz malik olduğumu qorumaq tələb olunur. Odur ki, hər yeri qapalı evdə oturub Meqan haqqında düşünməməyə çalışıram. Onun haqqında düşünmək istəmirəm və hər dəfə bir xışıltı eşidəndə, ya da pəncərədən bir kölgə keçəndə səksənirəm. Bu dözülməzdir.

Həmin axşam Reyçelin burada olduğunu başımdan çıxara bilmirəm; Meqan itəndə, o tam sərxoş vəziyyətdə, buralarda gəzirdi, sonra birdən yoxa çıxdı. Tom onu nə qədər axtarsa da, tapa bilmədi. Mən onun burada nə etdiyini fikirləşməyə bilmərəm.

Reyçellə Meqan Hipvell arasında heç bir əlaqə yoxdur. Reyçeli Hipvellərin evinin yanında gördükdən sonra, kriminal polis serjantı Rayli ilə bu barədə söhbət etmişəm, lakin o məni əmin etdi ki, narahatlığa heç bir əsas yoxdur.

– Bu qadın, sadəcə, avaranın biridir, – o dedi. – Tənha və fəal. O, yalnız hansısa işə qarışmaq istəyir.

Bəlkə də belədir. Lakin mən onun evimizə girib Evini götürdüyünü xatırlayıram. Onu hasarımızın yanında, qızım da əlində gördükdə necə dəhşətli hisslər keçirdiyim də yadımdadır. Bir də onun Hipvellərin evindən çıxarkən mənə necə bir qorxunc təbəssümlə baxdığını xatırlayıram. Damarlarımda qanım donur. Reyçelin nə dərəcədə təhlükəli ola biləcəyi barədə detektiv Raylinin anlayışı belə yoxdur.

# Reyçel

---

Bazar, 4 avqust 2013-cü İl

Səhər

Bu gün yeni bir kabusla yuxudan oyandım. Bu kabusda mən dəhşətli bir şey etdim, məhz nə etdiyimi bilmirəm, amma bunun düzəldilməsi də mümkün deyil. Bilirəm ki, Tom indi mənə nifrət edir. O daha mənimlə danışmır, bütün tanışlara mənim dəhşətli hərəkətimi xəbər verib. Buna görə də hamı məndən üz döndərib: həm keçmiş həmkarlarım, həm dostlarım və hətta anam. Onlar mənə nifrətlə baxırlar və heç kəs məni dinləmək belə istəmir. Çox təəssüf edirəm ki, belə alındı. Özümü çox günahkar hiss edirəm, amma nə etdiyim haqqında anlayışım belə yoxdur. Mən ayılıram və bilirəm ki, kabusun səbəbi keçmişdə etdiyim bir hərəkətdir və məhz nə olduğunun əhəmiyyəti yoxdur.

Dünən qatardan düşdükdən sonra Eşberi stansiyası ətrafında on beş-iyirmi dəqiqə fırlandım. O kürən saçlı kişinin mənim arxamca qatardan enib-enmədiyinə əmin olmaq istəyirdim. Lakin o, heç yerdə görünmürdü. Onu gözdən qaçıra biləcəyimdən qorxurdum. Qorxurdum ki, buralarda gizlənib arxamca evə gələr. Mən təsəvvür etdim, necə əla olardı ki, qaçıb evə girəydim, orada isə məni Tom gözləyəydi. Məni, ümumiyyətlə, kiminsə gözlədiyi bir yerə gedəydim.

Evə gedən yolda şərab mağazasına girdim.

Mənzildə heç kəs yox idi, adama elə gəlirdi ki, buradan yenicə gediblər, Keti ilə az qala qarşılaşacaqmışıq. Lakin masanın üstündə kağız vardı: o Demyenlə Henlidə yeməkdədir və evə yalnız bazar günü axşam dönəcək. Mən özümdə deyildim, qorxu hiss edirdim. Otaqlarda boş-boş dolaşırdım, əşyaları götürüb yerini dəyişdirirdim. Nəsə lazım olduğu kimi deyildi və mən, nəhayət, bunun nə olduğunu anladım.

Sükut qulaqlarımda elə bərkdən cingildəyirdi ki, səslərə oxşamağa başladı və mən özümə bir bakal şərab süzdüm, sonra birini də, ondan sonra

Skotta zəng etmək qərarına gəldim. Telefon o saat səs poçtuna keçdi: başqa bir həyatdan səs, işgüzar və özündən əmin bir adamın səsi, evdə sevimli arvadının gözlədiyi birinin səsi. Bir neçə dəqiqədən sonra bir də zəng etdim. Bu dəfə dəstəyi götürdülər, amma susdular.

– Alo?

– Kimdir?

– Reyçeldir, – cavab verdim. – Reyçel Uotson.

– Dinləyirəm.

Hansısa səslər eşidilir. Qadın. Yəqin, anasıdır.

– Siz... mən sizin zənginizi ötürmüşəm, – dedim.

– Xeyr... xeyr. Necə, mən zəng etmişəm? Yəqin səhv olub. – O, nədənsə çox həyəcanlı idi. – Yox, onu yerinə qoy! – o dedi, bunu mənə xitabən demədiyini dərhal anlamadım.

– Mən təəssüf edirəm.

– Bəli. – O, rəvan və həvəssiz danışırdı.

– Çox-çox təəssüf edirəm.

– Sağ olun.

– Siz... mənimlə danışmaq istəyirdiniz?

– Yox, yəqin nömrəni səhvən yığmışam, – o, artıq inamla dedi.

– Aydındır.

Mən analyırdım ki, o söhbəti tez bitirmək istəyir. Anlayırdım ki, onu yaxınlarından ayırmamaq lazımdır və mən ona öz dərdini çəkməsinə mane olmamalıyam. Bunları başa düşürdüm, amma yenə də soruşdum:

– Siz Anna ilə tanışsınız? Anna Uotsonla?

– Kiminlə? Siz öz keçmiş ərinizin arvadını nəzərdə tutursunuz?

– Bəli.

– Yox. Yəni tam deyil. Meqan... Meqan keçən il onlarda qısa müddət dayə olaraq işlədi. Bəs nəyə görə soruşursunuz?

Niyə soruşduğumu bilmirdim. Bilmirəm.

– Biz görüşə bilərikmi? Sizinlə bəzi şeylər haqqında danışmaq istəyirəm.

– Nə haqqında? – O, açıq-aşkar nədənsə acıqlı idi. – İndi bunun üçün yaxşı vaxt deyil.

Onun belə davranışından məyus olub, dəstəyi asmaq istədim, lakin o birdən dedi:

– Bu saat bura adamla doludur. Bəlkə sabah? Sabah bizə gəlin.

Axşam

O, üzünü qırxarkən kəsib, yanağında və boyunluğunda qan var. Saçları nəmdir, ondan sabun və losyon qoxusu gəlir. O, başı ilə salam verir və geri çəkilərək məni evə buraxır, lakin heç nə demir. Evdə qaranlıqdır və hava ağırdır, qonaq otağında jalüzlər endirilib, lakin bağa açılan şüşə qapılarda pərdələr aralıdır. Mətbəxdəki masaların üstü hazır yemək paketləri ilə doludur.

– Hamı yemək gətirir, – Skott izah edir. O əli ilə məni oturmağa dəvət edir, amma özü gücsüz əllərini yanına salıb ayaq üstə dayanmağa davam edir. – Siz mənə nəsə demək istəyirdiniz? – O bunu elə bil avtopilotda olan kimi, mənim gözümə baxmadan söyləyir. O sınmış kimi görünür.

– Sizdən Anna Uotson haqqında soruşmaq istəyirdim, hətta bilmirəm... Meqanın onunla necə münasibətləri vardı? Onlar bir-birilə yol gedirdilərmi?

O qaşqabağını sallayır və qarşısındakı stulun arxasından yapışır.

– Yox. Mən demək istəyirəm... ki, onların arasında antipatiya yox idi. Həm də onlar bir-birini o qədər də yaxşı tanımırdılar. Ünsiyyətdə olmurdular. – Onun çiyinləri düşdü. Ruhən çox əzilmişdi. – Bəs siz niyə bu barədə soruşursunuz?

Mən düzünü deməyə məcburam:

– Mən onu gördüm. Mənə elə gəlir ki, onu stansiyada, yeraltı keçidin yanında gördüm. Həmin axşam... Meqan yoxa çıxanda.

O, nə dediyimi aydınlaşdırmağa çalışaraq, yüngülcə başını bulayır.

– Bağışlayın? Siz onu gördünüz. Siz... özünüz harada idiniz?

– Mən burada idim. Mən... Tomla, keçmiş ərimlə danışmaq istəyirdim, lakin...

O, gözlərini qıyır və alnını ovuşdurur.

– Dayanın, siz burada idiniz və Anna Uotsonu gördünüz? Nə olsun? Mən bilirəm ki, Anna burada idi, o bir neçə ev aralıda yaşayır. O, saat yeddidə stansiyaya getdiyini, lakin Meqanı görmədiyini polisə danışıb.

O, stulun arxasını əli ilə sıxır və mən görürəm ki, onun səbri tükənir.

– Siz bununla nə demək istəyirsiniz?

– Mən içmişdim, – boynuma alıram və hiss edirəm ki, üzüm xəcalətdən qızarır. – Dəqiq xatırlamıram, lakin mənə elə gəlir ki...

– Yetər! Mən daha bunu eşitmək istəmirəm. Sizin keçmiş ərinizlə və onun indiki arvadı ilə aşkar probleminiz var. Bunun həm mənə, həm də Meqana heç bir aidiyyəti yoxdur, elə deyil? İlahi, doğrudanmı siz utanmırsınız? Siz, ümumiyyətlə, təsəvvür edirsiniz ki, mən nələrdən keçməli oldum? Bilirsiniz ki, səhər məni polisə dindirməyə aparmışdılar?

O öz ağırlığını stulun üzərinə salıb əyilir və mən stulun indicə şaqqıltı ilə sınacağını gözləyirəm.

– Siz də bir yandan öz sayıqlamalarınızla bu işə burnunuzu soxursunuz. Mən çox təəssüf edirəm ki, sizin şəxsi həyatınız bütünlüklə zibil içindədir, amma bu mənim həyatımla müqayisədə heç nədir. İnanın mənə! Ona görə də xahiş edirəm... – deyə başı ilə qapını göstərir.

Mən özümü axmaq və yersiz hiss edərək qalxıram. Utanıram.

– Mən kömək etmək istədim. İstədim...

– Siz kömək edə bilməzsiniz, aydın deyil? Siz mənə kömək edə

bilməzsiniz. Mənə heç kim kömək edə bilməz. Mənim arvadım ölüb və polis hesab edir ki, onu mən öldürmüşəm. – O az qala qışqırır və onun yanaqlarında qırmızı ləkələr peyda olur. – Onlar hesab edir ki, onu mən öldürmüşəm!

– Lakin... Kamal Abdik...

Stul divara elə qüvvətlə çırpılır ki, bir qıçı kənara düşür. Mən qorxaraq kənara atılıram, lakin Skott hərəkət etmir. O, əllərini aşağı sallayaraq və yumruq kimi düyünləyərək dayanıb.

– Kamal Abdik, – o, dişlərini qıcırdaraq deyir, – daha şübhəli şəxs deyil.

O, mülayim səslə danışır, amma görürəm ki, bunu çox çətinliklə bacarır. Onun içindəki qəzəbin necə coşub-daşdığını hiss edirəm. Qapıya doğru getmək istəyirəm, lakin o, həm mənim yolumu, həm də otağa düşən zəif işığın qarşısını kəsib.

– Bilirsiniz o nə deyir? – o, stulu qaldırmaq üçün çevrilərək soruşur.

Təbii ki, bilmirəm, lakin yenə mənə elə gəlir ki, o mənimlə deyil, otaqla danışır.

– Kamal Abdik çox şey danışır. Guya Meqan xoşbəxt deyildi, guya mən qısqanc və hər şeydən şübhələnən ərəm və necə deyərlər, emosional və zorakı biriyəm. – Onun üzü nifrətdən dəyişir. – Kamal deyir ki, guya Meqan məndən qorxurmuş.

– Amma o yalan danışır!

– Tək o deyil. Meqanın rəfiqəsi, Tara... deyir ki, Meqan bəzən ondan yalan danışmağı, Meqanın harada və nə ilə məşğul olduğunu gizlətməyi xahiş edib.

O stulu yerinə qoyur. Stul aşır. Mən dəhlizə doğru addım atıram. Skott baxışlarını mənə çevirir.

– Mən müqəssirəm, – o deyir və əzab onun üzünü dəyişdirir. – Özü də məhkəməsiz.

O, ayağı ilə qırıq stulu bir tərəfə atır və salamat qalmış üç stuldan birinə

oturur. Mən nə edəcəyimi bilməyərək, yerimdə donub qalıram.

– Cibində onun telefonu vardı, – o elə alçaqdan deyir ki, mən sözləri çətinliklə ayırd edirəm və bir addım yaxına gəlirəm. – Telefonda mənim mesajım qalıb. Mənim ona son sözlərim, onun oxuduğu son sözlər: “Cəhənnəm ol get, yalançı qancıq”.

Onun başı köksünə düşür, çiyinləri titrəyir. Mən elə yaxındayam ki, ona toxuna bilərəm. Əlimi qaldırıram və titrəyə-titrəyə arxadan onun boynuna toxunuram. O, kənara çəkilmir.

– Mən həqiqətən təəssüf edirəm, – deyirəm və bu doğrudan da belədir, çünki onun Meqanla bu cür danışması məni heyrətə salmasına baxmayaraq, bilirəm ki, adamı sevmək və hirslənəndə ona dəhşətli şeylər söyləmək mümkündür. – Sms hələ heç nə ifadə etmir. Əgər onlarda daha heç nə yoxdursa...

– Elə düşünürsünüz?

O dikəlir və mənim əlimi kənara itələyir. Mən masanın o tərəfində onunla üzbəüz otururam. O mənə baxmır.

– Mənim bu cinayətim törətməyə əsasım vardı. Mən pis... O çıxıb gedərkən mən qeyri-adekvat reaksiya vermişəm. Şübhəli şəkildə uzun müddət onu axtarmamışam. Həm də şübhəli davranaraq uzun müddət ona zəng etməmişəm. – O, qısaca gülür. – Hələ üstəlik, Kamal Abdikin sözlərinə görə, emosional zorakılığa meyilliyəm. – O baxışlarını mənə çevirir və onun üzünü ümid işığı bürüyür. – Siz... siz polislə danışa bilərsiniz. Onlara deyərsiniz ki, bu belə deyil, o yalan danışır. Ən azından deyərsiniz ki, mən onu sevirdim, biz xoşbəxt idik.

Mən necə bir ümidsizliyə qapıldığımı hiss edirəm. O düşünür ki, mən ona kömək edə bilərəm. O mənə ümid edir, məndə isə onun üçün yalandan başqa heç bir şey yoxdur.

– Onlar mənə inanmazlar, – güclə eşidiləcək şəkildə pıçıldayıram. – Onlar mənə inanmazlar, çünki mən etibarsız şahidəm.

Otağa sükut çökür və milçəyin şüşə qapıya çırpıldığı eşidilir. Skott yanağındakı qurumuş qanı dırnağı ilə qoparır və dərisini qaşıyır. Mən stulu

geri çəkirəm. Stulun ayaqları kafelə toxunur. Skott başını qaldırın mənə baxır.

– Siz burada idiniz, – o deyir, elə bil on beş dəqiqə öncə dediklərim ona yalnız indi çatmışdı. – Meqan itən axşamı siz Uitnidə olmusunuz?

Mənim qulaqlarımda qan elə vurur ki, güclə eşidirəm. Cavab olaraq başımı tərpədirəm.

– Niyə siz bu barədə polisə danışmadınız? – Onun çənəsindəki damar dartılır.

– Mən dedim. Mən bu barədə onlara dedim. Lakin əlimdə heç bir sübut yox idi... Mən heç nə görməmişdim. Heç bir şey xatırlamıram.

O qalxır, şüşə qapılara yaxınlaşır və pərdəni aralayır. Bir anda otaq parlaq günəş işığına qərq olur. Skott arxası mənə doğru, əllərini döşündə çarpazlayıb dayanır.

– Siz sərxoş idiniz, – o mülayim səslə təsdiqləyir. – lakin siz heç olmasa bir şey xatırlamalısınız! Siz... deməli, ona görə buraya tez-tez qayıdırsınız, doğrudur? – O mənə doğru çevrilir. – Niyə siz mənə həmişə zəng vurursunuz? Sizə nəsə məlumdur.

O bu barədə, şübhəyə yer qoymadan və günahlandırmadan, bir fakt kimi danışır.

– Siz onun maşınını gördünüz? – o soruşur. – Fikirləşin. Mavi “opel”. Siz onu gördünüzmü?

Mən başımı bulayıram və o dilxor halda ah çəkir:

– Xatırlamağa çalışın! Siz nə gördünüz? Anna Uotsonu gördünüz, amma bunun əhəmiyyəti yoxdur. Siz gördünüz... Kimi gördünüz?

Günəşdən gözümü qıyaraq bütün xatirə qırıqlarını bir yerə toplamağa cəhd edirəm, lakin əbəs yerə. Heç bir ipucu, yararlı heç nə. Danışıla biləcək heç bir şey. Mən kiminləsə dalaşmışdım. Ya da davanın şahidi olmuşdum. Mən stansiyada pillələrdə büdrədim, mənə kürən saçlı bir kişi qalxmağa yardım etdi. Mənə elə gəlir ki, o özünü nəzakətli apardı, hərçənd indi ondan

qorxuram. Mən bilirəm ki, başımda çapıq vardı, dodağım partlamışdı, qolumda qançırlar əmələ gəlmişdi. Deyəsən, yeraltı keçiddə olduğumu xatırladım. Qaranlıq idi. Mən qorxurdum və başım pis işləyirdi. Kimsə Meqanı adı ilə çağırdı. Yox, bu yuxuda olmuşdu. Mən qan xatırlayıram. Başımda və əllərimdə qan vardı. Annanı xatırlayıram. Amma, bax Tomu xatırlamıram. Kamalı da, Skottu da, Meqanı da xatırlamıram.

O məndən gözünü çəkmir, gözləyir ki, heç olmasa onun əzabını yüngülləşdirəcək bir şey söyləyim, lakin mənim deməyə sözüm yoxdur.

– Həmin axşam, – o deyir, – bu sirrin açarıdır.

O masanın üstündə, arxası pəncərəyə doğru mənim yanımda oturur. Alnında və üst dodağında tər damlaları parlayır, qızdırmalı adamlar kimi bədəni titrəyir.

– Hər şey elə onda baş verib. Onlar elə hesab edirlər. Amma sona qədər əmin deyillər... – O duruxur, lakin yenə davam edir: – Onlarda tam əminlik yoxdur. Cəsədin vəziyyətinə görə. – O, dərindən köks ötürür. – Lakin onlar hesab edirlər ki, hər şey həmin gecə baş verib. Ya da ondan az sonra.

O, yenə avtopilota keçdi və mənimlə yox, otaqla danışmağa başladı. Mən dinmədən qulaq asıram, o, sanki otağa danışaraq deyir ki, Meqanın ölümünə səbəb başındakı zədələr olub, onun başı bir neçə yerdən deşilib. Bədənində heç bir seksual zorlama əlaməti aşkar edilməyib. Həm də cəsəd artıq çürüməyə başlayıb, odur ki, heç kəs dəqiq bir şey söyləyə bilməz.

Skott yenidən məni otaqda görəndə, gözləri qorxu və ümidsizliklə doldu.

– Əgər siz nəsə xatırlasanız, mənə kömək etməlisiniz. Lütfən, Reyçel, xatırlamağa çalışın.

Mənim daxilimdə hər şey alt-üst olur, eşidəndə ki, necə o məni adımla çağırır, özümü tamamilə bədbəxt hiss edirəm.

Qatarla evə qayıdarkən onun sözlərini xatırlayır və onların üzərində düşünürəm. Doğrudanmı bütün bu hadisəni unuda bilməməyimin səbəbi mənim başımda gizlənib? Doğrudanmı orada elə bir şey var ki, heç cür mənə rahatlıq vermir? Mən bilirəm, Skotta elə bir hiss bəsləyirəm ki, nə adını çəkməli, nə də hiss etməliyəm. Bəs, əgər məsələ yalnız bu deyilsə? Bəs, əgər

doğrudan da mənim beynimdə vacib bir informasiya varsa? Onu oradan çıxarmağa yalnız mütəxəssis yardım edə bilər. Məsələn, psixiatr. Və ya psixoterapevt. Kamal Abdik kimi biri.

Çərşənbə axşamı, 6 avqust 2013-cü İl

Səhər

Mən demək olar ki, yatmamışam. Bütün gecəni bu barədə düşünərək və hamısını beynimdə dönə-dönə fırladaraq uzanıb qalmışam. Bu axmaqlıq və ağılsızlıqdır? Bunun heç bir mənası yoxdur? Bu təhlükəlidir? Mən nə etdiyimi bilmirəm. Dünən səhər doktor Kamal Abdikin qəbuluna yazıldım. Qəbul otağına zəng etdim və katibə ilə danışdım, məni məhz onun qəbuluna yazmağı xahiş etdim. Mənə elə gəldi ki, qız təəccübləndi. Sonra dedi ki, o məni bu gün saat beşin yarısında qəbul edə bilər. Belə tez? Ürəyimin indicə yerindən çxacağını və ağzımın quruduğunu hiss edərək cavab verdim ki, bu məni qane edir. Seansın qiyməti 75 funtdur. Anamın göndərdiyi 300 funt mənə çox çatmaz.

Qəbula yazıldıqdan sonra mən artıq başqa heç bir şey haqqında düşünə bilmədim. Məni vahimə basır, lakin gizlətməyəcəm ki, Kamalla görüşmək perspektivi məndə böyük maraq doğurur. Çünki hər şey məhz ondan başlayıb: mən onu ötəri görmüşdüm. Bundan sonra bütün həyatım öz axarından çıxdı. Onun Meqanı öpdüyünü görəndə hər şey dəyişdi.

Onunla görüşməliyəm. Nə isə etməliyəm, çünki polisi yalnız Skott maraqlandırır. Dünən onu yenə dindirməyə çağırmışdılar. Onlar bunu təsdiq etməsələr də, İnternetdə onun anasının müşayiəti ilə polis şöbəsinə getməsinin videoçarxını qoymuşdular.

Skottun qalstukunun ilgəyi çox sıx dartılmışdı və elə bil onu boğurdu.

Hamı proqnoz verir. Qəzetlər yazır ki, indi polis daha ehtiyatlı hərəkət edir, çünki yenidən tələsik həbsə görə tənqid atəşinə tutulmaq istəmir. Belə bir ehtimal irəli sürülür ki, istintaq dalana dirənib və onu başqa briqadaya verə bilərlər. İnternetdə Skott haqqında dəhşətli şeylər yazırlar, iyrənc, vəhşi versiyalar irəli sürürlər. Onun ağlayaraq Meqandan qayıtmasını xahiş etdiyi videonu yerləşdirirlər. Bunu isə teleekranda ağlayaraq öz yaxınlarının taleyinə acıyan qatillərin fotoşəkilləri ilə birlikdə verirlər. Bu dəhşətdir və

insanlıqdan uzaqdır. Mən yalnız ümid edirəm ki, o bu saytlara daxil olmur. Çünki bu onun ürəyini parçalayar. Qərarım nə qədər axmaq və ağılsız görünsə də, mən Kamal Abdiklə görüşmək fikrindəyəm, çünki bütün bu cızmaqaraçılardan fərqli olaraq, mən Skottu gördüm. Onu çox yaxından gördüm və ona toxuna bildim. Bilirəm ki, o necə adamdır və bilirəm ki, o qatil deyil.

Axşam

Mən Korli stansiyasında pilləkənlə qalxıram. Ayaqlarım yenə əsir. Mən bu titrəməni artıq bir neçə saatdır kəsə bilmirəm – yəqin bu adrenalindəndir, çünki ürəyim heç cür sakitləşə bilmir. Qatar adamla doludur – boş yer tapmaq imkanı yoxdur, bu Yustonda qatara minmək kimi deyil, – ona görə də vaqonun ortasına irəliləyərək ayaqda dayanmalı oluram. Bura hamamdakı kimi boğanaqdır. Nə hiss etdyimi anlamaq istəyirəm. Zəfər, qorxu, təşviş və təqsir. Əsasən təqsir. Hər şey mən təsəsvvür etdiyimdən fərqli imiş.

Bunları düşünə-düşünə özümü tam dəhşət həddinə çatdırmağa macal taparaq, təyin olunan vaxtda gəldim. Onun mənə baxan kimi hər şeyi bildiyimi və təhlükə mənbəyi olduğumu anlayacağına şübhə etmirdim. Mən qorxurdum ki, Meqanın adını çəkməkdən özümü saxlaya bilməyəcəyəm. Sadə və xeyli görkəmsiz qəbul otağına daxil oldum, orta yaşlı katibə heç üzümə baxmadan anket məlumatlarımı yazdı. Oturdum, əllərimdəki titrəməni kəsmək və qarşıdakı görüşə fikrimi cəmləmək, eyni zamanda adi pasient kimi özümü narahat göstərmək üçün, "Vogue"un nömrəsini götürərək vərəqləməyə başladım.

Məndən başqa qəbul otağında daha iki adam oturmuşdu – öz mobil telefonunda nəsə oxuyan, iyrimi yaşlarında bir oğlan və daha yaşlı, dilxorcasına ayağının altına baxan və hətta katibə adını çəkəndə belə bir dəfə də gözlərini qaldırmayan bir qadın. O, sadəcə, qalxdı və onu harada gözlədiklərini bilərək lazımi qapıya tərəf getdi. Qəbul otağında on-on beş dəqiqə oturduqdan sonra tənəffüsümün tezləşdiyini və qeyri-stabil olduğunu hiss etdim. Otağın havası isti və ağır idi, ciyərlərimə oksigen çatışmırdı, qorxurdum ki, huşumu itirərəm.

Sonra qapı açıldı və bir kişi çıxdı – heç ona əməlli-başlı baxmağa macal tapmamış anladım ki, bu odur. Onu boyuna, hərəkət manerasına görə o saat

tanıdım. Necə ki, o vaxt bağda Meqana tərəf yönələn kişinin yalnız siluetini görsəm də, bunun Skott olmadığını başa düşmüşdüm. O əlini mənə uzatdı:

– Miss Uotson?

Mən gözlərimi qaldırdım ki, baxışlarımız qarşılaşsın. Həyəcanımdan kürəyimin buz kimi oldğunu hiss etdim. Onun ovcu isti, quru və çox böyük idi – mənim əlim onun içində batdı.

– Buyurun, – o məni kabinetə dəvət edərək, dedi. Mən ürək bulanması və baş gicəllənmsi hiss edərək onun dalınca getdim.

Mən daha öncə Meqanın getdiyi yolla getdim. O da onun qarşısında kresloda oturmuş, Abdik də indiki kimi, əllərini çənəsinin altında qatlayıb soruşmuşdu: “Yaxşı, siz bu gün nə haqda danışmaq istərdiniz?”

O sözün əsl mənasında istilik saçırdı: onun əlləri isti idi, gözləri, səsinin tembri isti idi. Mən onun üzündə Meqanın başını əzə biləcək qəddar bir qatilin, ya da yaxınlarını itirdiyinə görə bütün dünyaya acığı tutmuş bir qaçqının, heç olmasa hansısa əlamətini axtardım. Buna bənzər heç bir şey görmədim. Birdən özüm də gözləmədən sakitləşdim və bütün qorxularımı unutdum. Oturmuşdum və daha qorxmurdum. Çətinliklə tüpürcəyimi udub, ona məhz nə danışacağımı planlaşdırdığımı xatırladım və hamısını danışdım. Artıq dörd ildir ki, spirtli içkiyə meyillilikdən qurtula bilmədiyimi, bu səbəbdən ərimi və işimi itirdiyimi, bunun da mənim sağlamlığıma pis təsir etdiyini və psixologiyamı pozacağından qorxduğumu danışdım.

– Mən xatırlaya bilmirəm, – boynuma aldım. – Huşumu itirirəm, sonra yadıma sala bilmirəm ki, harada olmuşam, nə etmişəm. Bəzən özümə sual verirəm ki, nəsə dəhşətli bir şey etməmişəm? Amma xatırlaya bilmirəm. Bəzən də mənə nə etdiyimi deyirlər, amma yenə xatırlamıram, sanki bunları mən etməmişəm. Məlumatsız olduğun şeylərə cavab vermək çox çətindir. Ona görə də mən özümü tam günahkar hesab etmirəm. Yəni öz günahımı hiss edirəm, amma bu günahın səbəbi məndən gizli qalır. Sanki baş verənlərin mənə heç bir aidiyyəti yoxdur.

Bütün bu həqiqətləri bir neçə dəqiqə ərzində söylədim. Əslində çoxdan bunları kiminləsə bölüşmək istəyirdim, lakin belə bir adam məhz o olmamalı idi. O öz aydın kəhrəba gözlərini məndən ayırmadan, əllərini bükərək

qımıldanmadan dinləyirdi. O, baxışlarını çəkmir və qeydlər aparmırdı. Sadəcə, dinləyirdi. Nəhayət, o yüngülcə başını silkələdi və dedi:

– Siz öz əməllərinizə görə cavab vermək istəyirsiniz, lakin öz günahınızı hiss etmirsiniz, çünki xatırlamırsınız?

– Bəli. Məhz elə.

– Bəs biz öz günahlarımızı necə malalayırıq? Siz nə etdiyinizi xatırlamasanız da, üzr istəyə bilərsiniz, bu o demək deyil ki, sizin peşmanlığınız, üzrxahlığınızın arxasında dayanan hiss qeyri-səmimidir.

– Amma mən onu tam şəkildə hiss etmək istəyirəm. Özümü... daha pis hiss etmək istəyirəm.

Bu, əlbəttə, qəribə istəkdir, amma mən daim bu barədə düşünürəm. Özümü yetərli dərəcədə pis hiss etmirəm. Mən bilirəm ki, günahkaram. Detallarını xatırlamasam da dəhşətli şeylər etdiyimi bilirəm, lakin onlar sanki məndən ayrıca mövcuddurlar, buna görə də daxilən özümün məsuliyyətimi hiss etmirəm.

– Siz hesab edirsiniz ki, özünüzü indi hiss etdiyinizdən daha pis hiss etməlisiniz? Öz günahlarınıza görə özünüzü az təqsirləndirirsiniz?

– Bəli.

Kamal başını buladı:

– Reyçel, siz dediniz ki, nikahınız pozulub, işinizi itirmisiniz – bəs bu cəzalar azdırmı?

Mən başımla razılaşdığımı bildirdim.

O, kresloya yüngülcə söykəndi:

– Mənə elə gəlir ki, siz, yəqin, özünüzə qarşı həddən artıq tələbkarsınız.

– Düşünmürəm.

– Yaxşı, qoy elə olsun. İndi isə biz bir az geri qayıda bilərikmi? O zamana ki, bu problem özünü göstərməyə başladı. Hər şeyin dörd il bundan öncə başladığını dediniz. Siz o dövr haqqında danışa bilərsinizmi?

Mən müqavimət göstərirdim. Onun səsinin istiliyi və baxışlarının mülayimliyi məni tam olaraq yumşaltmadı. Tam ümidsiz də deyildim. Ona bütün həqiqəti danışmaq fikrim yox idi. Necə uşaq istədiyimi demədim. Sadəcə, dedim ki, nikahımız pozuldu, çox həyəcan keçirdim, həmişə içməyi sevirdim, sonra özümü saxlaya bilmədim.

– Sizin nikahınız pozuldu və... siz ərinizi tərk etdiniz, yoxsa o sizi atıb getdi, ya da siz bir-birinizdən ayrıldınız?

– O, başqa biri ilə sevişirdi, – cavab verdim. – O, başqa bir qadına rast gəldi və onu sevdi.

O, başını yellədi və davamını gözlədi.

– Amma bunda onun günahı yox idi. Hər şeydə mən özüm günahkaram.

– Niyə?

– İçki problemi bundan əvvəl peyda olmuşdu.

– Demək, səbəb ərinizin başqa qadınla sevişməsi deyildi.

– Yox, mən artıq içkiyə aludə olmuşdum, bu ərimi məndən uzaqlaşdırdı və o daha...

Kamal istiqamətləndirici suallarla mənə kömək etməyə cəhd göstərmədən və mənim hər şeyi ucadan tələffüz etməyimi gözləyərək bir söz demədi.

– ...Və o daha mənimlə yatmadı, – deyə sözümü bitirdim.

Onun qarşısında ağladığım üçün özümə nifrət edirəm. Nəyə görə özümü saxlaya bilmədiyimi anlamıram. Özüm haqqında bütün həqiqətləri ona danışmamalıydım. Hansısa mövcud olmayan bir adam haqqında uydurulmuş bir tarixçə ilə gəlmək lazım idi. Daha yaxşı hazırlaşmalı idim.

Mən özümü bağışlaya bilmirəm ki, Kamal Abdikin baxışları məni onun dərdimə şərik olduğuna inanmağa məcbur etdi. Çünki onun baxışlarında məhz bu vardı, bu baxışlar mərhəmət yox, anlayış və kömək etmək istəyi ifadə edirdi.

– Beləliklə, Reyçel, içki problemi sizin nikahınız pozulmamışdan əvvəl başlamışdı. Siz ilkin səbəbi deyə bilərsinizmi? İş burasındadır ki, bunu hər kəs edə bilmir. Bəziləri üçün bu tədricən depressiv vəziyyətə, ya da asılılığa düşməkdir. Bəs sizinlə necə oldu? Bəlkə ağır bir itki, ya da başqa bir şey?

Mən başımı bulayıb çiyinlərimi çəkdim. O bunu məndən eşitməyəcək. Bu barədə ona deməyəcəyəm.

O bir az gözlədi, sonra masanın üstündəki saata nəzər saldı.

– Bəlkə bu barədə növbəti dəfə danışmaq daha yaxşı olar? – o soruşdu və gülümsündü. Bu təbəssümdən mənim daxilimdə hər şey buza döndü.

O, bütünlüklə istilik saçırdı – əlləri, gözləri, səsi, yalnız təbəssümü yox. Yalnız dişləri ondakı qatili ələ verirdi. Mənim qarnımda yumaq əmələ gəldi, nəbzim yenə dəhşətli sürətlə vurmağa başladı. O, əlini uzatsa da, mən onun əlini sıxmadan kabinetdən çıxdım. Ona toxunmağa özümü məcbur edə bilmədim.

Mən hər şeyi anlayıram. Anlayıram ki, Meqan onda nə görmüşdü. Həm də məsələ onda deyil ki, o, həqiqətən gözəldir. O, təmkin, inam, dözüm və mehribanlıq saçır. Sadəlövh və səmimi adam bu xarici görünüş altında onun canavar mahiyyətini görməyə bilər. Hər şeyi anlayıram. Lakin mən bir saat onun cazibəsinin təsiri altında oldum. Ona çox şeyi açıqladım. Onun kim olduğunu unutdum. Mən Skotta xəyanət etdim, Meqana xəyanət etdim və buna görə xəcalət çəkirəm.

Lakin daha çox qayıtmaq istədiyimə görə utanıram.

Çərşənbə, 7 avquSt 2013-cü İl

Səhər

Mən yenə röya gördüm, guya nə isə dəhşətli bir şey etmişəm, hər kəs mənim əleyhimədir, hamının Toma yazığı gəlir. Mənsə izah edə bilmirəm, hətta üzr istəyə də bilmirəm, çünki nə günah işlədiyimdən hali deyiləm. Yuxulu-yuxulu dörd il bundan qabaq olmuş əsl qalmaqalı xatırlayıram, o zaman bizim ilk və yeganə İVF müvəffəqiyyətsizliklə bitmişdi və mən onu təkrarlamaq istəyirdim. Tom dedi ki, bizim buna pulumuz yoxdur, lakin bunu mən özüm də bilirdim. Biz ipoteka və borclar ödəyirdik, bu borclar Tomun

atasının onu cəlb etdiyi uğursuz bir işdən yaranmışdı və mənə yalnız ümid etmək qalırdı ki, nə zamansa bizdə pul olacaq, hələlik isə hər hamilə qadın görəndə və ya kiminsə hamiləliyi barədə söhbət eşidəndə sel kimi axan isti göz yaşlarımı udmalı olurdum.

İVF-nin uğursuz alındığını bildiyimizdən iki ay sonra, Tom dedi ki, beş günlüyə Veqasa boksçuların final yarışına baxmağa və fikrini dağıtmağa getməyi düşünür. O mənim heç zaman görmədiyim, özünün bir-iki köhnə tanışı ilə getmək istəyirdi. Bu səyahət çox böyük məbləğə başa gələcəkdi – bunu bilirəm, çünki reysin və hoteldə əvvəlcədən nömrə sifarişinin qaiməsi poçtla gəlmişdi. Matçın özünə biletin neçəyə olmasını bilmirəm, lakin o da ucuz ola bilməzdi. Bu pullar bir sikl İVF üçün yetməzdi, amma başlanğıc olardı. Bizdə çox dəhşətli dava qalxdı. Təfərrüatı artıq xatırlamıram, çünki bütün günü içmişdim ki, özümü belə bir söhbət üçün lazım olan vəziyyətə çatdırım. Dava başlayanda bundan pisini təsəvvür etmək olmazdı. Mən sonrakı gün onun soyuqluğunu və olub-bitənləri müzakirə etməkdən necə imtina etdiyini xatırlayıram. O mənim davranışım haqqında kənar bir adam kimi laqeydcə danışdı – mən bizim toy şəklimiz olan şüşəli çərçivəni parça-parça elədim, onu eqoist, pis ər və uğursuz adlandırdım. Yadımdadır, o gün özümə çox nifrət edirdim.

Əlbəttə, ona bu qədər pis sözlər deməkdə haqlı deyildim, lakin indi nədənsə mənə elə gəlir ki, hirslənməyə əsasım varmış. Elə deyil? Biz uşaq istəyirdik, bu isə o deməkdir ki, nəyisə qurban verməyə hazır olmalıyıq, elə deyil? Mən əlimdən, ayağımdan keçməyə hazır idim, təki hamilə qalım. Doğrudanmı, Veqasa getməkdən imtina etmək olmazdı?

Bu barədə düşünərək, yataqda bir az da uzandım, sonra qalxıb gəzmək qərarına gəldim, çünki heç bir şey etməsəydim, mütləq yaxınlıqdakı mağazaya yollanacaqdım. Bazar günündən bəri içməmişdim və hiss edirdim ki, orqanizmimdə mübarizə gedir. Başımda adət etdiyim ağırlığı hiss etmək istəyinin qarşısı belə bir şübhəli arqumentlə alınmışdı ki, bir neçə gün dözə bilmişəm və səylər boşa getsə, dilxorçuluq olacaq.

Eşberi gəzinti üçün o qədər də uyğun bir yer deyil – orada yalnız mağazalar və yaşayış evləri var, heç normal bir park da yoxdur. Mən şəhərin mərkəzindən keçirəm, ətrafda adamlar izdiham yaratmasa, bura ümumən pis

deyil. Əsas odur ki, özünü aldadasan, elə göstərəsən ki, guya harasa gedirsən, bir yer seçəsən və oraya yönələsən. Mən Plezans-roudun sonundakı kilsəni seçdim – Ketinin evindən oraya qədər iki mil olar. Vaxtilə orada “Anonim əyyaşlar cəmiyyəti”nin iclaslarına gedərdim. Ona görə də evin yanından getmirdim ki, tanış biri ilə rastlaşmayım.

Kilsəyə çatıb geri dönürəm və bilərəkdən evə doğru addımlayıram ki, harasa tələsən bir qadına bənzəyim. Normal görünmək üçün. Yoldan keçən tək-tük adamlara baxıram: bellərində çanta olan iki kişi marafona hazırlaşaraq qaçır, qara köynək və ağ idman ayaqqabısı geymiş qadın işə tələsir və çantasında hündür daban ayaqqabı aparır. Maraqlıdır, onlar nəyi gizlədirlər? Sərxoşluqdanmı qaçırlar? Yoxsa sadəcə, bir yerdə dayanmamaq və geri qalmamaq üçünmü? Dünən görüşdükləri və bu gün də görmək istədikləri qatil haqqında düşünürlərmi?

Mən dəliyəm.

Mən artıq evə çatmaq üzrəyəm, birdən sanki heyrət içində yerimdə donub qalıram. Kamalla seansdan nə gözlədiyimi düşünürəm – doğrudanmı, o kabinetdən çıxanda mən onun qutularını axtaracağam? Yoxsa ağzından nəsə qaçırmasına ümid edirəm ki, bəlkə bu onu ələ verər, təhlükəli əraziyə çıxarar? Hər şeydən görünür ki, o məndən xeyli ağıllıdır və mənim gəlişimi gözləyəcək. Axı onun adı qəzetlərdə çıxıb, buna görə də ehtiyatlı olacaq və gözləyəcək ki, onu söhbətə tutub hansısa informasiya almağa cəhd edə bilərlər.

Bax, başımı aşağı salıb, ayağımın altına baxaraq kiçik mağazanın yanından keçəndə bu barədə düşünürdüm. Gözümə içki sataşmasın deyə başımı qaldırıb baxmırdım, lakin gözümün ucu ilə onun adını görürəm. Dayanıram və tabloidin birinci səhifəsində iri başlıq görürəm: “MEQAN – UŞAQ QATİLİDİR?”

# Anna

---

Çərşənbə, 7 avqust 2013-cü İl

Səhər

Bu hadisə baş verəndə mən ana olmuş tanışlarımla qəhvəxanada oturmuşdum. Biz pəncərə önündə öz adi yerlərimizdə oturmuşduq, uşaqlar isə yanımızda "Leqo" detallarını döşəməyə səpib oynayırdılar. Bet neçənci dəfədir ki, məni kitab klubuna cəlb etmək istəyirdi. Sonra Diana da gəldi. Üzündəki ifadədən görünürdü ki, o özünü mühüm bir şəxs hesab edir, adətən xüsusi və dəyərli informasiya sahiblərinin üzündə belə ifadə olur. O özünü güclə saxlayırdı və əkizlərini qoyduğu geniş kolyaskanı qapıdan heç cür keçirə bilmirdi.

– Anna, – o, sanki qəbirdən gələn bir səslə dedi, – sən bunu görmüsənmi? – Birinci səhifəsində iri hərflərlə "MEQAN – UŞAQ QATİLİDİR?" yazılmış qəzeti mənə uzatdı.

Mənim nitqim tutuldu. Sadəcə, başlığa baxdım və birdən hönkürdüm. Evi qorxdu və ağlamağa başladı. Bu dəhşət idi.

Özümü (Evini də) qaydaya salmaq üçün tualetə getdim, qayıdanda hamı bir-birinə baxır, pıçıldaşırdı. Diana gözlərini qaldıraraq istehza ilə maraqlandı:

– Hər şey qaydasındadır, əzizim?

Bundan necə məmnun olduğu aydın görünürdü.

Mən oradan getməli oldum, çünki orada qala bilməzdim. Onların hamısı mənim dərdimə şərik idilər, yəqin, bunun mənim üçün böyük bir zərbə olduğunu deyirdilər, amma onların üzündə yaxşı gizləyə bilmədikləri bir ittiham vardı. Sən uşağı belə bir canavara necə etibar edə bilmisən? Bunun üçün dünyada ən pis ana olmaq lazımdır?!

Toma zəng etməyə çalışdım, lakin onun telefonu o saat səs poçtuna keçirdi. Ona mesaj göndərdim ki, imkanı olan kimi mənə zəng etsin, həyəcansız danışmağa çalışsam da, ayaq üstdə zorla dayanmışdım.

Mən qəzeti almadım, lakin özümü saxlaya bilməyib xəbəri İnternetdən oxudum. Orada hər şey çox dumanlı şəkildə ifadə edilmişdi. "Hipvell işinin istintaqına yaxın mənbələr" xəbər verir ki, Meqan "bəlkə də öz uşağının ölümündə günahkardır", bu hadisə on il əvvəl baş verib. Bu "mənbələr"

istisna etmirlər ki, bu hadisə onun öz qətli üçün əsas ola bilər. İstintaqın rəhbəri, Meqan yoxa çıxdıqdan sonra bizə gəlmiş inspektor Qaskill bu informasiyanı şərh etməkdən imtina etmişdi.

Tom mənə zəng etdi – görüşlərarası fasilə imiş, ona görə də evə gələ bilməmişdi. O məni sakitləşdirməyə cəhd etdi, dedi ki, bu çox ehtimal ki, növbəti mətbuat şayiəsidir.

– Sən məndən də yaxşı bilirsən ki, qəzetlərin yazdığının yarısına inanmaq olmaz.

Mən öz hisslərimə azadlıq vermədim, çünki Eviyə baxmaqda mənə kömək üçün Meqanı dəvət etmək onun ideyası idi. O özünü onsuz da çox pis hiss etməli idi.

Həm də o haqlıdır. Bütün bunlar yalan da ola bilərdi. Lakin bu kimə lazımdır? Belə bir şeyi niyə uydursunlar? Həm də təəccüblənmədiyimi hiss edirəm. Həmişə mənə elə gəlirdi ki, bu qadında nəsə doğru deyil. Əvvəlcə düşünürdüm ki, o bir az infantildir, lakin məsələ başqa imiş – o öz aləmində yaşayırmış. Özünə dalmış vəziyyətdə. Mən sevinirəm ki, o daha yoxdur. Yaxşı yol!

Axşam

Yuxarıda, yataq otağındayam. Tom Evi ilə televizora baxır. Biz danışmırıq. Bu mənim təqsirimdir. O evə gələn kimi, ona hücuma keçdim.

Bütün günü hər şey elə buna doğru gedirdi. Özümlə bacarmırdım, bundan gizlənə bilmirdim, harada olurdumsa, bu qadın da orada olurdu. Burada, mənim evimdə, o mənim uşağımı əllərində tutub, onu yedizdirib, əynini dəyişdirib, mən mürgülədikdə onu oynadıb. Evini ona etibar etdiyim bütün halları xatırlayıram və halım pisləşir.

Sonra da paranoyaya növbə çatır – elə hiss yaranır ki, məni daim izləyirlər. Bu evdə yaşadığımız bütün müddət ərzində bu hiss məni heç tərk etmədi. Əvvəlcə mənə elə gəlirdi ki, səbəb qatarlardır. Vaqonların pəncərələrindən bizə baxan bütün bu sifətsiz adamlar məni ürpəşdirirdi. Birinci növbədə məhz buna görə, buraya köçmək istəmirdim, lakin Tom buradan getmək istəmədi. O deyirdi ki, evi satarkən biz çox pul itirəcəyik.

Əvvəlcə, bu – qatarlar idi, sonra – Reyçel. O bizi izləyirdi, küçədə qarşımıza çıxırdı, daima zəng edirdi. Sonra buna Meqan da əlavə olundu; o, burada Eviyə baxanda mənə həmişə elə gəlirdi ki, o məni müşahidə edir və necə bir ana olduğumu dəyərləndirir, kənardan yardım olmadan keçinə bilmədiyimə görə məni qınayır. Başa düşürəm ki, bu axmaqlıqdır. Sonra isə Reyçelin necə bizim evə girib Evini götürdüyünü xatırladım. Bədənim buza döndü, düşündüm ki, mənim qorxularımda heç bir axmaqlıq yoxdur.

Bax buna görə də Tom gəlincəyə qədər elə vəziyyətə çatmışdım ki, daha özümü saxlaya bilmədim. Ona ultimatum verdim: biz buradan köçməliyik. Burada nə baş verdiyini bilərək, mən bu evdə, bu küçədə heç bir vəchlə qalmayacağam. İndi haraya baxıramsa, təkcə Reyçeli deyil, Meqanı da görürəm. Onun toxunduğu bütün əşyalar haqqında düşünürəm. Bu dözülməzdir. Dedim ki, mənim üçün heç bir fərqi yoxdur, evi baha satacağıq ya ucuz.

– Biz daha pis yerdə yaşamalı olduqda və ipotekanı ödəməyə pulumuz olmayanda, sənin üçün fərqi olacaq, – o tamamilə əsaslı şəkildə etiraz etdi.

Mən soruşdum ki, onun valideynləri bizə pulla kömək edə bilməzlərmi – onlar zəngindirlər, – lakin o dedi ki, daha heç zaman onlardan heç nə xahiş etməyəcək. Həm də hirsləndi, elan etdi ki, daha bu mövzuda söhbəti kəsir. Hər şey Tomun valideynlərinin onun mənə görə Reyçeli atmaq qərarını necə qəbul etmələrindən qaynaqlanırdı. Mən onlar haqqında deməməliydim – valideynləri haqqında danışmaq Tomu həmişə özündən çıxarır.

Lakin özümlə bacarmırdım. Ümidsizlik içindəydim, çünki hər dəfə gözümü yumanda, Meqanı qucağında Evi, mətbəx masasının arxasında görürdüm. O qızla oynayır, gülümsünür və danışırdı, lakin həmişə özünü qeyri-səmimi aparırdı, elə bil ümumiyyətlə, burada olmaq istəmirdi. Getmək vaxtı çatanda isə Evini məmnuniyyətlə mənə verirdi. Sanki uşağı əlində saxlamaq onun xoşuna gəlmirdi.

# Reyçel

---

Çərşənbə, 7 avqust 2013-cü İl

Axşam

Dözülməz isti var və artmağa davam edir. Mənzilin pəncərələri taybatay açıqdır və küçədən dəm qazı qoxusu gəlir. Boğazım qıcıqlanır. Mən gün ərzində ikinci dəfə duş qəbul edirəm və bu zaman telefon zəng çalır. Dəstəyi götürmürəm, lakin o bir də zəng edir. Sonra bir də. Mən duşdan çıxanda o dördüncü dəfə zəng edir və mən cavab verirəm.

O vahimədədir və boğularaq, qırıq cümlələrlə danışır:

– Mən evə girə bilmirəm, orada hər yerdə kamera var.

– Skott?!

– Bilirəm, bu... mənasız səslənir, ancaq mənə elə bir yerə getmək lazımdır ki, orada məni gözləməsinlər. Anamın, ya da dostlarımın yanına gedə bilmərəm. Mən... sadəcə, maşında gəzirəm, polis şöbəsindən çıxandan hələ də maşındayam... – O duruxur. – Mənə, sadəcə, haradasa bir-iki saat olmaq lazımdır. Oturub düşünmək. Onlarsız, polissiz, bütün bu lənətə gəlmiş sualları verən adamlarsız. Bağışlayın, sizə gələ bilərəmmi?

Cavab verirəm ki, əlbəttə, buyurun. Özü də ona görə yox ki, o vahimədədir və ümidsizdir: mən onu görmək istəyirəm.

Ona kömək etmək istəyirəm. Ona ünvanı deyirəm. O on beş dəqiqədən sonra burada olacağını söyləyir.

On dəqiqədən sonra kəskin qısa zənglər çalınır.

– Bağışlayın, narahat edirəm, – o qapıda deyir, – amma mən bilmirəm, başqa kimə müraciət edim.

Onu sanki küncə sıxmışdılar; sarsılmış, rəngi ağarmışdı və tamam tər içindəydi.

– Hər şey qaydasındadır, – onu sakitləşdirir və içəri buraxıram. Qonaq otağına ötürüb divanda yer göstərirəm. Mətbəxdən bir stəkan su gətirirəm, o birnəfəsə içir, oturur və dirsəklərini dizinə dayayaraq başını sallayır.

Mən bilmirəm nə yaxşıdır – nəsə bir şey söyləməkmi, yoxsa susmaqmı? Sonra bir söz demədən stəkanı götürüb yenə doldururam. Nəhayət, o sükutu

pozur:

– Bilirsiniz ki, ən pisi artıq baş verib? Demək istəyirəm ki, bunu ağlınıza gətirə bilərdiniz? – O gözlərini mənə qaldırır. – Arvadım ölüb və polis məni qatil hesab edir. Bundan pis nə ola bilər?

O yeniliklər haqqında danışır, Meqan haqqında qəzetlərdə yazılanlardan, tabloiddə olan məqalədən, guya polisdən alınan məlumata görə Meqanın uşağın ölümündə günahı olmasından danışır. Ölmüş qadına mənasız və çirkin bir böhtan. Bu namərdlikdir.

– Bu çirkin yalandır! – deyirəm. – Bu, sadəcə, ola bilməz!

O, təəccüblə mənə baxır. Çaşqınlıq içindədir.

– Bu gün səhər serjant Rayli bir yeniliyi mənə xəbər verdi, – o davam edir və boğazını arıtlayaraq öskürür, – bu xəbəri həmişə eşitməyi arzu edirdim. Siz təsəvvür edə bilməzsiniz, – onun səsi daha çox pıçıltıya oxşayır, – bunu necə uzun müddət gözləmişəm. Daim təsəvvürümdə canlandırırdım ki, o necə mənə baxacaq, utancaq-utancaq, mənalı-mənalı gülümsəyəcək, əlimi alıb dodaqlarına yaxınlaşdıracaq...

O, xatirələrə dalaraq sakitləşir, mənimsə nədən söhbət getdiyindən anlayışım belə yoxdur.

– Bu gün, – o, nəhayət, deyir, – bu gün mənə xəbər verdilər ki, Meqan hamilə imiş.

O ağladı. Məni də qəhər boğmağa başlayır. Mən o qadına ağlayırdım ki, doğması qismət olmayan körpəsinin varlığından xəbəri olmayıb. Lakin belə bir dəhşətə necə dözmək olar? Mən başa düşmürəm, Skott necə hələ nəfəs alır. Bu onu öldürməli idi, o isə hələ dözür.

Danışa bilmirəm, tərpənə bilmirəm. Pəncərələr açıq olmasına baxmayaraq, qonaq otağında isti və boğanaqdır. Küçədən adi səslər gəlir: polis sireni, qışqırtılar və qız gülüşü, ötüb-keçən maşından dinamiklərin gumbultusu. Lakin burada, qonaq otağında, dünyanın sonu gəlmişdi. Skott üçün dünyanın sonu idi, mənsə bircə söz də deyə bilmədən, yerimdə donub, susqun və çarəsiz halda qalmışam.

Girişin önündə pillələrdə addım səsləri və Ketinin çox böyük çantasından açarları tapıb çıxarmasının tanış cingiltisi eşidilir. Bu məni həyata qaytarır. Nəsə etmək lazımdır: mən Skottun əlindən yapışıram və o mənə qorxu ilə baxır.

– Gedək, – deyirəm və hələ Keti açarlarla məşğulkən, onunla pilləkənlə yuxarı, öz otağıma çıxmağa müvəffəq oluram və qapını örtürəm.

– Bu mənim mənzil qonşumdur, – izah edirəm. – O... o, suallar verə bilər. Bu isə indi sizə heç lazım deyil.

O, başı ilə təsdiqlyir və baxışları ilə mənim çılpaq divarlı bu balaca otağımı nəzərdən keçirir və yığılmamış yatağı, hər tərəfə dağılmş alt paltarını – təmizi və çirklisi ilə – görür. Məni xəcalət bürüyür. Bütün həyatım belədir: natəmiz, miskin və primitiv. Bir sözlə, bekara. Bu zaman anlayıram ki, Skottun bu saat mənim həyat tərzimi dəyərləndirəcək halı yoxdur və bu barədə düşünmək, sadəcə, axmaqlıqdır.

Mən onu əlimlə yatağın üstündə oturmağa dəvət edirəm. O tabe olur və ağır-ağır nəfəs alaraq əlinin arxası ilə gözlərini silir.

– Bir şey istəyirsinizmi? – soruşuram.

– Bəlkə pivə?

– Mən evdə spirtli içki saxlamıram, – necə qızardığımı hiss edərək izahat verirəm.

Amma Skott heç nə hiss etmir və heç gözlərini də qaldırmır.

– Mən sizə çay verə bilərəm.

O yenə başı ilə təsdiqləyir.

– Uzanın və dincəlin.

O, ayaqqabılarını çıxarır və xəstələnmiş uşaq kimi, itaətkarcasına uzanır.

Aşağıda çaydan qaynayana qədər, bir az Keti ilə söhbət etdim, o dedi ki, Nortkoutda lanç üçün əla bir yer kəşf edib ("orada gözəl salatlar verirlər"). Sonra yeni işçilərinin çox zəhlətökən olduğundan danışdı. Mən gülümsəyir

və başımı tərpədirəm, lakin fikrim başqa yerdədir. Pilləkənin cırıldayıb-cırıldamadığına diqqətlə qulaq verirəm. O buradadır və yuxarıda mənim yatağımda uzanıb. Təkcə bu fikrin özündən başım yüngülcə fırlanır.

Keti susur və qaşlarını çataraq diqqətlə mənə baxır.

– Hər şey qaydasındadır? – o soruşur. – Sən nə isə... birtəhər görünürsən.

– Sadəcə, bir az yorulmuşam, – izah edirəm. – Nə isə bir az xəstə kimiyəm. Bu gün bir az tez uzanmaq istəyirəm.

O, yenə mənə baxır. Bilir ki, içməmişəm (o, həmişə bunu müəyyən edə bilir), lakin görünür, buna hazırlaşdığımı fikirləşir. Bu saat mənim üçün fərqi yoxdur, bu barədə düşünməyə vaxtım da yoxdur, odur ki, çay fincanını götürüb Keti ilə səhərə qədər vidalaşıram.

Mən öz qapıma yaxınlaşıram və dinləyirəm. Sakitlikdir. Qapının dəstəyini ehtiyatla çevirirəm və içəri girirəm. O, bayaqkı kimi uzanıb: qolları yanda, gözlər qapalı. Onun nəfəsini eşidirəm – sakit və qeyri-rəvan. O, yatağın yarısını tutub, lakin ürəyimdən onun yanında uzanıb əlimi sinəsinə qoyaraq sığallamaq keçir. Lakin mən, sadəcə, öskürdüm və çay fincanını ona uzatdım.

O oturdu.

– Sağ ol, – o, fincanı alaraq deyir. – Sağ olun ki... sığınacaq verdiniz. Bu, kabus idi... hətta bilmirəm, o məqalədən sonra, nə olduğunu necə təsvir edim.

– Bir neçə il bundan əvvəl olanlar haqqında?

– Bəli, o barədə.

Belə bir informasiyanın tabloidə necə sızdığı geniş müzakirə olunurdu. İndi hamı müxtəlif versiyalar səsləndirməkdə yarışır və mənbə olaraq gah polisi, gah Kamal Abdiki, Gah Skottu göstərirdi.

– Amma bu yalandır, – deyirəm, – elə deyil?

– Əlbəttə, yalandır, amma cinayət üçün əsasdır. Hər halda onlar belə deyirlər: Meqan öz uşağını öldürüb və kimsə – böyük ehtimalla uşağın atası – buna görə onu cəzalandıra bilər. Hətta yüz il sonra.

– Ağlasığmaz!

– Amma hamı onu deyir ki, mən Meqanı qaralamaq üçün bunu qəsdən uydurmuşam, özümdən şübhələri uzaqlaşdırıb əqrəbi başqasına – onun keçmiş həyatından birinə – yönəltmək üçün etmişəm.

Onun yanında otururam. Budlarımız bir-birinə toxunur.

– Bəs polis nə düşünür?

O, çiynini çəkir:

– Konkret heç nə. Onlar bu barədə nə bildiyimi soruşdular. Onun əvvəllər uşağı olduğunu, başına nələr gəldiyini hardan biləydim? Necə bilərdim ki, uşağın atası kim olub? Cavab verdim ki, bilmirəm və bütün bütün bunlar sayıqlamalardır, o, heç vaxt hamilə olmayıb... – Onun nəfəsi tutulur və o fincandan bir udum alır. – Bunların qəzetə necə düşdüyünü soruşdum, onlar izah etməkdən boyun qaçırdılar. Məncə, bütün bunların mənbəyi Abdikdir. – Skott dərindən köks ötürür. – Başa düşmürəm, nə üçün. Meqan haqqında belə şeylər demək onun nəyinə lazımdır. Onun ağlı yerində deyil.

Mən bu günlərdə tanış olduğum adam haqqında düşünürəm: onun özünü təmkinli aparmaq manerası, yumşaq səsi, baxışlarındakı dəstək. O, ağılsız adama oxşamır. Amma təbəssümü...

– Amma belə şeyləri necə çap ediblər?! Yəqin müvafiq qanunlar var...

– Ölənlərə böhtan atmaq olmaz, – o deyir və susaraq əlavə edir: – Məni inandırdılar ki, onun hamiləliyi barədə informasiyanı açmayacaqlar. Ən azından dəqiq bilənə qədər.

– Dəqiq bilənə qədər?

– Bu, Kamal Abdikin uşağı deyil.

– Onlar DNT testi eləyiblər?

O başını bulayır:

– Yox, sadəcə, mən bilirəm. İzah edə bilmərəm necə, amma bunu mən

bilirəm. Bu uşaq mənimdir... mənim idi.

– Əgər o hesab etsə ki, uşaq ondandır, onda cinayət motivi yaranar, elə deyil?

Kamal anasını öldürməklə uşaqdan canını qurtarmaq istəyən birinci kişi olmazdı. Lakin bunu demək istəmədim. Onu da demədim ki, bu halda Skott üçün də motiv yaranır. Əgər o, arvadının başqa bir kişidən hamilə qaldığını fikirləşirdisə... Lakin o bunu edə bilməzdi. Onun çaşqınlığı və ümidsizliyi şübhə doğurmur. Belə inandırıcı rol oynamaq, sadəcə, mümkün deyil.

Skott, görünür, daha qulaq asmır. Onun baxışları harasa uzaqlara yönəlib və yataq onu süzülən qumlar kimi öz qucağına çəkir.

– Sizin bir müddət burada qalmağınız lazımdır, – təklif edirəm. – Yatmağa çalışın.

O mənə baxır və gözlərinin küncündə təbəssüm yaranır.

– Olar? – o soruşur. – Bu yaxşı olardı... mən çox təşəkkür edirəm. Evdə yata bilmirəm. Məsələ küçədə gözləyib məndən nəsə istəyən adamlarda deyil. Sadəcə, evdə hər yerdə Meqan var, mən daim onu görürəm. Pilləkənlə enirəm və baxmıram, özümü baxmamağa məcbur edirəm, lakin pəncərənin yanından keçəndə onun terrasda oturduğuna əmin olmaq üçün mütləq geri qayıdıram.

Onu dinləyərək gözlərimin yaşla dolduğunu hiss edirəm.

– Bilirsiniz, o bizim kiçik terrasda oturmağı xoşlayırdı. Orada oturub, gəlib-keçən qatarları müşahidə etməyi sevirdi.

– Bilirəm, – deyirəm və onun əlini əlimlə örtürəm. – Mən onu orada tez-tez görürdüm.

– Mən tez-tez onun səsini eşidirəm, – o davam edir. – Məni necə çağırdığını eşidirəm. Yatağa uzanır və eşidirəm ki, o məni həyətdən necə çağırır. Daim mənə elə gəlir ki, o oradadır. – O, titrəməsini kəsə bilmir.

– Uzanın, – deyirəm, fincanı alaraq. – Sizə dincəlmək lazımdır.

Onun yuxuya getməsini gözlədikdən sonra yanına uzanıram və onun çiyni mənim üzümdən bir neçə düym məsafədə olur. Gözlərimi yumuram,

ürəyimin döyüntüsünü dinləyir və boynumda damarın necə vurduğunu hiss edirəm. Onun köhnə və qəmgin qoxusunu içimi çəkirəm. Bir neçə saatdan sonra mən yuxudan ayıldıqda, o, artıq yox idi.

Cümə axşamı, 8 avqust 2013-cü İl

Səhər

Özümü satqın kimi hiss edirəm. O mənim yanımdan indicə gedib, mənsə artıq, onun arvadının qatili hesab etdiyi Kamalla yeni görüşə gedirəm. Həm də öz uşağının qatili. Mən heç özümdə deyiləm. Bəlkə ona öz planım haqqında danışmalı, nə etdiyimi və onun üçün etdiyimi deməliydim? Amma mən o qədər də əmin deyiləm ki, bunu yalnız ona görə edirəm, həm də əslində mənim heç bir planım da yoxdur.

Mən Kamala özüm haqqında bir az danışacağam. Bu gün belə bir planım var. Həqiqəti danışacağam. Uşaq istədiyimi deyəcəyəm. Baxacağam, o buna necə reaksiya verəcək: bəlkə o özünü nə iləsə ələ verəcək, ya da başqa bir şey. Görək, nə öyrənə biləcəyəm.

Amma mən heç nə öyrənə bilmədim.

O mənim özümü necə hiss etdiyimə və son dəfə nə vaxt içdiyimə dair suallar verərək söhbətə başlayır.

– Bazar günü, – cavab verirəm.

– Əla. Bu lap əladır. Sizin görkəminiz də yaxşıdır, – o deyir və əllərini dizinə qoyur. Gülümsəyir və bu dəfə onun təbəssümündə dəhşətli heç nə görmürəm. Bəs keçən dəfə nə görmüşdüm? Doğrudanmı, hamısını uydurmuşam?

– Keçən dəfə siz soruşdunuz ki, məndə içki ilə bağlı problemlər nə zaman başlayıb? – deyirəm. – Biz cəhd etdik... mən cəhd etdim ki, hamilə qalım. Lakin bacarmadım və depressiyaya girdim. Elə o vaxt başlandı.

Yenə ağladım. Əgər tanış olmayan adamlar belə mehribanlıq göstərirlərsə, özünü saxlamaq olmur. Tamamilə kənar bir adam sənə baxır və deyir: sən nə etsən, necə davransan da qorxulu bir şey yoxdur, – sən əzab çəkirdin, sənə çətin idi və sən bağışlanmağa layiqsən. Mən ona öz sirlərimi

etibar edirəm və buraya nə üçün gəldiyimi yenə unuduram. Onun reaksiyasına fikir vermirəm, gözlərini müşahidə etmirəm ki, orada günahı, ya da şübhəni görüm. Mənə təsəlli verməsinə imkan verirəm.

O, mehriban və məntiqlidir. O, həyatda qalmaq strategiyasından danışır, xatırladır ki, mən hələ gəncəm.

Bax buna görə də heç nə öyrənə bilmədim – onun kabinetini bir yüngüllük və ümid hissi ilə tərk etdim. O mənə yardım etdi. Mən qatara əyləşirəm və Kamalı bir qatil olaraq təsəvvür etməyə çalışıram, lakin bacarmıram. Onu qadına əl qaldıracaq və başını yaracaq bir adam kimi təsəvvürümdə canlandıra bilmirəm.

Ağlıma kramol bir müqayisə gəlir: bir tərəfdə incə və əsəbi barmaqları olan, mülayim və yumşaq nitqli Kamal, digər tərəfdə isə – Skott, heyvərə, güclü, tez özündən çıxan, ümidsizlyə qapılmış. Yadıma salıram ki, bütün bu hadisələrə qədər Skott necə idi. Sonra onun əvvəllər necə adam olduğunu bilmədiyimi anlayıram.

Cümə, 9 avqust 2013-cü İl

Axşam

Qatar semaforda dayanır. Mən cin-tonik bankasından bir udum alıram və onun evinə, terrasa baxıram. Bütün bu günlər ərzində özümü yaxşı saxlamışdım, lakin indi mənə cəsarətli olmaq üçün içmək lazımdır. Mən Skottun yanına gedirəm və Blenhaym-roudda Tomla, Anna ilə, polis və jurnalistlərlə rastlaşmaq riski var. Hələ bu yeraltı keçid, keçirdiyim dəhşət haqqında xatirə parçaları və qan. Lakin o məndən gəlməyimi xahiş etdi, mən də imtina edə bilmədim.

Dünən axşam kiçik bir qız uşağı tapıblar. O, Şərqi İngiltərə sahillərində bir ferma yanında basdırılmışdı. Onu harda axtarmağı kimsə xəbər veribmiş. Bu gün qəzetlərdə bu yazılmışdı:

Uitnidə yaşayan və keçən həftə Korli-Vudda meyiti tapılan Meqan Hipvellin ölüm işi üzrə aparılan istintaq çərçivəsində, polis mümkün bir qətl barədə və cəsəd qalıqlarının ola biləcəyi yer barədə informasiya alıb. Norfolkun şimalında, Holkhemdə evin bağında basdırılmış uşaq cəsədinin

qalıqları aşkar edilib. Polis uşaq ölümü faktına görə istintaqa başlayıb.

Səhər qəzetdə bu xəbəri oxuyub dərhal Skotta zəng etdim. O cavab vermədi, ona görə də həmrəylik və dəstək ifadə edən mesaj buraxdım. O yeməkdən sonra mənə zəng etdi.

– Hər şey yolundadır? – soruşdum.

– Nə deyim, – o sərxoş idi və dili dolaşırdı.

– Mən çox təəssüf edirəm... sizə bir şey lazımdırmı?

– Mənə elə bir adam lazımdır ki, arası kəsilmədən – “xəbərdar etmişdim” – deyə təkrar etməsin.

– Bağışlayın?

– Bu səhər yanıma anam gəlmişdi. Guya o, hər şeyi qabaqcadan bilirmiş. “Bu qızda nəsə doğru deyil, onun nə ailəsi var, nə dostları, haradan peyda olduğu da məlum deyil”. Yalnız maraqlıdır ki, niyə mən bu barədə birinci dəfədir eşidirəm. – Qırılan stəkan və lənət səsi eşidilir.

– Hər şey qaydasındadır? – yenə soruşuram.

– Siz buraya gələ bilərsinizmi?

– Evə?

– Bəli.

– Mən... polis, jurnalistlər... bilmirəm...

– Lütfən. Mənim yanımda kimsə lazımdır, Meqanı tanıyan və sevən biri. Bütün bu... inanmayan biri...

O, sərxoş idi, mən bunu bilirdim, lakin yenə də razı oldum.

İndi qatarda oturub özüm də içirəm və onun sözlərini düşünürəm. “Meqanı tanıyan və sevən birisi”. Mən onu tanımırdım və ona əvvəlki kimi yaxşı münasibət bəslədiyimdən də əmin deyiləm. Bankanın içindəkini tez içib yenisini açıram.

Uitnidə qatardan düşürəm. Mən – cümə günü axşam şəhərətrafı qəsəbəyə

qayıdan izdihamın bir parçasıyam, bütün bu yorğun və tərləmiş, bağda əlində pivə sakitcə oturub uşaqlarla şam etmək və erkən yatmağa uzanmaq üçün evə tələsən adamlar kimi mən də maaşın girovuyam. Yəqin cin belə təsir edir, amma yenə izdihama qoşulub getməyim, hər kəsin buraxılmış zəngləri, turniketdən keçmək üçün cibindəki bileti yoxlaması necə də yaxşıdır. Mən xəyalən keçmişə qayıdıram, Blenhaym-roudda bizim ilk yay dövründə, hər axşam evə tələsirdim, platformanın pillələrilə aşağı qaçırdım, sonra stansiyadan küçəyə qaça-qaça gedirdim. Onda Tom evdə işləyirdi və mən qapıdan girməmiş, o məni soyundurmağa başlayırdı. Hətta indi də bunu xatırlayarkən gülümsəyirəm və özümdən asılı olmayaraq məni gözləyəni xəyalıma gətirirəm. Qaçdıqda yanaqlarım yanırdı və dodaqlarımı gəmirirdim ki, axmaq kimi gülümsəməyi kəsim. Onun haqqında fikirləşəndə və onun mənim gəlməyimi səbirsizliklə gözlədiyini təsəvvür edəndə nəfəsim kəsilir.

Mən xatirələrə elə dalmışam ki, Tom, ya da Annaya, polisə, jurnalistlərə rast gəlmək haqqında qorxularımı tamamilə unuduram. Budur, mən artıq Skottun evinin yanındayam və zəngi basıram. Qapı açılır və mən ruh yüksəkliyi hiss edirəm, hərçənd bu olmamalıdır. Lakin əsla utanmıram, çünki Meqan – onun haqqında düşündüyüm kimi bir qadın deyilmiş. O mənim düşündüyüm əla, qayğısız, terrasdakı qız deyilmiş. Ərini sevən bir qadın deyilmiş. Hətta, sadəcə, yaxşı insan da deyilmiş. O, əsl yalançı imiş.

Həm də qatil.

# Meqan

---

Cümə axamı, 20 İyun 2013-cü İl

Axşam

Mən əlimdə şərab bakalı ilə onun qonaq otağında divanda otururam. Evdə əvvəlki kimi səliqəsizlik hökm sürür. Maraqlıdır, o, həmişə bir yeniyetmə kimi yaşayır? Mən xatırlayıram ki, o elə yeniyetmə yaşında valideynlərini itirib, odur ki, bəlkə də elədir. Ona yazığım gəlir. O, mətbəxdən qayıdır və yanımda əyləşir. Əgər mən bunu edə bilsəydim, hər gün buraya gəlib bir-iki saat oturardım. Sadəcə, oturar və şərab içər, onun

əlimə toxunuşunu hiss edərdim.

Lakin bunu edə bilmərəm. Mən öz etiraflarımda ən gizlinlərə gəlib çatmışam və o məni onlara qaytarır.

– Yaxşı, Meqan, – o deyir. – Sən davam etməyə hazırsanmı? Söhbətini bitirməyə?

Mən yüngülcə ona sıxılıram. O istidir və geri çəkilmir. Gözlərimi yumuram, yenidən xəyalən həmin gecəyə keçirəm və özümü vannada görürəm. Bu qəribədir, nəzərə alsaq ki, həmin günləri və gecələri xatırlamamaq üçün mən nə qədər qüvvə sərf etmişdim. İndi isə gözlərimi yummaq yetərli idi ki, yenidən orada olam, elə bil gördüyüm yuxuya qayıtmışdım.

Ətraf qaranlıq və çox soyuqdur. Mən artıq vanna otağında deyiləm.

– Mən dəqiq bilmirəm nə baş verib. Xatırlayıram ki, yuxudan ayıldım və başa düşdüm ki, nəsə dəhşətli bir şey olub və Mak artıq evdədir. O məni çağırırdı. Mən eşitdim ki, o məni aşağıdan çağırdı, lakin tərpənə bilmədim. Mən vanna otağında döşəmənin üstündə oturmuşdum və onu əllərimdə tutmuşdum. Dama yağış döyəcləyirdi, külək qəzəblə vıyıldayırdı. Mənə dəhşətli dərəcədə soyuq idi. Mak məni çağıra-çağıra yuxarı qalxdı, qapıda göründü və işığı yandırdı. Mən vanna otağını qərq edən kəskin işıqdan qamaşan gözlərimi qıyıram.

“İşığı söndür!” deyə qışqırdığımı xatırlayıram. Baxmaq istəmirdim, onu elə görmək istəmirdim. Bilmirəm, sonra nə olduğunu bilmirəm. O mənim üstümə qışqırdı. Mən uşağı ona verərək qaçdım. Evdən birbaşa yağışın altına atıldım və dənizə doğru qaçdım. Sonra nə olduğunu xatırlamıram. O mənim arxamca tez gəlmədi. Yağış yağmaqda davam edirdi. Mənə elə gəlir ki, qum təpələrində idim. Suya girmək istədim, lakin bu mənə həddən artıq dəhşətli gəldi. Nəhayət, o mənim arxamca gəldi. Məni evə apardı.

Biz onu səhər dəfn etdik. Mən onu mələfəyə bükdüm, Mak isə qəbir qazdı. Biz onu sahənin lap kənarında, atılmış dəmiryol xəttinin yanında dəfn etdik. Qəbrin üstünə də daşlar qoyduq ki, yeri itib-batmasın. Biz bu barədə danışmırdıq, biz, ümumiyyətlə, heç nə haqqında danışmırdıq və bir-birimizə baxmırdıq. O gecə Mak çıxıb getdi. Dedi ki, görüş təyin edib. Düşündüm ki,

yəqin polisə gedib. Nə edəcəyimi bilmirdim. Onu gözlədim, gözlədim ki, heç olmasa kimsə gələcək. Lakin o qayıtmadı. O, biryolluq getdi.

Mən Kamalın isti qonaq otağında oturub onun isti bədəninə sıxılmışam və titrədirəm.

– Mən əvvəlki kimi bunu hiss edirəm, – ona deyirəm. – Gecələr bu hiss qayıdır. Mən qorxuram ki, yenə evdə tək qalaram və qorxudan yuxuya gedə bilmirəm. Onda məni dəhşət bürüyürdü, dəhşətdən yata bilmirdim.

Mən bütün bu qaranlıq otaqlarda gəzirdim və onun ağlamaq səsini eşidirdim, onun qoxusunu hiss edirdim. Məndə hallüsinasiyalar başladı. Gecələr qəflətən yuxudan ayılırdım, əmin idim ki, evdə məndən başqa daha kimsə var. Ya da nəsə. Mənə elə gəlirdi ki, dəli oluram. Ölürəm. Yəqin burada qalmaq yaxşıdır və nə vaxtsa mənim cəsədimi mütləq tapacaqlar. Ən azından onda biz onunla ayrılmayacağıq.

Mən hıçqırıram və masanın üstündəki kağız salfetə əlimi uzadıram. Kamalın əli mənim kürəyimdə aşağı sürüşür, o əlini çəkmir.

– Lakin orada qalmağa mənim cəsarətim çatmadı. Təxminən on gün gözlədim, sonra bütün ərzaq tükəndi, hətta bankada lobya belə qalmadı. Əşyalarımı yığıb, çıxıb getdim.

– Sən sonra Makla yenə görüşdünmü?

– Yox, heç zaman. Son dəfə onu həmin gecə gördüm. O məni öpmədi və hətta vidalaşmadı da. Sadəcə dedi ki, görüşə gedir. – Mən çiynimi çəkirəm. – Bununla hər şey bitdi.

– Bəs sən onu axtarmağa cəhd etdinmi?

Mən başımı buladım:

– Xeyr. Əvvəlcə çox qorxurdum. Mən bilmirdim onu tapsam o necə hərəkət edəcək. Həm də onun harada ola biləcəyi haqda anlayışım belə yox idi – onun heç mobil telefonu də yox idi. Mən onun ünsiyyətdə olduğu adamlarla əlaqəni itirmişdim. Onun dostları uzun müddət bir yerdə qalmırdılar və tez-tez köçürdülər. Hippi, səfillər. Bir neçə ay bundan əvvəl bizim seanslardan birində ondan söhbət düşərkən, İnternettdə onu tapmağa

cəhd etdim, lakin alınmadı. Bütün bunlar qəribədir...

– Məhz nə qəribədir?

– İlk zamanlar hər yerdə o mənim gözümə görünürdü. Küçədə, ya da barda birdən ona çox oxşayan adam görürdüm, ürəyim az qalırdı yerindən çıxsın. İzdihamın içində onun səsini eşidirdim. İndi isə... mənə elə gəlir ki, o ölüb.

– Niyə?

– Bilmirəm. Mən elə hiss edirəm.

Kamal qəddini düzəldir, ehtiyatla geri durur və mənə doğru çevrilir:

– Məncə, bu sadəcə, sənin təxəyyülünün oyunudur, Meqan. Ayrıldıqdan sonra sənə əziz olan adamları gördüyünü sanmaq, tam normal və adi bir şeydir. Əvvəllər mənə daim elə gəlirdi ki, qardaşlarım qələbəliyin arasındadır. "Onun öldüyü" hissinə gəlincə, bu onun sənin həyatından yox olmasının nəticəsi ola bilər. Müəyyən ölçüdə sən özün daha onu canlı bir adam kimi qavramırsan.

O, yenə də psixoterapevtə çevrildi və biz divanda oturmuş dostlar olmaqdan çıxdıq. Onu yenə özümə çəkmək istəyirəm, amma xətti keçməkdən qorxuram. Mən çıxıb gedəndə onu necə öpdüyüm haqqında düşünürəm və onun sifətinin ifadəsini xatırlayıram: orada istək, inciklik və qəzəb yazılmışdı.

– Mənə elə gəlir ki, indi, sən öz tarixçəni mənə danışdıqdan sonra, Makı tapmağa çalışmalısan. Bu, keçmişə nöqtə qoyub, səhifəni çevirmək üçün lazımdır.

Mən hiss edirdim ki, o bunu təklif edəcək.

– Bacarmaram, – deyirəm. – Bacarmaram.

– Sadəcə, bu barədə düşün.

– Bacarmaram. Bəs əgər o əvvəlki kimi mənə nifrət edirsə? Bəlkə bu birdən keçmişi canlandırsa? Ya da o polisə getsə?

Bəlkə birdən – bunu heç pıçıltı ilə də tələffüz edə bilmirəm – o mənim həqiqətdə necə olduğumu Skotta danışdı?

Kamal başını bulayır:

– Bəlkə o, heç sənə nifrət etmir, Meqan. Heç vaxt da nifrət etməyib. Ola bilər, o da qorxub. Həm də günahını hiss edir. Sənin dediklərinə görə, o, məsuliyyətsiz adama oxşayır. O, çox gənc və kövrək bir qızla evlənib, əsl dəstəyə ehtiyacı olan zaman onu tək buraxıb. Bəlkə də o baş verənlərin məsuliyyətinin hər ikinizin üzərinə düşdüyünü anlayır. Və məhz buna görə qaçıb.

Kamalın doğrudanmı belə düşündüyünü, yoxsa məni sakitləşdirmək üçün belə dediyini bilmirəm. Lakin bu doğru deyil. Mən öz təqsirimi ona yükləyə bilmərəm. Bu bütünlüklə mənim üzərimdədir.

– Mən səni özün istəmədiyin bir şeyi etməyə məcbur buraxmaq istəmirəm, – Kamal deyir. – Sadəcə, düşünməyini təklif edirəm ki, bəlkə Makla görüşmək sənin yararına ola bilər. Ona görə yox ki, sən ona nəsə borclusan. Başa düşürsən? Mən hesab edirəm ki, o sənə borcludur. Bəli, sən günahkarsan, bu faktdır. Lakin o səni evdə tək qoyub. Sən tək idin, ölümcül qorxmuşdun və dərddən özünü unutmuşdun. O səni evdə tək qoydu. Sənin yata bilməməyinin səbəbi aydındır. Yuxu haqqında fikrin özü səni dəhşətə gətirir: sən yatdın və sənin başına belə bir dəhşətli hadisə gəldi. Sənə kömək edə biləcək yeganə adam səni tək qoydu.

Kamal bu sözləri deyir və onlar tam məntiqli görünürlər. O elə inandırıcı, elə istiqanlılıqla və anlayışla danışır ki, mən ona inanıram. Mən demək olar ki, bütün bunları keçmişdə qoyub evə, Skottun yanına dönməyin, geriyə baxmadan və daha yaxşısının axtarışında olmadan bütün normal insanların yaşadığı kimi yaşamağa başlamağın mümkün olduğuna inanıram. Axı bütün normal adamlar məhz belə yaşayırlar.

– Sən bu barədə düşünəcəksən? – o mənim əlimə toxunaraq soruşur.

Mən onun cavabında gülümsəyərək söz verirəm. Bəlkə özüm də buna inanıram, bilmirəm. O məni çiynimdən qucaqlayaraq qapıya qədər yola salır. Mən dönüb onu öpmək istəyirəm, lakin özümü saxlayıram. Bunun əvəzinə soruşuram:

– Bu bizim son görüşümüzdür? – O, başı ilə təsdiqləyir.

– Lakin olmaz ki...

– Yox, Meqan, olmaz. Biz düzgün hərəkət etməliyik.

Cavabında mən gülümsəyirəm:

– Bunu heç vaxt yaxşı bacarmamışam.

– Lakin bu sənin gücün daxilindədir. Sən bacararsan. İndi isə evə get. Evə, öz ərinin yanına get.

Mənim arxamca qapı örtüldükdən sonra, hələ uzun müddət onun evinin yanında səkidə dururam. Mən bir az yüngülləşdim, sanki azadlığa çıxdım, lakin nəyə görəsə bir az qəmgin oldum və birdən evə, Skottun yanına qayıtmaq istədim.

Mən artıq çevrilirəm ki, stansiyaya gedəm, bu an gözlənilmədən səkidə bir kişi peyda olur – o qulaqlıq taxıb, başını aşağı salaraq qaçışla məşğuldur. O düz mənim üstümə gəlir və mən onunla toqquşmamaq üçün geri addım atıram, səkinin qırağında büdrəyib yıxılıram.

Kişi hətta üzr istəmədən və geriyə baxmadan qaçmaqda davam edir, mənsə çox qorxduğumdan qışqırmıram. Maşına söykənərək ayağa qalxıram, özümə gəlməyə çalışıram. Kamalın evində hiss etdiyim daxili sakitlikdən əsər-əlamət qalmayıb.

Yalnız evdə görürəm ki, yıxılanda əlimi kəsmişəm. Sonra əlimi dodaqlarıma aparıram. Dodaqlarım qana bulaşıb.

# Reyçel

---

Şənbə, 10 avqust 2013-cü İl

Səhər

Mən erkən ayılıram. Zibil maşınının uğultusu və yağış damcılarının yumşaq tıqqıltısı eşidilir. Jalüzlər yarıya qədər qaldırılıb – dünən gecə biz

onları endirməyi unutmuşuq. Mən öz fikirlərimə gülümsəyirəm. Onu arxamda hiss edirəm, isti, yuxulu və ereksiyalı. Budlarımı gərirəm və ona sıxılıram. İndicə o qımıldanacaq, məni qucaqlayıb arxası üstə çevirəcək.

– Reyçel, – o deyir, – lazım deyil.

Donub qalıram. Mən evdə deyiləm, bu mənim evim deyil. Dəhşət.

Dönürəm. Skott artıq yatağın üstündə arxası mənə doğru oturaraq ayaqlarını döşəməyə sallayıb. Mən gözlərimi bərk qıyaraq xatırlamağa çalışıram, lakin başım yenə dumanlıdır. Mən gözümü açanda hər şey öz yerini alacaq, çünki mən bu otaqda min dəfələrlə, bəlkə də çox oyanmışam: bax, burada çarpayı var və əgər otursan onda küçənin o biri tərəfindəki palıdların başı görünəcək; solda vanna otağı, yataq otağı ilə bitişik, sağda isə divarın içində şkaflar var. Bu otaq eynilə Tomla mənim yataq otağım kimidir.

– Reyçel, – o deyir, və mən onun kürəyinə toxunmaq üçün əlimi uzadıram, lakin o dərhal sıçrayıb qalxır və üzünü mənə çevirir.

O, ilk dəfə onu polis şöbəsində gördüyüm kimi idi, elə bil onun içini çıxarıb yalnız qabığını saxlamışdılar. Bu eynən mənimlə Tomun yataq otağı kimidir, ancaq Skott və Meqanın yataq otağıdır. Həm də onların yatağıdır.

– Bilirəm, – deyirəm. – Təəssüf edirəm. Bu düzgün deyildi.

– Bəli, düzgün geyildi, – o, gözlərini gizlədərək razılaşır və vanna otağına gedir, arxasınca qapını bağlayır.

Yenə uzanıram və qarnımda bir boşluq yarandığını və dəhşətə gəldiyimi hiss edirəm. Mən nə etdim? Mən gələndə onun necə çox danışdığını və heç cür dayana bilmədiyini xatırlayıram. O, bütün dünyaya acıqlı idi. Meqanı heç zaman sevməyən anasına acıqlı idi; Meqan haqqında yalan məlumatlar yayan mətbuata acıqlı idi; polisə acıqlı idi, çünki onlar heç nə aydınlaşdıra bilməyərək, yalnız onların hər ikisini rüsvay etmişdi. Biz mətbəxdə oturub pivə içirdik, mən onu dinləyirdim, pivəni içib qurtardıqdan sonra bağa keçdik və orada o sakitləşdi. Biz içir yanımızdan keçən qatarlara baxırdıq və hər şeydən danışırdıq: televiziya haqqında, iş haqqında, hansı məktəbdə oxuduğu barədə – lap bütün normal adamlar kimi. Mən nə hiss etməli olduğumu unutdum, hər ikimiz bunu unutduq, çünki indi mən hamısını xatırladım. Onun

necə mənə baxıb gülümsədiyini və saçlarıma toxunduğunu xatırladım.

Məni elə bil dalğa örtür, üzümü xəcalət rəngi bürüyür. Mən nə etdiyimi qavrayırdım. Nəinki müqavimət göstərmirdim, əksinə, alovun üstünə yağ tökürdüm. Bunu istəyərək edirdim. Mən Ceysonla birlikdə olmaq istəyirdim. Mən Cessin axşamlar əlində sərin bakalla onunla birlikdə oturanda hiss etdiklərinin eynisini istəyirdim. İndiki şərtlərdə nə hiss etməli olduğumu unutmuşdum. Cessin ən yaxşı halda mənim xəyalımın məhsulu olduğunu, pis halda isə onun, ümumiyyətlə, mövcud olmadığını və yalnız, ölümcül döyülüb meşədə çürüməyə buraxılan Meqanın olduğunu unutmuşdum. Daha da pisi o idi ki, mən heç nəyi unutmamışdım. Sadəcə, mənim üçün vacib deyildi. Ona görə vacib deyildi ki, mən artıq onun haqqında deyilənlərin hamısına inanmağa başlamışdım. Məgər, mən özüm hətta bir anlığa olsa da, onun bütün bunlara layiq olduğunu düşünməmişdimmi?

Skott vanna otağından çıxır. O, duş qəbul edib, özündən məni xatırlada biləcək hər şeyi yudu. O, indi daha yaxşı görünür, lakin mənim qəhvə içib-içməyəcəyimi soruşanda gözlərini gizlədir. Mən bunu istəmirdim, bu, düzgün deyil. Mən bunu eləmək istəmirəm. Daha başımı itirmək istəmirəm.

Tez geyinir, vanna otağına gedib üzümü soyuq su ilə yuyuram. Kirpik tuşu axır və gözümün kənarlarında qaralır, dodaqlarımın da rəngi tündləşib. Onları dişləyiblər. Üzüm və boynum, onun üzünün tükü ilə sürtülərək qızarıb. Gözümün qarşısında dünənki mənzərə canlanır: onun əlləri mənim bədənimdə. Ürəyim bulanır, başım gicəllənir. Mən vannanın qırağında otururam. Vanna otağı yığışdırılmayıb: əlüzyuyanın ətrafı kirli, güzgüdə diş pastasının izləri. Qabda yalnız bir diş fırçası var. Nə ətir, nə nəmləndirici kremlər, nə də kosmetika var. Maraqlıdır, bütün bunları Meqan gedəndə özü ilə aparıb, yoxsa o, sadəcə olaraq, hamısını zibil vedrəsinə atıb?

Mən yataq otağına qayıdıb, onun burada olmasının izlərini axtarıram – qapıda xalat, tumbanın üstündə daraq, pomada, və s. – amma heç nə tapmıram. Mən yataq otağından keçib, divar şkafının qapısını açmaq istəyərkən aşağıdan “qəhvə hazırdır” qışqırığı eşidilir və mən gözlənilməzlikdən səksənirəm.

O, üzümə baxmadan fincanı mənə uzadır, sonra arxasını çevirir və uzaqlara baxır: dəmiryol xətlərinə, ya da onların arxasında harayasa. Mən

sağa göz atıram və görürəm ki, şəkillər yox olub – hamısı. Dərimin qıcıqlandığını hiss edir və qəhvəni çətinliklə udumlayıram. Belə olmamalıdır.

Bəlkə bütün bunlar onun anasının işidir: bütün əşyaları və şəkilləri o yığışdırıb. Onun anası Meqanı sevmirdi, o, həmişə bunu deyirdi. Amma hər halda onun keçən gecə etdiyi hərəkət düzgün idimi? Məgər hələ arvadının ölümündən heç bir ay belə keçməmiş, tanış olmayan qadını öz ailə yatağında qayırmaq düzgün idimi? Həmin anda o çevrilib mənə baxır və mənə elə gəlir ki, o mənim fikirlərimi oxuyur, çünki onun üzündə qəribə bir ifadə əmələ gəlir: ya nifrət, ya da ikrah. Heç o da mənə xoş deyil və mən fincanı masaya qoyuram.

– Mənim getmək vaxtımdır, – deyirəm və o, mübahisə etmir.

Yağış kəsib. Küçədə günəş parlaq işıq saçır və mən özümdən asılı olmayaraq gözümü qıyıram. Evə bir kişi yaxınlaşır və mən küçəyə çıxanda az qala mənim üstümə uçur. Mən üzümü əllərimlə örtürəm və kənara çəkilirəm ki, onunla toqquşmayım; birdən özümdən cəmi bir neçə metr aralıda Annanı görürəm, o əllərini belinə vuraraq öz maşınının yanında dayanıb. Mənim baxışlarımı tutub başını bulayır, çevrilir və sürətlə, az qala qaçaraq öz evinə gedir. Mən yerimdə donub onun qara leqqinsdə və qırmızı idman köynəyində zərif fiqurunu baxışlarımla yola salıram. Məni dejavü hissi bürüyür – mən artıq bunu əvvəl görmüşdüm, onun belə qaçdığını görmüşdüm.

Bu, mən öz keçmiş evimdən gedəndən az sonra baş vermişdi. Tomla görüşməyə və unutduğum bəzi şeyləri götürməyə gəlmişdim. Bilmirəm, nə idi, amma bu mühüm deyil, çünki mən Tomu görmək üçün evə gəlmişdim. Məncə, bu bazar günü olmuşdu, mənzili isə cümə günü tərk etmişdim, heç iki gün olmazdı. Dayanıb, onun əşyaları maşından evə daşımasına baxırdım. O, heç iki gün keçməmiş evə daşınmışdı, hələ mənim yatağım soyumamışdı. Hansı hörmət hissindən danışmaq olar? O mənim baxışlarımı tutdu və mən ona doğru yönəldim. Ona nə deyəcəyimi bilmirdim, amma ağıllı bir söz deməyəcəkdim – bu dəqiqdir. Ağladığımı xatırlayıram. O isə elə indiki kimi qaçdı. Onda mən ən pisini bilmirdim – onun hamiləliyi hələ hiss olunmurdu. Nə yaxşı. Bu məni öldürərdi. Mən platformada durub qatar gözləyirəm və hiss edirəm ki, halım yaxşı deyil. Skamyada otururam və özümə deyirəm ki, bu, sadəcə, içkisizlikdəndir, beş gündür heç nə içməmişəm, sonra birdən

içdim, bu da nəticəsi. Amma bilirəm ki, səbəb başqa şeydir. Məsələ Annadadır – onunla qarşılaşmağımda, onun necə qaçdığına baxarkən hansı hissi duymağımdadır. Qorxu.

# Anna

Şənbə, 10 avquat 2013-cü İl

Səhər

Bu gün səhər idman zalına getmişdim, geri qayıdarkən ticarət mərkəzinə döndüm və “Maks Mara” firmasından əla bir paltar aldım (onun mənə necə yaraşdığını görəndə Tom yəqin məni bağışlayar). Ovqatım bu səhər çox yaxşı idi, lakin maşını park edərkən Hipvellərin evinin yanında bir hərəkət hiss etdim – indi orada həmişə fotoqraflar növbə çəkirlər – və onu gördüm. Yenə! Öz gözlərimə inanmadım. Reyçel, Skottun evindən çıxıb az qala fotoqrafı itələyərək qətiyyətli addımlarla gəlirdi. Şübhə etmirəm ki, o elə indicə oradan çıxdı.

Mən hətta dilxor da olmadım. Karıxıb qalmışdım. Bu barədə Toma danışanda – sakit və əsəbiləşmədən, – o məndən heç də az təəccüblənmədi.

– Mən onunla danışaram, – dedi, – aydınlaşdıraram, nə baş verir.

– Sən artıq cəhd etdin, – yumşaq etiraz etdim. – Lakin bu heç nəyi dəyişdirmədi.

Mən məhkəmə vasitəsilə ona bizə yaxınlaşmağı qadağan etmək üçün, vəkilə müraciət etməyi təklif etdim.

– Lakin indi o bizi daha narahat etmir, düzdürmü? Telefon zəngləri kəsilib, bizə yaxınlaşmır, evə də həmçinin. Narahat olma, əzizim. Mən hər şeyi yoluna qoyaram.

Reyçelin bizi izlədiyini düşünməkdə, o əlbəttə, haqlıdır. Lakin mənim üçün fərqi yoxdur. O qadının ağlında nəsə var və mən bunu belə buraxmayacağam.

Mən onun həyəcanlanmamaq məsləhətindən yorulmuşam. Onun hər şeyi yoluna qoymaq, o qadınla danışmaq haqqında vədlərindən yorulmuşam. Əgər mən Reyçeli bir daha görsəm, o polis qadına – inspektor Rayliyə zəng edəcəyəm. O mənə xoş və səmimi göründü. Mən bilirəm ki, Tomun Reyçelə yazığı gəlir, lakin açığını desəm, bu əclafla birdəfəlik haqq-hesab çəkməyin vaxtı çoxdan çatıb.

# Reyçel

Bazar ertəsİ, 12 avqust 2013-cü İl

Səhər

Biz Uilton gölü yanındakı dayanacaqdayıq. Əvvəllər buraya isti günlərdə gələrdik. İndi biz Tomun maşınında yanaşı oturmuşuq, şüşələr endirilib, sərin külək əsir. Mən başımı geri atıb gözümü yummaq və quşların oxumasını dinləmək istəyirəm. Onun əlini tutub bütün günü burada keçirmək istəyirəm.

O, dünən axşam zəng etdi və görüşə bilərikmi deyə soruşdu. Bu, Annanın məni Blenhaym-roudda görməsi ilə bağlıdırmı? – deyə maraqlandım. Tomu inandırdım ki, bunun onlarla heç bir əlaqəsi yoxdur və mən oraya onlarla dava etmək üçün gəlməmişdim. O mənə inandı, ya da inanmış kimi özünü göstərdi, amma bununla belə, onun səsində narahatçılıq hiss olundu. Mənimlə danışmaq istədiyini dedi.

– Lütfən, Reyç, – o bunu tamamən keçmiş günlərdəki kimi dedi və mənə elə gəldi ki, indi ürəyim yerindən çıxacaq. – Mən səni götürməyə gələcəyəm, yaxşı?

Hava işıqlaşmamış yuxudan ayıldım və artıq saat beşdə mətbəxdə özümə qəhvə hazırlayırdım. Başımı yudum, dırnaqlarımı kəsdim, makiyaj qoydum və dörd dəfə paltar dəyişdim. Mən hələ də xəcalət çəkirəm. Axmaqlıqdır, başa düşürəm, lakin Skott haqqında fikirləşəndə – bizim elədiyimiz hərəkət və bunun necə baş verməsi – baş verənlərdən peşmanlıq hiss edirəm, çünki bunu bir xəyanət kimi dəyərləndirirəm. Toma xəyanət. İki il bundan əvvəl məni başqa qadınla əvəzləyən adama qarşı. Lakin özümlə bacara bilmirəm.

Tom saat doqquza yaxın gəldi. Mən aşağı endim və onu maşının yanında gördüm – cinsdə və tanış köhnə boz idman köynəyində. Hətta köynəyi bir vaxtlar əlimdə necə hiss etdiyimi də xatırlayıram, çünki tez-tez başımı onun sinəsinə qoyurdum.

– Mən günorta yeməyinə qədər boşam, – Tom məni görüb dedi. – Düşündüm ki, biz harasa gedə bilərik.

Gölə qədər yolda biz az danışdıq. Onun işlərinin necə getdiyi ilə maraqlandım, o isə mənim yaxşı göründüyümü dedi. Biz dayanacağa çatana qədər o Annadan söz etmədi və mən artıq onun əlindən tutmaq haqqında düşünməyə başladım.

– Hə, Anna dedi ki, səni görüb... və düşünüb ki, sən yəqin Skott Hipvellin evindən çıxmısan. Bu belədir? – O üzünü mənə çevirdi, lakin kənara baxırdı. Sanki bu barədə soruşmaqdan utanırdı.

– Sənin həyəcanlanmağına əsas yoxdur, – cavab verdim. – Mən Skottla görüşdüm... o mənada yox. Biz dostlaşdıq, vəssalam. Bunu izah etmək çətindir. Mən, sadəcə, onu dəstəkləmək istədim. Sən axı bilirsən, yəqin xəbərin var, ona bu saat necə çətindir.

Tom başı ilə təsdiqləyir, lakin əvvəlki kimi baxışlarını yayındırır. Həm də sol əlinin şəhadət barmağında dırnağını gəmirir – əsəbləşdiyinin aydın əlaməti.

– Amma Reyç...

Mən istəyirəm ki, o məni belə adlandırmağı kəssin, çünki bundan ovqatım yaxşılaşır və gülümsəmək istəyirəm. O, artıq çoxdan mənə belə müraciət etmirdi, hətta məndə ümid yarandı. Bəlkə Anna ilə yola getmir, bəlkə o bizim ümumi həyatımızda nəsə yaxşı bir şey xatırlayır, bəlkə də mənsiz darıxır.

– Mən, sadəcə... məni bu, narahat edir...

Nəhayət, onun iri qonur gözləri mənimki ilə qarşılaşır və sanki mənim əlimdən tutmaq istəyir, amma sonra fikrini dəyişib dayanır.

– Mənim xəbərim var... düzdür, o qədər çox bilmirəm, lakin Skott... mən

anlayıram ki, o tam normal bir kişi kimi görünür, amma buna tam əmin olmaq mümkündürmü?

– Sən düşünürsən ki, bunu o edib?

O başını silkələyir və çətinliklə udqunur:

– Yox, yox! Mən bunu demirəm. Annanın dediyinə görə, onlar tez-tez dalaşırdılar. Meqan da, görünür, ondan bir az qorxurmuş.

– Annanın dediyinə görə?

Mən bu əclaf qadının sözlərini ciddi qəbul etmək istəmirəm, lakin şənbə günü məni Skottun evində bürüyən hissdən heç cür qurtula bilmirəm. Orada nə isə doğru deyildi.

Tom başı ilə işarə edir.

– Evi körpə olanda Meqan bizdə dayə olaraq işləyirdi. İlahi, qəzetlərdə yazılanlardan sonra mən bu barədə hətta düşünmək belə istəmirəm. Lakin bu bir daha sübut edir ki, adamlar haqqında necə yanılmaq olar, düşünürsən ki, tanıyırsan, sonra isə... – O dərindən köks ötürür. – Mən istəmirəm ki, nəsə pis bir şey baş versin. Səninlə. – O gülümsünür və yüngülcə çiyinlərini çəkir. – Sən mənim üçün hələ də dəyərlisən, Reyç, – o deyir və mən üzümü çevirirəm ki, o gözlərimdə yaşı görməsin.

Lakin o, əlbəttə, onsuz da hər şeyi bilir, ona görə də əlini çiynimə qoyub deyir:

– Çox təəssüf edirəm.

Bir müddət danışmadan otururuq. Mən ağlamamaq üçün dodaqlarımı çeynəyirəm. Onun dərdini daha da artırmaq istəmirəm.

– Mənimlə hər şey qaydasındadır, Tom. Mən alışıram. Doğrudan.

– Bunu eşitməyimə şadam. Sən...

– İçirəmmi? Daha az. Bu barədə də vəziyyət yaxşıdır.

– Bu əla! Yaxşı görünürsən.Yaxşı kadr kimi...

O gülümsünür və mən qızardığımı hiss edirəm. O, tez üzünü çevirir.

– Bəs sən necə... Maddi vəziyyətin normaldırmı?

– Hər şey qaydasındadır.

– Doğru deyirsən, Reyçel? Çünki mən istəmirəm...

– Məndə hər şey yaxşıdır.

– Gəl, bir az pul götür, yaxşı? Lənət şeytana, axmaq kimi görünmək istəmirəm, lakin səndən çox xahiş edirəm. Birdən lazım olar?

– Həqiqətən məndə hər şey qaydasındadır.

O, irəli əyilir və mənim nəfəsim tutulur – ona elə toxunmaq istəyirəm ki! Üzümü onun boynuna, kürəklərinin arasına sıxıb qoxusunu ciyərlərimə çəkmək! O, maşının "bardaçok"unu açır.

– Mən sənə qəbz yazıram, belə, hər ehtimala qarşı. Onu nağda çevirməyə bilərsən.

Gülməkdən özümü saxlaya bilmirəm.

– Sən qəbz kitabçasını "bardaçok"da saxlayırsan? O da gülməyə başlayır.

– Kim bilir, o nə vaxt lazım ola bilər, – o izah edir.

– Öz keçmiş dəli arvadının borcunu ödəmək üçün lazım olar?

O baş barmağı ilə mənim üzümü sığallayır. Onun əlindən tutub ovcundan öpürəm.

– Mənə söz ver, – o artıq ciddi deyir, – ki, Skott Hipvelldən uzaq duracaqsan. Söz ver, Reyç.

– Söz verirəm, – deyirəm və aldatmıram.

Mənim ruhum göylərdə süzür, çünki anlayıram ki, o mənə görə, sadəcə, həyəcan keçirmir, məni həm də qısqanır.

Çərşənbə axşamı, 13 avqust 2013-cü İl

Səhər erkən

Mən qatardayam, relslərin yanındakı cındır yığınına baxıram. Tünd mavi parça. Bu qara kəmərli dona oxşayır. Onun necə oraya düşdüyünü təsəvvür edə bilmirəm. Dəmiryolçuların əsla bu işə aidiyyəti ola bilməz. Biz hərəkət edirik, lakin çox yavaş, buna görə də onu diqqətlə gözdən keçirə bilirəm. Mənə elə gəlir ki, bu donu əvvəl də görmüşdüm, elə bil kimsə onu geyinmişdi. Lakin harada, nə zaman – xatırlaya bilmirəm. Çox soyuqdur. Belə don geyinmək üçün həddən artıq soyuqdur. Belə görünür ki, tezliklə qar yağacaq.

Mən səbrsizliklə gözləyirəm, nə vaxt Tomun evi görünəcək – mənim evim. Bilirəm ki, o, bağda oturmuş olacaq. Bilirəm ki, o, tək olacaq və mən qatarla keçəndə gülümsünəcək və əlini yelləyəcək. Mən bütün bunları bilirəm.

Lakin əvvəlcə on beş nömrəli evin yanında dayanırıq. Orada terrasda Ceyson və Cess oturub şərab içirlər, bu çox qəribədir, çünki hələ heç səhər saat doqquzun yarısı deyil. Cessin əynində qırmızı güllü don, qulağında isə kiçik gümüş quş şəklində sırğalar var – o danışanda mən onların necə yırğalandığını görürəm. Ceyson əllərini onun çiyinlərinə qoyaraq arxasında dayanıb. Mən onlara gülümsəyirəm. Onlara əl yelləmək istəyirəm, lakin digər sərnişinlərdən utanıram – onlar elə bilərlər ki, mən dəliyəm. Ona görə də, sadəcə, baxıram və içə bilmədiyim üçün heyifsilənirəm.

Biz artıq xeyli vaxtdır dayanmışıq, qatar hələ də yerindən tərpənmir. Mən əsəbiləşirəm, çünki Tom gözləməyə bilər, onda mən onu görməyəcəyəm. İndi Cessin üzünü daha yaxşı görürəm – adi halda olduğundan daha yaxşı, yəqin bu qeyri-adi parlaq işığa görə belədir, həm də işıq projektor kimi onun üzünə düşür. Ceyson əvvəlki kimi onun arxasında dayanıb, lakin onun əli Cessin çiynində deyil, boynundadır və görünür ki, qadının halı pisdir. O, qadını boğur. Onun üzünün necə qızardığını görürəm. O ağlayır. Mən qəfildən ayağa qalxıram, şüşəni döyürəm, qışqırıram ki, o əl çəksin, lakin o məni eşitmir. Kimsə mənim əlimdən tutur – bu, o kürən saçlı oğlandır. O məni oturmağa məcbur edir və deyir ki, növbəti dayanacaq artıq yaxındır.

– Lakin artıq çox gec olacaq, – izah edirəm.

– Onsuz da daha çox gecdir, – o deyir.

Mən çevrilirəm ki, terrasa baxım və görürəm ki, Ceyson Cessin sarı saçlarını əlinə dolayır və onun başını divara vurmağa hazırlaşır.

Səhər

Bir neçə saat bundan əvvəl yuxudan ayılsam da, indiyə qədər özümə gələ bilməmişəm, hələ də qatarda oturaraq daxili titrəməmi kəsə bilməmişəm. Mən qorxu içində kabusdan ayıldım. Hiss edirdim ki, mənim Skott və Meqan barəsində bütün təsəvvürlərim yanlış çıxıb, bunlar həqiqətin inikası deyil, yalnız fantaziyamın məhsulu imiş. Lakin əgər hər şeydə təxəyyül günahkardırsa, onda yuxuya əsla inanmaq olmaz? Tomun dedikləri Skottla keçirdiyim gecə üçün günahkarlıq hissi ilə üst-üstə düşmüşdü, yuxu isə kontekstdən ayrılmış ayrı-ayrı faktlara beynin təbii reaksiyası ola bilərdi.

Bununla belə, qatar semaforda dayananda, həyəcanım artmağa davam edir və mən qorxu hissi ilə baxışlarımı on beş nömrəli evə yönəldirəm. Pəncərə və qapılar bağlıdır, heç kəs görünmür. Ev sakit və rahat, ya da tərk edilmiş kimi görünür. Meqanın kreslosu əvvəlki kimi terrasdadır. Bu gün istidir, lakin mən hələ də titrədirəm.

Tomun Meqan və Skott barəsində söylədiklərini Annadan öyrəndiyini unutmamalıyam. Mənsə bilirəm ki, ona heç nədə inanmaq olmaz.

Mənə elə gəldi ki, doktor Abdik bu gün həmişəki kimi mehribanlıqla salamlaşmadı. O, sanki mənəvi əzabdan büzüşmüşdü. Əlimi də ölüvaycasına sıxdı. Skott mənə demişdi ki, Meqanın hamiləliyi haqqında informasiyanı açmamağa dair polis söz verib, amma bəlkə Abdikə xəbər veriblər və o uşaq haqqında düşünür?

Ona öz yuxum haqqında danışmaq istəyirəm, lakin özümü ələ vermədən bunu necə edəcəyimi bilmirəm və hipnozun yaddaşın bərpasına kömək etməsi barədə soruşuram.

– Bəzi həkimlər var, hesab edirlər ki, – o deyir; əlini masanın üstünə qoyur və barmaqlarını geniş açır, – hipnoz vasitəsilə itmiş xatirələri qaytarmaq olar, lakin burada heç də hər şey belə birmənalı deyil. Mən özüm bunu tətbiq etmirəm və öz pasientlərimə məsləhət görmürəm. Bunun yararlı

olduğuna şübhə edirəm, amma əminəm ki, bəzi hallarda böyük zərər verə bilər. – O mənə xəfif təbəssümlə baxır. – Təəssüf edirəm. Bilirəm ki, siz başqa şey eşitmək istərdiniz. Amma başla bağlı problemlərdə məsələnin sürətli həlli olmur.

– Bəs siz bununla məşğul olan mütəxəssislər tanıyırsınızmı?

O, başını bulayır.

– Çox təəssüf edirəm, lakin heç kimi məsləhət görə bilmərəm. Siz analamalısınız ki, hipnoz altında pasientlərə çox şey təlqin olunur. “Yaddaşdan çıxarılan” xatirələr, – o barmaqları ilə dırnaq işarəsini ifadə edir, – heç də hər zaman etibarlı olmur və heç də real xatirələr deyillər.

Belə bir riskə mən gedə bilmərəm. Razı ola bilmərəm ki, beynimdə etibar edilə bilməyən yeni obrazlar peyda olsun, xatirələr isə birləşib və transformasiya edib, təxəyyülü həqiqət kimi göstərərək məni yanlış yola aparsın.

– O zaman siz nə təklif edə bilərsiniz, – deyə soruşuram. – Mənə xatırlamaqda kömək edəcək hər hansı bir üsul varmı?

O düşüncəli halda uzun incə barmaqlarını dodaqlarına çəkir.

– Bəli, bu mümkündür. Hansısa konkret xatirə haqqında ətraflı söhbət yaddaşı canlandıra bilər: özünüzü təhlükəsiz, rahat hiss etdiyiniz bir yerdə hadisəni təfərrüatlı və detallarla danışmaq lazımdır...

– Məsələn, burada?

O gülümsünür:

– Məsələn, burada, əgər bura sizə rahat gəlirsə və burada özünüzü təhlükəsizlikdə hiss edirsinizsə.

Onun səsi bir az yüksəlir və o sual verir, mən cavab vermirəm. Onun təbəssümü sönür.

– Görmədən başqa hiss orqanlarının daxil edilməsi çox yararlı ola bilər. Səslər, taktil... xatirələrin canlanmasında qoxu xüsusi və mühüm rol oynayır. Musiqi böyük kömək göstərə bilər. Əgər hansısa bəlli şəraitdən, gündən,

yerdən söhbət gedirsə, onda hadisələri “cinayət yerində” bütün yolu təkrar etməklə bərpa etmək olar. – Hərçənd, bu ifadə nitqdə çox işlədilir, amma indi onu eşidəndə sözün əsl mənasında dilim tutulur və tüklərim biz-biz olduğunu hiss edirəm.

– Siz hansısa konkret hadisə haqqında danışmaq istəyirsiniz, Reyçel?

Bunu çox istəyirəm, amma edə bilmərəm, ona görə də davalarımızın birində qolf çubuğu ilə Toma necə hücum etdiyimdən danışmağa başlayıram.

Yadımdadır, o səhər həyəcanlı halda yuxudan ayıldım və o saat anladım: nəsə dəhşətli bir şey baş verib. Tom yataqda yanımda yox idi və mən hətta sevindim. Arxası üstə uzanıb başımda xatırlaya bildiklərimi fırladıram. Xatırlayıram ki, acı-acı ağlayırdım və onu çox sevdiyimi tez-tez təkrar edirəm. O, hirslənərək mənim yatmağa getməyimi tələb edir və daha heç nə eşitmək istəmədiyini deyirdi.

Mən buna qədər nə baş verdiyini və skandalın nədən başladığını xatırlamağa çalışdım. Biz çox yaxşı vaxt keçirirdik. Mənim qrildə çoxlu bibər və koriandrla bişirdiyim krevetkaları yeyib, minnətdar müştərinin Toma hədiyyə verdiyi ağ turş şərabı içirdik. Həyətdə, təzəcə tanış olduğumuz vaxtlarda birlikdə dinlədiyimiz “The Killers and Kings of Leon” musiqisinin sədaları altında şam edirdik.

Yadımdadır, necə gülüb öpüşürdük. Xatırlayıram ki, ona hansısa gülməli bir hadisəni danışdım, o isə orada gülməli bir şey görmədi və mən bundan məyus oldum. Sonra da biri-birimizin üstünə qışqırdıq. Mən şüşə qapıdan içəri girəndə astanada büdrədim və o mənə kömək etməyə tələsmədiyi üçün hirsləndim.

Lakin problem başqa şeydə idi.

– Nəhayət, mən qalxıb aşağı endim. Amma Tom mənimlə danışmır və hətta mənə tərəf baxmırdı. Nə iş törətdiyimi danışması üçün yalvarır və hey üzr istəyirdim. Mən dəhşətli dərəcədə vahiməyə düşdüm. Səbəbini izah edə bilmirəm və bunun axmaqlıq olduğunu anlayıram, lakin nə etdiyini xatırlaya bilmədikdə, boşluğu ən ağlasığmaz şeylərlə doldurursan...

Kamal başı ilə təsdiqləyir:

– Başa düşürəm. Davam edin.

– Nəhayət, Tom yalnız mən əl çəkim deyə, danışdı. Onun sözlərinə görə, mən nədənsə küsdüm, ona sataşmağa başladım və heç sakitləşmək istəmədim. O məni öpüşlərlə sakitləşdirmək istəmiş, lakin bu da işə yaramamışdı. Onda o qərara gəlib ki, məni tək qoyub yuxarı yatmağa getsin. Bax, hər şey bu zaman baş verib. Mən onun ardınca qaçmışam, əlimdə qolf çubuğu ilə onun başını yarmaq istəmişəm. Xoşbəxtlikdən, düz vurmamışam. Lakin ikinci mərtəbədə dəhlizdə zərbədən suvaq qopub.

Kamalın sifəti əvvəlki kimi hərəkətsizdir. O təəccüblənməyib. Sadəcə, başını tərpətməklə təsdiq edir:

– Beləliklə, siz nə baş verdiyini bilirsiniz, lakin bunu hiss etmirsiniz, doğrudur? Siz hər şeyi özünüz xatırlamaq, hiss etmək və yaşamaq istəyirsiniz ki, – bayaq dediyiniz kimi, – bu sizin hisslərinizin bir parçası olsun? Onda siz öz günahınızı tam hiss edərsiniz?

– Hə, – mən çiynimi çəkirəm, – ümumi götürdükdə, bəli. Amma başqa şeylər də var. Bu bir az sonra baş verdi, xeyli sonra, bir neçə həftə ya da bəlkə aylar sonra. Mən daim o axşam haqqında düşünürdüm. Hər dəfə, divardakı suvaq çökəyini gördükdə o barədə xatırlayırdım. Tom dedi ki, onu təmir edəcək, lakin eləmədi, mən də onun yadına salmaq istəmədim. Bax, bir dəfə axşam mən yataq otağından çıxdım və həmin yerdə dayandım, çünki birdən xatırladım. Mən döşəmə üstündə, arxamı divara söykəyib oturmuşdum və hıçqırırdım. Tom yanımda dayanıb sakitləşməyim üçün yalvarırdı, yanımda isə qolf çubuğu vardı. Və mən hiss etdim... Qorxu, hətta dəhşət. Reallıq mənim xatırladığıma uyğun gəlmirdi, çünki mənim xatirələrimdə acıq, ya da qəzəb yox idi. Amma qorxu vardı.

Axşam

Mən Kamalın “cinayət yerinə” qayıtmaq sözləri üzərində düşündüm və evə getmək əvəzinə Uitniyə getdim. İndi yeraltı keçidin yanından keçmirəm, əksinə, yavaş-yavaş və məqsədyönlü şəkildə düz ona doğru irəliləyirəm. Əlimi girişdə soyuq və kobud kərpiclərə qoyuram, gözlərimi yumuram və əlimi kərpiclərin üzərində gəzdirirəm. Heç bir şey yadıma düşmür. Gözlərimi açır və ətrafa baxıram. Yolda heç kəs yoxdur: bir neçə yüz yard məsafədə

mənə tərəf bir qadın gəlir, başqa heç kimsə yoxdur. Nə ötüb-keçən avtomobil, nə qışqıran uşaqlar; yalnız haradansa uzaqdan sirena eşidilir. Günəş buludların arxasında gizlənir, mən soyuq hiss edirəm və tunelin girişində donub qalıram, oraya enməyə gücüm qalmır. Çıxıb getmək üçün geri çevrilirəm.

İndicə gördüyüm qadın tini dönür – onun əynində sərbəst fasonlu tünd-mavi plaş var. O yanımdan keçir, mənə göz atır; bax, bu zaman yaddaşım oyandı. Qadın... mavi paltarda... işıq. Mən xatırlayıram: Anna! Onun əynində qara kəmərli mavi paltar vardı və o məndən elə bu günlərdə olduğu kimi sürətlə uzaqlaşırdı, amma bu dəfə qadın geri dönüb çiyninin üstündən baxdı, sonra dayandı. Onun yanında qırmızı bir maşın dayandı. Tomun avtomobili! Qadın əyildi, onunla pəncərədən nəsə danışdı, sonra qapını açıb maşına oturdu və onlar getdilər.

Bütün bunlar yadımdadır. O şənbə axşamı mən burada, yeraltı keçidin girişində dayanmışdım və Annanın Tomun maşınına mindiyini gördüm. Mənim yaddaşımda təkcə bu ola bilməzdi, çünki bu mümkün deyildi. Tom maşında məni axtarmağa getmişdi, Anna onun yanında yox idi – o, evdə idi. Polisdə mənə belə dedilər. Yenə hər şey dolaşır və mən çarəsizlikdən, bilməzlikdən və beynimin yararsızlığından qışqırmağa hazıram.

Küçəni keçib, Blenhaym-roudun sol tərəfi ilə gedirəm. 23 nömrəli evin qarşısında ağacların kölgəsində dayanıb ona baxıram. Onlar giriş qapısını yenidən rəngləyiblər. Əvvəl o tünd-yaşıl idi, indi qaradır. Bunu əvvəllər fərq etdiyimi xatırlamıram.

Mənə yaşıl daha xoş idi. Maraqlıdır, bəs içəridə nə dəyişib? Uşaq otağı, bu aydın məsələdir, amma onlar əvvəlki kimi bizim yataqda yatırlar? Onlar yenə pomadanı güzgünün qabağına qoyurlar, mən asdığım kimi? Mətbəxdə divarları rəngləyiblərmi və suvaqdakı oyuğu malalayıblarmı?

Mən qarşı tərəfə keçib bu qara qapını döymək istəyirəm. Tomla danışıb, Meqanın itkin düşdüyü həmin axşamı soruşmaq istəyirəm. Dünən haqqında soruşmaq istəyirəm: biz maşında oturanda və mən onun əlini öpəndə o nə hiss etdi? Lakin bunun əvəzinə, sadəcə, dayanıb öz keçmiş yataq otağımın pəncərəsinə baxıram, ta gözümdən yaş gəlib, mənə getmək vaxtının çatdığını bildirənə qədər.

# Anna

Çərşənbə axşamı, 13 avqust 2013-cü İl

Səhər

Mən Tomun işə getməyə necə hazırlaşdığına tamaşa edirdim: köynəyi geyinirdi, qalstuku bağlayırdı. O, sanki öz fikirlərinə qərq olmuşdu, yəqin başında öz gündəlik qrafikini fırladırdı: iclaslar, görüşlər, kim, nə, harada. Paxıllığım tutdu. Bütün bu müddət ərzində ilk dəfə paxıllığım tutdu ki, onun geyinib evdən çıxmaq, bütün günü iş üçün dolaşıb bank hesabını doldurmaq kimi bir imkanı var.

Mən iş üçün darıxmıram – neyrocərrah-filan deyildim ki, vur-tut daşınmaz əmlak agentiydim, bu barədə heç kəs uşaqlıqda arzu etmir – lakin bu iş mənim xoşuma gəlirdi; sahibi evdə olmayanda bu əla mülklərdə gəzməkdən, mərmərə əlimi sürtməkdən, gizlicə qarderoba baxmaqdan xoşum gəlirdi. Təsəvvürümə gətirirdim ki, əgər mən burada yaşasaydım, necə bir insan olardım. Yaxşı başa düşürəm ki, heç bir iş vacibliyinə görə uşaq tərbiyə etməklə müqayisə oluna bilməz, lakin problem ondan ibarətdir ki, bu qiymətləndirilmir. Ən azından maddi nöqteyi-nəzərdən; bu hazırda mənim üçün xüsusi maraq kəsb edir. İstəyirəm ki, bizim pulumuz çox olsun və biz başqa bir küçədə başqa bir evə köçə bilək.

Bəlkə də yox. Tom getdikdən sonra Evini götürüb mətbəxə gəldim ki, onu çətinliklə də olsa yedizdirim. Bir-iki ay bundan əvvəl ona nə verilirdisə yeyirdi. İndi isə yalnız moruqlu yoqurta razılıq verir. Mən bilirəm ki, bu normaldır. Saçımdan yumurta sarısını təmizləyərkən, ya da döşəmədən boşqab və qaşıqları yığışdırarkən, bunu daim özümə xatırladıram.

Hər halda səhər yeməyi bitdikdən sonra o özü özüylə oynayır və mən özümə bir az ağlamaq imkanı verirəm. Mən yalnız Tom evdə olmadıqda, özü də cəmisi bir neçə dəqiqə stresi götürmək üçün ağlayıram. Lakin sonra yuyunarkən, necə yorğun və iztirablı bir görkəmdə olduğumu güzgüdə görəndə, yenidən bəzənib-düzənib, hündürdaban ayaqqabılarda küçə ilə getmək istəyirəm ki, kişilər arxamca baxsınlar.

Mənə yalnız iş deyil, həm də həmin taleyüklü ildə işin mənim üçün necə mühüm olduğu da çatışmır. Onda mən Tomla tanış olmuşdum. Onun məşuqəsi olduğum zaman duyduğum hisslər üçün darıxıram.

Məşuqə olmaq mənim xoşuma gəlirdi. Özü də çox. Özümdə heç bir günah görmürdüm. Özümü elə göstərirdim ki, guya günah hiss edirəm. Evli rəfiqələrim həmişə ev işlərinə kömək edən diribaş əcnəbi qızlar, ya da ömrünün yarısını idman salonunda keçirən və futbol mövzusunda söhbət edən şən əməkdaşlar qarşısında qorxu yaşayırdılar; onlarla ünsiyyətdə olanda, özümü elə göstərirəm. Rəfiqələrimi inandırırdım ki, əlbəttə, özümü çox pis hiss edirəm, onun arvadına yazığım gəlir, mən heç bu barədə düşünmürdüm, lakin biz bir-birimizi sevdik, nə edə bilərik?

Əslində isə mənim heç vaxt Reyçelə yazığım gəlməyib, hətta onun içki düşkünü olduğunu, isteriyalı biri olduğunu və Tomun həyatını kabusa döndərdiyini biləna qədər də. O mənim üçün real adam deyildi, üstəlik bütün bunlar mənim çox xoşuma gəlirdi. İkinci bir qadın olmaq fövqaladə həyəcanvericidir, buna qarşı heç bir şey edə bilməzsən: sən elə yaxşısan ki, o dayana bilmir və sevdiyi arvadına xəyanət edir. Sən o qədər cazibədarsan.

Mən ev satırdım. Krenhem-strit 34. Onunla problem meydana çıxdı, çünki axırıncı müştəriyə ipoteka krediti verməmişdilər – evin vəziyyəti xoşlarına gəlməmişdi. Onda biz müstəqil ekspertiza keçirilməsi barədə razılığa gəldik və bütün sualları aradan qaldırmaq üçün xüsusi ekspert çağırdıq. Evin əvvəlki sahibləri artıq getmişdilər, evdə heç kəs yaşamırdı, ona görə mən gəlib eksperti evə buraxmalı oldum.

Onu evin astanasında görəndə, həmin anda anladım ki, bu baş verəcək. Belə şey mənimlə əvvəllər heç vaxt olmamışdı, bu barədə heç düşünməmişdim, lakin onun təbəssümündə və baxışında nəsə xüsusi bir şey vardı. Biz özümüzü saxlaya bilmədik və hər şey elə oradaca, mətbəxdə, masanın üstündə baş verdi. Əsl ağılsızlıq idi, lakin hər ikimiz həqiqətən başımızı itirmişdik. O mənə tez-tez təkrar edirdi: “Əgər sən düşünürsənsə ki, mən ağlımı itirməyəcəyəm, yanılırsan. Səninlə bu mümkün deyil”.

Mən Evini götürürəm və biz bağa gedirik. O öz arabasını itələyir və gülür, səhərki isterikasından əsər-əlamət də yoxdur. Hər dəfə o mənə gülümsəyəndə ürəyimin xoşbəxtlikdən partlayacağından qorxuram. Mən nə

qədər işdən ötrü darıxsam da, bu hiss üçün yəqin ki, daha çox darıxacağam. Lakin bu heç zaman baş verməyəcək. Mən onu bir daha dayə ilə qoymaram, nə qədər təcrübəli olsa da, kim təqdimat vermiş olsa da. Meqandan sonra onu heç bir vəchlə heç kimlə qoymaram.

Axşam

Tom sms göndərərək xəbər verdi ki, gecikəcək – müştərilə barda görüşməlidir. Biz Evi ilə axşam gəzintisinə hazırlaşırdıq və yataq otağında idik, orada onu geyindirirdim. Günəşin qürubu çox əla idi və ətrafda hər şeyi çəhrayı rəngə boyamışdı, sonra buludlar günəşin qarşısını kəsdi və birdən hər şey boz-mavi rəngə büründü. Mən pəncərəyə yaxınlaşıb pərdələri araladım – bir az əvvəl otaqda çox isti olmasın deyə onları bağlamışdım – və gördüm ki, küçənin o biri tərəfində Reyçel ağacın kölgəsində dayanıb bizim evimizə baxır. Sonra o stansiyaya doğru getdi.

Mən yataqda oturmuşdum, hirsimdən bədənim əsirdi, əlim yumruq kimi elə sıxılmışdı ki, dırnaqlarım ovcuma girmişdi. Evi yıxıldı və döşəmədə uzanıb qaldı, amma onu qaldırmadım, hirsimdən onu ağrıda biləcəyimdən.

O dedi ki, hər şeyi yoluna qoyub. Dedi ki, ona bazar günü zəng edib və onlar danışıblar. Reyçel, Skott Hipvellə dostlaşdığını etiraf edib, amma onunla görüşmək niyyətində olmadığını və daha burada peyda olmayacağını deyib. Tom onun söz verdiyini və ona inandığını söylədi. Tomun sözlərinə görə, o içməmişdi, isterikaya meyli yoxdu, hədələmirdi və onun yanına qayıtması üçün yalvarmırdı. O hesab edirdi ki, Reyçel ağlını başına toplayıb.

Mən bir neçə dəfə dərindən nəfəs aldım, Evini qaldırıb dizimin üstünə qoydum sonra da əllərini ovcuma alaraq, uzandırdım.

– Məncə, daha bəsdir, düzdür, qızım? Reyçel məni elə bezdirib ki... Hər dəfə həyatımızın qaydaya düşəcəyinə və onun daha bizə problem yaratmayacağına ümid edəndə hər şey yenidən təkrarlanır. Bəzən mənə elə gəlir ki, o bizi daim izləyəcək.

Lakin qəlbimin dərinliyində məni şübhə gəmirir. Hər dəfə Tom əmin edir ki, hər şey yolundadır və Reyçel daha bizi narahat etməyəcək, o isə yenidən peyda olur. Düşünürəm, o doğrudanmı hər şeyi edir ki, o qadın bizdən əl çəksin, yoxsa Reyçeli başından çıxara bilməməsi ona xoşdur?

Mən aşağı enirəm, mətbəx masasının qutusundan serjant Raylinin verdiyi vizit kartını çıxarır və hələ fikrimi dəyişməmiş nömrəni yığıram.

Çərşənbə, 14 avqust 2013-cü İl

Səhər

Biz yataqda uzanmışıq: onun əlləri budlarımın üstündədir, o mənim boynuma isti nəfəs verir, dərisi isə mənimki kimi tərdən islanıb.

– Biz bununla çox az-az məşğul oluruq, – o deyir.

– Bilirəm.

– Bir-birimizə daha çox vaxt ayırmalıyıq.

– Razıyam.

– Mən sənin üçün darıxmışam, – o deyir. – Bu iş üçün darıxmışam. Yenə də istəyirəm.

Mən çevrilir və onun dodaqlarından öpürəm, gözlərimi bərk yumuram və ondan xəbərsiz polisə müraciət etdiyimə görə günah hissini boğmağa çalışıram.

– Məncə, birlikdə harasa getməyimiz lazımdır, – o mızıldanır. – Özümüz. Bir az fikrimizi dağıtmaq üçün.

Mən soruşmaq istəyirəm: bəs, biz Evini kiminlə qoyarıq? Küsülü olduğun valideynlərinləmi? Yoxsa zəifliyindən heç özünü də idarə edə bilməyən anamla?

Amma heç nə demirəm, onu yenə daha ehtirasla öpürəm. Onun əli budlarıma tərəf sürüşür və onu bərk sıxır.

– Nə deyirsən? Hara getmək istəyərdin? Mavrikiyə? Yoxsa Bali?

Gülürəm.

– Mən zarafat etmirəm, – o geri çəkilib gözlərimə baxaraq deyir. – Sən buna layiqsən, Anna. Haqqın var. Bu il asan olmadı, elə deyi?

– Amma...

– Nə “amma”? – Mənə baxaraq deyir. Onun dodaqlarında oynayan təbəssüm qarşısında davam gətirmək mümkün deyil.

– Tom, bəs pul?

– Həll edərik.

– Amma... – Mən bu mövzunu açmaq istəmirəm, amma məcburam: – Bizim hətta başqa yerə köçmək haqqında düşünməyə belə pulumuz yoxdur, amma Mavriki və ya Balidə istirahət üçün var?

O ovurdlarını şişirdir, yavaşca nəfəs verir və kənara çəkilir. Mən bu məsələni qaldırmamalıydım. Evi yuxudan ayılır.

– Mən onunla məşğul olaram, – o deyir və qalxıb otaqdan çıxır.

***

Səhər yeməyi zamanı Evi adi konsertini verir. İndi bu onun üçün bir oyuna çevrilib: o yeməkdən imtina edir, başını bulayır, dodaqlarını bərk-bərk sıxıb çənəsini qaldırır və nəlbəkini balaca yumruğu ilə itələyir. Tomun səbri şox tez tükənir.

– Mənim buna vaxtım yoxdur, – o deyir. – Bununla sən özün məşğul olacaqsan. – O qalxır və narazı bir görkəmlə qaşığı mənə uzadır.

Mən dərindən bir nəfəs alıram.

Hər şey qaydasındadır, o, sadəcə, yorulub və səhər mən onun istirahət xəyallarını dəstəkləmədiyim üçün bir az acıqlıdır.

Lakin əslində heç də hər şey qaydasında deyil, çünki artıq mən də yorulmuşam. Pul və yaranmış vəziyyət haqqında danışmaq istəyirəm, bunu onun getməsi əsla həll etməyəcək. Aydındır ki, mən bu barədə danışmıram. Lakin özümə verdiyim sözü pozuram və ona Reyçel barədə danışıram.

– O, yenə də burada fırlanırdı, – deyirəm. – Görünür, sənin onunla söhbətlərin heç nəyi həll etməyib.

O mənə diqqətlə baxır.

– Necə yəni “fırlanırdı”?

– O, dünən axşam burada idi və düz bizim evin qarşısında dayanmışdı.

– Kiminləsə?

– Yox. Tək. Bəs sən niyə bu barədə soruşursan?

– Lənət olsun! – deyir. Onun üzü qaralır, o ciddi hirslənəndə həmişə belə olur. – Axı ona dedim ki, bizdən uzaq dursun! Niyə sən axşam mənə bir şey demədin?

– Dilxor etmək istəmədim, – yumşaq cavab verdim, artıq bu mövzunu qaldırdığıma peşman idim.

– İlahi! – o deyir və fincanı əl-üz yuyana tolazlayır.

Yüksək səs Evini qorxudur və o ağlamağa başlayır. Lakin bu, Tomu dayandırmır.

– Bilmirəm nə deyim, doğrudan bilmirəm. Mən onunla danışanda onun ağlı başında idi. Məni dinlədi və buralarda görünməyəcəyinə söz verdi. Yaxşı görünürdü, sağlam və praktiki olaraq normal...

– "Yaxşı görünürdü"? – mən təkrar soruşuram və o üzünü çevirməyə macal tapmamış, bu sözləri ağzından qaçırdığını üzündəki ifadədən anlayıram. – Axı sən deyirdin ki, onunla telefonda danışmısan?

O, dərindən köks ötürür və günahkar bir tövrlə mənə tərəf çevrilir:

– Bəli, əzizim, mən elə dedim, çünki bilirdim ki, əgər görüşdüyümüzü bilsən, dilxor olacaqsan. Ona görə də boynuma alıram: mən yalan söylədim, amma yaxşı niyyətlə.

– Məni ələ salırsan, nədir?

O gülümsəyir, başını bulayır, mənə yaxınlaşır, əllərini yalvarış jestində birləşdirir.

– Bağışla, bağışla məni. O, şəxsən danışmaq istədi. Düşündüm ki, bəlkə belə daha yaxşıdır. Bağışla məni, yaxşı? Biz, sadəcə, söhbət etdik. Eşberidə bir pivəxanada görüşdük və ən çoxu iyrimi dəqiqə söhbət etdik. Maksimum yarım saat. Başa düşdün?

O məni qucaqlayır və özünə sıxır. Mən müqavimət göstərməyə cəhd edirəm, lakin o məndən güclüdür, onun qoxusu mənim üçün xoşdur və mən dalaşmaq istəmirəm. Mən istəyirəm, biz bir tərəfdə olaq.

– Məni bağışla, – o saçlarıma pıçıldayır.

– Hər şey qaydasındadır, – deyə geri çəkilirəm.

Bu məsələ ilə bağlı daha ondan heç nə soruşmuram, çünki indi bununla özüm məşğul oluram. Dünən axşam serjant Rayli ilə danışdım və o saat anladım ki, ona zəng etməkdə düzgün hərəkət etmişəm, çünki mən Reyçelin bir neçə dəfə (azca şişirtmə) Skott Hipvellin evindən çıxdığını gördüyümü deyəndə, o çox maraqlandı. O bunların nə zaman olduğunu bilmək istədi (mən iki dəfənin detallarını dedim, qalanları barədə dumanlı danışdım), və soruşdu ki, Meqan Hipvell yoxa çıxmazdan öncə onlar ünsiyyətdə olurdularmı? İndi onların arasında eşq macərası olduğunu hesab edirəmmi? Etiraf edim ki, bu mənim ağlıma gəlməmişdi: təsəvvür edə bilmirəm ki, o Meqandan sonra Reyçellə birlikdə olsun. Özü də arvadını yenicə dəfn etdiyi bir zamanda.

Raylinin unuda biləcəyini nəzərə alaraq, mən Evi ilə bağlı insidenti – uşağı oğurlama cəhdini onun yadına saldım.

– O, çox qeyri-stabildir, – dedim. – Bəlkə elə düşünərsiniz ki, vəziyyəti qəlizləşdirirəm, amma əgər söhbət mənim ailəmin səadətindən gedirsə, mən risk edə bilmərəm.

Yox, yox, – Rayli əmin etdi. – Sağ olun ki, mənimlə əlaqə saxladınız. Əgər birdən nəsə şübhəli bir şey görsəniz, lütfən mənə xəbər verin.

Onların necə reaksiya verəcəkləri haqqında təsəvvürüm belə yoxdur – bəlkə onunla söhbət edəcəklər və ona məsuliyyət daşıdığı barədə xəbərdarlıq edəcəklər? İstənilən halda onun bizə yaxınlaşmasını qadağan edən məhkəmə qərarı almaq barədə düşünmək lazımdır. Ümid edirəm, Tomun xeyri üçün iş bu dərəcəyə çatmaz.

Tom işə getdikdən sonra Evi ilə biz parka yola düşürük, orada yelləncəkdə və taxtadan düzəldilmiş balaca atlarda yellənirik. Sonra mən onu gəzinti kolyaskasına qoyanda dərhal yuxuya gedir və mənə mağazaları

gəzməyə imkan verir. Biz bir az sakit küçələrlə, maşınların getmədiyi arxa küçələrlə gedirik və Krehem-strit 34-ün yanından keçirik.

Hətta indi də bu evə bircə dəfə baxmağım kifayətdir ki, həyəcan və yüngül titrəmə keçirim. Mənim dodaqlarımda özümdən asılı olmayaraq təbəssüm əmələ gəlir, yanaqlarım qızarır. Mənim yadımdadır, biz pilləkənlə necə tələsə-tələsə və qonşulardan heç kəsin görmədiyinə ümid edərək balkona çıxırdıq, necə mən birinci içəri girir və o saat vanna otağına qaçırdım, orada cəld ətirlənir və asan çıxarıla bilən alt paltarı geyirdim. Sonra sms gəlirdi ki, o qapının ağzındadır və biz yuxarıda yataq otağında bir-iki saat keçirirdik.

Reyçelə müştəri ilə görüşdə, ya da yoldaşları ilə pivəxanada olduğunu deyirdi.

– Bəs sən qorxmursan ki, o nə isə şübhələnər və yoxlayar? – soruşuram və o, başını bulayır.

– Mən yalan söyləməyi əla bacarıram, – bir dəfə o. gülümsəyərək boynuna aldı.

Bir başqa dəfə o dedi:

– Hətta Reyçel yoxlasa da bu dəhşətli deyil, çünki ertəsi gün onsuz da heç nə xatırlamayacaq.

Bax, onda mən anladım ki, evdə onun işləri necə pisdir.

Bu söhbətlər barədə düşünəndə gülümsəməyi kəsirəm. Tomun əlini qarnıma çəkərək necə sui-qəsdçi kimi güldüyünü və əla yalan danışmağı bacardığını dediyini xatırlayıram. O, həqiqətən bunu ustalıqla və çox inandırıcı şəkildə edir. Bunun dəfələrlə şahidi olmuşam. Məsələn, mehmanxanada qeydiyyatdan keçərkən, o bizi gənc evlənənlər kimi qələmə verirdi və ya işdə gec qalmaq istəməyəndə, evdə nəsə baş verdiyini bəhanə edirdi. Əlbəttə, hamı bu mövzularda yalan danışır; lakin Toma mütləq inanırdılar.

Mən səhər yeməyi haqqında düşünürəm – lakin məsələ ondadır ki, mən onun yalanını ifşa etdim, o da dərhal boynuna aldı. Mənim həyəcanlanmaq üçün əsasım yoxdur. O Reyçellə məndən gizlin görüşmür! Bu, sadəcə,

gülməlidir! Bir zamanlar, onlar yeni tanış olduqlarında, Reyçel, bəlkə də onun üçün cazibədar və hətta çox qəşəng idi. Mən şəkillərini görmüşəm – çox iri qara gözləri, əla fiqurası, hər şeyi yerində – lakin o vaxtdan bəri Reyçel xeyli kökəlib. Həm də istənilən halda, Reyçelin başımıza gətirdiyi oyunlardan – bütün bu izləmələr, gecə telefon zəngləri, isterikalar, sms-lərdən sonra, Tom heç vaxt onun üzünə xoş baxmaz.

Mən konserv şöbəsində dayanmışam. Evi hələ kolyaskasında yatır və mən o telefon zəngləri haqqında düşünürəm. Yuxudan necə oyandığımı xatırlayıram – bəlkə də bu bir neçə dəfə olub? Vanna otağından işıq gəldiyini görürəm. Bağlı qapı arxasında onun səsini eşidirəm – alçaq və yumşaq. Onu sakitləşdirirdi, mən bunu bilirdim. O mənə danışırdı ki, bəzən Reyçelin, sadəcə, ağlı başında olmur, bizim evə ya da onun iş yerinə gələcəyini, ya da özünü qatarın altına atacağını deyib təhdid edir. Bəlkə də o əla yalan söyləməyi bacarır, lakin mən onun nə zaman doğru danışdığını bilirəm. O məni aldada bilməz.

Axşam

Amma o məni aldada bilmişdi, elə deyil? O, Reyçellə telefonla danışdığını deyəndə özünü normal aparırdı və demək olar ki, həyatından məmnun idi, onda mən ona tam inandım. Bazar ertəsi axşam o, evə gələndə soruşdum ki, gün necə keçdi? O da bütün səhəri oturmağa məcbur olduğu yorucu iclasdan söz açdı. Mən onun sözlərinin doğruluğuna əsla şübhə etmədən halına acıdım, hərçənd, heç bir iclas olmamış və səhər-səhər o Eşberidəki qəhvəxanada öz keçmiş arvadı ilə vaxt keçirmişdi.

Qab-qacağın səsi Evini oyatmasın deyə, qabyuyan maşını ehtiyatla doldurmağa çalışaraq, bu barədə düşünürəm. O məni aldadır. Bilirəm ki, o mənə heç də həmişə düzünü demir. Onun valideynləri haqqında danışdıqlarını xatırlayıram – o necə onları toya dəvət etdi, onlar isə gəlməkdən imtina etdilər, çünki Reyçeldən ayrılmasını ona bağışlaya bilmirdilər. Mənə bu həmişə qəribə gəlirdi, çünki onun anası ilə iki dəfə ünsiyyətdə olmuşdum və hər dəfə o məni mehribanlıqla dinləmişdi. Bunu hiss edirdim: o çox səmimiyyətlə danışır və həm mənimlə, həm də Eviylə maraqlanırdı.

– Ümid edirəm, biz onu tezliklə görəcəyik, – o vidalaşarkən dedi.

Mən bu barədə Toma danışdım, lakin o əlini yellədi.

– O, sadəcə, çalışır ki, mən onları dəvət edim, – o izah etdi, – çünki bizdən nümayişkaranə şəkildə imtina etmək istəyir. Hökmlülük oyunu oynayır.

Bu çox qəribə idi, çünki mənə elə görünmədi, lakin mən təkid etmək istəmədim. Başqasının ailəsində qarşılıqlı münasibətləri öyrənməyə çalışmaq yaxşı iş deyil. Yəqin valideynlərindən uzaqlaşmaq üçün Tomun müəyyən səbəbləri var və əminəm ki, o mənimlə Evini qorumaq istədiyi üçün belə hərəkət edir.

Bəs onda mən niyə onun sözlərinin doğruluğuna şübhə edirəm? Bütün məsələ bu evdə, mövcud vəziyyətdə və son zamanlar baş verən hadisələrdədir. Bunlar məni şübhələnməyə məcbur edirlər. Əgər mən özümü ələ ala bilməsəm, onda dəli olacağam və aqibətim onun kimi olacaq. Reyçel kimi.

Mən oturub, mələfəni quruducu barabandan çıxarmağın nə zaman mümkün olacağını gözləyirəm. Bəlkə televizoru işə salmaq yerinə düşər – orada “Dostlar”ın seriyasını göstərə bilərlər, deyəsən, mən ona hələ üç yüzüncü dəfə baxmamışam? Ya da yoqa ilə məşğul olmaq? Ya da bəlkə yatağın yanındakı masanın üstündə olan romanı oxuyum? İki həftə ərzində vur-tut on iki səhifə oxuya bilmişəm. Tomun noutbuku yadıma düşür, o qonaq otağında jurnal masasının üstünə qoyulub.

Sonra da elə bir şey edirəm ki, bunu özümdən heç gözləmirdim: axşam şam yeməyində açdığımız qırmızı şərab şüşəsini götürüb özümə bir bakal süzürəm. Sonra noutbuku işə salaraq parolu tapmağa cəhd edirəm.

Mən tamamən onun elədiklərini təkrar edirəm: təklikdə içirəm və onun arxasınca casusluq edirəm. O qadın da belə edirdi və Tom buna nifrət edirdi. Lakin bu yaxınlarda – bu gün səhər – hər şey dəyişdi. Bir halda ki, o məni aldadır, onda mən onun arxasınca casusluq edəcəyəm.

Məgər bu ədalətli deyilmi? Mənə elə gəlir ki, buna haqqım var. Elə buna görə də parolu sındırmağa cəhd edirəm. Adları müxtəlif kombinasiyalarda yoxlayıram: öz adım və onun adı; onun adı və Evi; mənim adım və Evi – hər üçümüzün adını müxtəlif ardıcıllıqla. Sonra ad günlərimizin tarixlərini

müxtəlif ardıcıllıqla yoxlayıram. Və yubileyləri: tanış olduğumuz, ilk dəfə sekslə məşğul olduğumuz günləri. Krehem-roud 34, 23 nömrə – bizim ev. Variantların dairəsini genişləndirməyə çalışıram – çox kişilər parol olaraq sevimli futbol komandasının adını seçir, lakin Tom futbola həvəs göstərmir. O kriketi xoşlayır və mən aparıcı oyunçuların adlarını, sonra turnirin adını yoxlayıram. Gənc idmançıları tanımıram. Bakaldakı şərabı içib qurtarıram və yenə yarıya qədər süzürəm. Bu tapmacanı həll etmək mənim hətta xoşuma gəlir. Mən onun xoşladığı musiqi qrupunu, filmləri, aktrisaları xatırlayıram. “Parol” sözünün özünü də yoxlayıram və yığıram “1234”.

Bayırda xoşagəlməz bir qıcırtı eşidilir, elə bil bıçağı tavaya çəkirsən, bu qatardır, semaforun önündə dayanır. Dişlərimi qıcayıram, şərabdan iri bir udum alıram və yalnız indi görürəm ki, saat az qala yeddidir. İlahi! Evi hələ yatır, Tom da elə indilərdə gələcək. Bu zaman açarın kiliddə fırlandığını eşidirəm və az qala ürəyim dayanır.

Noutbukun qapağını örtürəm və ayağa sıçrayıram, stul səs-küylə çevrilir. Evi yuxudan ayılır və ağlamağa başlayır. O, içəri girməmişdən öncə kompüteri yerinə qaytarmağa macal tapıram, lakin o nəsə hiss edir və soruşur:

– Nə olub?

– Heç nə, sadəcə, mən stula toxundum və o da aşdı.

O Evini sakitləşdirmək üçün yerindən götürür, mənsə güzgüyə göz ataraq görürəm ki, rəngim mələfə kimi ağarıb və dodağımda qırmızı şərab izi var.

# Reyçel

---

Cümə axşamı, 15 avqust 2013-cü İl

Səhər

Keti mənə iş üçün müsahibə qeydə aldırıb. Onun rəfiqəsi ictimaiyyətlə əlaqələr firması açıb və ona köməkçi lazımdır. Əslində bu katibə vəzifəsidir,

yalnız adı yaxşı səslənir, maaş da elə simvolikdir, lakin bu mühüm deyil. Həmin qadın mənimlə heç bir təqdimatsız danışmağa razı olub – Keti ona deyib ki, mən çətin günlər yaşamışam, amma indi hər şey arxada qalıb və hər şey qaydasındadır. Müsahibə sabah nahardan sonra həmin qadının evində olmalıdır – o öz evində, bağdakı əlavə tikilidə özünə ofis düzəldib – özü də Uitnidə yaşayır. Ona görə mən görüşə hazırlaşmaqla, yaddaşımda öz professional davranışımı təzələmək və özümü daha yaxşı təqdim etmək bacarıqlarını bərpa etməklə məşğul olmağı düşünürdüm. Amma bu zaman Skott zəng etdi.

– Mən ümid edirdim ki, biz söhbət edə bilərik, – o dedi.

– Bizə... demək istəyirəm ki, sənin nəsə izah etməyinə heç bir ehtiyac yoxdur. Bu... Hər ikimiz bilirik ki, səhv etmişik.

– Bilirəm, – o razılaşdı və bunu elə dilxor vəziyyətdə dedi ki, heç mənim gecə kabuslarımdakı Skotta bənzəmirdi.

O sanki yenidən mənim yatağımda oturub özünün doğulmamış uşağından danışan dərddən əyilmiş adama çevrilmişdi.

– Lakin səninlə danışmaq mənə çox lazımdır.

– Əlbəttə, – dedim . – Əlbəttə, buyurun, danışaq.

– Biz görüşə bilərikmi?

– E... – həmin evə bir daha qayıtmamaq qərarına gələrək duruxdum, – bağışla, lakin bu gün imkanım yoxdur.

– Lütfən, Reyçel. Bu çox vacibdir.

O, elə iztirabla danışırdı ki, özümdən asılı olmayaraq ona yazığım gəldi. Mən hansı bəhanə ilə ona yox cavabı verməyi düşünərkən, o, yenidən xahiş etdi:

– Lütfən!

Mən istəmədən razılaşdım və dərhal bundan peşman oldum.

Qəzetlərdə Meqanın uşağından yazırdılar – onun birinci, ölü uşağından.

Daha doğrusu, həmin uşağın atasından. Onu axtarıb tapmışdılar. Onun adı Kreyq Makkenzi olub və o dörd il bundan əvvəl heroin dozasını aşmaqdan ölüb. Beləliklə, o şübhəlilər siyahısından çıxarılır. Mənə həmişə bu motiv qondarma görünürdü – əgər kimsə onu keçmişə görə cəzalandırmaq istəsəydi, bunu illər öncə edərdi.

Bəs onda kim qalır? Adi şübhəlilər dəsti: ər və sevgili. Skott və Kamal. Yoxsa bu, ona küçədə hücum etmiş hansısa manyakdır, öz qurbanlarının hesabını aparan bir qatildir? Meqan onun qətllər seriyasında birinci – Vilomena Makken[6] və ya Polin Rid[7] olub? Kim dedi ki, qatil kişi idi? Meqan Hipvell balaca və zərif bir qadın idi. Onu həyatdan məhrum etmək üçün elə xüsusi güc tələb olunmurdu.

Günün ikinci yarısı

O, qapını açanda mənim ilk hiss etdiyim şey – qoxu idi. Tər və pivə qoxusu, acı və turş, bunlara nəsə xoşagəlməz bir şey də qarışmışdı. Çürümə qoxusu. Skottun əynində idman şalvarı və ləkələrlə örtülü boz idman köynəyi var, saçları kirlidir, dərisi tərdən parıldayır.

– Hər şey qaydasındadır? – soruşuram və o, cavabında gülümsəyir. O sərxoşdur.

– Hə, keç.

Könülsüz halda içəri girirəm.

Küçəyə açılan pəncərələrin pərdələri örtülüb və otaq, istiyə və qoxuya uyğun qırmızımtul işığa qərq olub.

Skott yırğalana-yırğalana mətbəxə yönəlir, soyuducunu açaraq pivə çıxarır.

– Keç otur, – o deyir. – Qonaq ol. – Onun sifətində donuq və acı bir təbəssüm var. Üzündəki ifadədən nəsə bir bədxahlıq hiss olunur. Şənbə səhəri, onunla birlikdə keçirdiyimiz gecədən sonra, onda hiss etdiyim düşmənçilik yox olmamışdı.

– Mən çox qalmayacağam, – deyirəm. – Sabah müsahibəm var, hazırlaşmalıyam.

– Doğrudan? – O, qaşlarını qaldırır, oturur və stulu ayağı ilə mənə tərəf itələyir. – Otur, qonaq ol!

O, təklif etmir, əmr edir.

Onunla üzbəüz otururam və o, pivə şüşəsini önümə qoyur. Mən bir udum alıram. Küçədə oynayan uşaqların səs-küyü, onların arasından isə alçaqdan tanış təkər tıqqıltıları eşidilir.

– Dünən DNT analizləri gəldi, – Skott deyir. – Axşam mənim yanıma serjant Rayli gəlmişdi. – O gözləyir ki, mən nə cürsə reaksiya verəcəyəm, lakin mən nəsə yersiz bir şey deməkdən çəkinərək susuram.

– Uşaq mənim deyil. O mənim olmayıb. Ən gülməlisi odur ki, Kamalın da deyil. – O gülür. – Demək, onun başqa bir oynaşı da varmış. Təsəvvür edirsən? – Bu dəhşətli təbəssüm onun üzündən getmir. – Sən bunu bilmirdin, doğrudur? Daha bir oynaş haqqında? O sənə bu barədə bir şey deməmişdi, elədir?

O daha gülümsəmir və məndə xoşagəlməz bir hiss peyda olur. Çox xoşagəlməz. Mən qalxıram və qapıya doğru bir addım atıram, lakin o mənim yolumu kəsir, əlimdən yapışır və zorla stulda oturdur.

– Yerində otur, lənət şeytana! – Çiynimdən çantanı alıb otağın küncünə tullayır.

– Skott, mən anlamıram, nə baş verir...

– Doğrudanmı?! – o başımın üstündə dayanıb qışqırır. – Axı Meqanla sən yaxşı rəfiqə idiniz! Sən axı onun bütün sevgililərini tanıyırsan!

O bilir. Mən bu barədə düşünməyə macal tapmamış, yəqin bunu üzümdən oxuyub, çünki mənə tərəf daha aşağı əyilir və məni ağır nəfəsi ilə vuraraq deyir:

– Hə, hə, Reyçel, söylə!

Mən başımı bulayıram, o əlini yelləyib şüşəyə toxunur. Şüşə masadan düşüb döşəmənin plitəsinə dəyərək sınır.

– Siz heç yerli-dibli tanış deyildiniz! – o böyürür. – Sənin danışdıqlarının

hamısı tamamilə yalandır!

Mən başımı silkələyir və mızıldanaraq, ayağa sıçrayıram:

– Bağışla, bağışla.

Masanın ətrafından keçib çantamı və telefonu götürmək istəyirəm, lakin o, yenə mənim əlimdən yapışır.

– Sən bunu nə üçün elədin? – o soruşur. – Niyə? Sənə nə lazımdır?

O, düz mənim gözümə baxır və mən dəhşətə gəlirəm, lakin eyni zamanda anlayıram ki, onun sualı tam yerindədir. Onun bilməyə haqqı var. Ona görə də əlimi onun qısqac kimi sıxılan caynağından çıxartmağa cəhd etmədən sakit və aydın cavab verirəm. Vahiməyə düşməməyə və ağlamamağa çalışıram.

– Mən istədim ki, Kamal haqqında biləsən, – ona deyirəm. – Onları danışdığım kimi birlikdə gördüm, lakin mən, sadəcə, qatar sərnişini olsaydım, sən mənə inanmazdın. Mənə lazım idi ki...

– Sənə lazım idi! – O məni buraxır və üzünü çevirir. – Deyirsən, sənə lazım idi... – O daha qışqırmır və bir az sakitləşir.

Mən dərindən nəfəs alıram və ürəyimin döyüntüsünü azaltmağa çalışıram.

– Sənə kömək etmək istəyirdim, – davam edirəm. – Bilirəm ki, polis həmişə ərdən şübhələnir, buna görə də istədim ki, başqa birinin də olduğunu biləsən...

– Və mənim arvadımı tanımağın barədə hekayə uydurdun? Sən özün anlayırsan, bu necə vəhşicəsinə səslənir?

– Anlayıram. – Mən masaya yaxınlaşıb mətbəx dəsmalını alıram, aşağı çökərək döşəmədən pivəni silməyə başlayıram.

Skott oturur, başını sallayaraq dirsəklərini dizinə söykəyir.

– O mənim qəbul etdiyim adam deyilmiş, – o deyir. – Onun necə bir adam olması barədə təsəvvürüm belə yoxdur.

Dəsmalı su tasına sıxıram və əlimi yumaq üçün soyuq suyu açıram. Çantam otağın küncündə, məndən bir-iki fut aralıdadır. Mən ona tərəf hərəkət edirəm, lakin Skott gözünü qaldırıb mənə baxır və mən yerimdə donub qalıram. Masanın üst taxtasına söykənərək, əminlik üçün onun kənarlarından yapışıb dururam.

– Serjant Rayli mənə hər şeyi danışdı, – Skott deyir. – Həm də sənin haqqında soruşdu. Səninlə sevişirəmmi deyə. – O güldü. – Səninlə sevişmək! İlahi! Ondan soruşdum ki, o mənim arvadımın necə göründüyünü görmüşdümü? Mən belə tez bu qədər alçala bilməzdim.

Sifətim od tutub yanır. Qoltuğumun altında və belimdə soyuq tər əmələ gəlir.

– Hər şeydən görünür ki, Anna səndən şikayət edib. O sənin burada dolaşdığını görüb. Beləcə, hər şey aşkara çıxıb. Mən dedim ki, bizim aramızda heç bir münasibət yoxdur, sən, sadəcə, Meqanın rəfiqəsisən və mənə təskinlik vermək üçün buraya gəlirsən...

O, yenə sakitcə və acı-acı güldü.

– Rayli dedi ki, sən Meqanla tanış deyildin, sən, sadəcə, uğursuz həyat sürən yalançısan.

Onun üzündən gülüş silinir.

– Sizin hamınız yalnız yalan danışmaqla məşğulsunuz. Bir nəfər kimi.

Mənim telefonum zəng çalır. Çantama doğru addım atıram, lakin Skott məni qabaqlayır.

– Bir dəqiqə dayan, – o deyir. – Biz hələ qurtarmamışıq.

O, çantanın içindəkilərini masanın üstünə səpir: telefon, pul qabı, açarlar, pomada, tamponlar, mağaza qəbzləri.

– Bilmək istəyirəm, sənin danışdıqlarından hansılar tam cəfəngiyyatdır? – Skott qəsdən telefonu yavaşca götürür və ekrana baxır. Sonra gözlərini qaldırıb mənə baxır. Baxışları buz kimi soyuqdur. O ucadan oxuyur: – “Xatırladırıq ki, 19 avqust, bazar ertəsi, saat 16.30-da siz doktor Abdikin seansına yazılmısınız. Əgər sizin planlarınız dəyişibsə, seansı başqa vaxta keçirmək yalnız 24 saat öncədən mümkündür”.

– Skott...

– Lənət şeytana, bu nə deməkdir?! – o, xırıltılı səslə soruşur. – Sən nə etməyə çalışırsan? Sən ona nə demisən?

– Mən ona heç nə deməmişəm...

O, telefonu masaya qoyur və yumruğunu büküb mənə yaxınlaşır. Mən, ta divarla şüşə qapının arasında küncə sıxılıncaya qədər geri çəkilirəm.

– Mən aydınlaşdırmaq istədim... Kömək etmək istədim.

O əlini qaldırır və mən büzüşürəm, başımı qısaraq ağrı gözləyirəm. Bax,

bu anda dərk edirəm ki, mən artıq tamamilə eyni hərəkətləri eləmişəm və eyni hissləri keçirmişəm, lakin bunun nə zaman olduğunu xatırlaya bilmirəm. Bu barədə düşünə də bilmirəm, çünki o zərbə vursa da, mənim çiyinlərimdən yapışır və baş barmağı ilə sümüyümü elə bərk sıxır ki, ağrıdan qışqırıram.

– Bütün bu müddətdə, – o dişini sıxaraq deyir, – bütün bu müddətdə mən hesab edirdim ki, biz bir tərəfdəyik, sənsə mənim əleyhimə fəaliyyət göstərirmişsən. Ona xəbərçilik edirdin, doğrudur? Mənim haqqımda, Meq haqqında danışırdın. Polisi də mənim üstümə sən yönəltmisən. Sən...

– Yox! Lütfən, lazım deyil! Belə bir şey olmayıb. Mən sənə kömək etmək istəyirdim.

O, saçlarımı ovcuna toplayıb burur.

– Skott, lütfən! Dayan! Ağrıdır! Lütfən!

O məni çıxışa doğru sürüyür. Necə yüngülləşdiyimi hiss edirəm. O, sadəcə, məni küçəyə atmaq istəyir. Tanrıya şükür!

Amma o məni küçəyə atmaq fikrində deyilmiş. O lənətlər yağdıraraq və tüpürərək məni sürüməkdə davam edir. Məni yuxarı dartır, mən müqavimət gösrərirəm, lakin o elə güclüdür ki, bütün cəhdlərim boşa gedir. Mən hıçqırıram və yalvarmaqda davam edirəm:

– Lütfən, lazım deyil! Lütfən! – Başa düşürəm ki, tezliklə nəsə dəhşətli bir şey baş verəcək, qışqırmaq istəyirəm, lakin səsimi çıxara bilmirəm.

Göz yaşlarından və dəhşətdən heç nə görmürəm. O məni otağa itələyir və qapını arxamca bağlayır. Kiliddə açar çevrilir. İsti öd boğazıma qalxır və mən xalının üstünə qusuram. Mən gözləyir və dinləyirəm. Heç nə baş vermir və heç kəs gəlmir.

Mən boş otaqdayam. Bizim evdə bu yerdə Tom özünə kabinet düzəltmişdi. İndi onlar həmin otağı uşaq otağına çeviriblər, açıq pəmbə rəngli pərdələrlə. Burada isə bu otaq anbardır, buraya kağızlar, qovluqlar olan qutular, yığılmış qaçış xalçası və köhnə kompüter qoyulub. Bir qutu rəqəmlər yazılmış kağızlarla dolu idi – yəqin, Skottun biznesi ilə əlaqədardır. Digərində – köhnə açıqcalar (poçt kartoçkaları): üstündə plastilin, elə bil nə vaxtsa divara yapışdırılıbmış. Onların üstündə Parisin damları;

skeytbordlarda əylənən uşaqlar; köhnə mamırla örtülmüş şpallar; mağaradan dənizə açılan mənzərə təsvir olunub. Mən bu poçt kartlarını eşələyirəm. Nə tapmaq istədiyimi bilmirəm – yəqin, sadəcə, diqqətimi yayındırmaq və vahiməyə düşməmək istəyirəm. Meqanın cəsədinin palçıqdan çıxarılması barədə reportajı düşünməməyə çalışıram. Onu nə gözlədiyini anladıqdan sonra necə bir dəhşət yaşadığı haqqında düşünməməyə çalışıram.

Mən poçt kartlarını eşələyirəm, birdən barmağımı nə isə deşir. Qışqıraraq ayağa sıçrayıram. Barmağımın ucunda kəsik var və qan cinsimin üstünə axır. Qanı idman köynəyinin ucu ilə silirəm və kartları daha ehtiyatla eşələyirəm. Səbəb o saat aşkar olur: çərçivənin sınmış şüşəsinin iti ucunda öz qanımı görürəm.

Bu fotoşəkli əvvəl də görmüşəm. Şəkildə Skott və Meqan var, onların üzü iri plandadır. Meqan gülür, Skott isə ona heyranlıqla baxır. Ya da qısqanclıqla? Şüşə düz Skottun gözünün yanında sınıb və çatlar oradan şüalar kimi ayrılır, odur ki, onun ifadəsini anlamaq asan deyil. Tomla dava edərkən qırılan boşqabları və yuxarı dəhlizdə suvaq oyuğunu xatırlayıram.

Bağlı qapının o biri üzündə Skottun necə güldüyünü eşitdikdə məni soyuq tər basır. Ayağa sıçrayıram, pəncərəyə qaçıb onu açır və bədənimi mümkün qədər çölə çıxarıram, az qala yıxılmaq təhlükəsi altında qışqırıb köməyə çağırıram. Mən Tomu çağırıram. Lakin bu faydasız və mənasızdır. Hətta o təsadüfən öz bağında olsaydı da məni eşitməzdi, çünki məsafə böyükdü. Aşağı baxanda müvazinətimi itirib az qala yıxılacaqdım. Sonra böyük çətinliklə özümü geri çəkə bilirəm, içimdə hər şey titrəyir, boğazım hönkürtüdən tutulur.

– Lütfən, Skott, – yalvarıram, – lütfən...

Səsimdəki bu yaltaq notlara görə özümə nifrət edirəm. Üstünə qan bulaşmış idman köynəyinə baxıram və ağlıma gəlir ki, hələ çıxış yolum var. Çərçivəni götürüb, qırılmış şüşələri xalının üstünə tökürəm və qırıqlardan ən böyüyünü ehtiyatla arxa cibimə qoyuram.

Pilləkəndə addım səsləri eşidilir. Mən qapıdan uzaq divara doğru gedirəm. Açar kiliddə fırlanır.

Skottun bir əlində mənim çantam var, onu ayağımın altına tullayır; digər

əlində isə bir kağız parçası.

– Lap Nensi Dryuya8 bənzəyirsən! – o gülümsəyərək deyir və cır səslə oxuyur: – “O, yuxarıda “B” ilə işarələdiyim oynaşı ilə qaçıb”. – O bərkdən gülür. – “B” ona nəsə pis bir şey etdi... Skott ona nəsə pis bir şey etdi...” – O, vərəqi əzişdirib ayağının altına atır. – İlahi, sən doğrudan da zavallısan!

Sonra otağı gözdən keçirir və xalı üzərində qusuntu və idman köynəyində qan izini görür.

– Ah, səni lənətə gələsən! Sən burada neyləmisən? Həyatla vidalaşmaq istədin? Mənim əvəzimə mənim işimi görməyə çalışdın? – O yenə gülür. – Sənin boğazını üzmək lazımdır, amma əlimi bulamaq istəmirəm. – O kənara çəkilir. – Mənim evimdən çıx, cəhənnəm ol!

Mən çantamı qapıb qapıya yönəlirəm, lakin astanada Skott cəld bir boksçu hərəkətiylə düz qarşımda peyda olur. Məni yenə tutub saxlayacağından qorxuram. Yəqin mənim gözümdə elə bir dəhşət ifadə var ki, o qəhqəhə çəkir. Giriş qapısını arxamca örtəndən sonra da onun qəhqəhələrini eşidirəm.

Cümə, 16 avqust 2013-cü İl

Səhər

Demək olar ki, yatmadım. Bir şüşə yarım şərab içib yatmağa cəhd etdim, əllərimdəki titrəməni kəsmək və əsəblərimi sakitləşdirmək istədim, lakin bu kömək etmədi. Bir az mürgüləmək istədikdə, elə o andaca qorxaraq yerimdən sıçrayırdım. Mənə elə gəlirdi ki, otaqda onun varlığını hiss edirəm. İşığı yandırırdım və küçədən gələn səslərə, yoldan keçənlərin ayaq səslərinə qulaq asaraq otururdum. Yalnız səhərə yaxın, artıq işıqlaşmağa başladıqda yuxuya gedə bildim. Yuxuda yenə gördüm ki, meşədəyəm. Tom mənimlə idi, lakin yenə də qorxunc idi.

Dünən Toma mesaj göndərdim. Skottun evindən 23 nömrəli evə qədər qaçdım və qapını döyməyə başladım. Məni dəhşət bürümüşdü və Annanın evdə ola biləcəyi, gəlişimin onu sevindirməyəcəyi vecimə deyildi. Qapını heç kəs açmadı, mən tələsə-tələsə bir kağız cızma-qaraladım və onların poçt qutularına atdım. Mənim üçün fərqi yox idi ki, bunu Anna görə bilər – hətta

istəyərdim ki, o bu kağızı görsün. Mətn xeyli dumanlı idi – yazmışdım ki, bir gün haqqında bizim danışmağımız lazımdır. Skottu yada salmaq istəmədim, çünki onun işə qarışmasını istəmirdim, onların görüşünün nə ilə qurtaracağını bilmək olmazdı.

Evə gələn kimi polisə zəng çaldım. Düzdür, əvvəlcə sakitləşmək üçün bir-iki bakal şərab içdim. Məni inspektor Qaskillə calaşdırmalarını xahiş etdim, lakin o yerində olmadı, ona görə də Rayli ilə danışmalı oldum. Bu ən yaxşı variant deyildi – Qaskill mənə daha diqqətlə və mehribanlıqla yanaşardı.

– O, zorla məni evdə saxlayırdı, – ona dedim. – Həm də təhdid edirdi.

Rayli maraqlandı ki, o nə qədər müddət məni "zorla saxlayıb". Bu dırnaqlar onun sualında aydın eşidilirdi.

– Bilmirəm, – dedim. – Bəlkə otuz dəqiqə.

Uzun bir fasilə yarandı.

– Həm də sizi təhdid edirdi. Söyləyin, təhdid məhz nədən ibarət idi?

– O dedi ki, mənim başımı üzəcək. Dedi... ki, mənim boynumu üzmək lazımdır.

– Sizin boynunuzu üzmək lazımdı?

– Dedi ki, üzərdim, lakin əlimi bulamaq istəmirəm.

O susdu və sonra soruşdu:

– O sizi vurdumu?

– Yox. Tutdu.

O yenə susdu və nəhayət, maraqlandı:

– Miss Uotson, bəs siz Skott Hipvellin evində nə edirdiniz?

– O məndən gəlməyimi xahiş etdi. Dedi ki, mənimlə danışmaq istəyir.

Rayli dərindən köks ötürdü:

– Sizə xəbərdarlıq etdilər ki, bu işdən uzaq durasınız. Siz ona yalan söyləyirdiniz, deyirdiniz ki, onun arvadının rəfiqəsi olmusunuz, ona hər cür cəfəngiyyat danışırdınız, – imkan verin, sözümü bitirim, – bu adam ən yaxşı halda böyük stress keçirib. Pis halda isə – o təhlükəli ola bilər.

– O təhlükəlidir! Məhz bunu mən sizə çatdırmaq istəyirəm, doğrudanmı, bunu anlamaq mümkün deyil?

– Siz bizim işimizi mürəkkəbləşdirirsiniz – orada peyda olursunuz, ona yalan söyləyirsiniz, onu təhrik edirsiniz. Biz qətl hadisəsini tədqiq edirik. Siz bunu başa düşməlisiniz. Siz isə istintaqın irəliləməsinə mane olursunuz, siz...

– Hansı irəliləyişə? – mən partladım. – Siz bir iynə qədər belə irəliləməmisiniz! Mən sizə deyirəm ki, o öz arvadını öldürüb! Orada fotoşəkil var, birlikdə çəkdiriblər, – çərçivə sındırılıb! O, vəhşi kimidir, özünə nəzarət edə bilmir...

– Bəli, biz o şəkli görmüşük. Biz bütün evi axtarmışıq. Lakin çərçivəni dəlil saymaq olmaz.

– Deməli, siz onu həbs etməyi düşünmürsünüz?

O, yenə dərindən nəfəs aldı:

– Sabah polis şöbəsinə gəlin. Ərizə yazacaqsınız. Sonra baxarıq. Bir də bilirsinizmi, miss Uotson? Skott Hipvelldən uzaq durun.

Keti evə gəldi, mənim içdiyimi görüb dilxor oldu. Özümü müdafiə etmək üçün nə deyə bilərdim? Hər şeyi necə izah edim? Sadəcə, dedim ki, belə alındığına görə çox təəssüf edirəm və küsmüş yeniyetmə kimi yuxarı getdim. Orada yerimə uzanaraq Tomdan zəng gözləməyə başladım. Lakin o zəng etmədi.

Mən erkən yuxudan oyandım, telefonu yoxladım (bir dənə də zəng yox idi), başımı yudum və müsahibəyə hazırlaşmağa başladım: əllərim əsir, qarnımdakı yumaq ərimirdi. Evdən erkən çıxdım, çünki polis şöbəsinə getməli və ərizə yazmalıydım. Bunun bir xeyri olacağını düşünmürəm. Onlar heç vaxt məni ciddi qəbul etmədilər və indi də etməyəcəklər. Maraqlıdır, axı nə baş verməlidir ki, onlar məni xəyalpərəst qız hesab etməkdən əl çəksinlər?

Stansiyaya gedən yolda daim geriyə dönüb baxıram və gözlənilmədən polis maşınının siren səsini eşidəndə, qorxudan yerimdə sıçrayıram. Polis şöbəsində pilləkənləri qalxarkən metal məhəccərlərə mümkün qədər yaxın dururam, birdən lazım olsa, tez yapışmaq üçün. Bilirəm ki, bütün bunlar axmaq şeylərdir, lakin indi Skottun həqiqətdə necə olduğunu bildikdə özümü tamamilə müdafiəsiz hiss edirəm. İndi onun haqqında heç bir illüziyam yoxdur.

Günün ikinci yarısı

Mən bunu başımdan atmalıyam. Mənə həmişə elə gəlirdi ki, nəyisə xatırlamalıyam, çünki bu çox vacibdir. Lakin yanılırmışam. Mən mühüm ya da dəhşətli heç nə görməmişəm. Sadəcə, həmin küçədə olmuşam. İndi bunu həmin o kürən saçlı kişinin alicənablığı sayəsində dəqiq bilirəm. Amma yenə nə isə mənə rahatlıq vermir.

Polis şöbəsində nə Qaskill, nə də Rayli vardı – mən ərizəni yazıb uniformalı bir polisə verdim, o da könülsüz halda onu aldı. İndi yəqin ərizəmi bir qovluğa qoyub biryolluq unudacaqlar, əgər məni çuxurların birində ölü tapmasalar. Mənim müsahibəm şəhərin digər hissəsində olmalıdır, lakin taksiyə düz polis şöbəsinin önündə mindim. Risk etmək istəmirdim. Müsahibə çox normal keçdi – işin özü, əlbəttə, mənim kvalifikasiyamdan xeyli aşağıdır, lakin son bir-iki ildir, mən əvvəlki kimi deyiləm. Hər şeyi sıfırdan başlamaq lazım gələcək. Bu işin ən mənfi cəhəti (əlbəttə, əgər maaşın azlığını və işin primitivliyini nəzərə almasaq) o olacaq ki, hər gün Uitniyə gəlmək və Toma, Annaya və onun uşağına rast gəlmək qorxusu altında bu küçələrlə addımlamalı olacağam. Lakin buralarda tanış sifətlərlə rastlaşmaq mənim üçün çoxdan adi hal almışdı. London ətrafı qəsəbələrin sakinlərinə xas olan bu hiss mənim xoşuma gəlirdi. Qarşılaşdığın adamların hamısını şəxsən tanımaya bilərsən, lakin üzləri tanış gəlir.

Mən artıq stansiyaya yaxınlaşıram və pivəxananın yanından keçirəm, bu zaman kimsə əlimə toxunur və mən kəskin hərəkətlə geri çəkilirəm, ayağım sürüşür və maşın yoluna çıxmış oluram.

– Ey, ey, üzr istəyirəm, bağışla.

Bu yenə odur, kürən saçlı kişi. Onun bir əlində pivə dolu bakal vardı,

digər əlini isə üzrxahlıq hərəkətilə irəli uzatmışdı.

– Sən çox asanlıqla qorxursan, elə deyil? – o gülümsünür.

Yəqin, mənim çox qorxmuş görkəmim vardı, çünki təbəssüm onun üzündən silinir.

– Hər şey qaydasındadır? Mən səni qorxutmaq istəmədim.

O bu gün işdən tez çıxıb və məni özü ilə içməyə dəvət edir. Əvvəlcə imtina edirəm, lakin sonra fikrimi dəyişirəm.

– Mən səndən öz davranışıma görə üzr istəməliyəm, – o mənə (aydın oldu ki, onun adı Endidir) "Cin-tonik" gətirəndə deyirəm. – Mən o gün qatarda olanı nəzərdə tuturam. O gün mənim üçün çətin bir gün idi.

– Hər şey yolundadır, – Endi məni inandırır. O, yavaş-yavaş və tənbəlcəsinə gülümsəyir: görünür, bu onun ilk bakalı deyil. Biz pivəxananın arxa həyətindəki bağda üzbəüz oturmuşuq, – bura küçə tərəfə nisbətən mənə daha təhlükəsiz gəlir. Bəlkə elə bu təhlükəsizlik hissi mənə cəsarət verdi. Mən fürsətdən istifadə etmək qərarına gəldim.

– Mən o vaxt nə baş verdiyini soruşmaq istəyirdim, – deyirəm. – Həmin gecə biz rast gəlmişdik. Meq... o qadın yoxa çıxan gecə.

– A-a. Yaxşı. Bəs, nə haqqında? Sən nə haqda?

Mən dərindən nəfəs alıram və qızardığımı hiss edirəm. Dəfələrlə bunu boynuma almalı olmuşam, lakin həmişə özümü pis hiss edirəm və yaltaqlanaraq danışıram:

– Həmin axşam mən çox içmişdim və heç nə xatırlamıram. Mən bəzi şeyləri özüm üçün aydınlaşdırmaq istəyirəm. Bilmək istəyirəm ki, sən nə gördün, bəlkə mən kiminləsə söhbət edirdim, ya da daha nə... – Mən xəcalət hissi ilə başımı aşağı salıram.

O, ayağı ilə mənim ayağıma toxunur.

– Hər şey qaydasındadır, sən pis heç nə etmədin.

Mən gözümü qaldırıram, o gülümsünür.

– Mən özüm də onda bir az dəm idim. Biz qatarda bir az söhbət etdik, nə barədə yadımda deyil. Sonra hər ikimiz burada, Uitnidə qatardan endik, sən ayaq üstdə çətinliklə dayanırdın. Pillələrdə büdrəyirdin. Xatırlayırsanmı? Mən sənə qalxmaqda yardım etdim və sən bərk utandın, qızardın, elə indiki kimi. – O gülür. – Biz birlikdə getdik və mən pivəxanaya girməyi təklif etdim. Lakin sən imtina etdin, dedin ki, ərini görməyə getməlisən.

– Vəssalam?

– Yox. Sən doğrudanmı xatırlamırsan? Sonra – bilmirəm, bəlkə yarım saat sonra – dostum zəng etdi ki, yolun o biri üzündə barda oturub və mən yeraltı keçidlə oraya getdim. Sən keçiddə yerə uzanmışdın. Deməliyəm ki, heç də yaxşı formada deyildin. Haradasa yaralanmışdın. Mən hətta narahat oldum, evə aparmağı təklif etdim, lakin sən qəti imtina etdin. Sən... çox dilxor idin. Məncə, sevgilinlə dava etmişdin. O, küçə ilə gedirdi, sənə dedim ki, əgər istəyirsənsə, onun arxasınca yetişə bilərəm. Amma sən buna ehtiyac olmadığını bildirdin. O sonra maşınla harasa çıxıb getdi. O... yəni tək deyildi.

– Qadınla idi?

Endi başı ilə təsdiqləyir:

– Hə, onlar birlikdə maşına oturdular. Mən fikirləşdim ki, skandal buna görə baş verib. Sonra sən getdin. Sən sanki anlaşılmaz bir şeylə qarşılaşmışdın və çıxıb getdin. Elə hey deyirdin ki, sənə kömək lazım deyil. Dediyim kimi, mən özüm də dəm idim, ona görə mən də getdim. Digər tərəfə keçdim, dostumu tapdım. Vəssalam.

Mən pilləkənlə mənzilə qalxıram, yuxarıda kölgələr görür və addım səsləri eşidirəm. Meydançada dəqiq məni gözləyirlər. Təbii ki, orada heç kəs yoxdur, mənzildə də kimsə yoxdur. Hərçənd, adamların yoxluğu elə qoxudan da hiss olunur, lakin bu hər yeri yoxlamağa mənə mane olmur, hər otağa baxıram, yataqların altına, həm özümünkünə, həm Ketininkinə, – bütün şkaflara, mətbəx və anbardakı qutulara da baxıram.

Nəhayət, üç dəfə dövrə vurduqdan sonra dayanıram. Yuxarı gedib yataqda oturur və Endi ilə söhbətimi düşünürəm. Onun da mənim xatırladıqlarımı təsdiqlədiyini görürəm. Burada gözlənilməz bir şey yoxdur: biz Tomla küçədə dava etdik, mən sürüşdüm və yaralandım, o dilxor oldu və

Anna ilə maşına minib getdi. Sonra qayıtdı, məni axtardı, lakin mən getmişdim. Yəqin taksiyə mindi, ya da qatarla qayıtdı.

Mən yataqda otururam, pəncərəyə baxıram və nə üçün yüngülləşmədiyimi anlaya bilmirəm. Bəlkə ona görə ki, cavab onsuz da yoxdur. Bəlkə ona görə ki, mənim xatirələrim başqa adamın dedikləri ilə təsdiqlənsə də, nədəsə bir-birinə düz gəlmir. Qəflətən anlayıram: Anna! Özü də məsələ onda deyil ki, Tom onunla necə getdiyini danışmadı. Məsələ ondadır ki, mən onun maşına necə mindiyini və uşağın onunla olmadığını gördüm. Bəs bütün bunlar baş verərkən, Evi harada idi?

Şənbə, 17 avqust 2013-cü İl

Axşam

Mən Tomla danışmalı və nəhayət, hər şeyi anlamalıyam, çünki bu barədə nə qədər çox düşünürəmsə, o qədər hər şey şübhəli görünür və mən bu fikirlərdən canımı qurtara bilmirəm. Məni narahat edir ki, onun poçt qutusuna məktub salmağımdan artıq iki gün keçsə də, o, hələ də zəng etməyib. O, dünən axşam mənim zəngimə cavab vermədi, bu gün də bütün günü onunla əlaqə saxlamağa çalışdım. Nə isə düz getmir və mən bunun Anna ilə bağlı olduğu fikrindən qurtula bilmirəm.

Mən bilirəm ki, əgər Skottla bağlı hadisəni bilsə, o özü mənimlə danışmaq istəyəcək. Bilirəm ki, kömək etmək istəyəcək. Mən onun o gün maşında necə olduğunu və birlikdə özümüzü necə yaxşı hiss etdiyimizi heç cür unuda bilmirəm. Bax, buna görə telefonu götürüb onun nömrəsini yığıram və həyəcanla onun səsinin dəstəkdən eşidilməsini gözləyirəm. Əvvəllər belə idi və bu illərdə heç nə dəyişməyib.

– Bəli?

– Tom, bu mənəm.

– Bəli.

Yəqin ki, Anna haradasa yaxındadır və o məni adımla çağırmaq istəmir. Onun Annadan uzaqlaşıb, digər otağa keçməsini gözləyirəm.

Nəhayət, dəstəkdə onun köks ötürdüyü eşidilir:

– Nə olub?

– Mən səninlə danışmaq istədim... Məktubda yazmışdım.

– Sən nədən danışırsan? – O, açıq-aşkar hirslənib.

– İki gün bundan əvvəl poçt qutunuza məktub atmışdım. Bizim danışmağımız lazımdır...

– Mən heç bir məktub görmədim. – Daha bir köks ötürmə. – Lənət şeytana, bax o buna görə dəli olub!

Hər şeydən görünür ki, Anna məktubu götürüb və ona verməyib.

– Sən nə istəyirsən?

Mən dəstəyi asıb nömrəni yenidən yığmaq və söhbəti yenidən başlamaq istəyirəm. Bazar ertəsi onunla görüşdüyümə necə şad olduğumu və biz necə əla bir gölə getdiyimizi demək istəyirəm.

– Səndən bəzi şeyləri soruşmaq istəyirdim.

– Daha nə barədə? – O, açıq-aydın hirslənir.

– İşlərin qaydasında gedir?

– Məndən nə istəyirsən, Reyçel?

Bir həftə bundan əvvəl onda hiss etdiyim mehribanlıqdan əsər-əlamət də qalmamışdı. O məktubu qoyduğuma və ona problem yaratdığıma görə özümü lənətləyirəm.

– Mən Meqanın yoxa çıxdığı axşam barədə soruşmaq istəyirəm.

– İlahi! Biz bu barədə artıq danışdıq – doğrudanmı, sən yenə unutdun?

– Mən, sadəcə...

– Sən sərxoş idin, – o hündürdən və sərt şəkildə deyir. – Mən dedim ki, sən evə getməlisən. Amma sən məni dinləmədin. Harasa çıxıb getdin. Sonra mən səni maşınla axtardım, lakin tapmadım.

– Bəs Anna harada idi?

– Evdə.

– Uşaqla?

– Bəli, Evi ilə.

– O səninlə maşında deyildi?

– Yox.

– Amma...

– Oh, Tanrım! O, rəfiqəsiylə görüşməli idi, uşağa mən baxmalıydım. Sonra sənin məsələn ortaya çıxdı, o evdə oturmalı oldu, mənsə həyatımın bir neçə saatını sənin axtarışına sərf etdim.

Zəng etməyimə təəssüflənirəm. Ümid bəsləmək və dərhal ondan məhrum olmaq – bu, sanki bıçaqla qarnından vurulmağa bərabərdir.

– Aydındır, – deyirəm. – Sadəcə, mən bunu başqa cür xatırlayıram... Tom, sən məni görəndə mən yaralanmışdım? Mən... mənim başım yarılmışdı?

Daha bir dərin köks ötürmə.

– Mən, ümumiyyətlə, təəccüb edirəm ki, sən nəsə xatırlayırsan, Reyçel. Sən tamam sərxoş idin, üst-başın pis gündəydi, üfunət iyi verirdin. Ayaq üstdə güclə dayanırdın.

Mən bu sözləri eşidirəm və nəfəsim tutulmağa başlayır. O, əvvəllər də belə şeylər deyirdi, lakin bu ən dəhşətli günlərdə olardı. Onda mən onu cana gətirirdim, o da özünü saxlaya bilmirdi.

O, yorğun şəkildə davam edir:

– Sən küçədə yıxıldın, ağlayırdın, zir-zibil içindəydin. Bəs nə üçün soruşursan?

Mən cavab verməyə uzun müddət söz tapa bilmirəm və o davam edir:

– Qulaq as, mənim getməyim lazımdır. Lütfən, bir daha mənə zəng etmə. Biz artıq bütün bunlardan keçmişik. Səndən nə qədər xahiş etmək olar? Zəng

etmə, məktub qoyma, buraya gəlmə. Bu, Annanı dilxor edir. Başa düşdün? – O, dəstəyi asır.

Bazar, 18 avqust 2013-cü İl

Səhər erkən

Bütün gecəni mənə qulaq yoldaşı olsun deyə televizoru açaraq oturdum. Qorxunun dalğa kimi gəlib gah məni örtdüyünü, gah da geri çəkildiyini hiss edirəm. Gücüm də həmçinin – gah məni tərk edir, gah da özünü göstərir. Mənə elə gəlir ki, mən zamanla keçmişə aparılaraq orada yaralandım və onun vurduğu yara yenidən açılaraq ağrıyır. Bu axmaqlıqdır, bilirəm. Bizim aramızda təkcə bir söhbətin və mənim mehribanlıq kimi qəbul etdiyim bir neçə anın əsasında yeni bir şansın yaranmasına inanmaq axmaqlıq idi. O hərəkətlər, sadəcə, onun tərəfindən sentimentallıq və günahkarlıq hissinin nəticəsi idi. Lakin bununla belə, mənə ağırdır. Mən bu ağrının sızlamasına imkan verirəm, çünki onu içimdə gizləsəm, heç zaman keçməyəcək.

Skottla da aramızda nəsə ümumi bir cəhətin yarana biləcəyini, mənim ona kömək edə biləcəyimi düşünmək də axmaqlıq idi. Demək, belə çıxır ki, mən hər tərəfli axmağam. Amma bu yenilik deyil. Bununla belə, mən daha axmaq olmaq istəmirəm. Bütün gecəni burada keçirdim və özümə söz verdim ki, ağlımı başıma toplayım. Mən buradan gedəcəyəm, uzaqlara gedəcəyəm. Yeni iş tapacağam. Qızlıq soyadımı bərpa edəcəyəm, Tomla bütün əlaqələri kəsəcəyəm, elə edəcəyəm ki, məni tapmaq çətin olsun. Əlbəttə, bunu istəyən olacaqsa.

Mən az yatdım. Divanda uzanıb planlar cızırdım və hər dəfə yuxulamağa başlayanda Tomun səsini eşidirdim, özü də lap yaxında, elə bil o düz qulağıma deyirdi: “Sən tamam sərxoş idin, üst-başın pis gündəydi, üfunət iyi verirdin”. O saat yuxum ərşə çəkilirdi və məni xəcalət bürüyürdü. Lakin xəcalətlə yanaşı məni dejavyu hissi də tərk etmirdi, çünki bu sözləri mən əvvəl də eşitmişdim – eynilə bu sözləri.

Onda mən xatırlamağa başladım: necə yuxudan ayıldım və yastıqda qan gördüm, necə yanağım içəridən ağrıyırdı, sanki onu dişləmişdim, dırnaqlarım necə çirkli idi, başım necə ağrıyırdı, Tom vanna otağından, üzündə acıq və inciklik ifadəsilə necə peyda oldu və məni qorxu dalğası necə bürüdü.

– Nə olub?

Tom mənə əllərində və sinəsində vurduğum zərbələrdən yaranmış qançırları göstərdi.

– Bu ola bilməz, Tom. Mən sənə əl qaldıra bilmərəm. Mən həyatımda heç kəsi vurmamışam.

– Sən tamamilə sərxoş idin, Reyçel. Dünənki axşam haqqında nəsə bir şey xatırlayırsanmı?

O mənə hamısını danışanda mən heç cür inana bilmədim, çünki bu mənə heç oxşamırdı. Suvaqda qolf çubuğunun yaratdığı və çıxarılmış gözə oxşayan çökək hər dəfə yanından keçərkən mənə baxırdı və heç cür onun dediyi zorbalıqla və mənim yaddaşımda olan qorxu ilə bir yerə sığmırdı.

Ya da mənə elə gəlirdi ki, xatırlayıram. Bir müddətdən sonra nə etdiyim barədə suallar verməyi və o bu barədə danışanda mübahisə etməyi kəsdim, çünki təfərrüatları bilmək istəmirdim, ən pisini eşitmək istəmirdim, kirli, üfunətli, sərxoş olarkən dediyim sözləri, elədiyim hərəkətləri bilmək istəmirdim. Hərdən o təhdid edirdi ki, bizim davamızı çəkəcək və sonra baxmaq üçün mənə verəcək. Lakin iş o yerə gəlib çıxmırdı. O, mərhəmət göstərirdi.

Sonralar, belə hallarda yuxudan ayılanda mən nə olduğunu soruşmamağı öyrəndim, o saat bütün hərəkətlərimə görə üzr istəməyə başlayırdım və and içirdim ki, bir daha belə şey təkrar olunmayacaq.

İndi bu həqiqətən belədir. Bunun üçün mən Skotta minnətdar olmalıyam: mən gecə küçəyə çıxmağa qorxuram, gedib içki ala bilmirəm. Qorxuram ki, birdən büdrəyib yıxılaram və həmin anda tam müdafiəsiz olaram.

Mən güclü olmağa hazırlaşıram, bundan artıq heç nə tələb olunmur.

Göz qapaqlarım ağırlaşır və mən mürgüləyirəm. Televizorun səsini tamam azaldıram, üzü divanın arxasına olaraq rahatlanıram, adyalı üstümə örtürəm və yatmağa başladığımı hiss edirəm. Birdən – bax! – məni elə bil ildırım vurur və cəld yerimdən sıçrayıram: gözlərimin qarşısında hər şey axır və mən heyrətdən nəfəs ala bilmirəm. Mən xatırladım! Xatırladım!

Mən yeraltı keçiddə idim, o mənə yaxınlaşdı, qolunu boş tutub bir şillə ilişdirdi, dodaqlarıma dəydi, sonra sıxılmış açarlarla əlini qaldırdı. Mən başıma vurulan zərbənin ağrısını, dərimi soyan dişli açarı xatırlayıram.

6 Vilomena Makken – seriya qatil Piter Satkliffin (1946) ilk qurbanı

7 Polin Rid – 1963-1965-ci illərdə Böyük Mançester qraflığında qətllər törətmiş seriya qatillər Yen Breydi və Mayra Hindlinin ilk qurbanı

8 Nensi Dryu – Edvard Stratemaerin yaratdığı məşhur detektiv qız ədəbi və kinopersonajı. Onun haqqında əsərlər dünyanın 45 dilinə tərcümə edilmişdir.

6 Vilomena Makken – seriya qatil Piter Satkliffin (1946) ilk qurbanı

7 Polin Rid – 1963-1965-ci illərdə Böyük Mançester qraflığında qətllər törətmiş seriya qatillər Yen Breydi və Mayra Hindlinin ilk qurbanı

8 Nensi Dryu – Edvard Stratemaerin yaratdığı məşhur detektiv qız ədəbi və kinopersonajı. Onun haqqında əsərlər dünyanın 45 dilinə tərcümə edilmişdir.

# Anna

Şənbə, 17 avqust 2013-cü İl

Axşam

Mən göz yaşlarıma görə özümə nifrət edirəm, onlar məni miskinləşdirir. Lakin hiss edirəm ki, mənim gücüm tükənmək üzrədir. Son bir neçə həftə mənə xüsusilə ağır başa gəlib. Həm də Tomla aramızda daha bir qalmaqal baş verdi – təbii ki, Reyçelə görə.

Yəqin, bu baş verməliydi. Mən o məktuba görə tamam özümdən çıxmışdım, çünki o görüşdüklərini gizlədərək mənə yalan söyləmişdi. Mən hey özümə deyirəm ki, bu cəfəngiyyatdır, əhəmiyyətsizdir, amma onların arasında nəsə olduğu hissindən də qurtula bilmirəm. Daim özümdən soruşuram ki, bu qadının onun başına gətirdiklərindən, bizə yaratdığı

çətinliklərdən sonra o necə onunla birlikdə ola bilir? O necə bu barədə düşünə bilir? Demək istəyirəm ki, əgər biz yanaşı dayansaq, heç bir kişi onu seçməz. Hələ onun qalan "məziyyətlərini" heç demirəm.

Lakin sonra anlayıram ki, bəzən belə şeylər olur. Ümumi keçmişə malik olduğunuz adamlar sizi buraxmır, nə qədər səy etsən də bu asılılıqdan qurtara bilmirsən, tam azad ola bilmirsən. Bir müddətdən sonra isə müqavimət göstərməyi də kəsirsən.

Bu qadın cümə axşamı günü peyda oldu, qapını yumruqladı və Tomu çağırdı. Mən qəzəbimdən çatlayırdım, amma qapını açmağa cürət etmədim. Əgər uşağın varsa, bu – sənin zəif yerindir, hər zaman ehtiyatla hərəkət etməyə məcbursan. Mən tək olsaydım, ona layiqli cavab verə bilər və onu yerində oturdardım. Lakin Evini təhlükəyə ata bilməzdim. Reyçelin nəyə qabil olduğu haqqında təsəvvürüm yoxdur.

Onun nə üçün gəldiyini bilirəm. Polislə danışdığıma görə hirslənmişdi. Şübhəsiz, o istəyirdi ki, Tom mənə ondan şikayət etməyi qadağan etsin. O məktub qoymuşdu: "Danışmağımız lazımdır, lütfən, ilk imkanda mənə zəng et. Bu çox vacibdir". "Vacibdir" sözünün altından üç cızıq çəkilmişdi. Onu dərhal saat zibil vedrəsinə atdım, lakin sonra düşünərək geri götürdüm və tumbanın yeşiyinə qoydum, həmin acıqlı elektron məktubun surəti və onun bütün telefon zənglərini və görüşlərini qeyd etdiyim dəftərlə birlikdə. İzləmə jurnalı. Mənə lazım ola biləcək dəlillər. Kriminal polis serjantı Rayliyə zəng etdim və ona Reyçelin yenə gəldiyi haqqında mesaj yazdım. Lakin Rayli hələ də mənə zəng etməyib.

O, məktub barədə Toma deməliydim, bilirəm, ancaq istəmədim ki, polisə müraciət etdiyimə görə o hirslənsin, ona görə də, sadəcə, məktubu yeşiyə qoydum və Reyçelin onu xatırlamayacağına ümid etdim. Lakin o, əlbəttə, unutmamışdı. Toma axşam zəng etdi. Onunla danışdıqdan sonra Tom dəhşətli dərəcədə hirsləndi.

– Bu nədir, lənət şeytana, məktubla bağlı nə hekayədir? – o çımxırdı.

Mən onu atdığımı dedim.

– Onu oxumaq istəyəcəyini düşünmədim, – cavab verdim. – Mənə elə gəldi ki, sən də mənim kimi, onun bizi sakit buraxmasını istəyirsən.

O, gözlərini çevirdi.

– İş heç də bunda deyil, sən axı bilirsən! Əlbəttə, mən istəyirəm ki, Reyçel bizi sakit buraxsın. Amma mən sənin son zamanlar telefon danışıqlarımı gizlicə dinləməyini və poçtumu oxumağını istəmirəm. Sən...

– Mən nə?

– Heç nə. Sadəcə, sən də ona oxşamağa başlamısan.

Bu zəif yerimə vurulmuş bir zərbə idi. Mən hönkürdüm və yuxarı, vanna otağına qaçdım. Orada oturub onun həmişəki gəlib məni sakitləşdirəcəyini və öpəcəyini gözləyirdim, lakin təxminən yarım saatdan sonra o aşağıdan qışqırdı ki, bir-iki saatlığa trenajer zalına gedir. Və mən cavab verməyə macal tapmamış giriş qapısı çırpıldı.

Bax, indi mən özümü eynilə onun kimi aparıram: şam yeməyindən qalan yarım şüşə qırmızı şərabı bitirirəm və onun kompüterində eşələnirəm. Özümü indiki kimi hiss etdiyim zaman, onun davranışı anlaşılan olur. Şübhələnməkdən daha dağıdıcı və ağrılı heç nə yoxdur.

Axır ki, parolu tapdım: bu "Blenhaym" imiş. Bizim yaşadığımız küçənin adı. Onun poçtunda heç bir kompromat tapmadım: nə ədəbsiz şəkillər, nə ehtiraslı məktublar. Yarım saatdır onun elektron poçtundakı məktubları oxuyuram, bunlar elə darıxdırıcıdır ki, qısqanclıq üçün səbəbdən söhbət belə gedə bilməz. Kompüterin qapağını örtürəm və onu yığışdırıram. Şərab və Tomun darıxdırıcı yazışmaları keyfimi qaldırır. Mən öz şübhələrimin əsassız olduğuna və özümü axmaqcasına apardığıma əmin oldum.

Dişimi fırçalamaq üçün yuxarı gedirəm. İstəmirəm ki, o mənim içdiyimi bilsin. Sonra da təmiz mələfələr açıb, yastıqlara ətir çiləmək və onun keçən il mənə hədiyyə etdiyi qara ipək alt paltarlarımı geymək qərarına gəlirəm. O gələndə mən günahımı malalaya biləcəyəm.

Yataqdan köhnə mələfələri çıxararkən, ayağımla yatağın altına qoyulmuş qara çantaya toxunuram: o, trenajer zalına bu çantayla gedir. Onu unudub. Bir saat bundan əvvəl getsə də, çantanın dalınca qayıtmayıb. Daxilimdə hər şey çökür. Bəlkə o, zala tüpürüb və pivəxanaya getmək qərarına gəlib? Bəlkə zaldakı şkafda onun ehtiyat paltar dəsti var? Ya da indi onunla birlikdə

yataqdadır?

Ürəkbulanması hiss edərək dizi üstə çökürəm və çantanın içini yoxlayıram. Onun bütün şeyləri buradadır, təmiz və istifadəyə hazır. İdman şalvarı – o, yalnız bunu geyinərək qaçır. Bir də mobil telefon görürəm. Bu telefonu əvvəllər heç zaman görməmişdim.

Onu əlimdə sıxaraq yataqda otururam, – ürəyim az qalır yerindən çıxsın. Onu işə salmaq istəyirəm, bilirəm ki, özümü saxlaya bilməyəcəyəm, eyni zamanda bundan peşman olacağımı da başa düşürəm, çünki yaxşı heç nə öyrənməyəcəyəm. Heç kəs nə isə gizlətmək istəmirsə, məşq çantasında ikinci telefon saxlamaz. Ağılın səsi mənə onu yerinə qoymağı və o barədə unutmağı pıçıldayır, amma mən bunu bacarmıram. Düyməni basıram və ekranın yanmasını gözləyirəm. Çox gözləyirəm – batareyası boşalıb. Bədənimə bir yüngüllük yayıldığını hiss edirəm, elə bil mənə morfi vururlar.

Mən yalnız bilməzlikdən yüngülləşmədim, həm də ona görə yüngülləşdim ki, boşalmış batareya telefondan istifadə edilmədiyini, onun lazımsız olduğunu bildirir. Aktiv eşq macərası yaşayan kişidə bu ola bilməz. O daim həmin telefonu özü ilə gəzdirər. Bəlkə bu onun köhnə telefonudur, kim bilir, nə vaxtdan zaldakı şkafda qalıb və atmağa da əli gəlməyib. Bəlkə də bu, heç onun telefonu deyil – onu zalda tapıb, qulluqçuya qeydiyyata verəcəkmiş, unudub.

Mən yatağı yarıyığılmış vəziyyətdə qoyub qonaq otağına enirəm. Jurnal masasının alt hissəsində yeşiklər var, biz oraya müxtəlif xırda-xuruş qoyuruq: skotç həlqəsi, ölçü lenti, yol üçün iynə dəsti, mobil telefonlar üçün köhnə şarj qurğuları. Onlardan üç dənəsini tapıram, ikincisi uyğun gəlir. Mən telefonu onun vasitəsilə cərəyana qoşub gözləyirəm.

Sms-lərdə əsasən zaman və tarix qeyd olunub. Hətta tarix də deyil, günlər: “3-də bazar ertəsi”, “Cümə, 4:30”. Bəzən imtina. “Sabah bacarmaram”. “Çərşənbə olmaz”. Heç bir məhəbbət elanı, heç bir açıq təklif. Sadəcə, bir düjün sms, hamısı da təyin edilməmiş nömrədən. Ünvan kitabında heç bir kontakt yoxdur, çağırış jurnalı təmizlənib.

Bütün tarixləri telefon avtomatik qeyd edib. Görüşlər bir neçə sürüb. Az qala bir il. Mən bunu anlayanda və ilk sms tarixinin keçən ilin sentyabrında

olduğunu görəndə, halım xarablaşır. Sentyabr! Onda Evi altı aylıq idi. Mən hələ kök, yöndəmsiz və yorğun idim, seks heç ağlıma da girmirdi. Lakin burada məni gülmək tutur, çünki bu axmaqlıqdır və doğru ola bilməz. Sentyabrda biz xoşbəxtlikdən, bir-birimizə və öz balacamıza sevgidən göylərdə uçurduq. O bu dövrdə heç bir eşq macərası yaşaya və onunla görüşə bilməzdi. Bunu bilərdim. Bu doğru ola bilməz. Telefon onun deyil.

Bununla belə, mən öz dəlil dəftərimi çıxarıram və zəngləri telefonla təyin edilən görüşlərlə müqayisə edirəm. Bəziləri üst-üstə düşürdü, bəziləri görüşdən iki gün əvvəl, bəziləri sonra idi. Bir çoxu heç əlaqədar deyildi.

Bütün bu müddətdə Reyçellə görüşüb, mənə isə Reyçelin ondan əl çəkmədiyi, onu qarabaqara izlədiyi haqqında nağıl uydura bilərdimi? Və məndən gizlicə onunla sevişə bilərdimi? Amma bu nömrəni bilirdisə, niyə şəhər telefonu ilə ona zəng edirdi? Nə isə düz gəlmir. Əlbəttə, əgər o mənim bilməyim üçün qəsdən zəng etmirdisə. Bizim münasibətlərimiz korlansın deyə.

Tom artıq iki saatdır gedib, tezliklə qayıdacaq. Mən yatağı qaydaya salıram, öz jurnalımı və onun telefonunu tumbaya yığıram, aşağı enirəm, şərabın qalanını bakala töküb tez içirəm. Reyçelə zəng edib qalmaqal yarada bilərdim. Lakin ona nə deyəcəkdim? Əxlaqi nöqteyi-nəzərdən mənim buna çox da haqqım yox idi. Həm də bütün bu müddət ərzində məni barmaqlarına doladıqlarını məmnuniyyətlə açıqlayardısa, onda dözə biləcəyimə əmin deyildim. Əgər əvvəllər o bunu səninlə birlikdə eləmişdisə, indi aldadılmış arvad rolunda özün olmağa da hazır ol.

Mən qapının arxasında addım səsləri eşidirəm və bilirəm ki, bu odur: onun yerişini tanıyıram. Bakalı əlüzyuyana qoyub masa taxtasından yapışaraq onun içəri girməsini gözləyirəm. Qulaqlarımda qan vurur.

– Salam! – o deyir. Onun günahkar görkəmi var və dili yüngülcə topuq çalır.

– Trenajer zalında pivə verməyə başlayıblar? O gülümsünür:

– Mən çantamı unutmuşdum. Pivəxanaya girdim.

Lap mən düşündüyüm kimi. Ya da o hesab edir ki, mən belə

düşünəcəyəm? Tom yaxın gəlir.

– Bəs sən nə ilə məşğul olurdun? – deyə maraqlanır. – Sənin günahkar görkəmin var. – O məni belimdən qucaqlayır və özünə çəkir. Mən onun ağzından pivə qoxusu alıram. – Nə isə yaxşı olmayan bir şeylə?

– Tom...

– Sss. – o deyir, mənim dodaqlarımdan öpərək cinsin düymələrini açmağa başlayır. O mənim arxamı özünə tərəf çevirir. Mən istəmirəm, amma bu barədə necə deyəcəyimi bilmirəm, gözlərimi yumuram və onun o qadınla olduğu barədə düşünməməyə çalışıram. Xatirəmdə tanışlığımızın ilk günlərini canlandırmağa çalışıram, onda bir-birimiz üçün çox acmış və ehtiraslı halda Krenhem-stritdəki boş evə can atırdıq.

Bazar, 18 avqust 2013-cü İl

Səhər erkən

Mən qorxudan yuxudan ayıldım. Bayırda hələ qaranlıqdır və mənə elə gəlir ki, Evi ağlayır. Gedib yoxlayıram və görürəm ki, o, yumruğu ilə adyaldan yapışaraq bərk yatıb. Yatağa qayıdıram, lakin yuxum gəlmir. Tumbadakı telefon barədə fikirləşməyə bilmirəm. Toma göz atıram: o, sol əlini geri atıb və başını çevirərək uzanıb. Onun tənəffüsündən görünür ki, dərin yuxuya gedib. Mən yataqdan sürüşürəm, tumbanın yeşiyini açıb telefonu çıxarıram.

Aşağı enirəm, mətbəxə keçirəm və telefonu əlimdə fırladıram, gücümü toplayıram. Həm bilmək istəyirəm, həm də istəmirəm. Həqiqəti bilmək istəyirəm, amma eyni zamanda yanılmağımı da çox istəyirəm.

Telefonun düyməsini basıram. Sonra 1-i basıb saxlayıram, səs poçtunun xəbərdarlığını eşidirəm. Yeni mesaj daxil olmayıb, saxlanmış mesajlar yoxdur. Səs poçtunda öz şəxsi təbriknaməni dəyişmək istəyirsənmi? Mən geriyə addım atıram və birdən məni irrasional bir qorxu bürüyür ki, telefon zəng edə bilər və Tomu oyada bilər. Şüşə qapıları açıb həyətə çıxıram.

Ayağımın altındakı otlar nəmdir, hava sərindir və qızılgüllərin, yağışın kəskin qoxusu ilə doludur. Yaxınlaşan qatarın sakit tıqqıltısı eşidilir – o hələ uzaqdadır. Mən bağın lap sonuna qədər gedirəm və yenidən səsli poçtu

açıram. Öz şəxsi təbriknaməmi dəyişmək istəyirəmmi? Bəli, istəyirəm. Səs siqnalı eşidilir və pauzadan sonra onun səsi gəlir. Tomun səsi deyil, qadın səsi!

"Salam, bu mənəm, mesaj buraxın".

Mənim ürəyim döyünməkdən qalır.

Bu onun (Tomun) telefonu deyil, qadının telefonudur!

Mən yazını yenə fırladıram:

"Salam, bu mənəm, mesaj buraxın".

Bu onun (qadın) səsidir!

Tərpənə bilmirəm, nəfəs ala bilmirəm. Mən yazını dönə-dönə fırladıram. Boğazım tıxanıb, hiss edirəm ki, indicə huşumu itirəcəyəm, elə bu vaxt yuxarıda işıq yanır.

# Reyçel

---

Bazar, 18 avqust 2013-cü İl

Səhər erkən

Bir xatirə başqa bir xatirəni öz arxasınca çəkdi. Sanki mən günlərlə, həftələrlə, aylarla zülmət içində dolaşmışam və nəhayət, nəsə tapmışam. Sanki əlimi divara sürtərək bir otaqdan digərinə keçmişəm. Kölgələr daha sürünmədilər, gözlərim qaranlığa öyrəşdi və mən əşyaları seçə bildim.

Əlbəttə, bu birdən olmadı. Əvvəcə xatirələr mənə yuxuların parçaları kimi gəlirdi. Mən divanda oturmuşdum, heyrətdən qımıldanmağa taqətim yox idi və öz-özümə deyirdim ki, yenə yaddaşım mənimlə axmaq zarafat edir, bu dəfələrlə belə olmuşdu, onda gerçəklik heç də mən təsəvvür etdiyim kimi olmurdu.

Necə ki, məsələn, biz Tomun həmkarının təşkil etdiyi şam yeməyinə getdiyimiz zaman oldu. Mən orada xeyli içmişdim, lakin biz əla vaxt

keçirmişdik. Yadımdadır, getməzdən əvvəl Klara ilə öpüşdük. O, Tomun həmin həmkarının arvadı idi – əla qadındı, mehriban, şərəfli. Yadımdadır, o mənim əlimi öz əlində saxlayaraq deyirdi ki, biz tanışlığı davam etdirməliyik.

Onda mən bunu çox aydın yadımda saxlayırdım, amma həqiqətdə hər şey belə deyilmiş. Bu barədə ertəsi gün səhər bildim, Tom mənimlə danışmaq istəmədi. Hər şeyin həqiqətdə necə olduğunu o danışdı: o xəcalətdən bilmirmiş hara gizlənsin, Klaranı ərimlə flirt etməkdə günahlandıraraq isterika qaldırmışam və skandal yaratmışam.

Gözlərimi yumur və vidalaşdığımız zaman Klaranın əllərinin istiliyini hiss edirdim, lakin gerçəkdə bu olmayıbmış. Başqa şey olub: Tom məni güclə oradan çıxarmağa məcbur qalıb, özü də mən müqavimət göstərir və Klaranın ünvanına təhqirlər yağdırırmışam, o da qaçıb mətbəxdə gizlənməli olub.

Elə buna görə də gözlərimi yumub mürgüləməyə başlayanda birdən yenə yeraltı keçidin soyuq durğun havasını və pis qoxusunu hiss etdim, yumruqlarını qaldırıb mənə yaxınlaşan qəzəbli kişini gördüm, bu həqiqət deyildi. Məni bürüyən dəhşət də həqiqət deyildi. Həmin kişinin məni vurması, orada qan və göz yaşı içində buraxıb getməsi də həqiqət ola bilməzdi.

Yalnız bu həqiqət idi! Və mən bütün bunları gördüm! Bütün bunlar o dərəcədə inanılmaz şeylərdir ki, heç cür ağlıma sığmır. Pəncərənin qarşısında dayanıb, günəşin doğmasına baxıram və başımdakı duman dağılır.

Onun mənə söylədiklərinin hamısı yalandır! Məni məhz onun vurduğunu uydurmamışam. Mən bunu xatırlayıram. Necə ki, o gecə Klara ilə vidalaşmamı, mənim əlimi əlində saxladığını da xatırlayıram. Döşəmə üstündə qolf çubuğu ilə yanaşı oturanda hiss etdiyim dəhşətli qorxunu da xarırlayıram. İndi dəqiq bilirəm ki, zərbəni mən endirməmişdim.

İndi nə etmək lazım olduğunu təsəvvür etmirəm. Yuxarı qaçıram, cinsi əynimə taxıram, ayaqlarımı idman ayaqqabısına soxaraq aşağı qaçıram. Şəhər telefonu ilə onların nömrəsini yığıram, lakin bir-iki zəngdən sonra dəstəyi asıram. Bilmirəm, nə edim. Qəhvə hazırlayıram, bir az soyumasını gözləyirəm, serjant Raylinin nömrəsini yığıram və dərhal dəstəyi asıram. O mənə inanmayacaq. Sözsüz inanmayacaq.

Stansiyaya gedirəm. Bu gün bazar günüdür və ilk qatar yalnız yarım saatdan sonra olacaq, odur ki, mənə skamyada oturub gözləmək və başımda olanları təkrar-təkrar fırladaraq, gah buna inanmaqdan imtina etmək, gah ümidsizliyə qapılmaq qalır.

Hamısı – yalan! Mənə elə gəlmir ki, məni məhz o vurub. Mənə elə gəlmədi ki, o yumruğunu sıxıb sürətlə uzaqlaşırdı. Onun geri döndüyünü və nəsə qışqırdığını gördüm. Onun yolda bir qadınla getdiyini və onların birlikdə maşına oturduqlarını gördüm. Bütün bunlar qarabasma və xəyalımın məhsulu deyildi. Həm də başa düşürəm ki, bunlar əslində çox asan anlaşılandır. Mən hər şeyi düz xatırlayıram, ancaq bir xatirəni digərinin üzərinə qoymuşam. Annanın məndən necə uzaqlaşdığını görmüşdüm: onun əynində qara kəmərli mavi don vardı və bu mənzərəni başqa bir xatirəyə yerləşdirmişəm, orada Tom bir qadınla maşına oturur. O qadının əynində mavi don deyil, cins və qırmızı idman köynəyi vardı. O qadın Meqan idi.

# Anna

---

Bazar, 18 avqust 2013-cü İl

Səhər erkən

Mən bütün gücümlə telefonu hasardan çölə atıram və o haradasa dəmir yolunun yanında çınqılların üstünə düşür. Mənə elə gəlir ki, hələ də onu səsini eşidirəm: “Salam, bu mənəm, mesaj buraxın”. Yəqin, bu sözlər mənim qulağımda hələ çox səslənəcək.

Mən evə qayıdanda o artıq pilləkənlə aşağı enmişdi və hələ tam ayılmamış yuxulu gözlərini qırparaq mənə baxırdı.

– Nə olub?

– Heç nə, – cavab verirəm və səsimin necə titrədiyini eşidirəm.

– Sən orada nə edirdin?

– Mənə elə gəldi ki, orada kimsə gəzir. Nədənsə ayıldım və yata

bilmədim.

– Telefon zəng çalırdı, – o gözünü ovxalayaraq xəbər verir.

Barmaqlarımı bir-birinə dolayıram ki, onların titrəməsini kəsim.

– Nə? Hansı telefon?

– Bizim telefon. – O mənə qeyri-normal adama baxan kimi baxır. – Bizim telefon zəng çaldı. Kimsə bizim nömrəni yığdı, sonra dəstəyi asdı.

– A-a. Bilmirəm. Mən bilmirəm, kim zəng edib.

O gülür.

– Əlbəttə, bilmirsən. Sən özünü yaxşı hiss edirsən? Nəsə qəribə görünürsən.

Yaxına gəlib belimi qucaqlayır və başımı sinəsinə sıxır.

– Əgər nəsə eşitdinsə, məni oyatmalı idin. Oraya tək getməli deyildin. Bu – mənim işimdir.

– Hər şey qaydasındadır, – deyirəm və dişlərim şaqqıldamasın deyə bir-birinə sıxıram.

O, dilini mənim ağzıma itələyərək dodaqlarımdan öpür.

– Yatağa gedək, – deyir.

– Qəhvə içmək istəyirəm, – onun qucağından çıxmağa çalışaraq deyirəm.

Lakin o məni buraxmır və bir əlilə belimdən, digər əlilə boynumdan tutaraq, özünə bərk-bərk sıxır.

– Mənimlə gedək, – təkrar edir. – Heç bir etiraz qəbul etmirəm.

# Reyçel

---

Bazar, 18 avqust 2013-cü İl

Səhər

Mən bilmirəm, necə hərəkət etsəm, daha yaxşı olar; ona görə də, sadəcə, qapını döyürəm. Yəqin əvvəlcə telefonla zəng etmək yaxşı olardı. Bazar günündə gözlənilmədən səhər tezdən qapını döymək o qədər də nəzakətli sayılmaz. Gülməyə başlayıram. Bu sözsüz əsəbdəndir. Mən nə etdiyimi bilmirəm.

Qapını açan olmur. Gərginliyin necə artdığını hiss edərək, yan keçidə doğru gedirəm. Yenə də çox güclü dejavyu hissi keçirirəm. Həmin səhər mən onlara girib uşağı götürəndə, əsla ona pis bir şey eləmək fikrim yox idi. İndi buna heç bir şübhəm yoxdur.

Mən evin divarı boyunca sərin kölgədə gedirəm, Annanın səsini eşidirəm və düşünürəm: o məni yuxudamı çağırır? Amma yox, Anna həqiqətən həyətdə oturub. Mən onu adı ilə çağırıram və ayaqlarımın ucunda qalxıram ki, hasardan baxım. O da mənə baxır. Onun üzündə heyrət ifadəsi gözləyirəm, amma o qətiyyən təəccüblənmir.

– Salam, Reyçel, – deyir və ayağa qalxaraq, qızı əlinə alıb özünə sıxır. O mənə sakitcə və ciddi baxır. Ağ üzündə makiyajdan əsər-əlamət yoxdur, gözləri qızarıb.

– Sənə nə lazımdır?

– Mən qapını döydüm, – cavab verirəm.

– Eşitmədim. – O uşağı böyrünə qoyur və üzünü çevirir, elə bil evə girməyə hazırlaşır, amma qapıda dayanır.

Onun niyə mənə qışqırmadığını başa düşmürəm.

– Tom haradadır, Anna?

– Yoxdur. O öz əsgərlik yoldaşları ilə görüşməyə gedib.

– Bizim getməyimiz lazımdır, Anna, – deyirəm və o gülməyə başlayır.

# Anna

Bazar, 18 avqust 2013-cü İl

Səhər

Hansısa səbəbdən birdən məni gülmək tutur. Yazıq, gonbul Reyçel bağımızda qızarmış və tərli halda dayanıb deyir ki, bizim getməyimiz lazımdır. Məhz "bizim".

– Haraya gedəcəyik? – gülmək dalğası keçdikdən sonra soruşuram. O özünü itirərək, nə deyəcəyini bilməyərək mənə baxır. – Mən səninlə heç yerə getmərəm.

Evi yerində qurcalanır və yaramazlıq edir. Mən onu yerə qoyuram. Dərim hələ də yanır, səhər duş qəbul edərkən onu bərk sürtdüm; ağzım, dilim və üzüm elə bil dişləməkdən ağrıyır.

– O nə zaman qayıdacaq? – o soruşur.

– Düşünürəm, tezliklə deyil.

Əslində mənim təsəvvürüm belə yoxdur. Bəzən o bütün gününü qayaya dırmanma məşqində keçirə bilər, – ya da mən hesab edirdim ki, o bütün günü orada keçirir. İndi bilmirəm.

Yalnız onu bilirəm ki, o trenajer zalı üçün çantanı özü ilə götürdü və telefonun orada olmadığını tezliklə biləcək.

Bəlkə Evi ilə bir müddətə bacımgilə getsəm, yaxşı olar? Amma məni telefon düşündürür. Birdən onu tapsalar? Orada daim təmirçilər dolaşırlar, telefonu tapıb polisə verə bilərlər. Onun üstündə isə mənim barmaq izlərim var.

Sonra düşündüm ki, onu mən özüm tapa bilərəm, lakin bunun üçün axşamı gözləmək lazımdır, onda məni heç kim görməz.

Nəhayət, anlayıram ki, Reyçel danışmaqda davam edir və mənə suallar verir. Mən onu dinləmirdim. Elə yorulmuşam ki.

– Anna, – o yaxın gələrək və mənim baxışlarımı öz iri qara gözlərilə

tutmağa çalışaraq deyir. – Sən nə vaxtsa onlardan birini görmüsənmi?

– Kimi?

– Onun bu əsgər yoldaşlarını. Səni onlardan biri ilə tanış edibmi?

Mən başımı bulayıram.

– Bu sənə qəribə gəlmirmi?

Ümumiyyətlə, mən ancaq indi başa düşürəm ki, onun bu erkən bazar səhəri bizim bağda peyda olması nə qədər qəribədir.

– Yox, – cavab verirəm. – Onlar onun başqa həyatının hissəsidirlər. Onun həyatlarından birinin. Eləcə də sən. Sən də elə olmalı idin, lakin biz səndən heç cür qurtula bilmirik.

O inciklikdən diksinir.

– Sən burada nə edirsən, Reyçel?

– Sən bilirsən, niyə mən buradayam, – o cavab verir. – Sən bilirsən... hiss edirsən ki, nə isə qəribə bir şey baş verir...

O elə ciddi və anlayışla baxır ki, elə bil həqiqətən mənə görə narahatdır. Başqa şəraitdə bu hətta çox təsirli ola bilərdi.

– Qəhvə istəyirsənmi? – soruşuram və o başı ilə təsdiqləyir.

Mən qəhvə hazırlayıram və biz susaraq bağda otururuq. Bizim danışmamağımız heç də düşməncəsinə deyil.

– Sən nəyi nəzərdə tutursan? – soruşuram. – Tomun əsgər yoldaşları yoxdurmu? O onları uydurub? Özü isə indi başqa qadınladır?

– Mən bilmirəm, – o cavab verir.

– Reyçel?

O, baxışlarını mənə doğru qaldırır və mən onun gözlərində qorxu görürəm.

– Sən mənə nəsə demək istəyirsən?

– Sən Tomun qohumları ilə görüşmüsənmi? – o soruşur. – Onun valideynləri ilə?

– Yox. Onlar danışmırlar. O mənim yanıma gələndə, onlar Tomla danışmağı kəsdilər.

O başını bulayır:

– Bu yalandır. Mən də onları heç zaman görmədim. Onlar heç mənimlə tanış deyillər, onda nəyə görə mənə yazıqları gəlsin?

Mənim başımda, haradasa ənsəmdə qara bir yumaq gizlənib. Bu yumaq mən telefonda Meqanın səsini eşidərkən peyda olub. Mən onu gizləməyə çalışmışdım, lakin indi o şişməyə, böyüməyə başlayıb.

– Mən sənə inanmıram, onun nəyinə lazımdır bunu uydurmaq?

– Çünki o daim yalan danışır.

Mən qalxıb, getməyə hazırlaşıram. Onun belə deməsi xoşuma gəlmir. Özümə acığım tutur, çünki görünür, mən ona inanıram. Mənə elə gəlir ki, Tomun yalan söylədiyini həmişə bilirdim. Sadəcə, əvvəllər onun yalanları mənə sərf edirdi.

– O yalan danışmağı bacarır, – razılaşıram. – Sən bizim barəmizdə heç nə bilmirdin, düzdür? Biz neçə ay idi ki, görüşürdük, Krenhem stritdəki evdə daim sevişirdik. Sənin isə heç nədən xəbərin yox idi.

O, çətinliklə udqunur və dodağını gəmirir.

– Meqan, – o deyir. – Bəs Meqan barəsində necə?

– Mən bilirəm. Onlar sevgili idilər.

Bu sözlərin necə səsləndiyi mənə qəribə gəlir. Onları mən ilk dəfə tələffüz etdim. O mənə xəyanət edib. Mənə xəyanət!

– Şübhə etmirəm ki, bunu eşitmək sənin xoşuna gəlir, – deyirəm, – lakin indi o yoxdur, odur ki, bu mühüm deyil.

– Anna...

Qara yumaq artıq elə böyüdü ki, beynim onun üçün darısqal oldu; o, gözlərimi tutur və mən əşyaları çətin seçirəm.

– Onlar birlikdə idilər. Vəssalam! Başqa heç nə! Bu heç o demək deyil...

– Ki, o Meqanı öldürüb?

– Elə deməyə cürət etmə! – özümdən çıxaraq qışqırıram. – Mənim uşağımın yanında elə deməyə cürət etmə!

Mən Evini ikinci səhər yeməyinə oturduram və o ilk dəfə heç bir yaramazlıq etmədən yeyir. Elə bil anlayır ki, indi məni başqa dərdlər məşğul edir. Buna görə onu daha çox sevdim. Biz bağa çıxanda özümü daha sakit hiss edirəm, hərçənd, Reyçel hələ də oradadır – hasarın lap sonunda dayanıb, gedən qatarı baxışı ilə yola salır. Bir azdan bizim qayıtdığımızı görür və yaxına gəlir.

– Onlar sənə xoş gəlir, düzdür? – deyirəm. – Qatarlar? Mənsə onlara nifrət edirəm! Heç dözümüm yoxdur!

Onun dodağında yarımçıq təbəssüm əmələ gəlir. Sol yanağında dərin bir çökək əmələ gəldiyini görürəm. Bunu əvvəllər heç görməmişdim. Yəqin, ona görə ki, onun güldüyünü nadir hallarda görmüşəm. Dəqiq desək, heç zaman görməmişəm.

– Bax daha bir yalan, – o deyir. – O danışırdı ki, sən bu evi şox sevirsən, burada hər şeyi sevirsən, hətta qatarları da. O deyirdi ki, sən yaşayış yerini dəyişmək barədə heç düşünmək də istəmirsən, hətta buraya, onun yanına köçməkdə sən israr etmisən.

Mən başımı bulayıram:

– Bu tamam cəfəngiyyatdır. Bunu demək onun nəyinə lazımdır?! Mən iki ildir ki, başqa yerə köçmək üçün onu dilə tuturam.

O çiyinlərini çəkir:

– Ona görə ki, o daim yalan söyləyir, Anna. Hər şeydə.

Başımda qaranlıq sıxlaşır. Mən Evini dizlərimin üstündə oturduram, o da orada yerini rahatlayır – günəşdə onun yuxusu gəlir, gözləri qapanır.

– Deməli, bütün bu telefon zəngləri...

İndi belə görünür ki, hər şey öz yerini alır – deməli, bu zəngləri sən etmirdin? Yəni bilirəm ki, səndən də zənglər olurdu, lakin...

– Əsasən Meqandan? Düşünürəm, hə.

Təəccüblüdür, lakin indi də, nifrət etdiyim qadının o olmadığını bilsəm də, Reyçelə qarşı münasibətim əsla dəyişmir. İndi o, çox sakit, inamlı idi, içməmişdi və mən Reyçelin əvvəllər necə olduğunu anlamağa başlayıram. Məni də bu özümdən çıxarır, çünki indi mənə aydındır ki, vaxtilə o bunda nə tapmışdı. Və nəyə görə sevirdi.

Mən saata baxıram. On biri yenicə keçib. O, məncə, saat səkkizdə, bəlkə də bir az əvvəl gedib. Telefon barədə ona artıq yəqin ki, məlumdur. Özü də bundan xeyli əvvəl. Bəlkə o, telefonu haradasa təsadüfən saldığını düşünüb? Yatağın altına baxmaq istəyəcək?

– Sən çoxdanmı bilirsən? – soruşuram. – Onların sevişdiyi barədə?

– Mən bilmirdim. Bu gün öyrəndim. Orada necə və nə olduğu barədə təsəvvürüm də yoxdur. Ancaq mən bilirəm ki...

O, cümləni bitirmir və mən ona minnətdaram. Bilmirəm, mən Tomun xəyanəti haqqında hekayəyə necə dözərdim. İndi mənim də bu gonbul, uğursuz Reyçellə eyni vəziyyətdə olmağım fikrinin özü məni dəli edir.

– Düşünürsən, uşaq ondan idi? – o soruşur. – Meqanın uşağı?

Ona baxıram və heç nə görmürəm – gözümü qara pərdə örtür, qulaqlarımda bir nərilti var, elə bil qasırğa var, ya da başımın üstündən reaktiv təyyarə keçir.

– Sən nə dedin?

– Məni... bağışla. – O utanır və qızarır. – Mən deməməliydim... O, öləndə hamilə idi. Mən Meqanı nəzərdə tuturam. Mən çox təəssüf edirəm.

Mən əminəm ki, o təəssüf-zad etmir, lakin onun qarşısında isterikaya düşən deyiləm. Gözlərimi aşağı salıram, Evini görürəm və elə bir acı hiss edirəm ki, heç təsəvvürümə də gəlməzdi. Mən artıq nəfəs ala bilmirəm.

Evinin qardaşı, ya da bacısı. Onlar artıq yoxdur. Reyçel yanımda oturur və çiynimi qucaqlayır.

– Mən çox təəssüf edirəm, – o yenə təkrar edir və mən onu vurmaq istəyirəm. Onun toxunmasından bədənim ürpəşir. Onu itələmək, üstünə qışqırmaq istəyirəm, lakin bacarmıram. O mənə bir az ağlamaq imkanı verir, sonra sakit və möhkəm tərzdə deyir:

– Anna, düşünürəm, biz getsək yaxşı olar. Sən özünə və Eviyə bəzi şeylər götür, sonra biz gedək. Siz hələlik mənim yanımda qalarsınız. Hələlik... hər şey aydınlaşıncaya qədər.

Mən gözlərimi silib kənara çəkilirəm.

– Mən onun yanından heç yerə getməyəcəyəm, Reyçel. O... başqası ilə sevişirdi... Bu ki, birinci dəfə deyil, düzdür? – Mən gülməyə başlayıram və Evi də mənimlə birlikdə gülür.

Reyçel köks ötürür və ayağa qalxır.

– Sən özün bilirsən ki, iş, sadəcə, sevişməkdə deyil, Anna. Əminəm ki, sən bilirsən.

– Biz heç nə bilmirik, – etiraz edirəm, lakin bunu güclə eşidilən səslə deyirəm.

– Meqan onunla maşına oturdu. Həmin gecə. Mən onu gördüm. Mən bilmirdim, çünki əvvəlcə zənn etmişdim ki, bu qadın Meqan yox, sənsən. Lakin indi hamısını xatırladım.

– Yox!

Evi balaca yapışqanlı barmaqları ilə mənim ağzımı örtür.

– Biz polisə xəbər verməliyik. – O mən tərəfə addım atır. – Lütfən! Sən onunla qala bilməzsən.

Qızmar günəşə rəğmən mən titrədirəm. Meqanın bizim evdə son dəfə görünməsini xatırlamağa çalışıram, onda o dedi ki, başqa iş tapıb. Tomun bunu necə qarşıladığını xatırlamağa çalışıram: məmnun idi, yoxsa məyus olmuşdu? Lakin başımda başqa, çağrılmamış xatirələr fırlanır: Meqanın dayə

kimi ilk gəlişlərinin birində özüm şahidi olduğum mənzərə. Mən rəfiqələrimlə görüşə getməliydim, lakin özümü çox yorğun hiss edib yatmaq üçün yuxarı qalxdım. Tom yəqin mən yataq otağında olanda gəlibmiş, çünki aşağı enəndə onları birlikdə gördüm. Meqan masaya söykənərək dayanmışdı, o isə yanında idi, özü də qaydaların imkan verdiyindən çox yaxın idi. Evi hündür stulda oturmuşdu və ağlayırdı, lakin ona fikir verən yox idi.

Məni titrətmə tutur. Onun Meqanı istədiyini bilirdimmi? Meqan çox-çox cəlbedici, mənə bənzər bir sarışın idi. Ona görə də, bəli, mən başa düşürdüm ki, o bu qadını istəyir, necə ki, mən arvad-uşaqları ilə yanımdan keçən kişilərin baxışlarından bunu anlayıram. Odur ki, yəqin mən bilirdim. O bu qadını istəyirdi və istədiyini aldı. Amma bu yox! Belə şeyə o qadir deyil!

Yalnız Tom yox. Əvvəlcə aşiq, sonra ər, ata. Yaxşı ata və etibarlı ailə başçısı.

– Sən onu sevirdin, – mən ona xatırladıram. – Və hələ də sevirsən, elə deyil?

O başını bulayır, lakin o qədər də inandırıcı görünmür.

– Sevirsən. Özün də bilirsən... ki, bu, sadəcə, ola bilməz!

Mən Evi qucağımda ayağa qalxıram və ona yaxın gəlirəm.

– O edə bilməz, Reyçel. Sən bilirsən ki, o bunu edə bilməzdi. Sən axı bunu etməyə qadir bir adamı sevə bilməzdin!

– Lakin sevirdim! – o etiraz edir. – Hər ikimiz sevirdik.

Onun yanaqları ilə yaş süzülür. Reyçel yaşı silir və birdən onun üzünün ifadəsi dəyişir və o, ölümcül ağarır. O mənə deyil, harayasa mənim çiynimdən uzağa baxır. Mən çevrilirəm, onun baxışını izləmək istəyirəm və pəncərədən Tomun bizə baxdığını görürəm.

# Meqan

---

Cümə, 12 İyul 2013-cü İl

Səhər

Bu qız məni məcbur edir. Bəlkə də bu oğlan. Lakin nədənsə əminəm ki, bu qızdır. Bəlkə ürəyim belə deyir, bilmirəm. Mən onu lap əvvəllər, embrion kimi büzüşəndə olduğu kimi hiss edirəm: qabıq içində toxum, yalnız bu toxum gülümsünür. Öz zamanını gözləyir. Mən ona nifrət edə bilmərəm. Nə də ondan canımı qurtara bilmərəm. Sadəcə, bacarmaram. Əvvəllər mənə elə gəlirdi ki, çox asanlıqla onu öz rəhmimdən təmizləməyə imkan verərəm. Lakin onun haqqında düşünəndə, mən Libbinin üzünü, qara gözlərini görürəm. Onun dərisinin qoxusunu hiss edirəm. Hiss edirəm ki, o axırda necə soyuq idi. Ondan canımı qurtara bilmərəm. İstəmirəm. Mən onu sevmək istəyirəm.

Ona nifrət edə bilmərəm, lakin o məni qorxudur. Onun mənə edəcəklərindən ya da mənim ona edə biləcəklərimdən qorxuram. Bu qorxu bu gün məni səhər saat beşdə oyatdı; tamam tər içindəydim, hərçənd pəncərələr açıq idi və yataqda tək uzanmışdım. Skott Hartfordşirə, ya da Esseksə konfransa gedib. O bu gün axşam qayıdır.

Mənimlə nə baş verir? Niyə o burada olanda tək qalmaq istəyirəm, o burada olmayanda daha da pis oluram? Mən sükutu xoşlamıram. Sükutu qovmaq üçün öz-özümlə danışmalı oluram. Səhər yataqda düşünürdüm: bəs, əgər hər şey yenə təkrar olunsa? Yenə onunla tək qalsam, nə baş verər? Əgər Skott məndən imtina etsə, nə olacaq? Bizdən imtina etsə? Əgər o, uşağın ondan olmadığını bilsə, nə olacaq?

Əlbəttə, uşaq ondan da ola bilər, lakin mən hiss edirəm ki, bu belə deyil. Bunu uşağın qız olduğunu hiss etdiyim kimi hiss edirəm. Lap elə ondan olmasa da, o haradan biləcək? O bilməyəcək. Bilə bilməz. Mən axmağam. O, xoşbəxtlikdən heç özündə olmayacaq. Mən ona xəbər verəndə, o, sevincindən dəli olacaq. Onun heç ağlına da gəlməz ki, uşaq ondan olmaya bilər. Əgər bunu ona desəm, onun qəlbi qırılar, mənsə onu incitmək istəmirəm. Skottu heç vaxt incitmək istəməmişəm.

Mən özümü dəyişdirə bilmərəm.

– Lakin sən öz hərəkətlərini dəyişə bilərsən, – Kamal deyir.

Dünən axşam altıdan sonra Kamala zəng etdim. Daha səssizliyə dözə

bilmədim və vahimələnməyə başladım. Taraya zəng etmək istədim – o, dərhal qaçaraq gələrdi, lakin təsəvvür edəndə ki, o, nə qədər zəhlətökənliklə qayğıma qalacaq və əl çəkməyəcək, o saat fikrimi dəyişdim. Mən yalnız Kamala müraciət edə bilərdim. Onun evinə zəng etdim. Dedim ki, problemim var və bilmirəm nə edim, dəli oluram. O, tez gəldi. Tərəddüdsüz deyil, amma hər halda gəldi. Yəqin mən həqiqətdə olduğundan daha dəhşətli mənzərə təsvir etmişəm və o qorxub ki, mən özümə nəsə xətər yetirə bilərəm.

Biz mətbəxdə oturmuşuq. Hələ erkəndir – səkkizin yarısını yenicə keçib. Tezliklə o getməlidir ki, birinci seansa çatsın. O bizim mətbəx masasının arxasında mənimlə üzbəüz oturub: əlləri nizamla yığılıb, tünd qəmgin gözlərinin baxışları mənə yönəlib. Ona sevgi duyduğumu hiss edirəm. Doğrudan. Xoşagəlməz rəftarıma baxmayaraq, o mənə qarşı çox mərhəmətli idi.

O, ümid etdiyim kimi, əvvəlki hərəkətlərimin hamısını bağışladı. O məni bütün günahlarımdan təmizlədi. Dedi ki, əgər bütün bunlara son vermək istyirəmsə, mən özüm özümü bağışlamalıyam və daha heç yerə qaçmamalıyam. Mən onsuz da daha heç yerə qaça bilmərəm. Çünki indi bu qızcığaz var.

– Məni dəhşət bürüyür, – ona deyirəm, – bəs birdən yenə hər şeyi korlasam? Bəlkə məndə nəsə bir problem var? Bəs Skottla həyatım alınmasa? Mən yenə tək qalaram? Bilmirəm bacararammı, yenidən tək qalmaqdan çox qorxuram... Yəni uşaqla tənha...

O, irəli əyilir və mənim əlimi öz əli ilə örtür.

– Sən heç nəyi korlamazsan. Heç nəyi. Sən artıq o özünü itirmiş və dərddən nə edəcəyini bilməyən qız uşağı deyilsən. İndi tamam başqa cürsən. Daha güclü olmusan. Sən artıq yetkinləşmisən. Daha tək qalmaqdan qorxmamalısan. Bu ən dəhşətlisi deyil, doğrudur?

Mən heç bir cavab vermirəm, lakin bu barədə düşünürəm, çünki gözlərimi yuman kimi asanlıqla elə bir hiss yaşayıram ki, o məni yuxuya daldığım anda dik atılmağa məcbur edir. Bu – böyük və qaranlıq evdə tənhalıq hissidir; onda mən, onun ağlamasını və aşağıda, taxta döşəmədə Makın ayaq səslərini eşitmək ümidi ilə sükutu dinləyirəm və bilirəm ki,

onları bir daha eşitməyəcəyəm.

– Skott barəsində mən sənə heç bir məsləhət verə bilmərəm. Sizin münasibətləriniz...

Mən sənə öz şübhələrimi dedim, lakin qərar sənindir. Sən özün qərar verməlisən, ona etibar edə bilərsənmi, sənin və uşağının qayğısını çəkməsini istəyirsənmi? Bu qərar sənin olmalıdır. Sən özünə inanmalısan, Meqan. Düzgün qərar verə biləcəyinə inanmalısan.

O mənə bağa qəhvə gətirir. Fincanı qoyub onu qucaqlayıram və özümə sıxıram. Bizim arxamızda qatar qıjıltı ilə semaforda dayanır. Bu səs sanki bizi bir divar kimi qalan aləmdən ayırır və mənə elə gəlir ki, orada bizdən başqa kimsə yoxdur. O məni qucaqlayır və öpür.

– Təşəkkür edirəm, – deyirəm. – Sağ ol ki, gəldin, mənimlə oldun.

O gülümsəyir və geri çəkilərək baş barmağını mənim yanağıma çəkir.

– Hər şey yaxşı olacaq, Meqan.

– Bəs mən səninlə qaça bilmərəmmi? Biz səninlə... biz birlikdə qaça bilmərikmi?

O gülür:

– Mən sənə lazım deyiləm. Sənə də heç yerə qaçmaq lazım deyil. Səninlə hər şey qaydasında olacaq. Səninlə və sənin uşağınla hər şey yaxşı olacaq.

Şənbə, 13 İyul 2013-cü İl

Səhər

Mən bilirəm nə etmək lazımdır. Dünən bütün günü və bu gün bütün gecəni bunun üzərində düşünmüşəm. Mənə elə gəlir ki, heç yatmadım. Skott evə çox pis əhval-ruhiyyədə gəldi, o yalnız yemək, seks və dərhal yatmaq istəyirdi. Belə bir söhbət üçün açıq-aşkar yaxşı vaxt deyildi.

Mən, demək olar ki, bütün gecəni gözlərim açıq halda onun isti və narahat bədəni ilə yanaşı uzanaraq keçirdim və qərar verdim. Mən doğru hərəkət edəcəyəm. Mən hər şeyi doğru edəcəyəm. Əgər hər şeyi doğru etsəm,

onda hər şey yaxşı olacaq. Əgər yaxşı olmayacaqsa, artıq bu mənim günahım olmayacaq. Lap başlanğıcdan doğru hərəkət etdiyimi bilərək, bu uşağı sevəcəyəm və yetişdirəcəyəm. Qoy lap başlanğıcdan deyil, bunun olacağını bildiyim andan olsun. Bu uşaq və Libbi qarşısında mənim borcumdur. Bu qızın qarşısında mənim borcum – bu dəfə hər şeyi başqa cür etməkdir.

Mən uzanmışdım, müəllimimin sözləri və kim olduğum üzərində düşünürdüm: uşaq, üsyankar yeniyetmə, qaçqın, qəhbə, məşuqə, pis ana, pis arvad. Mən əmin deyiləm ki, özümü yaxşı arvada çevirə bilərəm, lakin yaxşı anaya çevirməyə – çalışmalıyam.

Qarşıda məni ağır bir söhbət gözləyir. Yəqin, bu həyatımda etdiyim ən çətin iş olacaq, amma mən doğrunu söyləmək fikrindəyəm. Bir daha heç bir yalan, heç bir sirr, heç bir qaçış – belə şeylər olmayacaq. Mən hər şeyi açıq söyləməyi düşünürəm, sonrasına baxarıq. Əgər bundan sonra o məni sevə bilsə, qoy elə də olsun.

Axşam

Bütün gücümlə əlimi onun sinəsinə dirəyirəm, lakin nəfəs ala bilmirəm, o məndən dəfələrlə güclüdür. O, əliylə mənim boğazımı sıxır, gözlərimdə hər şey axır, gicgahlarımda qan vurur. Mən divara sıxılmşam, qışqırmağa çalışıram, lakin bacarmıram. Onun köynəyindən yapışıb sıxıram. O məni buraxıb üzünü çevirir. Mən divarla mətbəxin döşəməsinə sürüşürəm.

Mən öskürür və tüpürürəm, gözümdən yaş sel kimi axır. O məndən bir neçə fut aralı dayanıb. O, çevriləndə əlim instiktiv olaraq boğazıma yönəlir ki, özümü müdafiə edim. Onun sifətinin xəcalətdən necə əyildiyini görür və hər şeyin normal olduğunu demək istəyirəm. Mən yaxşıyam. Ağzımı açıram, amma bircə söz də deyə bilmirəm və yalnız yenidən öskürəkdən boğulmağa başlayıram. Ağrı dözülməzdir. O nəsə deyir, lakin mən eşitmirəm, sanki biz su altındayıq, səslər boğuqdur və dalğalarla gəlir. Mən heç nə anlamıram. Düşünürəm ki, o üzr istəyir.

Çətinliklə ayağa qalxıram, onun yanından sivrişib çıxıram və yuxarı, yataq otağına qalxıram. Orada qapını açarla içəridən bağlayıram. Yatağın üstündə oturub gözləyirəm ki, o gələcək, lakin gəlmir. Onda mən qalxıb, öz kiçik çamadanımı çıxarıram, bəzi şeyləri toplamaq üçün şkafa yaxınlaşıram

və özümü güzgüdə görürəm. Əlimi üzümə yaxınlaşdırıram; üzüm al qırmızı dərimin, qanla dolu gözlərimin və tünd qırmızı dodaqlarımın fonunda dəhşətli dərəcədə ağ görünür.

Mən şokdan özümə gələ bilmirəm, çünki əvvəllər o heç vaxt özünü belə aparmamışdı. Lakin bunu tam gözlənilməzlik də adlandırmaq olmazdı. Qəlbimin dərinliklərində bunun mümkünlüyünü ehtimal edirdim və hər şey buna doğru gedirdi. Mən buna doğru aparırdım. Yeşiklərdən bəzi şeyləri – alt paltarı, bir-iki idman köynəyi – çıxarır və onları çamadana soxuram.

Ona əməlli-başlı bir şey söyləməyə macal tapmadım. Yalnız başladım. Əvvəlcə pis şeylərdən danışmaq istədim, sonra yaxşıya keçməyi düşünürdüm. Ona uşaq barədə deyib sonra əlavə edə bilməzdim ki, bu uşaq bəlkə də səndən deyil; bu çox ağır olardı.

Biz bağda oturmuşduq. O işdən danışırdı, sonra mənim ona qulaq asmadığımı hiss etdi.

– Sənə maraqlı deyil? – o soruşdu.

– Maraqlıdır, lakin bu anda deyil.

O gülümsəmədi.

– Sadəcə, indi mənim başım başqa şeylərlə məşğuldur. Mən sənə bəzi şeylər danışmalıyam. Nəsə sənin xoşuna gəlməyə bilər, nəsə...

– Nə mənə xoş gəlməyə bilər?

Mən başa düşməliydim ki, indi bu söhbət üçün uyğun an deyil, çünki onun kefi o saat pozuldu. Dərhal şübhələnməyə başladı, məndən şübhəli baxışlarını çəkmədi. Onunla danışmaq ideyasının yanlış olduğunu başa düşməliydim.

Məncə, bunu anladım, amma geri çəkilmək artıq gec idi. İstənilən halda mən doğru hərəkət etməyə qərar vermişdim.

Onunla yanaşı səkidə oturdum və əlimi onun əlinə qoydum.

– Nə xoşuma gəlməyə bilər? – o soruşdu, lakin əlimi buraxmadı.

Onu çox sevdiyimi dedim və hiss etdim ki, o daxilən gərginləşdi, sanki bunun arxasınca nə gələcəyini bilirdi, buna görə də hazırlaşdı. Adama belə vəziyyətdə "səni çox sevirəm" deyəndə həmişə belə olur, lakin... Lakin!

Ona dedim ki, səhv bir iş görmüşəm. O mənim əlimi buraxdı. Ayağa qalxdı, yola doğru bir neçə addım atdı, sonra mənə döndü.

– Nə səhv?

O bunu mülayim səslə dedi, lakin mən bunun ona necə çətinliklə başa gəldiyini gördüm.

– Yaxın gəl, yanımda otur, – dedim. – Lütfən.

O başını buladı.

– Nə səhv, Meqan? – o təkrar etdi, bu dəfə daha yüksəkdən.

– Mən... indi hər şey bitib... başqası ilə sevişirdim.

Başımı aşağı salmışdım, gözlərimi qaldırıb ona baxmaqdan qorxurdum.

O, dişlərini sıxaraq nəsə dedi, amma nə dediyini ayırd edə bilmədim. Ona baxdım, lakin o yenə üzünü çevirib, əlləriylə gicgahlarını sıxaraq dəmir yoluna tərəf baxdı. Qalxıb ona yaxınlaşdım, əlimi onun qıçına qoydum. O kənara sıçrayıb, evə getmək üçün döndü və mənə baxmadan fışıldadı:

– Mənə toxunmağa cürət eləmə, qəhbə!

Mən onun arxasınca getməməli idim, özünə gəlməsi üçün ona vaxt vermək lazım idi. Amma mən məsələnin pis hissəsini tez bitirmək və yaxşıya keçmək istəyirdim, ona görə də onun dalınca getdim.

– Skott, lütfən, sadəcə, dinlə, heç də hər şey sən düşündüyün kimi çox pis deyil. Hər şey bitib. Tamamilə. Lütfən, dinlə...

O bizim bir yerdə çəkilmiş və onun xoşuna gələn, mənim çərçivəyə saldırıb, toyumuzun ikiillik yubileyində ona hədiyyə etdiyim şəkli bütün gücü ilə mənə atdı. Şəkil divara dəyib qırıldı. Skott mənə tərəf atılıb çiynimdən yapışdı, məni bütün otaq boyunca sürüdü və divara çırpdı. Başım divara dəydi. O əyildi, əlini boğazıma atdı və bir söz demədən sıxmağa başladı.

Getdikcə daha bərk. Mənim necə boğulduğumu görməmək üçün gözlərini yumdu.

Çamadanı açıb hər şeyi çıxartdım və yenidən yeşiklərə qoymağa başladım. Çamadanla getsəydim, o məni buraxmazdı. Mənə yalnız çantamı və telefonumu götürmək lazımdır. Sonra yenə fikrimi dəyişirəm və yenidən çamadanı yığmağa başlayıram. Haraya gedəcəyimi bilmirəm, amma burada qala bilmərəm. Mən gözlərimi yumuram və boğazımda onun əlini hiss edirəm.

Bir daha qaçmamaq və gizlənməmək haqqında qərarım yadımdadır, lakin bu gün mənə burada qalmaq olmaz. Pilləkəndə addım səsi eşidirəm – yavaş və ağır. Onun yuxarı qalxması üçün sanki əbədiyyət qədər vaxt keçir. Adətən o bir neçə pilləkəni birdən sıçrayır, lakin bu gün eşafota qalxan adama bənzəyir. Amma hansı şəkildə olduğunu bilmirəm: bir günahkar, yoxsa bir cəllad kimi?

– Meqan?

O qapını açmağa cəhd etmir.

– Meqan, bağışla, səni incitdiyim üçün. Çox təəssüf edirəm ki, səni ağrıtdım.

Onun səsində göz yaşları eşidirəm və qəzəblənirəm. Otaqdan çıxıb onun üzünü cırmaqlamaq istəyirəm. Bu elədiklərindən sonra sən necə ağlamağa cürət edirsən! Mən özümdən çıxmışam, onun üstünə qışqırıb, qapıdan çəkilməsini və məndən uzaq durmasını əmr etmək istəyirəm, amma özümü saxlayıram, çünki lap axmaq deyiləm. Onun özündən çıxmağa səbəbi var. Mən də öz sağlam düşüncəmi saxlamalıyam. İndi yalnız özümü deyil, uşağı da düşünməliyəm. Bu qalmaqal mənə güc və qətiyyət verdi. Qapının o üzündə dayanıb, məndən onu bağışlamağımı xahiş etdiyini eşidirəm, amma indi mənim buna vaxtım yoxdur. İndi başqa şeylə məşğul olmalıyam.

Paltar şkafının ən sonunda, üç cərgə ayaqqabı qutularının aşağı hissəsində tünd-boz rəngli bir qutu var, üstünə "Qırmızı yarımçəkmələr" yazılıb. Bu qutunun içərisində abunəsiz nömrəsi olan köhnə mobil telefon var. Onu mən bir neçə il əvvəl almış və hər ehtimal üçün saxlamışdım. Son zamanlar ondan istifadə etmirdim, lakin bu gün xüsusi bir gündür. Mən

dürüst olmağa söz verdim. Mən daha heç bir şey gizlətməyəcəyəm. Bir daha heç bir yalan, aldatma olmayacaq. Atacığazın məsuliyyət daşımaq vaxtı gəlib çatıb.

Mən çarpayının üstündə otururam, telefonu işə salır və dua edirəm ki, onun enerjisi bitməmiş olsun. Ekran işıqlanır və mən adrenalinin qanı necə qovduğunu hiss edirəm: yüngülcə başım gicəllənir, ürəyim bulanır, elə bil narkotik qəbul etmişəm, hallıyam. Baş verənlər xoşuma gəlməyə başlayır, hər şeyi necə aşkara çıxaracağımı, ona və onların hamısına meydan oxuyacağımı, hər şeyi necə yerbəyer edəcəyimi və bütün bunların nə ilə nəticələnəcəyini göstərəcəyimi təsəvvürümdə canlandırıram. Günün sonunda hər kəs öz yerini biləcək.

Onun nömrəsini yığıram. Gözlənildiyi kimi, zəng səs poçtuna keçir. Sms yığıram: “Səninlə danışmağım lazımdır. BU TƏCİLİDİR! Mənə zəng et!” Sonra gözləməyə başlayıram.

Çağırış jurnalını yoxlayıram. Son dəfə apreldə zəng etmişəm. Martın sonunda və aprelin əvvəlində dəfələrlə zəng etmişəm, lakin bütün zənglər cavabsız qalıb. Mən hey zəng edirdim, o isə sadəcə, reaksiya vermirdi, hətta onun evinə gələcəyim və arvadına hər şeyi danışacağım barədə təhdidə də reaksiya vermədi. Düşünürəm ki, indi o məni dinləməli olacaq. İndi onu dinləməyə məcbur edəcəyəm.

Bizim münasibətlərimiz bir oyun kimi başladı. Adi bir məşğuliyyət kimi. Biz hərdən küçədə rastlaşırdıq və bəzən də o qalereyaya gələr, gülümsəyər, yüngül flirt edərdi. Lakin sonra qalereya bağlandı və buna görə də bütün günümü evdə keçirir, darıxmaqdan özümə yer tapa bilmirdim. Heç olmasa bir müxtəliflik istədim. Bir dəfə Skott şəhərdə olmadıqda mən təsadüfən ona rast gəldim və qəhvə içməyə dəvət etdim. Onun başında hansı fikirlər dolaşdığını gözlərindən anlayırdım. Və bu baş verdi. Sonra bir dəfə də oldu, amma mən ondan nəsə gözləmirdim. Sadəcə, istənilməyim və hakimiyyət hissi xoşuma gəlirdi. Hər şey bax belə bəsit və axmaqcasına idi. Onun arvadından ayrılması mənə lazım deyildi, amma istəyirdim ki, o bunu arzulasın. Mənim qiymətimi bilsin.

Münasibətlərimizin nəsə daha yüksək, daha artıq bir şey olduğuna və bir-birimizə çox uyğun gəldiyimizə nə vaxt inanmağa başladığımı xatırlamıram.

Lakin belə düşünməyə başlayan kimi hiss etdim ki, o məndən uzaqlaşmaq istəyir. O, sms göndərməyi kəsdi, zənglərimə cavab vermədi. Mən heç zaman onda olduğu kimi özümü lazımsız hiss etməmişdim. Bu hissə nifrət edirdim. Bu daimi və zəhlətökən bir ideyaya çevrildi. İndi mən bunu anlayıram. Nəhayət, mən doğrudan da düşünməyə başladım ki, müəyyən əzab hesabına olsa da, bununla razılaşa bilərəm. Lakin indi hər şey dəyişdi.

Skott əvvəlki kimi, qapı arxasındadır. Mən onu eşitmirəm, lakin hiss edirəm. Vanna otağına gedib yenidən nömrəni yığıram. Zəng yenə səs poçtuna keçir və mən nömrəni bir də yığıram. Daha bir də. Sonra pıçıltı ilə mesaj göndərirəm. "Dəstəyi götür, yoxsa evə gələcəyəm. Bu dəfə zarafat etmirəm. Səninlə danışmalıyam. Sən məni dinləməyə bilməzsən".

Telefonu əlüzyuyanın kənarına qoyub bir müddət vanna otağında dayanıram. Gözləyirəm ki, o zəng edəcək. Lakin ekran işıqlanmaq istəmir, boz parıltısı davam edir. Mən saçlarımı darayıram, dişimi fırçalayıram və bir az kosmetikadan istifadə edirəm. Üzümün dərisi tədricən adi rəngini alır. Gözlərim əvvəlki kimi qırmızıdır və boğazım ağrıyır, lakin görkəmim yaxşıdır. Saymağa başlayıram. Əlliyə qədər sayacağam, əgər telefon hələ də sussa, onlara gedib qapını döyəcəyəm. Telefon susur.

Telefonu cinsin cibinə qoyub sürətlə yataq otağından keçirəm və qapını açıram. Skott pilləkəndə dizlərini qucaqlayaraq oturub və başını aşağı salıb. O mənə baxmır və mən sürətlə onun yanından keçib pillələrlə aşağı düşürəm. Qorxuram ki, o məni arxadan tutar və itələyər. Onun ayağa qalxıb, arxamca qışqırdığını eşidirəm:

– Meqan? Sən hara? Sən onun yanına gedirsən?

Aşağıdan qışqırıram:

– Heç bir "O" daha yoxdur, aydındır? Hər şey bitib.

– Lütfən, gözlə, Meqan. Getmə!

Mən onun bu yalvarışlarını, özünə acımasını eşitmək istəmirəm. Boğazım çox ağrıyır, elə bil kimsə boğazıma turşu töküb.

– Arxamca gəlmə, – xırıltılı səslə cavab verirəm. – Əgər arxamca gəlsən, bir daha məni görməyəcəksən. Aydındır? Əgər geri dönüb səni görsəm, bir

daha məni görmyəcəksən!

Giriş qapısını örtəndə məni çağırdığını eşidirəm.

Onun arxamca gəlmədiyindən əmin olmaq üçün bir müddət səkidə gözləyirəm, sonra Blenhaym-roudla gedirəm və tədricən addımlarımı yavaşladıram. 23 nömrəli evə çatıram və burada qətiyyət məni tərk edir. Mən belə birbaşa söhbətə başlamağa hazır deyiləm. Mənə gücümü toplamaq üçün dəqiqələr lazımdır. Bir neçə dəqiqə. Evin yanından, yeraltı keçidin yanından, stansiyanın yanından keçirəm. Parka çatıram və orada onun nömrəsini bir də yığıram.

Ona deyirəm ki, parkdayam və onu burada gözləyəcəyəm, əgər gəlməsə, onun evinə getməli olacağam. Bu onun son şansıdır.

Əla bir axşamdır: saat səkkizə işləyib, lakin hava hələ isti və işıqlıdır. Yelləncəklərdə və dağcıqda uşaqlar oynayırlar, onların valideynləri kənarda dayanıb söhbət edirlər. Burada hər şey elə sakit və əladır ki, onlara baxanda özümdən asılı olmayaraq əzab çəkirəm ki, biz Skottla buraya öz qızımızı gətirməyəcəyik. Onlar kimi xoşbəxt və həyatdan məmnun ola biləcəyimizi təsəvvür edə bilmirəm. İndi daha edə bilmərəm. Bu hərəkətimdən sonra.

Səhər-səhər hər şeyi danışmağın ən yaxşı qərar olduğuna, daha doğrusu, ən yaxşı yox, yeganə qərar olduğuna şübhə etmirdim. Daha heç bir yalan, heç bir sirr olmayacaqdı. Sonra o mənə əl qaldırdı, bu da mənim haqlı olduğumu təsdiq etdi. Lakin indi mən burada tək, Skott isə evdə, qəzəbli və məyus vəziyyətdə olduqda düzgün hərəkət etdiyimi daha düşünmürəm. Mən gücümü deyil ağılsızlığımı aşkar etdim, həm də hamını pis vəziyyətə saldım.

Ola bilər ki, cəsurluq mənə heç də həqiqəti demək üçün lazım deyil, yalnız müstəsna olaraq çıxıb getmək üçün lazımdır. Bu isə hər şeyi dəyişməyə duyduğum daxili tələbatla bağlı deyil, burada məsələ başqadır. Özümün və bu qızcığazın yaxşılığı üçün indi çıxıb getməyin əsl vaxtıdır, onların hər ikisindən uzaq olmaq, bütün bu hadisələrdən uzaq olmaq lazımdır. Bəlkə harasa qaçıb gizlənmək mənim üçün ən yaxşı çıxış yoludur.

Qalxıb parkı gəzirəm. İstəyirəm ki, telefon zəng çalsın, həm də bu zəngdən qorxuram. Nəhayət, onun zəng etmədiyinə hətta sevinirəm. Bunu bir yaxşı əlamət hesab edib, çıxışa – evə doğru gedirəm.

Elə stansiyanı keçirdim ki, onu gördüm. O yeraltı keçiddən, belini bükərək və yumruğunu sıxıb sürətli addımlarla gəlirdi. Heç düşünməyə macal tapmamış onu səslədim.

O döndü.

– Meqan! Sənin burada nə... – Onun üzündə qəzəb var, lakin əl edib, məni yaxına çağırır. – Gedək, – mən yaxınlaşanda deyir. – Biz burada söhbət edə bilmərik. Mənim maşınım oradadır.

– Mən, sadəcə, istəyirdim...

– Biz burada söhbət edə bilmərik! – o sərt şəkildə deyir. – Getdik! – O mənim əlimdən dartır və bir az mülayim tərzdə əlavə edir: – Biz harayasa uzaqlaşaq, yaxşı? Danışa biləcəyimiz bir yerə.

Mən maşına otururam və dönüb onun gəldiyi tərəfə baxıram. Yeraltı keçid işıqlandırılmayıb, lakin mənə elə gəlir ki, orada qaranlıqda kimsə var və bu kimsə bizi baxışları ilə yola salır.

# Reyçel

---

Bazar, 18 avqust 2013-cü İl

Günün ikinci yarısı

Onu görən kimi Anna dərhal dönüb evə qaçır. Mən onun arxasınca yavaş-yavaş gedirəm, ürəyimin bərk döyüntüsünü eşidir və şüşə qapının qarşısında dayanıram. Onlar bir-birini qucaqlayıblar, Tom onu özünə sıxır, Evi isə onların arasındadır. Annanın başı aşağıdır, çiyinləri tərpənir. Tomun dodaqları Annanın başına sıxılıb, lakin o mənə baxır.

– Hə, bizdə nə baş verir? – o, güclə hiss edilən təbəssümlə soruşur. – Boynuma almalıyam ki, sizin ikinizi bağımda sakit-sakit qeybət edən görməyi heç cür gözləmirdim.

O, tam mülayim və sakit bir tərzdə danışır, amma məni aldada bilməz. Bunu bir daha bacarmaz. Cavab vermək üçün ağzımı açıram, lakin söz

tapmıram. Nədən başlayacağımı bilmirəm.

– Reyçel? Sən nə baş verdiyini mənə deyəcəksən? – O Annanı qucağından buraxır və mənə doğru addım atır.

Mən bir addım geri çəkilirəm və o gülür.

– Sənə nə olub belə? Sən içmisən? – soruşur, lakin onun gözlərindən görürəm ki, o mənim içmədiyimi bilir və buna təəssüflənir.

Mən cinsin arxa cibinə əl atıram və telefona toxunuram – onun bərk və hamar səthi sakitləşdirici təsir edir, ancaq heyif ki, əvvəl zəng etməmişəm. Annanın evində olduğumu desəydim – mənə inanıb-inanmayacaqları əhəmiyyətli deyil – polis mütləq gələrdi.

Tom məndən cəmisi iki fut aralıdadır, ancaq o qapının o üzündə – mənsə bu üzündəyəm.

– Mən səni gördüm, – nəhayət, deyirəm və hiss edirəm ki, ucadan deyilmiş bu sözlər məni uzun müddət olmasa da, hər halda eyforiyaya salır. – Düşünürsən ki, mən heç nə xatırlamıram, yox, mən xatırlayıram! Səni gördüm. Sən məni vurub yeraltı keçiddə atdıqdan sonra...

O, gülməyə başlayır, lakin indi mən onun bütün daxilini görürəm və başa düşmürəm ki, əvvəllər bunu etməyə nə mane olurdu. Onun gözlərində təşviş var. O, Annaya nəzər salır, lakin Anna üzünü çevirir.

– Sən nədən danışırsan?

– Yeraltı keçiddə. Meqan Hipvell yox olan gecə.

– Bu nə cəfəngiyyatdır! – o, əlini yelləyərək deyir. – Mən səni vurmadım. Sən özün yıxıldın.

O Annanın əlindən tutub özünə çəkir.

– Əzizim, sən buna görə belə dilxorsan? Ona qulaq asma, o tam cəfəngiyyat söyləyir! Mən onu vurmadım. Mən heç vaxt ona əl qaldırmadım. Əgər, əlbəttə, bunu hesaba almasaq. – O Annanın çiynindən qucaqlayır və özünə çəkir. – Mən axı sənə onun barəsində danışmışam. O içəndə heç nə xatırlamır və uydurmağa başlayır.

– Sən onunla maşına oturdun. Mən gördüm siz necə birlikdə maşınla getdiniz.

O, əvvəlki kimi gülümsəyir, lakin artıq o qədər əminliklə deyil. Bəlkə də mənə elə gəldi, lakin onun rəngi ağardı. O, yenə əlini Annanın çiynindən götürür. Anna arxası ərinə doğru masa arxasında əyləşir və qızını dizinin üstündə oturdur.

Tom əlini dodaqlarına çəkir və əllərini sinəsində çarpazlayaraq, masa arxasında oturur.

– Mənim kimlə maşına oturduğumu gördün?

– Meqanla.

– Hə-ə, aydındır. – O süni şəkildə ucadan gülür. – Keçən dəfə biz bu barədə danışarkən sən deyirdin ki, maşına Anna oturdu. Gələn həftə kim olacaq? Prinsessa Diana?

Anna mənə baxır. Onun üzündə şübhə əks olunduğunu, sonra isə bu şübhənin ümid işığına çevrildiyini görürəm.

– Sən əmin deyilsən? – Anna soruşur.

Tom onun yanında diz çökür.

– Əlbəttə, o əmin deyil. O, hamısını uydurur, o, həmişə hər şeyi uydurur. Əzizim, lütfən. Yəqin yaxşı olar ki, sən qısa müddətə yuxarı qalxasan, yaxşı? Mənsə Reyçellə hər şeyi danışaram. Həm də bu dəfə, – o mənə çox mənalı bir baxış atır, – söz verirəm ki, o bizi bir daha narahat etməyəcək.

Anna tərəddüd edir. Mən bunu onun Toma necə baxmasından, üzündəki ifadədən hansımızın haqlı olduğunu başa düşməyə çalışmasından görürəm. Tom da ondan gözünü çəkmir.

– Anna! – deyə çağırıram ki, onun diqqətini özümə cəlb edim. – Sən bilirsən! Sən bilirsən ki, o yalan söyləyir. Sən bilirsən ki, o, Meqanla yatıb.

Otağa sükut çökür. Anna baxışlarını Toma çevirir, sonra arxaya baxır, ağzını açır ki, nəsə desin, lakin bir söz söyləmir.

– Anna! O, nə deyir? Bizim aramızda... Mənimlə Meqan arasında heç nə olmayıb!

– Mən onun telefonunu tapdım, Tom, – o güclə eşidiləcək səslə deyir. – Lütfən, lazım deyil. Oynamaq lazım deyil. Mənə yalan söyləmək lazım deyil.

Evi hıqqıldamağa başlayır. Tom çox ehtiyatla qızı Annadan alır, uşağı yırğalayaraq pəncərəyə yaxınlaşır və alçaqdan ona nəsə deyir. Nə dediyini eşitmirəm. Anna başını aşağı salıb oturur və göz yaşları çənəsindən süzülərək masaya damcılayır.

– O haradadır? – Tom soruşur; üzünü bizə çevirərək və daha gülümsəmədən. – Telefon, Anna! Sən onu Reyçelə verdin? – O başı ilə məni göstərir. – O səndədir?

– Mən telefon barədə heç nə bilmirəm, – deyirəm və heyifsilənirəm ki, Anna bunu mənə əvvəl demədi.

Tom mənə fikir vermir.

– Anna! Sən telefonu ona verdin? – O başını bulayır.

– Bəs haradadır?!

– Mən onu atdım. Hasardan o tərəfə. Dəmir yoluna doğru.

– Yaxşı qız, afərin, – o, dalğın halda deyir, sonra nə etmək lazım olduğuna qərar verməyə çalışır.

O mənə baxır, sonra Annaya dönür. Özünü itirdiyi görünür.

– Sən həmişə çox yorğun olurdun, – o deyir. – Heç nə istəmirdin. Səni ancaq uşaq maraqlandırırdı. Doğrudur? Yalnız uşaq və başqa heç nə!

O, yenə vəziyyəti ələ alıb, canlanıb, qızına müxtəlif üz ifadələri göstərir və onun qarnını qıdıqlayır, gülməyə məcbur edir.

– Meqan isə... asan ələ gələn idi. Əvvəlcə hər şey onun evində olurdu, lakin o qorxurdu ki, Skott bilər. Onda biz “Qu quşu” hotelində görüşməyə başladıq. Bu elə... Sən ki, xatırlayırsan, bu necə olurdu, Anna, elə deyilmi? Lap başlanğıcda, biz Krenhem-stritdəki evdə görüşəndə... Sən anlayırsan. – O

çiyninin üstündən mənə baxıb gözlərini qırpır. – Biz Anna ilə orada görüşərdik, keçmiş və yaxşı günlərimizdə.

O qızını digər əlinə götürür, indi onun başı atasının çiynindədir.

– Sən fikirləşirsən ki, mənim ürəyim yoxdur? Belə deyil. Mən, sadəcə olaraq, doğrunu söyləyirəm. Sən axı bunu istəyirdin, Anna? Sən özün məndən yalan söyləməməyi xahiş etdin.

Anna gözünü qaldırmır. O, əlləriylə masanın kənarından yapışaraq tərpənmədən oturur.

Tom dərindən köks ötürür.

– Dürüst olmaq, necə xoşdur – o mənə baxaraq deyir. – Sənin heç anlayışın yoxdur, sənin kimi adamlarla ünsiyyətdə olmaq nə qədər güc tələb edir. Mən, lənət şeytana, cəhd etdim. Mən bütün gücümlə sənə kömək etməyə çalışdım. Hər ikinizə kömək etmək üçün. Siz hər ikiniz... mən demək istəyirəm ki, hər ikinizi sevirdim, lakin hər ikiniz elə zəif olursunuz ki.

– Cəhənnəm ol, Tom! – Anna masanın arxasından qalxaraq deyir. – Mənimlə onu eyni lövhəyə qoymağa cürət etmə!

Mən ona baxıram və yalnız indi başa düşürəm, onlar bir-birinə nə qədər uyğun gəlirlər. Anna da onun tayıdır, ona layiqdir layiqli bir taydır, çünki mənimlə müqayisə olunmaq ona ərinin yalançı və qatil olmasından daha çox təsir edir.

Tom ona yaxın gedərək barışcıl tərzdə deyir:

– Məni bağışla, əzizim, mən haqlı deyildim.

O, narazı şəkildə üzünü döndərir, Tom isə mənə baxır.

– Sən bilirsən ki, mən çalışırdım. Mən sənə yaxşı ər idim, Reyç. Mən çox şeyə dözürdüm – həm sənin əyyaşlığına, həm depressiyalara. Mən təslim olmazdan əvvəl çox uzun müddət dözdüm.

– Sən mənə yalan danışırdın! – deyirəm və o, təəccüblə mənə çevrilir. – Sən deyirdin ki, hər şeydə yalnız mən günahkaram. Sən məni öz dəyərsizliyimə inanmağa məcbur etdin. Sən görürdün, mən necə əzab

çəkirəm, sən...

O, çiyinlərini çəkir:

– Təsəvvür edirsənmi, sən nə qədər maraqsız oldun, Reyçel? Necə çirkin? Səhərlər yataqdan qalxmaq səni çox dilxor edirdi, duş qəbul etmək və öz kirli saçlarını yumaq üçün çox yorğun olurdun. İlahi! Təəccüblü deyil ki, mənim səbrim tükəndi, doğrudur? Təəccüblü deyil ki, mən təsəllini kənarda axtarmağa başladım. Sən özün hər şeydə günahkarsan, başqa heç kəs.

O Annaya dönür və onun üz ifadəsi dəyişir.

– Anna, səninlə hər şey başqa cür idi, and içirəm! Meqanla olan o kiçik macəra... sadəcə, bir əyləncə idi. Bundan çox deyil. Boynuma almalıyam ki, burada fəxr etməli bir şey yoxdur, lakin mənə bir boşalma lazım idi. Vəssalam. Orada ciddi heç bir şey yox idi və ola da bilməzdi. O, əlaqə bizdə və bizim ailəmizdə heç cür əks olunmamalı idi. Lütfən, bunu başa düş.

– Sən ... – Anna deyir və daha söz tapmır.

Tom əlini onun çiyninə qoyur.

– Nədir, əzizim?

– Sən onu Eviyə qulluq etmək üçün gətirmişdin! – o dişlərini sıxaraq deyir. – Sən o burada olanda onunla yatdın? O bizim qızcığaza baxarkən?

O əlini götürür və sifətində dərin peşmançılıq və xəcalət ifadəsi peyda olur.

– Bu dəhşət idi. Mən düşündüm... düşündüm ki... Əgər dürüst olsam, mən bilmirəm, nə düşünürdüm. Yəqin, ümumiyyətlə, düşünmürdüm. Bu doğru deyildi. Mən çox günahkaram.

Sonra onun üzündəki maska yenə dəyişir və indi o, sadəlövhlük və yalvarış ifadə edir.

– Mən onda heç nə bilmirdim, Anna. Sən mənə inanmalısan ki, onun əslində kim olduğu barədə mənim təsəvvürüm belə yoxdu.

Onun uşaq öldürdüyü barədə heç nə bilmirdim. Əgər bilsəydim, onu

Eviyə yaxın da buraxmazdım. Mənə inanmalısan.

Anna birdən elə kəskin şəkildə ayağa qalxır ki, oturduğu stulu çevirir, stul gurultu ilə aşıb uşağı oyadır.

– Onu mənə ver! – Anna əllərini uzadaraq deyir.

Tom geri çəkilir.

– Tez ol, Tom! Onu mənə ver! Onu mənə ver!

Lakin o uşağı vermir və onu yırğalayaraq nəsə pıçıldayır, sonra kənara çəkilir. Evi, nəhayət, sakitləşir. Lakin bu an Anna isterikaya düşür. O, qışqırmağa başlayır; əvvəlcə uşağı tələb etdiyini anlamaq hələ mümkün idi, sonra yalnız əzab və ağrı dolu ulama eşidilir. Evi də qışqırmağa başlayır. Tom uşağı sakitləşdirməyə çalışır və Annaya fikir vermir, ona görə onunla məşğul olmaq mənə qalır.

Mən onu bağa çıxarır və qulağına israrla və tez-tez deyirəm:

– Sən sakitləşməlisən, Anna. Məni anlayırsan? Sənin sakitləşməyin mənə lazımdır. Sən onunla danışmalısan, onun diqqətini bir dəqiqəliyə yayındırmalısan, mən polisə zəng edincəyə qədər. Başa düşürsən?

O başını bulayır və dayana bilmir. Sonra mənim əlimdən yapışır, dırnaqları əlimə sancılır.

– O bunu necə edib?!

– Anna! Qulaq as! Sən onun bir dəqiqəliyə diqqətini yayındır.

Nəhayət, onun baxışları mənalı ifadə aldı və başı ilə təsdiqlədi:

– Yaxşı.

– Sadəcə... bilmirəm. Elə et ki, o qapıdan uzaqlaşsın və buraya baxmasın.

O evə qayıdır. Mən dərindən nəfəs alıram və bağın dərinliyindəki qapıya doğru gedirəm. Çəmənlikdə dayanıram. Sonra dönüb geri baxıram. Onlar hələ mətbəxdədirlər. Mən bir az da uzağa gedirəm. Külək əsməyə başlayır – tezliklə isti olacaq. Qaranquşlar uçuşur, havadan yaxınlaşan ildırım qoxusu gəlir. Mən bu qoxunu sevirəm.

Əlimi arxa cibimə salıram və telefonu çıxarıram. Əllərim əsir və mən heç cür klaviaturanı blokdan çıxara bilmirəm – lazımi düymələrə yalnız üçüncü dəfədə basa bilirəm. Serjant Rayliyə zəng etmək istəyirəm, o məni tanıyır. Telefon siyahısını fırladıram, heç cür onun telefonunu tapa bilmirəm, bununla razılaşıb üç doqquza zəng edirəm. Elə ikinci doqquza basanda belimdən ayaqla vurulan zərbə məni otların üstünə yıxır. Mən boğuluram, telefon əlimdən düşür və mən dizi üstə qalxıncaya qədər o telefonu ələ keçirir.

– Yaxşı, Reyç, – o deyir və qolumdan tutub asanlıqla ayağa qaldırır. – Gəl, axmaqlıq eləməyək.

O məni evə aparır. Müqavimət göstərmirəm, başa düşürəm ki, bu faydasızdır və burada ondan heç yerə qaçmaq olmaz. O məni itələyib evə salır, şüşə qapını örtüb kilidləyir. Açarı masanın üstünə atır. Anna burada dayanır və güclə sezilən bir təbəssümlə mənə baxır. Öz-özümdən soruşuram ki, mənim polisə zəng etmək niyyətimi Toma bəlkə o xəbər verib?

Anna qızı üçün yemək hazırlayır və çaydanı qoyur ki, hamımızı çaya qonaq eləsin. Baş verənlərin guya adi şeylər olduğunu göstərmək üçün edilən bu qəribə parodiya o qədər inandırıcı görünür ki, elə bil mən, sadəcə, nəzakətlə vidalaşıb otaqdan keçərək küçənin təhlükəsizliyinə düşə bilərəm. Bu elə cəlbedicidir ki, mən qapıya doğru bir neçə addım atıram, lakin Tom yolumu kəsir. O, əlini mənim çiynimə qoyur, boynuma doğru sürüşdürür və barmaqlarını sıxır.

– Səninlə nə edim, Reyç?

# Meqan

---

Şənbə, 13 İyul 2013-cü İl

Axşam

Ancaq maşında oturduqdan sonra onun əlinin qan içində olduğunu görürəm.

– Sən yaralanmısan, – deyirəm.

O cavab vermir və sükandan elə qüvvətlə yapışır ki, barmaqlarının sümükləri ağarır.

– Tom, sən məni dinləməlisən, – barışdırıcı bir tonla danışmağa və özümü təmkinli aparmağa çalışaraq, davam edirəm, hərçənd bunun vaxtı yəqin keçib. – Bağışla, mən sənin zəhləni tökürəm, lakin həqiqətən! Sən ki, sadəcə, yoxa çıxdın! Sən...

– Hər şey qaydasındadır, – o, yumşaq şəkildə deyir. – Mən... məni başqa şey özümdən çıxardı. Sənin bunda rolun yoxdur.

O mənə doğru çevrilir və gülümsəməyə çalışır, lakin təbəssüm alınmır.

– Mənim keçmiş arvadımla problemlərim var, – o izah edir. – Özün bilirsən, bu işlər necə olur.

– Bəs sənin əlinə nə olub? – soruşuram.

– Mənim keçmiş arvadımla problemlərim var, – yenə o təkrar edir, lakin bu dəfə əsəbi şəkildə. Korli-Vuda qədər qalan yolu biz danışmadan getdik.

Nəhayət, gəlib maşını park etdik. Burada əvvəllər də olmuşduq. Axşamlar buraya nadir hallarda kimsə gəlir – bəzən əlində pivə olan yeniyetmələrə rast gəlmək olur, vəssalam. Bu gün biz burada təkik.

Tom mühərriki söndürür və mənə sarı dönür.

– Yaxşı. Bəs sən mənimlə nə haqda danışmaq istəyirdin?

O, hələ tam soyumayıb, amma yavaş-yavaş sakitləşir və daha hirsindən qaynamır. Bununla belə, mən qəzəbli bir kişi ilə qapalı bir məkanda qalmaq istəmirəm və gəzişməyi təklif edirəm. O, gözlərini çevirir və dərindən köks ötürür, amma razılaşır.

Küçə əvvəlki kimi istidir. Ağacların altında kiçik milçəklər dolaşır, yarpaqların arasından günəş şüaları süzülür və cığırı işıqlandırır. Başımızın üstündə sağsağanlar nə barədəsə acıqlı-acıqlı qışqırırlar.

Biz danışmadan cığırla gedirik: mən qabaqda, Tom bir neçə addım arxada. Bu barədə necə deməyi, hansı sözləri seçməyi düşünürəm. Mən hər şeyi daha da mürəkkəbləşdirmək istəmirəm. Düzgün hərəkət etmək istədiyimi

daim özümə xatırlatmalı oluram.

Mən dayanır və üzümü ona çevirirəm – Tom lap yaxında dayanıb. O, əllərini mənim budlarıma qoyur.

– Burada? – o soruşur. – Sən bunu istəyirsən? – Onun üzündə etinasızlıq var.

– Yox, – geri çəkilərək deyirəm. – Bunu yox.

Burada cığır aşağı enir. Mən bir az addımlarımı yavaşladıram, o da həmçinin.

– Onda nə?

Mən dərindən köks ötürürəm. Boğazım hələ də ağrıyır.

– Mən hamiləyəm.

Heç bir reaksiya. Onun üzündə heç bir ifadə əks olunmadı. Sanki evə gedərkən yolda mağazaya dönməli olduğumu, ya da dantistə yazıldığımı demişdim.

– Təbrik edirəm, – nəhayət, o dedi.

Daha bir dərin köks ötürmə.

– Bu barədə ona görə... ona görə deyirəm ki, uşağın səndən olması istisna deyil.

O uzun müddət mənə baxır, sonra isə gülməyə başlayır.

– Doğrudan? Mən nə bəxtli adamam! Hə, indi nə olsun? Biz qaçmalıyıq? Üçlükdə? Sən, mən və körpə? Bəs haraya? İspaniyaya?

– Mən hesab edirdim ki, sən bilməlisən, çünki...

– Abort elə, – o deyir. – Demək istəyirəm ki, əgər uşaq ərindəndirsə, necə istəyirsən elə də et. Amma məndəndirsə, ondan canını qurtar. Ciddi deyirəm, gəl axmaqlıq etməyək. Mənə daha bir uşaq lazım deyil. – O, əlini üzümə çəkir. – Hə, bir də bağışla, lakin mənə elə gəlir ki, sən ana roluna heç də yaramırsan, elə deyil, Meq?

– Mən səni heç nəyə məcbur etmirəm...

– Eşitdin, nə dedim? – o mənə arxasını çevirərək və maşına yönələrək, sərt və əsəbi halda soruşur. – Səndən nə ana olar, Meqan?! Bunu ağlına da gətirmə! Ondan canını qurtar.

Mən onun arxasınca gedirəm, əvvəlcə sürətlə yeriyərək, sonra qaçaraq ona çatıram və arxadan itələyirəm. Mən ona qışqırıram, onun özündən razı sifətini qanayınca cırmaqlamaq istəyirəm, o isə, sadəcə, gülür və mənim həmlələrimi asanlıqla dəf edir. Onu ən pis sözlərlə təhqir etməyə başlayıram, onun yataqda çox zəif olduğuna, arvadının yaramaz, uşağının eybəcər olduğuna istehza edirəm.

Mən hətta bilmirəm, nə üçün belə quduza döndüm. Necə bir reaksiya gözləyirdim? Acıqlanmaq, bəlkə həyəcan ya da dilxorçuluq. Lakin bunu yox. O mənimlə, sadəcə, ayrılmır – o məni və mənim uşağımı qovur və daha bizim haqqımızda heç nə bilmək istəmir. Bax, buna görə mən ona qışqırıram. Və məsələyə nöqtə qoymaq fikrində deyiləm.

– Mən səni hər şey üçün cavab verməyə məcbur edəcəyəm! Bütün lənətə gəlmiş həyatın boyunca bunun əvəzini ödəyəcəksən!

O daha gülmür.

O mənə yaxınlaşır. Onun əlində nəsə var.

Mən yıxıldım. Yəqin, ayağım sürüşdü. Başım dəydi. Mənə elə gəlir ki, indi ürəyim bulanacaq. Ətrafda hər şey qırmızıdır. Mən qalxa bilmirəm.

Lap o köhnə say oyununda olduğu kimi: birinci – qəmgin; ikinci – gülməli; üçüncü – qız səsi... Sonrasını saya bilmirəm. Başım uğuldayır, ağzım qanla dolub... Üçüncü – qız səsi... Sağsağanların istehzalı və xırıltılı qışqırıqlarını eşidirəm. Sanki mənə gülürlər və bədbəxtlikdən xəbər vermək üçün dəstə ilə uçub gəliblər. İşığı qara ləkə kimi örtdüklərini görürəm. Yox, bu, sağsağanlar deyil, adamdır. O, yaxına gəlib mənə deyir:

– Görürsən, neylədin? Sən özün mənə çıxış yolu buraxmadın!

# Reyçel

---

Bazar, 18 avqust 2013-cü İl

Günün ikinci yarısı

Biz qonaq otağına kiçik üçbucaq şəklində otururuq: divanda Tom – sevən ata və nümunəvi ər – qızı dizinin üstündə, onun yanında Anna, qarşı tərəfdə isə əlində çay fincanı olan keçmiş arvadı. Hər şey çox mədəni. Mən toydan dərhal sonra aldığımız dəri kresloda otururam. Bu, nikahdan sonra aldığımız ilk mebel idi – açıq qəhvəyi rəngli yumşaq dəri – bahalı və zəngin bir şey. Bunu alıb gətirəndə necə həyəcanlandığımı xatırlayıram. Yadımdadır, elə oradaca ayaqlarımı altıma yığıb onun üstündə oturmuş, özümü müdafiə olunmuş və xoşbəxt hiss etmişdim. Elə onda düşündüm ki, o da evlilik kimi adama istilik, rahatlıq və təhlükəsizlik hissi verir.

Tom qaşqabağını tökərək mənə baxır. Görünür, vəziyyəti düzəltmək üçün necə hərəkət etməyi düşünür. Onu Anna narahat etmir, bu aydındır. Problem təşkil edən mənəm.

– O nə iləsə səni xatırladırdı, – o deyir. Sonra divanın arxasına söykənir və qızını dizi üstündə rahatlayır. – Sənə oxşayırdı, eyni zamanda başqa idi. Onda nəsə bir... narahatçılıq vardı. Mənsə bunun qarşısında davam gətirmirəm, – o gülümsünərək deyir. – Mən parlaq əsləhədə bir cəngavər kimiyəm.

– Sən cəngavər-zad deyilsən, – sakitcə etiraz edirəm.

– Elə demə, Reyç, lazım deyil. Doğrudanmı, sən xatırlamırsan? Atan öldükdən sonra çox dərd çəkirdin, çox istəyirdin ki, yanında yaxın bir adam olsun, səni sevsin. Mən bütün bunları sənə verdim. Mənimlə sən özünü təhlükəsizlikdə hiss edirdin. Sonra bütün bunları tualetə tökməyə qərar verdin, lakin bunda mənim günahım yoxdur.

– Mən də sənin çox günahlarını saya bilərəm, Tom.

– Yox-yox, – o etiraz edərək barmağını silkələyib təhdid edir, – gəl tarixi yenidən yazmayaq. Mən sənə yaxşı ər idim. Bəzən... neynək, hərdən sən məni cana gətirirdin. Lakin mən yaxşı ər idim. Sənin qeydinə qalırdım.

Yalnız indi başa düşdüm ki, o özünə də mənə söylədiyi kimi yalan söyləyir. Mənimlə yaxşı rəftar etdiyinə səmimi şəkildə inanır.

Evi birdən bərkdən ağladı, Anna tez ayağa qalxdı.

– Mən onun əynini dəyişdirməliyəm.

– İndi yox.

– O nəmdir, Tom. Onu dəyişdirmək lazımdır. Qəddar olma.

O, diqqətlə Annaya baxır, lakin hər halda uşağı ona verir. Mən onun baxışlarını tutmaq istəyirəm, lakin o qəsdən gözünü çəkir. O, çevrilib yuxarı getmək istədikdə məndə ümid işığı yandı, amma oradaca söndü, çünki Tom o saat durub onun əlindən tutaraq saxladı.

– Onu burada elə, – o deyir. – Sən onun əynini burada dəyişdirə bilərsən.

Anna mətbəxə keçir və masanın üstündə uşağın pampersini dəyişir. Nəcisin qoxusundan ürəyim bulanır.

– Sən bizə deyə bilərsənmi niyə? – ondan soruşuram.

Anna donub qalır və bizə baxır. Mətbəxdə sakitlik çökür, yalnız uşağın mızıltısı eşidilir.

Tom başını bulayır, sanki dediyinə özü də inana bilmir:

– O sənə çox bənzəyirdi, Reyç. Heç cür sakitləşə bilmirdi. Hər şeyin keçmişdə qaldığı ilə qətiyyən razılaşmırdı. O, sadəcə... heç nə eşitmək istəmirdi. Xatırlayırsanmı, sən necə mənimlə həmişə mübahisə edirdin? Həmisə son sözü sən deməliydin. Meqanla da eyni hekayə. O, eşitmək istəmirdi.

O, oturuşunu dəyişir və dirsəklərini dizlərinə söykəyərək özünü irəli verir, elə bil mənə hansısa hekayəni danışacaq.

– Bunların hamısı başlanğıcda, sadəcə, vaxt keçirmək üçün idi, yataq idi. O məni inanmağa məcbur etdi ki, ona başqa heç nə lazım deyil. Lakin sonra fikrini dəyişdi. Niyə, bilmirəm. Məndən əl çəkmirdi. O, Skottla dalaşan kimi ya da, sadəcə, kefi pozulan kimi o saat deyirdi ki, biz birlikdə harasa

qaçmalıyıq, mən Annanı və Evini buraxmalıyam. Sanki mən bunu etməyə hazırlaşırdım! Əgər onun birinci çağırışına gəlməsəydim, qəzəblənirdi və buraya zəng edərək evə gəlib hər şeyi Annaya danışacağı ilə hədələyirdi.

Lakin sonra bu kəsildi. Mən necə bir yüngüllük hiss etdim! Qərara gəldim ki, yəqin daha mənə maraqlı olmadığını dərk edib. Ancaq həmin axşam o yenə zəng etdi və dedi ki, mənimlə danışmaq istəyir, nəsə çox vacib bir şey deməlidir. Mən imtina etdim, onda yenə evə gəlib hər şeyi Annaya söyləyəcəyi ilə təhdid etdi. Əvvəlcə çox da narahat olmadım, çünki Anna getməli idi. Əzizim, yadındadır? Sən rəfiqələrinlə görüşüb, onlarla şam yeməyi yeməli idin, mənsə Eviyə baxmalıydım. Fikirləşdim ki, yəqin elə belə yaxşıdır – o gələr və mən ona izah edərəm. Anlamağa məcbur edərəm. Lakin sonra sən peyda oldun, Reyçel, və hər şeyi korladın.

Tom ayaqlarını geniş açaraq divanın arxasına yayılır – o yekəpər kişidir və sanki qonaq otağının bütün fəzasını tutur.

– Sən hər şeydə günahkarsan, Reyçel. Yalnız tək sən. Anna rəfiqələriylə görüşə getmədi – o beş dəqiqədən sonra acıqlı və qanı qara halda qayıtdı – çünki stansiyanın yanında sənə rast gəlmişdi. Sən hansısa bir oğlanla birlikdə idin və yenə həmişəki kimi sərxoş. Anna qorxdu ki, sən buraya gələrsən. Evi üçün narahat olmağa başladı. Odur ki, Meqanla vəziyyəti aydınlaşdırmaq əvəzinə mən səninlə məşğul olmağa məcbur qaldım.

O nifrətlə dodağını büzür.

– İlahi! Sən necə bir vəziyyətdə idin! Pis gündə, spirt qoxuyan! Özü də hey məni öpməyə cəhd edirdin, xatırlayırsan?

O necə nifrətdən ürəyi bulandığını təsvir edir, sonra da gülməyə başlayır. Anna da gülür, lakin mən anlaya bilmirəm ki, o həqiqətən gülmək istəyir, yoxsa o Toma yaltaqlanmaq üçün bunu edir.

– Sənə başa salmalıydım ki, mənə, ya da ailəmə yaxınlaşmağını istəmirəm. Ona görə də, sən hamının gözü qarşısında qalmaqal yaratmayasan deyə, səni yeraltı keçidə apardım. Və bizdən uzaq durmağını tapşırdım. Sən ağlayıb-sıtqayırdın, mən səni susmağa məcbur etmək üçün bir şillə vurdum, lakin sən daha da qızışdın.

O, dişlərini sıxaraq danışır. Onun üz əzələlərinin necə titrədiyini görürəm.

– Dəhşətli dərəcədə hirsləndim, mən yalnız istəyirdim ki, siz – sən və Meqan – mənim həyatımdan yox olasınız və bizi rahat buraxasınız. Mənim ailəm var. Mən öz həyatımdan məmnunam.

O, Annaya nəzər salır. Anna Evini hündür stulda yerləşdirir, onun üzündə heç bir emosiya əks olunmur.

– Mən öz həyatımı qura bildim və onu xoşbəxt edə bildim, sənə rəğmən, Meqana rəğmən, hər şeyə rəğmən.

Sonra Meqan peyda oldu. O Blenhaym-roudla gedirdi. Mən imkan verə bilməzdim, o bizim evə gəlsin. Mən imkan verə bilməzdim, o Anna ilə danışsın, elə deyil? Ona dedim ki, harasa gedib danışaq, bu isə düz hərəkət idi – mənim heç bir başqa fikrim yox idi. Ona görə də biz maşına oturduq və Korli Vuda getdik. Başqa yer tapmadıqda, bəzən oraya gedərdik. Biz o işi maşında görürdük.

Bu sözləri eşidəndə Annanın üz-gözünü necə turşutduğunu kreslodakı yerimdən görə bilirdim.

– Anna, sən mənə inanmalısan, mən qətiyyən belə bir şey planlaşdırmamışdım. – Tom ona baxır, sonra belini bükərək baxışlarını öz ovuclarına çevirir. – O, uşaq barədə danışmağa başladı, uşağın kimdən, məndən, yoxsa ondan olduğunu bilmirdi. O istəyirdi ki, hər şey üzə çıxsın və əgər uşaq məndən olardısa, mənim borcum... Ona cavab verdim ki, onun uşağının mənə heç bir dəxli yoxdur. – O, başını bulayaraq susur, sonra davam edir: – O hirsləndi, Meqan hirslənəndə isə... o Reyçel deyil. Bu göz yaşları və zingildəmək deyil. O mənim üstümə qışqırır, lənətlər yağdırır, hər cür cəfəngiyyat üyüdür, düz Annanın yanına gedəcəyi ilə hədələyir, deyirdi ki, ona addım atmağa izin verməz, onun uşağının maraqları təmin olunmalıdır... İlahi! O heç cür dayanmaq bilmirdi! Odur ki... Mən bilmirəm, sadəcə, istəyirdim ki, o sussun. Odur ki, yerdən bir daş götürdüm... – o baxışlarını sağ əlinə çevirir, sanki o daş hələ də onun əlindədir, – və mən sadəcə...

O, gözünü yumur və dərindən ah çəkir.

– Mən onu tək bircə dəfə vurdum, lakin o... – O, ovurdlarını şişirdir və yavaş-yavaş nəfəs verir. – Mən bunu istəmirdim. Sadəcə, istəyirdim ki, o sussun. Lakin o tamamilə qan içində idi, ağlayırdı və bərkdən qışqırırdı. Məndən sürünərək uzaqlaşmağa çalışırdı. Başqa seçimim qalmadı. Başladığımı bitirməli oldum.

Günəş batır və mətbəxdə qaranlıq olur. Yalnız Tomun xırıltılı və təmiz nəfəsi eşidilir. Küçədən heç bir səs eşidilmir. Ötüb-keçən qatarın səsini son dəfə nə zaman eşitdiyimi xatırlaya bilmirəm.

– Onu maşının yük yerinə qoydum, – o davam edir. – Yoldan xeyli kənarda yerləşən meşəyə sürdüm. Yaxınlıqda heç kəs yox idi. Məcbur olub, – onun tənəffüsü daha da tezləşdi, – çuxuru yalın əllərimlə qazdım. Dəhşət içindəydim.

O mənə baxır və mən onun bəbəklərinin necə böyüdüyünü görürəm.

– Qorxurdum ki, kimsə məni görər. Həm də yeri dırnaqlarımla qazmaq çox çətin idi. Bu çox vaxt apardı. Mən yalnız onun üçün dayandım ki, Annaya zəng edib, səni axtarmağa getdiyimi deyim. – O öskürür. – Torpaq yumşaq idi, amma yenə də lazımi dərinlikdə çuxur qaza bilmədim. Həm də qorxurdum ki, birdən yaxınlıqda kimsə peyda olar. Düşündüm ki, hər şey sakitləşdikdən sonra buraya yenə qayıdaram. Və cəsədi başqa... daha yaxşı bir yerə köçürərəm. Lakin sonra yağışlar başladığından buna imkan olmadı.

O qaşqabağını tökərək mənə baxır.

– Mən heç şübhə etmirdim ki, polis günahı Skottda görəcək. Meqan onun necə dəhşətli dərəcədə qısqanclıq keçirdiyindən danışırdı. O, qorxurmuş ki, Meqan kənarda başqa biri ilə sekslə məşğul olur, buna görə də Meqanın elektron poçtunu yoxlayırmış, onun harada olduğunu telefonla yoxlayıb öyənirmiş. Fikirləşdim... imkan olanda Meqanın telefonunu onun evinə atmaq istəyirdim. Bilmirəm. Məsələn, qonşu kimi onlara gedib pivə içə bilərdim, ya da başqa bir şey. Bilmirəm. Planım yox idi. Heç nəyi əvvəlcədən düşünmürdüm. Bu nəsə öncədən düşünülmüş bir şey deyildi, sadəcə, dəhşətli və bədbəxt bir hadisə idi.

Sonra o yenə dəyişir. Onun davranışı göydə üzən buludlara bənzəyir; gah qara, gah ağ. Qalxıb yavaş-yavaş mətbəxə gedir, orada Anna oturub Evini

yedizdirir. O Annanın başının ortasından öpür, sonra qızını stuldan götürür.

– Tom... – Anna etiraz etməyə başlayır.

– Hər şey qaydasındadır. – O, arvadına gülümsünür. – Mən, sadəcə, onu əlimdə tutmaq istəyirəm. Düzdümü, qızcığaz? – O əlində qızı tutaraq soyuducuya doğru gedir və pivə çıxarır. Sonra baxışlarını mənə çevirir:

– Yoldaşlıq edərsən?

Mən başımı bulayıram:

– Məncə, yox. – Ona qulaq asmıram. Mənim beynim başqa şeylə məşğuldur: o mənə çatmamış, giriş qapısına qədər qaça bilib-bilməyəcəyimi hesablayıram. Əgər qapı, sadəcə, siyirtmə ilə bağlıdırsa, şansım var. Əgər açarla bağlanmışsa, işlərim pisdir.

Mən irəli atılır və qaçıram. Dəhlizə çatıram və əlimi qapının dəstəyinə uzadıram, amma burada başıma şüşə dəyir, dünya gözümdə qaralır və ağrıdan dizi üstə düşürəm. O, saçlarımdan yapışaraq, məni qonaq otağına sürüyür və buraxır. Ayaqlarını aralı qoyub, düz başımın üzərində dayanır. Qızı hələ də onun qucağındadır, Anna isə onun yanında dayanıb qızı özünə tərəf çəkir.

– Onu mənə ver, Tom, lütfən. Sən onu incidirsən. Lütfən, ver.

O, hıqqıldayan Evini Annaya verir.

Tomun nəsə dediyini eşidirəm, lakin mənə elə gəlir ki, bu çox uzaqdadır, sanki mən suyun altındayam. Sözləri ayırd edirəm, amma nədənsə mənə elə gəlir ki, onların nə mənə, nə də mənimlə baş verənlərə dəxli var. Sanki mən baş verənləri kənardan izləyirəm.

– Sən yuxarı get, Anna, – o deyir. – Yataq otağına get və qapını kilidlə. Heç kəsə zəng etmə, aydındır? Mən zarafat etmirəm, Anna. Heç kəsə zəng etməyə cürət eləmə. Bizim körpəmiz var. Bizə hay-küy lazım deyil?!

Anna mənə baxmır. O uşağı bağrına basıb, mənim üstümdən addımlayaraq tələsik uzaqlaşır.

Tom əyilir, əlini cinsimin kəmərinin altına soxur və ondan dartaraq məni mətbəxə sürüyür. Mən çapalaya-çapalaya müqavimət göstərirəm və nədənsə

yapışmağa cəhd edirəm, lakin bütün səylərim boşa gedir. Demək olar ki, heç nə görmürəm – yaş gözlərimi örtür və hər şey dumanlanır. Məni sürüyərkən başım döşəməyə dəyir və hər bir zərbə güclü bir ağrıya səbəb olur, ürəyim bulanır. Sonra birdən kəskin bir ağrı gicgahımı dəlir və daha heç nə hiss etmirəm.

# Anna

---

Bazar, 18 avqust 2013-cü İl

Axşam

Reyçel mətbəxdə döşəmənin üstündə uzanıb qalıb. O, tamamilə qan içindədir, amma məncə, yarası ciddi deyil. Tom başladığını bitirməyib. Bilmirəm, o nəyi gözləyir. Yəqin onun üçün bu hərəkəti etmək asan deyil, axı Reyçeli nə vaxtsa sevirmiş.

Mən yuxarıda idim, Evini yatmağa hazırlayır və fikirləşirdim ki, bəs mənim istədiyim də elə bu deyildimi? Reyçelin biryolluq yox olmasını və bir də heç zaman bizim həyatımızda görünməməsini istəmirdim? Bunu çox arzulayırdım. Aydındır ki, mən indi baş verənlər haqqında düşünmürdüm, lakin istəyirdim ki, o daha olmasın. Mən Reyçelsiz bir həyat arzu edirdim. İndi bu arzum həyata keçə bilərdi. Onda biz üçümüz qalardıq – mən, Tom və Evi – bu belə də olmalıdır.

Bir anlığa özümə bu fantaziyadan həzz almağa imkan verirəm, lakin sonra gözümü yatan qızıma çevirir və anlayıram ki, bu, sadəcə, bir fantaziyadır. Vəssalam. Mən barmağımı öpürəm, onu qızımın dodaqlarına qoyuram və bilirəm ki, biz heç zaman təhlükəsizlikdə olmayacağıq. Mən heç zaman təhlükəsizlikdə olmayacağam, çünki onun heç vaxt mənə güvənməyəcəyini bilirəm. Kim dedi ki, başqa bir Meqan peyda ola bilməz? Ya da – daha pisi – başqa bir Anna, başqa bir mən?

Mən aşağıya qayıtdım. Tom mətbəx masasının arxasında oturub pivə içirdi. Əvvəlcə Reyçeli görmədim, lakin sonra onun ayağını gördüm və hər şeyin bitdiyini düşündüm, lakin Tom dedi ki, o sağdır.

– Sadəcə, onu yüngülcə vurmuşam, – o izah etdi.

Bu dəfə o, hər şey təsadüfən oldu, deyə bilməyəcək.

Biz oturub gözləyirdik. Mən də özümə pivə çıxardım və biz birlikdə içdik. O, Meqanla sevişdiyinə görə, doğrudan da, çox təəssüf etdiyini dedi. Sonra məni öpdü, günahını yuyacağına söz verdi, hər şeyin yaxşı olacağını dedi.

– Sənin həmişə istədiyin kimi, biz buradan gedəcəyik. Hara desən oraya gedəcəyik. Hara desən. – O soruşdu ki, mən onu bağışlaya bilərəmmi? Mən də bir müddətdən sonra bəlkə də bağışlaya biləcəyimi dedim və o mənə inandı. Mənə elə gəlir ki, inandı.

Söz verdikləri kimi ildırım çaxmağa başladı. İldırım şaqqıltısından Reyçel özünə gəldi. Onun döşəmədə necə qıvrılıb açıldığı eşidilirdi.

– Sən getsən yaxşı olar, – o mənə deyir. – Yuxarı get.

Onun dodaqlarından öpüb gedirəm, lakin dərhal yuxarıya qalxmıram. Dəhlizdə telefonu götürürəm, aşağı pillədə əlimdə telefon oturur və fürsət gözləyirəm.

Onun Reyçellə necə alçaqdan və mülayim danışdığını eşidirəm. Sonra Reyçelin səsini eşidirəm. Mənə elə gəlir ki, o ağlayır.

# Reyçel

---

Bazar, 18 avqust 2013-cü İl

Axşam

Mən xışıltılı bir səs eşidirəm. Sonra şimşək çaxır və mən anlayıram ki, yağış yağır. Küçədə qaranlıqdır və ildırım çaxır. Qaranlığın nə vaxt düşdüyünü xatırlamıram. Başımdakı ağrı məni reallığa qaytarır və ürəyim ağzıma gəlir. Mən döşəmədə uzanmışam. Mətbəxdə. Mən çox çətinliklə başımı qaldırmağa müvəffəq oluram və dirsəklərimin üstündə dikəlirəm. O, mətbəx masasının arxasında əlində pivə şüşəsi oturub pəncərəyə baxır. Çöldə

tufandır.

– Mən səninlə nə edim, Reyç? – o, başımı qaldırdığımı görüb soruşur. – Artıq yarım saatdır ki, burada oturub özümə bu sualı verirəm. Mən səninlə nə edim? Bu işdən necə çıxmaq olar?

O iri bir udum alır və düşüncəli nəzərlərlə məni gözdən keçirir. Mən çətinliklə oturur və kürəyimi mətbəx şkafına söykəyirəm. Başımda hər şey üzür, ağzım tüpürcəklə doludur. Ürəyim bulanır, elə bu saat qusacağam. Dodaqlarımı gəmirir və dırnaqlarımı ovcuma batırıram. Özümü stupordan[9] çıxarmalıyam, mən özümə zəif olmağa imkan verə bilmərəm. Ümid etməyə heç kəs yoxdur. Bunu bilirəm. Anna polisə zəng etməyi düşünmür. O öz qızını mənə görə riskə ata bilməz.

– Sən boynuna almalısan ki, – Tom deyir, – hər şeydə özün günahkarsan. Fikirləş, əgər bizi rahat buraxsaydın, heç vaxt belə bir vəziyyətə düşməzdin. Mən də belə vəziyyətə düşməzdim. Heç birimiz. Əgər həmin axşam sən burada peyda olmasaydın və Anna səni görüb evə qaçmasaydı, mən yəqin ki, Meqanla məsələni həll edə bilərdim. Özümdən o dərəcədə... çıxmazdım. Təmkinimi itirməzdim. Ona da pis bir şey etməzdim. Onda heç nə baş verməzdi.

Mən boğazımın necə tıxandığını və indicə hönkürüb ağlayacağımı hiss edrəm, amma hönkürməyimi saxlaya bilirəm. O öz işindədir, hər şeyi mənim günahım kimi göstərməyin və məni özümü günahkar, yaramaz hiss etməyə məcbur etməyin ustasıdır.

Tom pivəni içib qurtarır və boş şüşəni masanın üstü ilə diyirlədir. Sonra başını məyus-məyus yelləyir, qalxıb mənə yaxınlaşır və əlini uzadır.

– Getdik, – o deyir. – Əlimdən yapış! Getdik, Reyç, qalx.

Məni döşəmədən qaldırmasına imkan verirəm və arxamı şkafa söykəyərək dururam. O mənim qarşımda dayanır və budları ilə mənə sıxılır. Sonra əlini üzümə tərəf qaldırır və böyük barmağı ilə yanaqlarımdan yaşı silir.

– Yaxşı, mən səninlə nə edim, Reyç? Səncə, mən necə hərəkət etməliyəm?

– Sənə heç nə etmək lazım deyil, – cavab verirəm və gülümsəməyə çalışıram. – Səni sevdiyimi bilirsən. Hələ də sevirəm. Bilirsən ki, heç kəsə deməyərəm. Mən səninlə bu cür rəftar edə bilmərəm...

O gülümsəyir, onun üzündə geniş və açıq bir təbəssüm var, bunu görəndə mən həmişə əriyərdim. Amma indi ağlamağa başlayıram. İnana bilmirəm ki, baş verənlər həqiqətdir və mənim həyatımda olan ən böyük xoşbəxtlik – onunla birgə həyatım – bir illüziya imiş.

O mənim ağlamağıma imkan verir, lakin bu onun tezliklə zəhləsini tökür və açıq təbəssümün yerini rişxənd ifadəsi tutur.

– Yaxşı, Reyç, yetər! – o deyir. – Bəsdir, gözünün qorasını tökdün!

O masaya doğru çəkilir, yeşikdən kağız salfet dəsti çıxarır və bir neçəsini mənə uzadır.

– Burnunu sil! – o deyir və mən tabe oluram.

O, nifrətlə mənim üzümü baxır.

– Biz gölə getdiyimiz gün, – o deyir, – düşündün ki, sənin şansın var, elədir? – O gülməyə başlayır. – Axı sən elə düşündün, məgər yox? Mənə elə sədaqətlə və elə yalvarışla baxırdın ki... Mən orada heç bir problemsiz sənin işini görə bilərdim, elə deyil? Sən elə bəsit adamsan ki, hər şeyini asanlıqla bilmək olar.

Mən dodaqlarımı gəmirirəm. O mənə yaxın gəlir.

– Sən lazımsız, bütün həyatı boyu təpiklənən küçük kimisən. Onu hey vururlar, vururlar, o yenə də sürünərək, yaltaqlıqla quyruğunu bulayaraq yaxın gəlir. Yaltaqlanır. Ümid edir ki, bu dəfə başqa cür olacaq, bu dəfə o nəyisə düzgün edəcək və onu sevəcəklər. Axı sən də eləsən, Reyç? Sən – tulasan!

O mənim belimdən qucaqlayır. Onun dilini ağzıma buraxıram və onun budlarına sıxılıram. Onun necə ehtirasa gəldiyini hiss edirəm.

Anna buraya köçdükdən sonra əşyaların öz köhnə yerlərində qalıb-qalmadığını bilmirəm. Bilmirəm, Anna şkafların yerini dəyişibmi? Spaqettini

başqa bankada saxlayırmı? Tərəzinin yerini dəyişibmi? Bilmirəm. Mən, sadəcə, əşyaların öz yerlərində olduğuna ümid edirəm və gizlicə əlimi arxamdakı yeşiyə salıram.

– Bilirsən, sən yəqin ki, haqlısan, – o kənara çəkiləndə deyirəm. Başımı qaldırıb ona baxıram. – Əgər həmin axşam mən Blenhaym-roudda olmasaydım, Meqan sağ olardı.

O, başı ilə təsdiqləyir və mən əlimlə tanış əşyaya toxunuram. Gülümsəyirəm və ona daha yaxın əyilirəm, sol əlimlə onun belini qucaqlayır və qulağına pıçıldayıram:

– Doğrudanmı, sən ciddi olaraq hesab edirsən ki, onun başını yardığına görə mən günahkaram?

O, tez məndən aralanır. Onun üstünə atılaraq var gücümlə itələyirəm. O, müvazinətini itirir və kürəyi ilə mətbəx masasının üstünə dəyir. Mən ayağımı qaldırıb dabanımla onun ayağının üstünə vururam. Ağrıdan o irəli əyilir, mən onun saçlarından yapışıb dizimlə üzünə möhkəm bir zərbə vururam. Qığırdağın necə xırçıldadığını və onun qışqırığını eşidirəm. Onu özümdən itələyərək açarları qapıram və o diz üstünə qalxıncaya qədər mən aralı qapıdan bağa çıxıram.

Hasara doğru qaçıram, lakin palçıqda sürüşərək yıxılıram və qalxmağa macal tapmıram – o üstümə cumur, saçlarımdan yapışır və mənim üzümü cırmaqlayaq, qan və lənətlər tüpürə-tüpürə məni geriyə, evə sürüyür:

– Ay səni, qanmaz qancıq! Sən niyə bizə yapışmısan?! Niyə bizi sakit buraxmadın?!

Mən yenə onun əlindən çıxmağı bacarıram, lakin qaçmağa yer yoxdur. Evdən keçib gedə bilmərəm, hasardan da aşa bilmərəm. Qışqırıram, lakin yağışdan, ildırımın səsindən və yaxınlaşan qatarın gurultusundan heç kəs məni eşitməyəcək. Bağın arxa hissəsinə qaçıram, dəmir yoluna doğru. Bura dalandır. Mən bir il bundan əvvəl onun uşağı ilə durduğum yerdə dayanmışam. Arxası hasara doğru çevrilirəm və onun necə yaxınlaşdığına baxıram. O, əli ilə ağzını silir və qan tüpürür. Ayağımın altında yerin necə titrədiyini hiss edirəm – qatar lap yanımızdadır və onun hərəkət səsi qışqırığa bənzəyir. Tomun dodaqları qımıldanır, o nəsə deyir, lakin onu eşitmirəm.

Mən yerimdən tərpənmirəm və onun necə yaxınlaşdığına baxıram, o lap yaxına gələndə tıxacaçan burğunu qüvvətlə onun yanağına saplayıram.

Onun gözləri böyüyür və heç bir səs çıxarmadan yıxılır. Əlini boynuna gətirir və düz mənim gözümə baxır. Mənə elə gəlir ki, o ağlayır. Onun baxışlarına gücüm çatdığı qədər dözürəm, sonra arxamı ona çevirirəm. Qatar yanımızdan keçir və mən parlaq işıq düşən pəncərələrdə sərnişinləri görürəm. Onların başları kitablar və telefonların üzərinə əyilib: onlar istidə və təhlükəsizlikdə evə qayıdırlar.

Çərşənbə axşamı, 10 sentyabr 2013-cü İl

Səhər

Qatar semaforun qırmızı işığında dayanarkən, vaqonda atmosfer dəyişir – bu öz-özünə hiss olunur, lap elektrikin uğultusu kimi. İndi pəncərəyə baxan tək mən deyiləm. Yəqin əvvəllər başqaları da yanından keçdiyimiz evlərə baxırdılar, lakin müxtəlif şəkildə. Əvvəllər elə idi. Lakin indi hamı eyni şeyi görür. Bəzən bunu hətta eşitmək olar.

– Bax, o ev. Yox-yox, solda olan ev – bax, orada. Hasarın yanında qızılgül olan. Bax, orada baş vermişdi.

On beş və iyrimi üç nömrəli evlər indi boşdur. Onlar tərk edilmiş kimi görünmürlər – jalüzlər qaldırılmış, qapılar açıqdır, lakin bilirəm: bu ona görədir ki, onları potensial alıcılara göstərirlər. Hər iki ev satışa çıxarılıb, amma yəqin ki, onları alacaq müştərilərin tapılması xeyli vaxt aparacaq. Düşünürəm ki, indi əmlak maklerləri əsasən tamaşaya meyilli, hadisə yerinə mütləq özü baxmaq istəyən avaraları bu otaqlarda gəzdirməli olurlar.

Onların bir vaxtlar ümid içində yaşadığım evimdə gəzdiklərini düşünmək mənim üçün çox ağırdır. Mən bu evdə sonra nə baş verdiyini düşünməməyə çalışıram. Çalışıram, lakin yenə düşünürəm.

Anna ilə mən, hər ikimiz onun qanına bulaşmış divanda yanaşı oturmuşduq. Arvadları “təcili yardımın” gəlməsini gözləyərkən. Anna onlara zəng etdi. Polisə zəng etdi – o, hər şeyi etdi. Hamını çağırdı. Həkimlər gəldilər, amma çox gec idi, onların ardınca – polislər – Qaskill və Rayli də gəldi. Bizi bir yerdə gördükdə, hər ikisinin az qala nitqi tutuldu. Sonra suallar

verməyə başladılar, lakin onların nə dediklərini mən anlamırdım. Anna cavab verirdi. Təmkinlə və inamla.

– Bu özünümüdafiə idi, – o dedi. – Mən hamısını gördüm. Pəncərədən. O Reyçelin arxasınca atıldı, əlində tıxacaçan vardı. O, Reyçeli dəqiq örldürəcəkdi. Reyçelin çıxış yolu yox idi. Mən çalışdım... – o duruxdu, bu tək bir dəfə oldu. – Mən qanaxmanı dayandırmağa çalışdım, lakin bacarmadım.

Uniformalı polislərdən biri bütün bu hadisə zamanı möcüzəli şəkildə yatmış Evini gətirdi. Və bizi polis şöbəsinə apardılar. Anna ilə məni müxtəlif otaqlara saldılar və çox sayda müxtəlif suallar verdilər. Lakin nə suallar verdiklərini indi xatırlamıram. Cavab verməkdə çətinlik çəkirdim, heç cür fikrimi cəmləyə bilmirdim. Deyəcəyim hər sözü xatırlamağa məcbur idim. Mənə hücum etdiyini, şüşə ilə vurduğunu dedim. Sonra tıxacaçanla hücum etdi. Dedim ki, mən imkan tapıb onun əlindən tıxacaçanı aldım və özümümüdafiə üçün istifadə etdim. Məni müayinə etdilər – başımda, əlimdə, ayağımda yaralar vardı.

– Hücum üçün zədə o qədər də çox deyil, – Rayli şübhə ilə dedi.

Onlar getdilər və məni uniformalı polisin – keçmiş günlərdə Eşberidə Ketinin evinə gəlmiş o sızanaqlı oğlanın nəzarətində qoydular. O, qapıda durub mənim baxışlarımdan qaçırdı. Sonra Rayli qayıtdı.

– Missis Uotson sizin hekayənizi təsdiqləyir, Reyçel, – o xəbər verdi. – Siz gedə bilərsiniz. – O da gözlərini qaçırırdı.

Polis məni xəstəxanaya apardı, orada başımdakı yaralara tikiş qoydular.

Qəzetlərdə Tom haqqında çox materiallar çıxdı. Öyrəndim ki, o, heç zaman orduda qulluq etməyib. İki dəfə cəhd etmiş və hər ikisində müvəffəqiyyətsiz olmuşdu. Onun atası ilə münasibəti haqqında dedikləri də yalan imiş – həqiqətdə hər şey əksinə olmuşdu. O, valideynlərinin bütün yığdıqlarını qumara qoyub və hamısını da uduzub. Valideynləri onu bağışlayıblar, lakin o onlarla əlaqəni kəsib, çünki atası evi ikinci dəfə girov qoymaqdan imtina etmişdi. O, həmişə hamıya yalan söyləyib. Hətta yalana heç bir ehtiyac olmadıqda belə yalan danışıb.

Yaxşı yadımdadır, Skott deyirdi ki, o, əslində Meqan haqqında heç nə

bilmir. Və başa düşürəm ki, eyni şeyi mən də özümlə Tom haqqında deyə bilərəm. Tomun bütün həyatı yalan – aldatmalar, yarı doğrular üstündə qurulmuşdu – həqiqətdə olduğundan daha yaxşı, güclü və maraqlı görünmək üçün. Mən bütün bunlara aldandım və onu sevdim. Anna da həmçinin. Biz onu sevirdik. Bilmirəm, o belə ideal olmasaydı, biz onu sevərdikmi? Mənə elə gəlir ki, mən sevərdim. Mən onun səhvlərini və uğursuzluqlarını bağışlayardım. Mən özüm də az səhv buraxmamışam.

Axşam

Mən Norfolk sahillərində kiçik bir qəsəbənin hotelində yerləşdim. Sabah daha şimala doğru yola düşəcəyəm. Bəlkə Edinburqa, bəlkə də daha uzağa. Hələ qərar verməmişəm. Keçmişin uzaqlarda qaldığını hiss etmək istəyirəm. Az-çox pulum da var. Anam mənim başıma nələr gəldiyini biləndə əliaçıqlıq etdi, odur ki, bu barədə narahat olmaya bilərəm. Ən azından, hələlik.

Mən kirayəyə maşın götürdüm və yeməkdən sonra Holkhemə getdim. Meqan və Libbinin dəfn olunduğu kəndin yanında kilsə var. Bu barədə qəzetlərdən oxumuşdum. Onun dəfni barədə mübahisələr yaranmışdı, çünki Meqan uşağın ölümündə günahkar hesab olunurdu. Lakin axırda onları yanaşı dəfn etmək barədə icazə alınmışdı və məncə, bu düzgün idi. Onun günahı nə olsa da, bunun cəzasını çox ağır çəkmişdi.

Mən oraya çatana qədər yağış başladı və ətrafda kimsə yox idi, lakin mən maşını park etdim və bütün qəbiristanlığı dolaşdım. Onun qəbrini tapdım, şam ağaclarının kölgəsində, ən uzaq küncdə idi. Əgər harada axtarmağı bilməsən, onu tapmaq mümkün deyil. Başdaşında yalnız onun adı və həyat tarixləri qeyd olunmuşdu – nə “sevimli arvad”, nə “qız”, nə “ana”. Uşağının başdaşında yalnız “Libbi” yazılmışdı. Ən azından indi uşağın normal qəbri var, o dəmir yolunun yanında təkcə yatmır.

Yağış gücləndi və mən kilsə həyətindən keçərkən qapıda bir kişi gördüm – bir anlığa mənə elə gəldi ki, bu Skottdur. Ürəyim titrədi, gözümü yağış damlalarından sildim və gördüm ki, bu, sadəcə, keşiş imiş. Məni görüb əlini qaldıraraq salam verdi.

Maşına qədər qaçaraq getdim, baxmayaraq ki, qorxmalı bir şey olmadığını anlayırdım. Lakin Skottla son görüşü və onun necə qeyri-adekvat

hərəkət etdiyini, dəlilik dərəcəsinə gəldiyini unuda bilmirdim. İndi o, heç vaxt mənəvi sakitliyə qovuşmayacaq. Axı ona necə qovuşmaq olar? Mən bu barədə və onun əvvəl necə olduğu, ya da mənə onlar necə göründükləri barədə düşündükdə – qəmginlik hiss edirəm. Həm də bir itirmə ağrısı.

Skottun elektron poçtuna məktub yazdım, orada öz yalanım üçün üzr istədim. Tomun kim olması barədə də üzr istəməyi düşündüm, çünki mən onu hamıdan öncə ifşa etməli idim. Əgər son illərdə içməsəydim, bunu edə bilərdimmi? İstisna deyil ki, mən də ruhi sakitliyə qovuşa bilməyəcəyəm.

Mənim məktubuma o cavab vermədi. Əslində mən cavab gözləmirdim də.

Maşını qaytarıram, hotelə gəlib nömrə alıram və düşünürəm ki, onların barında, yarıqaranlıqda dəri kresloda əldə bir bakal şərabla əyləşmək əla olardı, lakin bunun əvəzinə sahilə yönəlirəm.

Mən təsəvvür edirəm, birinci bakal mənə necə ləzzət verərdi. Bu şeytan vəsvəsəsinə qalib gəlmək üçün neçə gündür, dilimə bir damcı da spirtli içki vurmadığımı hesablayıram. İyrimi! Bu günü də saysaq – iyrimi bir. Düz üç həftə. Uzun illər ərzində bu mənim ən uzun içkisizlik dövrüm idi.

Qəribə olsa da, son stəkanı Ketinin əlindən qəbul etmişəm. Polis məni – ölümcül ağarmış və qana bulaşmış şəkildə evə gətirib nə baş verdiyini danışanda, Keti öz otağından viski şüşəsi gətirdi və hər ikimizə yaxşı bir doza süzdü. O, göz yaşlarını saxlaya bilmirdi və hey təkrar edirdi: çox təəssüf edir. Sanki baş verənlərdə onun da günahı vardı. Mən viskini içdim və oradaca xalının üstünə qusdum – o vaxtdan spirtli heç nəyə əl vurmamışam. Lakin onun cazibəsi mənim üçün hələ qalır.

Limana çatanda sola dönüb sahil boyu gedirəm – istəsən, bu şəkildə Holkhemə qədər gedib çıxmaq olar. Artıq qaranlıq çöküb və sahildə soyuqdur, lakin mən addımlamağa davam edirəm. Mən yoruluncaya, lap gücdən düşüncəyə qədər gedəcəyəm və bəlkə onda yata biləcəyəm.

Sahildə heç kəs yoxdur və mən elə donmuşam ki, çənəm şaqqıldamasın deyə dişlərimi bir-birinə bərk sıxmalı oluram. Mən gündüz çox cazibədar görünən, indi isə qorxulu və gizli sığınacağa oxşayan çimərlik daxmalarının yanından daşların üstü ilə sürətlə addımlayıram. Küləyin həmlələrində onlar

canlanırlar, taxta lövhələr cırıldayır və dənizin küyü arasından hansısa hərəkət səsləri eşidilir, kimsə və ya nəsə elə hey yaxınlaşır. Mən çevrilirəm və bütün gücümlə geri qaçmağa başlayıram.

Bilirəm ki, orada heç nə yoxdur, qorxulu bir şey yoxdur, lakin bu məni haradasa qarnımdan qalxan və başıma qədər örtən qorxu dalğasından xilas etmir. Bütün gücümlə qaçıram. Və yalnız limanda küçə fənərlərinin parlaq işığında dayanıram.

Öz nömrəmə çatdıqda çarpayının üstündə otururam, əllərimi altıma qoyuram və onların titrəməsinin dayanmasını gözləyirəm. Sonra minibarı açıram və oradan bir şüşə su və qoz ləpələri çıxarıram. Oradakı şərab və balaca cin şüşələrinə dəymirəm, baxmayaraq ki, onlar mənə isinməkdə və yatmaqda yardım edə bilərdi. Onun can verərkən mənə necə baxışlarla baxdığını unutmağa heç olmasa qısa müddət kömək edərdi.

Qatar keçəndən sonra arxamda səs eşitdim və çevriləndə gördüm ki, Anna evdən çıxır. O, sürətlə bizə yaxınlaşdı, onun yanında dizi üstə çökdü və əlini onun boynuna qoydu.

Onun sifəti şokdan və ağrıdan dəyişdi. Annaya demək istədim ki, bunun xeyri yoxdur, ona kömək etmək mümkün deyil, lakin sonra anladım ki, o heç də qanaxmanı dayandırmaq istəmir. Burğunu fırlayıb onun yarasını daha da pisləşdirir və nəsə pıçıldayırdı. Sözləri ayırd edə bilmirdim.

Son dəfə mən Annanı polis şöbəsində gördüm, ifadə verərkən. Bizi müxtəlif otaqlara apardılar, lakin ayrılmadan öncə o mənim əlimə toxunaraq dedi:

– Özünü qoru, Reyçel.

O bunu elə söylədi ki, elə bil xəbərdarlıq edirdi. Biz polisə verdiyimiz ifadə ilə indi onunla ömürlük bağlı idik: onu əlimdəki alətlə vurmaqdan başqa mənim çıxış yolum yox idi, Anna isə bütün gücü ilə qanaxmanı dayandırmağa çalışmışdı.

Çarpayıya uzanır və işığı söndürürəm. Bilirəm ki, yuxuya gedə bilməyəcəyəm, amma çalışacağam. Ümid edirəm ki, bu kabuslar nə vaxtsa mənə daha əzab verməyəcək, lakin bu gün əminəm ki, irəlidə məni uzun bir

gecə gözləyir. Səhərsə qatara çatmaq üçün erkən qalxmalıyam.

Təşəkkürlər

Bu kitabın yazılmasında mənə çox insanlar yardımçı olublar, lakin ən çox zıhmət çəkən mənim agentim – əla və müdrik Lizzi Kremer olub. Harriet Mur, Ellis Hou, Emma Ceymisona, Kyare Nataluççi və "Deyvid Hayem" – dən hər kəsə, həmçinin Tina Nilsen və Stella Qiatraka böyük təşəkkürlər.

Mən Atlantikanın hər iki tərəfindəki əla redaktorlarım: Sara Adamsa, Sara Makqrat və Nita Pronovosta minnətdaram. Mən Elison Barrou, Keti Loftus, Bill Skott-Kerri, Helen Edvards, Keyt Samano və Transvorld və Riverhead fantastik kollektivinə – hamısını yazmaq, sadəcə, mümkün deyil – səmimi minnətdaram.

Keyt Nil, Ceymi Uayldinq – sizə, həmçinin atama və anama ayrıca dəstək və köməklərinə görə ayrıca təşəkkür edirəm.

Nəhayət, sayəsində bu mütəvazi ilham qığılcımının yarandığı London qatarlarının bütün sərnişinlərinə təşəkkürümü bildirirəm.

9 Stupor – bəzi ruhi xəstəliklər zamanı xəstənin hərəkət və danışıq qabiliyyətini tamamilə itirdiyi hal